AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN MÜƏLLİMLƏR İNSTİTUTU

Məmmədəli Hənnan oğlu Ağayev

# Pedaqoji fikir tarixində tərbiyə və təhsil

**(Dərs vəsaiti)**

B A K I - 2011

**Məmmədəli Hənnan oğlu Ağayev**

# Pedaqoji fikir tarixində tərbiyə və təhsil

## (Dərs vəsaiti)

Dərs vəsaiti Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuşdur (Azərbaycan Respublikası Təhsil Nazirliyinin 07.12.2010-cu il tarixli, 1594№-li əmri)

**B A K I - 2011**

Övladlarım – Şövqi, Ülvi və Zülfünün şərəfinə

Elmi redaktor: Rüfət Lətif oğlu Hüseynzadə, pedaqoji elmlər doktoru, professor, əməkdar müəllim

Rəyçilər: Akif Nurağa oğlu Abasov, pedaqoji elmlər doktoru, professor
Ağahüseyn Məmmədhüseyn oğlu Həsənov, pedaqoji elmlər doktoru, professor
Əsmər Sadıq qızı Bədəlova, pedaqoji elmlər namizədi, dosent
Səidə Ataş qızı Abdullayeva, pedaqoji elmlər namizədi, baş müəllim

Kitab hazırda ölkəmizdə həyata keçirilən Təhsil İslahatına dair direktiv sənədlərin tələblərinə müvafiq olaraq məktəbəqədər və kiçik yaşlı uşaqların pedaqoji fikir tarixində inkişafı, tərbiyəsi və təhsili probleminə həsr edilmişdir.

Burada məktəbəqədər və kiçik yaşlı uşaqların inkişafı, tərbiyəsi və təhsilinin mahiyyəti, məqsədi, məzmunu, eyni zamanda uşaqların inkişafı, tərbiyəsi və təhsili ilə bağlı dünya mütəfəkkirlərinin nəzəriyyələri, müddəaları tarixi baxımdan sərf-nəzər edilmişdir.

Vəsait əsasən ali pedaqoji məktəblərin magistr pilləsində təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur.

Həmin vəsaitdən tərbiyəçilər, valideynlər, müəllimlər, aspirantlar və hər bir kəs faydalana bilər.

# M Ü N D Ə R İ C A T

Səh.

Giriş……………………………………………………...…......5-6

**I fəsil. Məktəbəqədər yaşlı uşaqların inkişafı, tərbiyəsi, təhsilinin elmi-nəzəri və pedaqoji əsasları**

1.1. Məktəbəqədər yaşlı uşaqların inkişafı, tərbiyəsi, təhsilinin mahiyyəti, məqsədi və məzmunu................................................7-13

1.2. Məktəbəqədər yaşlı uşaqların inkişafı və tərbiyəsinə müsbət müsbət əxlaqi keyfiyyətlərin təsiri.............................................13-18

**II fəsil. Uşaqların inkişafı, tərbiyəsi və təhsili probleminə tarixi bir nəzər**

2.1. Tərbiyənin meydana gəlməsi, qədim dövr Azərbaycan və Şərq dastanlarında tərbiyə və təhsil problemləri..................................19-49

2.2. Klassik Şərq mütəfəkkirləri uşaqların inkişafı, tərbiyəsi və təhsili haqqında.......................................................................49-95

2.3. Azərbaycanda məktəbəqədər tərbiyə, təhsil və müəssisələrin inkişafı tarixindən...................................................................95-137

2.4. Avropa pedaqoji fikir tarixində uşaqların inkişafı, tərbiyəsi və təhsili haqqında nəzəriyyələr..................................................137-173

Nəticə.........................................................................................174

İstifadə olunmuş və tövsiyə edilən ədəbiyyat.................................175-178

# G İ R İ Ş

XX əsrdə Azərbaycanın ikinci dəfə dövlət müstəqilliyi əldə etməsi, onun qorunması və çiçəklənməsi, inkişaf etdirilməsi üçün bütün xalqın əzmlə mübarizə aparmasını tələb edir. Müstəqil dövləti qurmaq, yaratmaq və inkişaf etdirmək üçün yetişməkdə olan nəslin üzərinə mühüm vəzifələr düşür.

Müstəqil respublikamız çətinlikləri arxada qoyaraq addım-addım irəli gedir. Hər işdə bir yenilik duyulur. Məktəbəqədər təlim-tərbiyə işində, təhsilimizdə, iqtisadiyyatımızda köklü dəyişikliklər var, müstəqil siyasət yürüdürük. İdarəçilik metodları da dəyişilir.

Əldə etdiyimiz tarixi uğurlarımızı bir daha inkişaf etdirmək üçün bu gün erməni cəlladları ilə üzbəüz mübarizə şəraitində olduğumuzu hər an unutmamalıyıq. Belə ki, məktəbəqədər yaşlı uşaqların və bütün gəncliyin mənəvi-estetik, əmək, vətənpərvərlik, əxlaq, fiziki, yoldaşlıq, dostluq, qayğıkeşlik, insanpərvərlik, ekoloji, dünyagörüşü və s. tərbiyəsi işi gündəmdə mötəbər yer tutmalı və günbəgün canlandırılmalıdır.

Bu gün tarixçilər, pedaqoqlar, bütövlükdə maarif işçiləri qarşısında mühüm bir vəzifə qoyulmuşdur: Azərbaycanı sevərək, onun keşiyində duraraq, ona xidmət edərək, intellektual mənəviyyatlı vətəndaş tərbiyə etmək. Buna görə ilk növbədə uzun illər səylə milli zəmindən uzaqlaşdırılmış, xalq pedaqogikasının məzmunundan ayrı salınmış tərbiyə sistemimizi formalaşdırıb, meydana çıxarmaq lazımdır. Həm də bu zaman tərbiyənin kökünü vahid Azərbaycan xalq tərbiyəsinin məzmununda, bu günədək bizə məlum olan şifahi xalq ədəbiyyatı nümunələrində, Qurani-Kərimin səhifələrində, zəngin və dünya şöhrətli klassik irsimizdə, Azərbaycan xalqı üçün yaxın və məqsədyönlü olan Şərq ənənələrində və həm də ümumbəşəri dəyərlərdə axtarmalıyıq.

Gənc nəslin, o cümlədən məktəbəqədər yaşlı uşaqların tərbiyəsinin qarşısında duran başlıca məqsədlərə və hərtərəfli biliyə, mütərəqqi dünyagörüşə, milli və ümumbəşəri əxlaqa, mənəviyyata və mədəni dəyərlərə yiyələnən şəxsiyyət formaalaşdırmaq və cəmiyyətimiz üçün layiqli vətəndaşlar yetişdirmək olduğundan hazırda məktəbəqədər müəssisələrdə uşaqların tərbiyəsini müasir tələblər səviyyəsinə qaldırmaq vacibdir.

Bağça yaşlı uşaqlarda tərbiyə-təlimin formalaşdırılması bu gün xüsusi aktuallıq kəsb edən vəzifələrdən biridir.

Bu mənada məktəbəqədər dövr gələcək şəxsiyyətə bir çox qiymətli keyfiyyətlərin aşılanmasından ötrü zəruri və çox mühüm mərhələyə çevrilir. Ona görə də məktəbəqədər müəssisələr ilk növbədə həmin mərhələnin imkanlarından səmərəli istifadə etmək qayğısına qalmalıdırlar.

Bağçada tərbiyə-təlim işi müxtəlif vasitələrlə, rəngarəng və maraqlı tədbirlərin köməyi ilə həyata keçirilir. Bu sahədə Azərbaycan musiqisi, təsviri sənəti, bədii ədəbiyyat, rəsm əsərləri, xalq yaradıcılığı, təbiətə ekskursiyalar və s. xüsusi əhəmiyyətə malikdir. Bu mənada, istər xalq yaradıcılığının bəhrəsi olan musiqi, istər bəstəkarlar tərəfindən yaradılmış musiqi əsərləri, rəssamlarımızın bədii təsvirlərə həsr edilmiş qiymətli yaradıcılıq nümunələri Azərbaycan xalqının mənəvi sərvətinin təkrarolunmaz, vacib tərkib hissəsidir.

Uşaqların inkişafı və tərbiyəsi-təlimi baxımından Azərbaycanın təbiəti, bədii incəsənət əsərləri, milli, bəstəkar musiqisi öz milli zəmini üzərində yüksəlmiş, qabaqcıl dünya mədəniyyətinin ən gözəl ənənələrindən bu və ya digər dərəcədə bəhrələnmiş, daha da inkişaf edərək müasir şəklini almışdır.

Kiçik yaşlı uşaqlar gerçəkliyin bu və ya digər dərəcədə hadisələrin bədii sənət və musiqi əsərlərində necə əks olunduğunu gördükdə onların gözəllik haqqında təsəvvürləri təkmilləşir, onlarda bədii, estetik zövq formalaşır. Bütün bunlar gənc nəsildə əxlaqi keyfiyyətlərin təşəkkül tapmasına və daha da təkmilləşməsinə nə üçün belə əhəmiyyət verdiyimizin səbəbini aydın göstərir.

Çiçəklənməkdə olan vətənimizin hazırki durumu, dünyaya yeni göz açan fidanlarımızın tərbiyəsi və təlimi, milli özünüdərk, özünə qayıdış, islam əxlaqının, türk dünyasının mənəvi dəyərlərindən bugünkü tərbiyə prosesində istifadənin zəruriliyi uşaqların mənəvi tərbiyəsini yeni, müasir tələblər əsasında tədqiqini və bu prosesin daha optimal üsul və vasitələrlə aparılmasını tələb edir.

O cümlədən hesab edirik ki, kiçik yaşlı uşaqların inkişafı, tərbiyəsi və təhsili haqqında dünya mütəfəkkirlərinin nəzəriyyələrini öyrənmək, tədqiq etmək, eyni zamanda müasir iş prosesində bundan istifadə etmək faydalı olar.

# I fəsil

# Məktəbəqədər yaşlı uşaqların inkişafı, tərbiyəsi, təhsilinin elmi-nəzəri və pedaqoji əsasları

## *1.1. Məktəbəqədər yaşlı uşaqların inkişafı, tərbiyəsi və təhsilinin mahiyyəti, məqsədi və məzmunu*

Plan:

1. Məktəbəqədər yaşlı uşaqların inkişafı, tərbiyəsi və təhsili probleminin mahiyyəti və məqsədi
2. Uşaqların inkişaf prosesi nədir?
3. Uşaqların əxlaqi, milli mənəvi şüurunun formalaşmasına dair

**1.** Məktəbəqədər yaşlı uşaqların inkişafı, tərbiyəsi və təhsili sahəsindəki vəzifələr, ümumiyyətlə həmin problemin müstəqil dövlətçiliyimiz baxımından əsas konsepsual prinsip və müddəaları Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin müxtəlif çıxış, məruzə və nitqlərində milli-ideoloji, elmi-nəzəri cəhətdən bütün incəlikləri ilə işıqlandırılmışdır. Milli tərbiyənin mühüm komponenti olan tərbiyədən danışarkən Heydər Əliyev demişdir: "Tərbiyə geniş məna daşıyır. Tərbiyə təkcə o deyil ki, gedib Vətəni silahla müdafiə edəsən. Insan gərək həyatının hər dövründə, fəaliyyətinin bütün sahələrində öz Vətəninin, ölkəsinin qayğısı ilə yaşasın, onun həm iqtisadiyyatının, həm siyasətinin, həm də mədəniyyətinin qayğısı ilə yaşasın. Bunlar hamısı tərbiyədən doğan şeydir. Insan öz mədəniyyətinin də, iqtisadiyyatının da, öz dilinin də, təhsilinin də inkişaf etməsini istəyir"[1](3, "Azərbaycan müəllimi" qəzeti, 7 may 1998).

Müstəqil Azərbaycan Respublikasının islahat proqramında maarif işçiləri qarşısında bir sıra məsələlər qoyulmuşdur ki, bura yüksək keyfiyyətli, dərin və hərtərəfli biliyə, mədəniyyətə, mütərəqqi dünyagörüşə malik, Azərbaycan xalqının azadlıq və demokratik ənənələrinə bağlı olan, Vətəni, millətini və dilini sevən, insan hüquqları və azadlığına hörmət edən, müstəqil və yaradıcı düşünən, yüksək əxlaq və mənəvi keyfiyyətləri özündə cəmləşdirən, sivilizasiyalı cəmiyyət qurmağa qadir olan,

idrak səviyyəsi yüksək, sağlam və humanist keyfiyyətli, dostuna dost, düşməninə düşmən kimi yanaşan, hərtərəfli vətəndaş yetişdirməkdir. Çünki, hər hansı bir dövlətin, xalqın gələcəyi həmin dövlətin maarifindən çox asılıdır. Odur ki, gənc, azad və müstəqil respublikamızın müvəffəqiyyətli və uzunömürlü olması indiki nəslin daha savadlı, intellektual səviyyəsinin daha yüksək olmasından çox asılıdır.

Müasir dövrdə dövlət quruculuğuna dair müvafiq sənədlərdə uşaqların əxlaq və mənəvi keyfiyyətlərinin inkişaf etdirilməsinə ciddi diqqət vermək tərbiyə və təhsil müəssisələrinin başlıca vəzifələrindən biri kimi qeyd edilir. Çünki, yer üzərində mürtəce qüvvələr mövcud olduqca, vətənimizə, cəmiyyətimizə qarşı duran təxribatçılıq işi gözlənilir. Nə qədər ki, Ermənistan kimi mürtəce dövlətlərin təbiəti dəyişilməmişdir, irtica və təcavüzkar qüvvələr silahı yerə qoymamışlar, belə bir vəziyyət ümumxalq münasibətlərdən əmələ gələn dəyişikliklərə mane olacaqdır.

Kiçik yaşlı uşaqlar ailə səadəti, xeyir, şər haqqında, yoldaşlıq, dostluq, qayğıkeşlik, ədalət, ədalətsizlik, sülh, əmin-amanlıq, müharibə, dağıntı, ekoloji çətinliklər, hüquq qanunları, iqtisadi biliklər, qənaət, sadəlik, təvazökarlıq, düzlük və doğruçuluq və s. haqqında, təsəvvür və anlayışlara məhz həmin məktəbəqədər müəssisələrdə və məktəblərdə yiyələnirlər.

Inkişaf etməkdə olan cəmiyyətimizdə şəxsiyyətin inkişafı və onun mənəvi keyfiyyətlərinə dair vəzifələr yetişməkdə olan nəslin qarşısında məsuliyyət hissini müntəzəm surətdə artırır. Gənc nəslin formalaşması şəraiti isə nəinki yaxşılaşır, həm də xeyli mürəkkəbləşir. Bu mürəkkəbləşmənin əsas səbəblərindən biri elm və texnikanın surətlə inkişaf etdiyi atom, elektron və kosmos əsrində uşaqların mənəvi düşüncələrini zənginləşdirən amillərin sayının getdikcə artmasıdır.

Bütün bunlar o deməkdir ki, gənc nəsildə lazımi mənəvi və fiziki keyfiyyətlər yetişdirmək üçün cəmiyyətin şüurlu, məqsədyönlü fəaliyyəti kimi tərbiyənin rolu da ildən-ilə artır.

**2.** Cəmiyyətin hazırki mərhələsində gənc nəslin inkişafı üçün ölkəmizin tarixində ən əlverişli obyektiv şərait yaradılmışdır. Belə ki, indi ölkəmizdə iqtisadi, sosial-siyasi, ideoloji vəzifələr müvəffəqiyyətlə həyata keçirilir, xalqın mədəni səviyyəsi, maddi rifah halı yüksəlir, uşaq və gənclərin inkişafına təsir göstərən ailənin imkan və şəraiti genişlənir.

Məlumdur ki, bu yüksəkliklə yanaşı, cəmiyyətdə şəxsiyyət, onun mənəvi keyfiyyətləri, təhsili, mədəniyyəti qarşısında duran tələblər müntəzəm surətdə artır. Bu prosesdə gənc nəslin formalaşması şəraiti isə nəinki təkcə yaxşılaşır, həm də xeyli mürəkkəbləşir.

Deməli, inkişaf prosesinin özü də müəyyən ziddiyyət yaradır. Bu ziddiyyətin başlıca səbəbi tərbiyə prosesinin obyektiv əsası kimi adamların sosial həyatının, özünün mürəkkəbləşməsidir.

Məktəbəqədər yaşlı uşaqların yoldaşlıq, dostluq və qayğıkeşlik kimi əxlaqi keyfiyyətlərinin formalaşmasına təsir göstərən mühüm şərtlərdən biri uşağı əhatə edən müvafiq mənəvi mikromühitin yaradılmasıdır. Bunun əsasını isə uşağın şəxsiyyətinə hörmət və qayğı, ağıllı tələbkarlıq təsir edir. Əlbəttə, uşaq mikromühitində baş verən hadisələrin heç də hamısı sosial həyat tərzinin normalarına uyğun gəlmir. Uşaq şəxsiyyətinin formalaşdığı bu mikromühitin obyekti təsiri ilə inkişaf etməkdə olan cəmiyyətimizin təlqin etdiyi əxlaq normalarının toqquşması heç də həmişə cəmiyyətin xeyrinə olan nəticəyə gətirib çıxarmır. Bütün bunlar uşaq və gənclərin tərbiyəsində yalnış davranışın təşəkkül etməsinə gətirib çıxarır, nəticədə uşaqlarda ikiüzlülük, riyakarlıq, tənbəllik və s. formalaşır.

Deyilənlərdən aydın olur ki, uşaqlarda dövrün tələbinə uyğun əxlaqi keyfiyyətlərin inkişafı üçün cəmiyyətin şüurlu, məqsədyönlü fəaliyyəti getdikcə güclənir.

Müsbət əxlaqi keyfiyyətlərin mahiyyəti, məqsədi, məzmunu və əhəmiyyətini düzgün dərk etmək üçün əxlaqın necə yarandığını bilmək zəruridir. Fəlsəfi, pedaqoji ədəbiyyatda əxlaqın mənşəyi haqqında müxtəlif fikirlər mövcuddur. Bəzi alimlər iddia edirlər ki, insan ictimai varlıqdır, onun fəaliyyəti də ictimai mühitlə, ictimai qaydalarla təyin edilir. Ictimai varlıq olan insanın əxlaqı öz başlanğıcını həyatdan alır. Buna görə də əxlaq ictimaidir. Digər qrup alimlərə görə insan hər şeydən əvvəl canlı varlıqdır, canlı orqanizmdir, onun yaşayış tərzi canlı təbiət qanunları əsasında baş verir. Insan da başqa canlılar kimi doğulur, mübarizə aparır və ölür. Ictimai mühit yalnız insan nəslinin yaşaması, artıb-törəməsi üçün şərait olmaqla kifayətlənmir, bioloji prosesin baş verməsinə heç cürə mane olmur, əksinə, özü insanın bioloji prosesində fəaliyyət göstərməsini təsdiq edir. Ona görə də əxlaqın mənşəyini yalnız

insanlarda deyil, bəşər cəmiyyətindən daha qədim olan həyatın özündə axtarmaq lazımdır.

Əxlaqda, mənəviyyatda insanların bir-birinə münasibəti və davranış normaları öz ifadəsini tapır. Mənəviyyatın tərkib hissəsinə davranış qaydaları, prinsiplər, kateqoriyalar və ideallar daxildir.

Davranış qaydaları insanın ailədə, cəmiyyətdə, kollektivdə bir-birinə münasibətini müəyyənləşdirir. Davranış qaydaları tənzim etdiyi münasibətlərin xarakterindən asılı olaraq müəyyən qruplara bölünür.

Prinsiplər: prinsip hər bir norma qrupunun özünəməxsus olan ilk vəziyyətini və əsas köklərini əks etdirir. Siniflər mənafeyini əks etdirən əlamətlər prinsiplərdə daha çox güclü olur və onun ən çox nəzəriyyələr sistemini əks etdirir.

Əxlaq kateqoriyaları: ümumi şəkildə insanlar arasında, insanla cəmiyyət arasında mənəvi əlaqələr əks etdirilir. Yaxşılıq, ədalət, borc, şərəf, ləyaqət, vicdan, xoşbəxtlik və s. əxlaq kateqoriyaları olub, müəyyən xalqların əxlaqına xas olmuşdur, həmin kateqoriyalar bütün cəmiyyətlərdə mövcud olmuş və mövcuddur. Lakin onlar müxtəlif əxlaq sistemlərinə mənsub olduğundan müxtəlif tələbləri ifadə etmiş, zaman keçdikcə, öz mahiyyət və məzmununu dəyişmişdir.

Əxlaqi ideallar isə insanların daha çox əhəmiyyət verdiyi, gözəl saydığı davranış nümunələrini əks etdirir. Mənəvi ideallarda insanların arzuları ifadə olunur.

Beləliklə, insanlar müəyyən normalar, prinsiplər və ideallar əsasında hərəkət edir, bir-birləri ilə münasibətlərdə olurlar. Deməli, cəmiyyətdə yaşayan, fəaliyyət göstərən insanlar bir-birinin davranış normalarına necə əməl etdiklərinə nəzarət edir, bir-birinin hərəkətlərini tənzimləyir və qiymətləndirirlər. Məhz, qiymət vermək, nəzarət etmək əxlaqa real məna verir və onun fəaliyyətini təmin edir. Qiymət əxlaqlı insanın davranışına, hərəkətinə, ictimai nəzarətin mühüm vasitəsinə çevirir. Hüquq normaları pozulduqda adamlara cəza verilirsə, əxlaq normaları pozulanda adamlar məzəmmət edilir, onların hərəkətləri pislənilir. Burada ictimai rəy mühüm rol oynayır.

Milli ləyaqət, kollektivçilik, humanizm və digər əxlaqi kateqoriyalar şəxsiyyətin mənəvi təfəkkürünün aksiomları kimi fəaliyyət göstərir. Müasir dövrdə əxlaqi sərvətlər insanların davranışının qəbul edilib-edilməməsi ilə deyil, onların nə

dərəcədə davranışda özünə möhkəm yer tutması, nə qədər real, həqiqi olması və şəxsiyyətlərarası münasibətlərdə davamlılığı ilə ölçülür.

Cəmiyyətin müasir mərhələsində elmi-texniki inqilab ictimai həyatın bütün sahələrinə - ailə həyatına, istehsal əlaqələrinə, milli münasibətlərinə, nəsillər arasındakı varisliyə, əxlaqa, insan mənəviyyatına ciddi təsir edir. Elmi kəşflər heç vaxt bədxahlıq niyyəti ilə edilmir. Elmi kəşflər, ixtiralar həmişə ehtiyacdan doğmuş və insanların həyatının yüngülləşdirilməsinə xidmət etmişdir.

**3.** Əxlaqi, mənəvi tərbiyənin mühüm tərkib hissələrindən biri milli mənlik şüurunun formalaşdırılmasıdır. XX əsrin son illərində aşkarlıq və demokratiyanın təsiri ilə ayrı-ayrı xalqlar kimi Azərbaycan xalqı da öz kökünə, tarixinin açılmamış səhifələrinə müraciət edərək, xalqın tarixi kökləri, tariximizin bəzəyi olan görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini öyrənir, milli özünüdərkin, milli özünütəsdiq, milli özünəməxsusluğun bütün əlamətlərini aşkar etməyə çalışır. Milli rəmzlərə, adətlərə, ənənələrə yeni həyat verilir, dini etiqadlar, müqəddəs bayramlar xalqın özünə qaytarılır. Bu qayıdışda yeni bir ruh, yeni təfəkkür, yeni mədəniyyət öz əksini tapır.

Məhz milli ləyaqət, torpağa bağlılıq, vətəndaşlıq dəyanəti bu köklərdən rişələr alır, yeni nəsilləri azadlığa, müstəqilliyə çağırır. Hər bir şagirddə milli mənlik şüuru belə bir zəmin üzərində təşəkkül tapır və belə bir həqiqəti təsdiq edir ki, mədəniyyətin, elmin, ədəbiyyatın inkişafı, xalqın böyüklüyündən və kiçikliyindən deyil, həmin xalqın müdrikliyindən, zəngin təfəkkür tərzindən asılıdır.

Kiçik yaşlı uşaqların müsbət əxlaqi keyfiyyətlərinin, mənəviyyatının inkişafı milli mənlik şüurunun formalaşması ilə bilavasitə bağlıdır.

Milli mənlik şüurunun formalaşması Vətənə, doğma torpağa, doğma yurda məhəbbət yaradır. Torpaq insanın yaşayış və əbədiyyət məskənidir. Uşaqların öyrəndiyi yeniliklər, iştirak etdikləri kütləvi tədbirlər, bədən tərbiyəsi və idman, müxtəlif oyunlar onlarda belə bir əqidəni inkişaf etdirir ki, torpaq, vətən müqəddəsdir. Məktəbəqədər yaşlı uşaqlar düzgün dərk edirlər ki, dünyada Azərbaycan xalqı var, yaşayır və özünün çox hiyləgər düşməninə - ermənilərə qarşı mübarizə aparır. Onların vətənpərvərliklə bağlı oyunları və səyləri xalqımızın qüdrətli, yenilməz hərəkatı ilə birləşib, tariximizin əzəmətli, unudulmaz misilsiz

qəhrəmanlıq səhifələrinin yaranmasına və yazılmasına səbəb olur. Milli mənlik şüurunun qabarıq təzahürü olan doğma yurda, torpağa balaca fidanları gözəgörünməz müqəddəs tellərlə bir-birinə bağlayır, onları suverenliyin, milli bütövlüyün qorunması naminə səfərbərliyə alır. Onlar belə bir həqiqəti dərk edirlər ki, milli borc, torpağa bağlılıq, milli qürur və iftixar, vətəndaşlıq hüququ qazanır. Milli mənlik şüuru, milli özünüdərk vətənlə, torpaqla, mədəniyyət və incəsənətlə bağlı gerçəkliyin təzahürü olub, sosial-iqtisadi, mədəni və mənəvi mühitin qavranılması, dərk edilməsi və təsdiqidir. Fəal, ictimai varlıq olan balacalar vətəni, milləti, torpağı hiss və duyğuları, təfəkkürü vasitəsilə özününküləşdirir. Milli mənlik şüuru formalaşmış və tərbiə olunmuş uşaqlarda əqidə bütövlüyü, sözlə işin tam vəhdəti özünü parlaq şəkildə təzahür etdirir. Millətin adından təmtəraqlı sözlər demək hələ əqidə bütövlüyü deyildir. Vaxtilə Məhəmməd peyğəmbər deyirdi ki, millətimin içində xəyanət olmasa, düşmən qarşımızda tab gətirə bilməz. Milli mənlik şüuru və əqidəli olmayan hər bir kəs ötəri hisslərlə yaşayıb hansı məsləkə, əqidəyə xidmət etdiyini bilməz.

Milli mənliyi, qeyrəti olan şəxs isə əqidəsi naminə hər cür işgəncəyə tab gətirər. Məsələn, Babək də, Nəsimi də, Bruno da, Mehdi Hüseynzadə də əqidəsi naminə ölümdən qorxmayıblar.

Bu baxımdan məktəbəqədər yaşlı uşaqların inkişafı və tərbiyəsi məsələsi hələ çox qədimlərdən dünya mütəfəkkirlərinin diqqətini cəlb etmişdir. Onlar məktəbəqədər uşaq dünyasını düzgün kəşf etməklə, bu barədə öz müdrik baxışlarını və nəzəri müddəalarını irəli sürmüşlər.

Tanınmış pedaqoqlar və müqəddəslərin tarixən gəldikləri qənaətlər, yaratdıqları nəzəriyyələr bəzən üst-üstə düşsə də və ya fərqli, bir-birinə əks fikirlər söyləsələr də, müasir dövrümüzdə uşaq tərbiyəsi və inkişafı üçün təcrübə əldə etməyin, nəzəri fikirlər söyləməyin əsasını qoymuşlar. Belə ki, bu gün onların mövzumuzla bağlı fikirlərindən istifadə etməklə məktəbəqədər yaşlı uşaqların tərbiyəsinin mahiyyətini, məzmununu müəyyənləşdirir və dərk edirik.

## Ədəbiyyat

1. Əliyev H.Ə. Təhsil millətin gələcəyidir, Bakı-2002.
2. Ağayev Ə.A. Pedaqoji fikrimiz: dünənimiz, bugünümüz, Bakı-2000.

3. Həsənov A.M. Məktəbəqədər pedaqogika, Bakı-2000.
4. Ağayev M.H. Kiçik yaşlı məktəblilərin tərbiyəsi, Bakı-2006.
5. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika, Bakı-2003.
6. Kazımov N.M. Məktəb pedaqogikası, Bakı-2002.

## *1.2. Məktəbəqədər yaşlı uşaqların inkişafı və tərbiyəsinə müsbət əxlaqi keyfiyyətlərin təsiri*

Plan:

1. Müsbət əxlaqi keyfiyyətlər haqqında klassik pedaqoq və mütəfəkkirlərin fikirləri
2. Əxlaq tərbiyəsinin ən zəruri tərkib hissələri
3. Əxlaqi keyfiyyətlərin aşılanmasında valideyn və tərbiyəçilərin rolu
4. Əxlaqi keyfiyyətlərin mənimsənilməsində ailənin və məktəbəqədər müəssisələrin işi.

**1.** Əxlaqi və mənəvi tərbiyənin mühüm tərkib hisslərindən biri də vətənpərvərlikdir. Xalqımızın Vətənə, doğma yurda məhəbbəti və bağlılığı öz rişələrini onun folklor nümunələrindən, böyük söz ustadlarının əsərlərindən, dövlət xadimləri və sərkərdələrinin, qəhrəmanlarının nümunələrindən alır. Söz dünyasının korifeyləri – Xaqani, Nizami, Tusi, M.Əvhədi, Ə.Təbrizi, Xətai, M.Füzuli, A.Bakıxanov, M.F.Axundov, A.Səhhət, S.Vurğun və b. Vətəni, onun gözəlliyini vəsf etmiş gəncləri Vətən torpağının qədrini bilməyə, göz bəbəyi kimi qorumağa çağırmışlar. Ona görə ki, "insan hissləri içərisində ən müqəddəsi, bəlkə də irsi, fitri mahiyyət daşıyanı, insanı tərəqqiyə, inkişafa, yaradıcılığa təhrik edəni Vətən sevgisidir, vətənpərvərlikdir. Vətən məhəbbəti, torpağa bağlı olan Azərbaycan oğlu və qızı döyüş meydanında yorulmur, odlar, alovlar içərisindən keçərək Vətən torpağının gələcəyi, xalqının şərəf və şöhrəti, namus və qeyrəti naminə mübarizə aparır. Vətən torpağı naminə mübarizə xalqımızın mənəvi varlığı və birliyi uğrunda mübarizə, qəhrəmanlıq, mərdlik məktəbidir. Madam ki, insan ömrünün ən böyük zinəti, onu yaşadan qüvvə vətənpərvərlik hissidir, bu hiss gənclərin təlim-tərbiyəsinin əsas ruhu, çarpan ürəyi, düşünən beyni olmalıdır" (78, səh.317).

Əxlaq tərbiyəsinin müqəddəs, ülvi tərkib hissələri sırasında yaşlı nəslə hörmət, sadəlik və təvazökarlıq, düzlük və doğruçuluq mühüm yer tutur. Bu əxlaqi keyfiyyətlər bir-biri ilə sıx bağlıdır. Yaşlı nəslə hörmət etməyən düz ola bilməz. Doğru danışan, sadə və təvazökar olan cəmiyyət üçün faydalıdır. Harada düzlük var orada doğruçuluq, sadəlik və təvazökarlıq var, yaşlı nəslə hörmət var.

**2.** Əxlaq tərbiyəsinin ən zəruri tərkib hissələrindən biri də kollektivçilikdir. Bu, qarşılıqlı yardıma, yoldaşlığa və dostluğa əsaslanır. Cəmiyyət özlüyündə böyük bir kollektivdir. Onun üzvləri əmək xariqələri yaradır, çətin anlarda bir-birinə qanlarını verməyi belə əsirgəmir, bir-birinə kömək edir, bir-birinə qayğı göstərirlər. Yoldaşlıq, dostluq kimi münasibətlər kollektivdə formalaşaraq böyük tərbiyəvi qüvvəyə çevrilir.

Kollektivçilik tərbiyənin başlıca prinsiplərindən biri kimi fəaliyyət göstərir, həyatımızın bütün sahələrinə kömək edir. Mənəvi münasibətlər – yoldaşlıq və qarşılıqlı yardım, məsuliyyət, borc, prinsipiallıq, etimad, səmimiyyət, hörmət və s. kollektivdə formalaşır. Məqsəd aydınlığı və ideyalılıq, sözlə işin vəhdəti, müsbət keyfiyyətlərə istinad etmək kollektivin tərbiyəvi gücünü xeyli artırır.

Respublikamızda şəhidlərin xatirəsinə qanlı 20 yanvar gününün, 31 mart 1918, Xocalı soyqırımının matəm günləri kimi keçirilməsi xalqımızın dözümlü və təmkinli xalq olduğunu bütün dünyaya nümayiş etdirdi. Şəhidlər Xiyabanına doğru gedən insan axını bir daha təsdiq etdi ki, xalqımız özünün dərin mənəvi tarixi köklərini, milli mənliyini, milli ləyaqətini, vətəndaşlıq dözümünü dərindən-dərinə dərk etmişdir. Belə dərketmə uşaqların mənəvi dünyasına ciddi təsir etmişdir. Çünki respublikamızda mənəvi əsasların təsir dairəsi genişlənərək yeni məzmun kəsb etmiş, adamların, xüsusilə kiçik yaşlı uşaqların fəaliyyətinə, gündəlik davranışlarına təsiri güclənmiş, onların sosial və əxlaqi məsuliyyətinin artmasına şərait yaratmışdır. Əxlaqi və hüquq normalarına əməl edilməsi, Vətənin xeyrinə işləmək hər bir uşağın təbii tələbat və sarsılmaz daxili qanununa çevrilmişdir.

Ilkin mənəvi təsəvvür və anlayışlar, əxlaqi-etik kateqoriyalar –milli şüur, milli ləyaqət, milli psixologiya, mənlik, vətəndaşlıq dəyanəti, dözümlülük, ailədə qayğı, məhəbbət, şərəf, qeyrət, namus və s. kimi kateqoriyalar məhz məktəbəqədər yaş dövründə daha sürətlə formalaşmağa başlayır. Uşaqlar ailə səadəti, xeyir, şər

haqqında, mütərəqqi və mürtəce qüvvələr haqqında, ədalət, ədalətsizlik, sülh, əmin-amanlıq, müharibə, dağıntı, ekoloji çətinliklər, hüquq qanunları, iqtisadi biliklər, qənaət, sadəlik, təvazökarlıq, düzlük və doğruçuluq və s. haqqında təsəvvür və anlayışlara məhz həmin dövrdə yiyələnirlər. Uşaqların mənəvi əqidəsi, dünyagörüşü, etiqadları, ailə həyatına baxışları, əxlaq tərbiyəsi, ailə həyatı ilə bağlı olan məsələlər ilk uşaq çağında təşəkkül tapır.

Müasir dövrdə bu vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi kiçik yaşlı uşaqları müstəqil həyata hazırlamaq, uşaqların tərbiyəsindən, xüsusilə də vətəndaşlıq, insanpərvərlik və Vətənə məhəbbət ruhunda tərbiyəsindən həlledici dərəcədə asılıdır. Uşaqların tərbiyəsinin qarşısında duran başlıca məqsəd – dərin və hərtərəfli biliyə, mütərəqqi dünyagörüşə, milli və ümumbəşəri əxlaqa, mənəviyyata və mədəni dəyərlərə yiyələnən şəxsiyyət formalaşdırmaq və cəmiyyətimiz üçün layiqli vətəndaşlar yetişdirməkdir.

Məktəbəqədər yaşlı uşaqların vətənə məhəbbət ruhunda tərbiyəsi olduqca mühüm və zəruridir. Bu, vətənə və təbiətə məhəbbət tərbiyəsidir, doğma vətəninə bağlılıq tərbiyəsidir. Ana dilində, mənsub olduğu xalqa vurğunluq tərbiyəsidir. Dilini, xalqını, soydaşlarını, həmvətənlərini sevmək tərbiyəsidir. Respublika konstitusiyasına, onun bayrağına, gerbinə, himninə hüsn – rəğbət tərbiyəsidir. Eyni zamanda mənsub olduğu xalqla, onun nailiyyətləri ilə, tarixi ilə, mədəniyyəti və milli-mənəvi dəyərləri ilə fəxr etmək tərbiyəsidir. Vətən torpaqlarının azadlığı, qorunması naminə mübarizlik tərbiyəsidir. Vətənin çiçəklənməsi naminə fədakarlıq göstərmək – yaxşı oxumaq, elmlərin əsaslarına dərindən yiyələnmək, üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirmək tərbiyəsidir. Buna görə də kiçik yaşlı uşaqlarda insanpərvərlik və təbiətə məhəbbət keyfiyyətlərinin formalaşdırılması müasir dövrdə həmişəkindən daha çox aktuallıq kəsb edir və onun hərtərəfli tətbiqinə ehtiyac hiss olunur.

Məktəbəqədər yaşlı uşaqların necə olacaqlarını həlledici dərəcədə onların uşaqlıq illərini necə keçirməsindən, bu illərdə ətraf aləmdən onların ağıl və ürəyinə nəyin daxil olmasından xeyli asılıdır. Böyük arzu ilə bağçaya gələn balaca uşaqlar dərhal təlim və tərbiyənin güclü təsirinə məruz qalır. Onlar yaxşı münasibətlər görmək istəyirlər, lakin tərbiyə baxımından ilk gündən hər addımın düzgün atılması

başlıca şərtdir. Uşaqlar bütün tapşırıqları səylə yerinə yetirməyə çalışır və ilk ictimai tapşıırıqlar alırlar. Ona görə də verilmiş tapşırıqların səliqəli, təmiz və vaxtında yerinə yetirilməsinə nəzarət etmək zəruridir.

**3.** Çünki kiçik yaşlı balacalar diqqətlərinin qeyri-sabitliyi, əhval-ruhiyyələrinin dəyişgənliyi, tez yorulmaları ilə fərqlənirlər. Tərbiyəçi hər an onların qayğısına qalmalı, tapşırıqları müəyyən edilmiş normada verməlidir. Yaxşı, gümrah əhval-ruhiyyə, təbəssüm, şən və sevinc bəxş edən baxış kiçik yaşlı balacaların mənəvi aləminin formalaşmasında mühüm rol oynayır. Tərbiyəçinin səmimiliyi, uşaq təfəkkürünün konkretliyi, fərdi xüsusiyyətlərini nəzərə ala bilməsi balacaların gələcəkdə bir şəxsiyyət kimi formalaşmasına, əxlaqi keyfiyyətlərinin inkişafına böyük təsir edir. Vətənə məhəbbətin, milli mənlik şüurunun, vətəndaşlıq ləyaqəti və s. kimi müsbət əxlaqi keyfiyyətlərin ilk rüşeymləri məhz bağçada təşəkkül tapmağa başlayır. Təlim-tərbiyə prosesində tərbiyəçi-müəllimlə uşaqlar arasında çox mürəkkəb münasibətlər, qarşılıqlı əlaqələr sistemi formalaşır. Tərbiyəçi-müəllim kiçik yaşlı balacaların nəzərində müqəddəs, ülvi bir varlıq kimi canlanır. Balaca fidanlar tərbiyəçi-müəllimdə böyükləri görür, özünü, yoldaşlarını axtarırlar. Hər bir uşaq bir fərd – təkraredilməzdir, onun öz aləmi var. Ona görə də tərbiyəçi-müəllim hər bir uşağa sevinc bəxş etməyi, onun kövrək mənəvi aləminin ilk guşə daşlarını böyük ustalıqla, ehtiyatla qoymağı bacarmaladır. Kiçik yaşlı uşaqlar təbiət və cəmiyyət hadisələrinə böyük maraqla yanaşır, onların sirlərini öyrənməyə can atırlar. Yaşlı adamların əməyi, həyatı onları özünə cəlb edir. Onlar çətinlik çəkmədən ata və analarının harada, nə kimi işdə işlədiklərini bilirlər.

Məktəbəqəbər yaşlı uşaqlar dünyaya tərbiyəçinin gözü ilə baxır, onun kimi hərəkət edir, onu təqlid edirlər. Onların əxlaqi keyfiyyətləri tərbiyəçi şəxsiyyətinin, tərbiyəçinin sözü ilə hərəkətinin təsiri altında formalaşır. Onlar tərbiyəçi-müəllimin təlim materiallarını necə başa salmasına, adamların necə danışmasına, özünü və yoldaşlarının cavablarının necə qiymətləndirilməsinə, əməkdə necə iştirak etməsinə xüsusi əhəmiyyət verirlər. Çünki müəllim uşaqların əqlini elm ümmanına, gözlərini mənəviyyat dünyasına açan ilk tərbiyəçidir. Elmin ilk ünsürləri, elmi, əxlaqi-etik anlayışlar haqqında ilk elmi və geniş məlumatları müəllim-tərbiyəçi verir. Əlbəttə, yaxşı, işguzar, ləyaqətli tərbiyəçilər çoxdur. Lakin öz ləyaqətini qiymətləndirməyən,

xaraktercə kövrək, mənəviyyatca zərif olan uşaqların mənəvi dünyasına mənfi təsir edən, onların gəlbini yaralayan tərbiyəçilər də var. Beləlöri uşaqları uşaq hesab edərək öz davranış və hərəkətlərinə, danışıq və başqa adamlara münasibətlərinə əhəmiyyət verməyərək yeri gəldi-gəlmədi danışır, ən incə alət olan qeyri-normal sözlər, münasibətlərlə uşaq gəlbini yaralayırlar. Belə uşaqlar addım-addım, günbəgün böyüyür, bir şəxsiyyət kimi formalaşır, yeniyetmə sonra isə gənc olurlar. Lakin müəllimlərinin onun qəlbinə vurduğu yara sağalmır. Tərbiyəçi-müəllimin fəaliyyətinin nəticələri birinci növbədə uşaqların sağlamlığının möhkəmliyi, ideya və əxlaqi keyfiyyətlərinin inkişafı, onların həyata və əməyə hazırlığı ilə müəyyən edilməlidir. Uşaq yaşa dolduqca tərbiyə işində tərbiyəçi şəxsiyyətinin ləyaqəti və mədəniyyətinin mühüm rol oynadığını, əqidənin əqidə ilə yaradıldığını dərk edir. Uşaq anlayır ki, mənəvi ideyası, mənəvi əqidəsi, əxlaqi-etik biliyi olmayan adamın tərbiyəçi-müəllim işləməsi dözülməzdir. Tərbiyəçilərimizin bir çoxunda uşaqların təlim-tərbiyəsinə qarşı laqeyidliyi balacalar dərhal sezirlər.

Sosial həyat hadisələrinin müşahidəsi və məktəbəqədər müəssisədəki məsələlərə dair biliklərin bəzən bir-birinə zidd olması da uşaqların tərbiyəsi işinə mənfi təsir edir. Uşaq ədalətli olmağı, həqiqəti qorumağı və müdafiə etməyi öyrənir. Lakin birdən-birə onun gözləri qarşısında ədalət-ədalətsizliyə, həqiqət yalana çevrilir. Nəticədə uşaq psixoloji sarsıntı keçirir.

Təlim-tərbiyə işində sözlə əməli işin vəhdətinin pozulması tərbiyə işinə ciddi zərər vurur. Buna görə də bağça yaşlı uşaqlarla aparılan tərbiyə işində verilmiş vədin yerinə yetirilməsinə xüsusi nəzarət edilməlidir. Lakin çox vaxt tərbiyəçi uşaqlara verdikləri vədi yerinə yetirmir, bununla da onların doğruçuluq, düzlük kimi əxlaqi keyfiyyətlərinin inkişafına mənfi təsir etmiş olurlar.

Nəticədə verilmiş vəd vəd olaraq qalır, düz söz tərbiyə vasitəsi olmaq imkanını itirir.

**4.** Məktəbəqədər müəssisə rəhbəri tələbkar, obyektiv və real olmalıdır. Lakin çox vaxt belə olmur. Yaxşı işi ilə diqqəti cəlb etməyən, pedaqoji kollektivdə hörməti olmayan bir tərbiyəçi nə üçünsə tərifl ənir. Nəticədə kollektivdə soyuqluq, işə laqeyd münasibət yaranır və bu da öz növbəsində ümumi işə pis təsir edir. Nə üçün məktəbəqədər müəssisə rəhbəri yaxşı işi olmayan tərbiyəçini tərifləyir?

Məktəbəqədər müəssisə rəhbəri o vaxt tərbiyəçinin pis işini tərifləyir ki, onun yanında gözü kölgəli olur. Belə gözü kölgəlilik son vaxtlar daha çox yayılmışdır. Bayramlarda verilən hədiyyələr tələbkarlığı zəiflədir, bağça rəhbərləri tərbiyəçilərə, tərbiyəçilər uşaqlara tərbiyəvi təsir göstərə bilmirlər.

Bu dövrdə məktəbəqədər yaşlı uşağın mənəvi inkişafına böyük sıcrayış olur və kiçik yaşlı uşaq yeni əxlaqi münasibətlər aləminə daxil olmağa başlayır.

Bakı şəhəri 290№-li uşaq bağçasının tərbiyəçisi M.Namazova bizimlə görüşdə dedi ki, kiçik yaşlı uşaqlarda formalaşan müsbət əxlaqi keyfiyyətlər sırasında dostluq və yoldaşlıq mühüm yer tutur.

Kiçik yaşlı uşaq həmişə ünsiyyətə, kiminləsə ülfət bağlamağa çalışır. Uşaqlarda ünsiyyət və münüsibətdə olmaq kiçik yaşlıların müstəqil fəaliyyətinin mühüm tərəfidir. Həmin fəaliyyətdə kiçik yaşlı uşaq bir tərəfdən yoldaşı və dostu ilə ünsiyyətdə olursa, digər tərəfdən yoldaşının hərəkətləri, ona münasibəti haqqında düşünür. Belə bir ünsiyyətdə şəxsiyyətlərarası münasibətlər formalaşır. Yaşıdlarından bir necəsi kiçik yaşlı uşağa daha yaxın olur. Belə halda kiçik yaşlı uşaq üçün dosta sədaqətli olmaq müsbət keyfiyyət kimi özünü göstərir.

**Ədəbiyyat**


1. Əliyev H.Ə. “Azərbaycan müəllimi” qəzeti, 7 may 1998.
2. Əhmədov H.M. Azərbaycan pedaqoji fikir tarixi, Bakı-2001.
3. Qədimbəyova Ə.B. Uşaq bağçasında əxlaq tərbiyəsi, Bakı-1989.
4. Suxomlinski V.A. Vətəndaşın doğulması, Bakı-1975.
5. Səlimxanova X.İ. Məktəbəqədər yaşlı uşaqlarda əxlaqi keyfiyyətlərin formalaşmasına şifahi xalq yaradıcılığı nümunələrinin təsiri (namizədlik dissertasiyası), Bakı-1989.
6. Şirzadova M.H. Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin inkişaf tarixindən, Bakı-2007.

# II fəsil.

# Uşaqların inkişafı, tərbiyəsi və təhsili probleminə tarixi bir nəzər

## *2.1. Tərbiyənin meydana gəlməsi, qədim dövr Azərbaycan və Şərq dastanlarında tərbiyə və təhsil problemləri*

Plan:

1. Tərbiyənin yaranması, müasir dövrdə onun vəzifələri və məzmununa dair fikirlər
2. Şərq dastanları və onların mahiyyəti, məqsədi haqqında ümumi məlumat
3. "Avesta"da uşaqların təlim-tərbiyə məsələləri
4. "Oğuznamələr"də təlim-tərbiyəyə dair
5. "Kitabi-Dədə Qorqud" dastanı təlim-tərbiyə mənbəyidir

**1.** Tərbiyənin necə əmələ gəlməsi haqqında məsələni aydınlaşdırmaq çox mühümdür. Insan cəmiyyətinin ilkin inkişaf dövrü - ibtidai icma cəmiyyətində yazılı mənbələrin olmaması bu dövr tərbiyə sisteminin öyrənilməsində bir sıra çətinliklər yaradır. Ancaq maddi və mənəvi mədəniyyət abidələrinin, dil və şifahi xalq ədəbiyyatının öyrənilməsi insanın yarandığı ilk çağlarda tərbiyənin meydana gəlişi ilə bağlı müəyyən fikirlər irəli sürməyə imkan verir. Ibtidailiyini indi də mühafizə edib saxlayan qəbilələrin həyatı haqqında etnoqrafik məlumatlar (əmək və məişət əşyaları, qayaüstü rəsmlər və s.) ibtidai icma dövründə tərbiyənin necə yarandığını təsəvvür etməyə imkan yaradır. XII-XVIII əsrlərdə alim və səyyahların Avstraliya, Afrika, Polineziya, Sibir və Cənubi Amerikanın hələ də ibtidai inkişaf dövrünü yaşayan aborigenlərin həyatını təsvir edən əsərləri də böyük maraq doğurur. Ilk pedaqoji təsəvvürlərin təşəkkülü ayrı-ayrı xalqların, o cümlədən Azərbaycan xalqının qədim adət və ənənələri, mərasim və ayinləri, əyləncə və oyunları ilə bağlı olmuşdur. Kökləri əsrlərin dərinliklərinə gedib çıxan xalqın həyat müşahidələrinin məhsulu olan atalar sözləri, zərb-məsəllər, mərasimlər, xalq oyunları, əyləncələr qədim insanların tərbiyəsi ilə bağlı fikirlərinə parlaq sübutdur.

Insanın mənşəyilə bağlı konsepsiya düzgün müəyyənləşdirilmədiyindən tərbiyənin yaranması haqqında bir neçə müddəa mövcuddur. Ənənəvi müddəalar arasında Ş.Leturno, J.Simpson, A.Espinas və başqalarının təmsil etdikləri təkamül-bioloji və P.Monronun əsasını qoyduğu psixoloji nəzəriyyələr mühüm yer tutur. Təkamül – bioloji nəzəriyyənin müəlliflərinin fikrinə görə ibtidai insanların tərbiyəvi fəaliyyətləri adi heyvanların öz balalarına göstərdikləri instinktə əsaslanan qayğıya bənzəyir. Onlar heyvanlar aləmində də tərbiyənin mövcud olduğunu söyləyirlər. Bu alimlər tərbiyənin şüurlü səciyyəsini inkar etməklə onu qeyri-mütəşəkkil, kortəbii bir hadisə hesab edirlər.

P.Monro tərbiyənin yaranmasını yalnız uşaqların böyükləri şüursuz surətdə təqlidində görürdü. Insanın mənşəyi və tərbiyənin yaranması ilə bağlı dini təlimlərdə dəyərli fikirlər vardır. Bu gün insanın meymundan əmələ gəlməsini əsas götürən təkamül nəzəriyyəsi qətiyyətlə rədd edilir. Bu, genetik cəhətdən də təsdiq olunur. Tədqiqatçı alimlərin fikrincə, insan elə insan olaraq yaranmış, öz qabiliyyət və keyfiyyət imkanları hesabına inkişaf edib, təkmilləşmişdir.

Insanın tərbiyə fəaliyyəti onun əmək fəaliyyətinin zəruri bir hissəsi olmaqla insanın öz nəslini davam etdirməsinə xidmət edir. Bu, əməyin nəticəsi olan yaxşı təhsil və tərbiyə almış insandır. Tərbiyə mənəvi istehsal sahəsinə aid olan məfhumdur.

Tərbiyənin xüsusi fəaliyyət növü kimi meydana gəlməsi 35-40 min il əvvələ təsadüf edir. Tərbiyənin tamamilə bəsit xarakter daşıdığı ibtidai icma dövründə uşağın tərbiyəsi, onun bəslənməsi və böyüdülməsində yaşlı nəslin qazandığı təcrübənin böyüyən nəslə verilməsindən ibarət idi. Tərbiyənin ən bəsit və sadə məqsədi ən sadə şəkildə yaşamağa və dünyanı dərk etməyə hazırlıqdan ibarət idi.

Ibtidai insanların tərbiyəsi kortəbii və sistemsiz idi. Bu dövrdə tərbiyənin inkişafına təsir göstərən amillərdən əsası insanlar arasında maddi əlaqələrin genişlənməsi idi. Bu yolla əmək təcrübəsi bir adamdan başqasına, nəsildən-nəsilə ötürülürdü.

Bu dövrdə uşaqların tərbiyəsi ümumi xarakter daşıyırdı, bütün uşaqlar kollektiv şəkildə tərbiyə olunurdular. Bu tərbiyə onları icmanın ümumi əmək həyatında müstəqil iştirak etməyə hazırlayırdı. Tərbiyədə fərq cinslərarası fərqə əsaslanırdı.

Oğlanlar kişilərlə birlikdə ov etmək, balıq tutmaq və silah düzəltməkdə iştirak edir, qızlar isə qadınların rəhbərliyi altında paltar hazırlayırdılar.

Əmlak bərabərsizliyinin getdikcə güclənməsi, xüsusi mülkiyyətin yaranması, ibtidai icma quruluşunun dağılmasını sürətləndirdi. Bu zaman ailə cəmiyyətin iqtisadi və sosial özəyinə çevrildi. Qəbilədən fərqli olaraq uşaqların tərbiyə edilməsi vəzifəsi ailə üzvlərinin (ata və ana) üzərinə düşürdü. Ailə tərbiyə işi kütləvi şəkil alırdı. Ailədə uşaqlar valideynlərin nümunəsində tərbiyə olunurdular. Ümumi, bərabər, nəzarəti olmayan icma tərbiyəsi silki - ailə tərbiyəsinə çevrildi. Ailələr arasındakı təbəqələşmə orada böyüyən uşaqların tərbiyəsində özünü biruzə verirdi. Müxtəlif təbəqənin nümayəndələrinin – başçıların, kahinlərin, döyüşçülərin, icmanın digər üzvlərinin tərbiyəsində nəzərə çarpan fərqlər yarandı. Yüksək təbəqəyə məxsus ailələrdə uşaqlara tərbiyə məqsədyönlü və sistemli şəkildə verilirdi.

Ibtidai icma dövrünün insanları təcrübənin ötürülməsi zamanı müəyyən didaktik üsullardan istifadə edirdilər. Tərbiyənin ilkin formaları bəsit və kortəbii xarakter daşıyırdı. Uşaqların əsas işi böyüklərin fəaliyyətini mexaniki surətdə təkrarlamaqdan ibarət idi. Tərbiyənin mütəşəkkil formalarının rüşeymləri meydana gəldi. Tədricən tərbiyə işi xüsusi şəxslərin əlində cəmləşməyə başladı. Tərbiyənin müddəti qısa idi, 9 yaşdan başlayır, 11 yaşadək davam edirdi.

Kiçikyaşlı uşaqlar qadınların nəzarəti altında əmək vərdişlərinə yiyələnirdilər. Uşaqlar böyükləri təqlid etməklə vaxtlarının çoxusunu oyunda keçirirdilər. Onlar böyüklərin işində iştirak etməklə, hər gün onlarla ünsiyyətdə olmaqla tərbiyə olunur və öyrənirdilər. Uşaqlar böyüklərlə birlikdə əmək fəaliyyətinə, kollektiv əməyə və məişətə hazırlanırdı. Eyni zamanda onlar qəbilənin adətləri ilə, müvafiq mərasimlərin keçirilməsi qaydası ilə tanış olurdular. Uşaqlar özlərinin bütün vəzifələrini tamamilə bütün qəbilənin mənafeyinə və tələblərinə uyğunlaşdırırdılar. Ağsaqqallar və din xadimləri uşaqların müəyyən edilmiş qaydalara necə riayət etmələrinə nəzarət edirdilər.

Erkən ibtidai icma dövründə tərbiyənin təsiri aşağı səviyyədə idi. Icmanın kiçik yaşlı üzvlərinə nəzərə çarpacaq dərəcədə davranış sərbəstliyi verilir, sərt cəzalar tətbiq olunmurdu. Ən pis halda fiziki cəza veriləcəyilə qorxudulurdu. Sonralar vəziyyət dəyişdi, icmanın təbəqələşməsi və sosial ziddiyyətlərin artması tərbiyəni

sərtləşdirdi. Fiziki cəza tez-tez tətbiq olunmağa başlandı.

Ibtidai icma dövrünün sonunda indiki məktəblərin ilk rüşeymi olan “gənclər evi” yarandı. Burada uşaq və yeniyetmələrə əmək vərdişləri, bacarıqlar, mərasim ayinləri öyrədilirdi ki, burada başlıca tərbiyə forması oyun və məşğələlər idi. Ata xaqanlığı dövründə isə oğlanların tərbiyəsi bütünlüklə ağsaqqalların və kahinlərin ixtiyarına keçdi. Əmlak bərabərsizliyinin yaranması ilə bağlı kasıblar və varlılar ayrı-ayrı “gənclər evi”ndə tərbiyə almağa başladılar. 10-15 yaşına çatmış həm oğlan, həm də qızlar özünü böyüklərə təqdimetmə mərhələsindən keçirdilər. Oğlanlar ovçu, əkinçi, döyüşçü üçün zəruri olan bilik və bacarıqlarını, qızlar isə ev təsərrüfatının idarə olunması ilə bağlı vərdişləri necə mənimsədiklərini nümayiş etdirirdilər.

Ibtidai icma quruluşunun sonlarında ailə tərbiyəsi tərbiyə işinin geniş yayılmış formasına çevrildi, tərbiyənin məzmunu genişləndi və mürəkkəbləşdi.

Tərbiyənin ümumiləşmiş kateqoriya olması. Tərbiyənin mahiyyəti, məzmunu, məqsədi, vəzifələri, tərkib hissələri, növləri, həyata keçirildiyi sahələr, iştirakçıları, mərhələləri, üsulları, qanunauyğunluqları, prinsipləri, təlimin tərbiyəvi imkanları, bu imkanların reallaşdırılması və s. məsələlər həmin kateqoriyaya daxildir. Bundan əlavə real həyatda tərbiyə ya əxlaq tərbiyəsi, ya əmək tərbiyəsi, ya fiziki tərbiyə və s. formada özünü göstərir. Yaxud, tərbiyə ailədə, uşaq bağçasında, tədris müəssisəsində və s. ictimai yerlərdə təşkil edilir. Tərbiyənin tərkib hissələrindən hər hansı biri, öz növbəsində xeyli sahələri əhatə edir. Məsələn, əxlaq tərbiyəsi, halallıq tərbiyəsi, insanpərvərlik tərbiyəsi, yaşlılara hörmət tərbiyəsi, vətənpərvərlik tərbiyəsi, təvazökarlıq tərbiyəsi, qənaətcillik tərbiyəsi və s. sahələri vardır. Bütün bu sahələrə görə deyirik: tərbiyə ümumiləşmiş kateqoriyadır.

Xarici ölkələrin pedaqoqlarına görə tərbiyə nə deməkdir? Suala cavab tarixən müxtəlif olmuşdur. Mütəxəssis alimlər tərbiyə kateqoriyasının mahiyyətini bağqa-bağqa istiqamətdə şərh etmişlər. Məsələn, ingilis filosofu, sosioloqu və pedaqoqu Spenserin fikrinə görə, gənc nəslin mövcud mühitə alışdırılması tərbiyə deməkdir. Öz fikrini inkişaf etdirən Spenser çalışmışdır ki, uşaqların yaşadıqları kapitalizm mühitinə uyğunlaşmalarına kömək göstərsin. Yaxud, məşhur alman pedaqoqu İ.Herbarta görə, tərbiyə məşqdən başqa bir şey deyil; tərbiyə uşaqların idarə olunması və prosesidir. Bu cəhətdən də o, tərbiyədə tərbiyə olunanlara təsir göstərəni fəal şəxs,

tərbiyə olunan uşaqları isə təsir göstərilən passiv şəxslər hesab etmişdir. Bu səbəbdən də o, sübut etməyə çalışmışdır ki, uşaqlar böyüklərin sözlərinə sözsüz əməl etməlidirlər.

Azad tərbiyə nəzəriyyəsinin tərəfdarları, o cümlədən J.J.Russo əksinə düşünmüşdür ki, uşaqların təbiətinə uyğun gələn vasitələrlə onlara təsir göstərmək prosesi tərbiyədir. Onun əqidəsinə görə uşaqlara öyüd-nəsihət vermək, uzun-uzadı izahat vermək, məruzə oxumaq, cəza vermək, məzəmmət etmək onların təbiətinə, mənliyinə toxunmaq, şəxsiyyətin əleyhinə getmək deməkdir.

Praqmatizm (tərbiyə işində nəzəriyyəni yox, təcrübi işləri əsas götürənlər) pedaqogikasının ABŞ-da məşhur nümayəndəsi Con Dyui isbat etməyə çalışmışdır ki, həyat əhəmiyyətli əməli təcrübənin uşaqlar tərəfindən qazanılması prosesi tərbiyədir. Bu səbəbdən də praqmatizm pedaqogikasının tərəfdarları tərbiyə işində nəzəriyyəyə, əməli işin nəzəri əsaslarına, nəzəri məsələlərə laqeydlik göstərmişdir.

Digər pedaqoji cərəyanlar da tərbiyə anlayışının mahiyyətinə dair öz mövqelərini bildirmişlər. Məsələn, eksistensializm (şəxsiyyətin formalaşmasında tərbiyəni inkar edənlər, irsiyyəti əsas hesab edən) pedaqogikasının tərəfdarları, o cümlədən Uayt Ceyms güman etmişdir ki, insan təbiəti dəyişməzdir, anadangəlmədir; guya hərislik, acgözlük, dalaşqanlıq, mənəm-mənəmlik, paxıllıq kimi keyfiyyətlər bu və ya digər dərəcədə hamıya xasdır. Guya bu cür keyfiyyətləri dəyişdirmək mümkün deyil. Buna görə də onlar tərbiyə işini şəxsiyyət üzərində zorakılıq kimi qiymətləndirirlər.

Tərbiyə ilə bağlı tədqiqat tarixində tərbiyə məfhumuna tamam bağqa yanaşmalar da mövcuddur. Elə mənbələr var ki, orada açıq-aşkar təlimi və təhsili tərbiyənin tərkib hissələri kimi nəzərdən keçirirlər. Məsələn, B.Lixaçov yazır: “İnsanın təlim və təhsili hissələr kimi tərbiyəyə daxildir” (7, səh.6). Lixaçovun sonrakı mühakimələrindən belə bir nəticə çıxarmaq olur ki, iqtisadiyyat, istehsal münasibətləri, ideologiya, siyasət, din və s. ictimai şüur formaları da tərbiyədir.

Insanı əhatə edən nə varsa hamısının ona təsirini tərbiyə hesab edən mütəxəssislər də az deyil.

Deməliyik ki, ətraf mühitin insan şəxsiyyətinə göstərdiyi təsiri həqiqi mənada başa düşülən tərbiyə kateqoriyasına aid etmək düzgün deyil. Nə üçün? Çünki, insan

şəxsiyyətinə tərbiyəvi təsir məqsədyönlülüyü, planlılığı ilə fərqlənir. Mühit amilləri də tərbiyəyə təsir göstərir. Lakin insanı əhatə edən mühit amillərinin ona təsiri məqsədyönlü, planlı və mütəşəkkil olmur, kortəbii və təsadüfi səciyyə daşıyır. Lakin bununla belə, mühit amillərindən, məsələn, heykəltəraşlıq və tarixi abidələrdən, mədəniyyət və incəsənət əsərlərindən, zövqlə salınmış parklardan və sairədən bir vasitə kimi gənc nəsildə şəxsiyyətin formalaşmasına məqsədyönlü, planlı və mütəşəkkil şəkildə istifadə etmək mümkündür. Bu halda həmin mühit amilləri tərbiyə vasitələrinə çevrilmiş olur.

Bəzi mütəxəssislər, metodist alimlər tərbiyə deyəndə təlim prosesindən, təhsildən kənarda cərəyan edən, necə deyərlər, xalis tərbiyəni, həyata keçirilən fərdi, qrup və ya kütləvi tədbirləri nəzərdə tuturlar. Bu cür mütəxəssislər unudurlar ki, tərbiyə həm də daha çox və daha müntəzəm təlim zamanı – dərsdə və təlimin digər təşkili formalarında həyata keçirilir.

Tərbiyə kateqoriyasının başa düşülməsində və şərhindəki bu cür qeyri-müəyyənliyin səbəbini nə ilə izah etmək olar? Fikrimizcə bunun iki əsas səbəbi var. Əvvəla, tərbiyə kateqoriyası ilk baxışda adamlara çox sadə görünür, əslində bu kateqoriya xeyli mürəkkəb və çoxcəhətli kateqoriyadır. Bu, səbəblərdən biridir. Ikincisi, tərbiyə və təhsil kateqoriyaları arasında fərqə nisbətən oxşarlıq xeyli üstünlük təşkil edir. Bu cəhət də əlavə olaraq mütəxəssisləri xeyli çaşdırmış, təhsilə nisbətən tərbiyə kateqoriyasının spesifik xüsusiyyətlərini üzə çıxarmaq işini xeyli çətinləşdirmişdir.

Söylədiyimiz mülahizələri nəzərə alaraq tərbiyə kateqoriyasının mahiyyətini açmağa imkan verən əlamətləri müəyyənləşdirməyə çalışaq. Nəzərə alaq ki, məfhumun mahiyyəti onu səciyyələndirən əlamətlərin ümumiləşdirilməsində ifadə olunur. Hadisələrin mahiyyətinə diqqət yetirməyin, onu dərk etməyin zəruriliyini xeyli müddət bundan əvvəl yaşayıb-yaratmış böyük Cami poetik şəkildə çox gözəl ifadə etmişdir:

Surət minlərlədir, məna bir ancaq,
Surət sayanlardan uzaq qaç, uzaq (10, səh.85).

Başqa sözlə, müdriklər xatırladırlar ki, ağaclar arasında meşəni görməkgərəkdir. Yəni tərbiyə kateqoriyasının mahiyyəti onun məqsədyönlülüyündə,

planlılığında, mütəşəkkilliyində, şəxsin mənəvi aləminə və davranışına ünvanlanmasında, ətraf mühitə bağlılığında axtarmaq lazımdır.

Tərbiyənin davranışla əlaqəliliyi. Aydındır ki, tərbiyə insanın davranışı ilə ailədə, uşaq bağçasında, məktəbdə, digər ictimai yerlərdə özünü necə aparması ilə əlaqədar olur. Onun tərbiyəlilik dərəcəsi, adamlara münasibəti sadə əməyə, ölkəyə münasibətində, cəmiyyətdə könüllü qəbul olunmuş birgəyaşayış qaydalarına, xalqın adət və ənənələrinə, dövlətin müəyyən etdiyi qanunlara, özünə münasibətdə təzahür edir.

Tərbiyəçi tərbiyə zamanı çalışır ki, tərbiyə olunan şəxslər cəmiyyətdə rəğbətlə qarşılanan davranış qaydaları ilə tanış olsunlar və bu qaydalara əməl etsinlər. Lakin nəzərə alınmalıdır ki,həmin qaydalar heç də hamıda eyni dərəcədə uğurla formalaşmır.

Tərbiyənin məqsədyönlülüyü. Tərbiyə kateqoriyasını səciyyələndirən əlamətlərdən biri onun həmişə məqsədyönlü proses olmasıdır. Tərbiyə uşaq bağçasında, ailədə, məktəbdə, yaxud başqa yerdə aparılsa da, müəllim və ya valideyn, yaxud zabit tərəfindən təşkil edilsə də hansısa məqsədə yönəlir, hansısa məqsədə xidmət edir. Məqsədlər isə müxtəlif ola bilir: yaxın məqsədlər və uzaq strateji məqsədlər. Tərbiyə işinin məqsədi bir halda, məsələn, vətənpərvərlik hissini formalaşdırmaqdan, digər halda düzlük və doğruçuluq hissini inkişaf etdirməkdən, üçüncü halda halallıq şüurunu kamilləşdirməkdən və s. ibarət olur.

Tərbiyənin planlılığı. Gənc nəslin normal, əsil tərbiyəsi təsadüfdən-təsadüfə, necə gəldi aparılmır. Onun qarşısına qoyulmuş vəzifəni həyata keçirmək üçün müəyyən tədbir (tədbirlər) görmək lazım gəlir. Qarşıdakı tədbir ətraflı ölçülüb-biçilir, yəni planlaşdırılır. Tədbiri nədən başlamaq, onu necə, hansı ardıcıllıqla davam etdirmək, bu işə kimləri cəlb etmək, tədbiri necə yekunlaşdırmaq haqqında aydın təsəvvür yaradılır. Belə olduqda tədbir istənilən nəticəni verir.

Tərbiyənin mütəşəkkilliyi. Keçirildiyi yerdən və formadan (yəni qrup və ya kütləvi haldan) asılı olmayaraq, tərbiyəvi tədbir, adətən, mütəşəkkil olur. Məsələn, Şəhidlər Xiyabanına ziyarət nəzərdə tutulduqda, tərtib olunmuş plana uyğun olaraq, iştirakçılar müəyyənləşdirilmiş yerdə toplaşırlar, razılaşdırılmış şəxslər növbə ilə çıxış edirlər, məzarlar üzərinə gül-çiçəklər düzülür, lazım bilindikdə tədbir

yekunlaşdırılır, iştirakçılar öz təəssüratlarını söyləyirlər.

Tərbiyənin əsasən davranışla, sözlə bağlılığı. Adamların bəzilərində sözü ilə əməli bir-birilə üst-üstə düşür: dediyi kimi hərəkət edir. Bəzilərində isə əksinə olur. Nəticədə el arasında birincilər hörmətli, ikincilər nüfuzdan düşür. Bu səbəbdən də bəzən eşidirsən: filankəsin dediyinə yox, əməlinə fikir ver. Bəzən də həmin fikir başqa cür səslənir: filankəsin dediyinə əməl et, əməlindən uzaq ol.

Göründüyü kimi hər iki sonuncu halda ifadə olunan mənəvi keyfiyyətlər cəmiyyətin xeyrinə, əməldə təzahür edən mənəvi keyfiyyətlər isə cəmiyyətin zərərinə yönəlmiş olur.

Tərbiyənin ətraf mühitlə bağlılığı. Tərbiyə iki cür mühitdə: mikromühitdə və makromühitdə cərəyan edir. Mikromühit deyəndə ailə şəraiti, uşaq bağçasının şəraiti, tədris müəssisəsinin şəraiti və s. nəzərdə tutulur. Cəmiyyətdə iqtisadi vəziyyət, sosial durum, ideoloji, siyasi, hüquqi, əxlaqi durum, elm, incəsənət, din və s. makromühit amillərinə aiddir.

Istər mikromühit, istərsə də makromühit amillərində maddi və mənəvi-psixoloji vəziyyət eyni olmur. Bu cür fərqli şəraitdə aparılan eyni tərbiyə işi müxtəlif nəticə verir. Məsələn, müxtəlif maddi və mənəvi-psixoloji xüsusiyyətlərlə səciyyələnən ailələrdə və ya tədris müəssisələrində eyni tərbiyə işindən istənilən nəticə əldə etmək qeyri-mümkün olur. Deməli, həm məhdud mənada, həm də geniş mənada başa düşülən mühit amilləri aparılan tərbiyə işinin səciyyəsini artıra da, azalda da bilər. Bu səbəbdən də tərbiyə işi ilə məşğul olan zaman mühitin necəliyini hökmən nəzərə almaq lazım gəlir.

Tərbiyənin məzmunu. Tərbiyə zamanı adamlara davranışla əlaqədar aşılanan milli və ümumbəşəri mənəvi dəyərlərin məcmuu tərbiyənin məzmununu təşkil edir. Bu cür mənəvi dəyərlər isə çoxdur. Məsələn, vətənpərvərlik tərbiyəsi zamanı adamlara aşılanan mənəvi keyfiyyətlər bunlardır: Azərbaycan Respublikasının ərazisi, uca dağları, müxtəlif ağaclı meşələri, gen dərələri, çayları, gölləri, çölləri, düzənləri, mədəniyyət və incəsənət inciləri, alimləri, sərkərdələri, böyük keçmişi, Vətən eşqi, vətən sevgisi, Vətənə qayğı. Vətənin daha da çiçəklənməsi üçün var qüvvəsi ilə çalışmaq, vətən naminə vuruşa hazır olmaq, tarixdə vətənpərvərlik nümunələri göstərmiş şəxsləri unutmamaq və s. vətənpərvərlik tərbiyəsinin

məzmununu təşkil edir.

Tərbiyənin məqsədi. Məqsədsiz aparılan tərbiyəni əslində tərbiyə adlandırmaq olmaz.

Ümumiyyətlə məqsəd hər hansı işə, tədbirə, fəaliyyətə başlamazdan əvvəl adamın öz şüurunda yaratdığı, arzu etdiyi xəyali nəticədir. Tərbiyənin məqsədi isə tərbiyə işini həyata keçirməzdən əvvəl tərbiyəçinin şüurunda canlandırdığı xəyali nəticədir.

Tərbiyə işinin məqsədi əvvəlcədən dəqiq ölçülüb-biçilməlidir. Tarixdən məlumdur ki, ictimai-iqtisadi quruluş dəyişdikcə tərbiyənin məqsədi də dəyişir. Məsələn, ibtidai-icma dövründə həyata keçirilən tərbiyənin məqsədi yaşlıların bacarıq və vərdişlərini gənc nəslə bilavasitə məişət əməyi zamanı, ov ovlarkən, balıq tutarkən, əkib-becərərkən aşılamaqdan ibarət olmuşdur. Yaxud, quldarlıq dövründə tərbiyə qulları itaətdə saxlamağa kömək edən fiziki və mənəvi keyfiyyətlərin qul sahiblərində formalaşdırılmasına xidmət etmişdir. SSRİ dövründə kommunizm cəmiyyəti qurmağa cəhd göstərilirdi ki, bu cəmiyyətdə tərbiyənin məqsədi hərtərəfli inkişaf etmiş kommunizm qurucuları yetişdirmək idi və s.

Tərbiyənin vəzifələri. Tərbiyənin vəzifələri hər bir halda tərbiyə olunanların yaş xüsusiyyətləri, fərdi və cinsi xüsusiyyətləri nəzərə alınmaqla konkretləşir. Çünki eyni mənəvi keyfiyyət (məsələn, əməksevərlik) haqqında məlumat, anlayış, təsəvvürlərin və bununla əlaqədar olan əməli bacarıq və vərdişlərin səviyyəsi müxtəlif yaş dövrlərində olan, başqa-başqa ailələrdə boya-başa çatan şəxslərdə eyni olmur. Hər bir mənəvi keyfiyyətlə əlaqədar bu cür müxtəlif səviyyə nəzərə alınmaqla müəyyənləşdirilən yaxın tərbiyə vəzifəsi daha tez, daha konkret nəticə verir.

Milli pedaqogikaya görə, təbiyənin uzaq, ali məqsədinə xidmət edən, habelə gənc nəsildə bu və ya digər milli və ümumbəşəri mənəvi dəyərin səviyyəsinə uyğun gələn yaxın, xəyali nəticə tərbiyənin vəzifəsidir.

Tərbiyənin tərkib hissələri. Müasir dövrdə tərbiyənin bir sıra nisbi mənada tərkib hissələri formalaşaraq həyata vəsiqə qazanmışdır: dünyagörüşünün inkişaf etdirilməsi, əxlaq tərbiyəsi, əmək tərbiyəsi,ideya-siyasi tərbiyə, fiziki tərbiyə, estetik tərbiyə, hüquq tərbiyəsi, iqtisadi tərbiyə, ekoloji tərbiyə, ağıl tərbiyəsi.

Əxlaq tərbiyəsinin nümunəsində yuxarıda bildirdik ki, tərbiyənin hər bir tərkib

hissəsi xeyli mənəvi keyfiyyətlərin formalaşdırılmasını özündə ehtiva edir. Fikirlərimizi dünyagörüşü və ağıl tərbiyəsi ilə əlaqədar bir daha konkretləşdirək.

Dünyagörüşünün formalaşdırılması ilə məşğul olan şəxs azı aşağıdakı mənəvi keyfiyyətlərdən hali olmalıdır: 1) ümumi vahid baxışların nədən ibarət olduğunu bilməlidir; 2) bu cür baxışların həm təbiət hadisələrini, həm cəmiyyət hadisələrini, həm də təfəkkür hadisələrini əhatə etdiyini yadda saxlamalıdır; 3) bu hadisələri başa düşməkdə vahid baxışların adamlara yardımçı olduğunu, habelə həyatda onların keyfiyyətlərinə təsir göstərə biləcəyini diqqətdə saxlamalıdır və 4) bundan sonra həmin keyfiyyətlərin adamlarda formalaşmasına qayğı göstərməlidir.

Ağıl tərbiyəsi ilə əlaqədar da belədir. Onun məzmununu təşkil edən mənəvi keyfiyyətlərlə əlaqədar müvafiq tərbiyəvi iş aparılır.

Deyilənləri nəzərə alaraq tərbiyənin tərkib hissələri məfhumunun mahiyyətini açmaq mümkün olmuşdur: şəxsiyyətin strukturunda davranışla əlaqədar məqsədyönlü, planlı və mütəşəkkil formalaşdırılan mənəvi dəyərlərin qruplarına tərbiyənin tərkib hissələri deyilir.

Tərbiyənin növləri: Bu məfhum da pedaqogikaya ilk dəfə daxil edilir. Çətinlik dərəcəsinə görə pedaqogika tərbiyəni üç növə ayırır: ilkin tərbiyə, yenidəntərbiyə və özünütərbiyə.

Ilkin tərbiyə: Tərbiyə işinin nisbətən asan növü ilkin tərbiyədir. Ilkin tərbiyə adamın erkən yaşlarından, anadan olduğu gündən başlayır.

Uşaq boya-başa çatdıqca ata və ananın, qardaş və bacının, baba və nənənin, qohum və qonşuların, yaşıdların düşünərəkdən və ya düşünməyərəkdən ona göstərdikləri təsirlər nəticəsində formalaşmış mənəvi keyfiyyətlər ailə üçün, cəmiyyət üçün faydalı da, zərərli də ola bilər. Uşağın, yeniyetmə və gəncin şəxsiyyətində baş qaldıran mənəvi keyfiyyətlər valideynlər, müəllimlər və digər tərbiyəçilər tərəfindən ailə və cəmiyyət üçün faydalı hesab olunduqca ilkin tərbiyə davam edir. Formalaşan hər hansı mənəvi keyfiyyətin istiqaməti dəyişdikdə, ailə, məktəb və cəmiyyət üçün zərərli hesab edildikdə, valideyn, müəllim və ya digər tərbiyəçi narahat olmağa, başqa tərbiyəvi tədbirlər görməyə məcbur olur; bu cür hallarda yenidəntərbiyə başlayır.

Tərbiyənin növlərinə yaş həddi qoymaq mümkün deyil. Çünki ailə mühitindən,

valideynlərin ümumi mədəni səviyyəsindən, məktəb mühitindən, müəllimlərin münasibətlərindən, sosial-iqtisadi durumdan asılı olaraq bu və ya digər adamların ilkin tərbiyəsi uşaqlıq dövründə də, yeniyetməlik və ya gənclik dövründə də davam edə, yaxud xeyli əvvəl də başa çata və yenidəntərbiyə başlaya bilər. Bu iki prosesin eyni zamanda cərəyan etdiyi hallar da müşahidə olunur.

Söylənilən fikirlərə əsaslanan pedaqogika elmi ilkin tərbiyəni belə başa düşür: davranışla əlaqədar olan, ailə və cəmiyyət üçün faydalı hesab edilən milli və ümumbəşəri mənəvi keyfiyyətlərin gənc nəsildə məqsədyönlü, planlı və mütəşəkkil formalaşdırılması ilkin tərbiyədir.

Yenidəntərbiyə: Yenidəntərbiyə ilkin tərbiyəyə nisbətən xeyli çətindir. Çünki yenidəntərbiyə zamanı valideyn və ya müəllim, yaxud tərbiyə ilə məşğul olan digər şəxs kimi əsas istiqamətdə iş aparılmalı olur. O, bir tərəfdən şəxsin şüurunda həkk olunmuş yanlış əxlaqi və ya digər mənəvi keyfiyyətin yalnışlığını isbat etməli, onu inandırmalı və aradan qaldırmağa çalışmalı olur. Digər tərəfdən də o, dəf edilən qüsurlu xüsusiyyətin əvəzində ailə və cəmiyyət üçün faydalı olan keyfiyyətləri həmin şəxsə aşılamağa çalışır.

Yanlış və zərərli mənəvi keyfiyyətlər şəxsin şüurundan davranışına keçirildikdə tərbiyəçinin işi daha da çətinləşir.

Dünya şöhrətli alim N.Tusi hələ XIII əsrdə yazırdı ki, insanın tərbiyəsi yaşa dolduqdan, özünü anladığı vaxtdan deyil, hələ rüşeym halında olandan başlamalıdır. Rüşeym halında verilən tərbiyə hiss edilmir. Bəzən ata-ana bu işə laqeyddir. Lakin hər necə olursa olsun, buna diqqət verilməli və yeri gəldikcə insanın qəbul etdiyi təam da götür-qoy edilməlidir. Pedaqogikada yenidəntərbiyə məfhumu belə dəyərləndirilir: adamın şüurunda və ya davranışında kök salmış zərərli əlamətlərin məqsədyönlü, planlı və mütəşəkkil surətdə ləğvi və onların əvəzində ictimai əhəmiyyət kəsb edən milli və ümumbəşəri keyfiyyətlərin ona aşılanması yenidəntərbiyədir.

Özünütərbiyə. Ilkin tərbiyəyə və yenidəntərbiyəyə nisbətən özünütərbiyə daha çətin, daha kamil, daha mürəkkəb prosesdir. Çünki əvvəla, ilkin tərbiyə və yenidəntərbiyədə də iki tərəfin (tərbiyəçinin və tərbiyəolunanların) iştirakı zəruri şərtdir. Hər iki halda uşaqlara yeniyetmə və gənclərə aşılanan mənəvi keyfiyyətlər

bilavasitə tərbiyəçilərin nəzarəti və rəhbərliyi ilə reallaşır. Özünütəbiyə zamanı isə uşaq, yeniyetmə və ya daha da yaşlı şəxs tərbiyəçinin nəzarəti və rəhbərliyi olmadan müstəqil, öz təşəbbüsü ilə zəruri saydığı mənəvi keyfiyyətləri mənimsəyir. Deməli, tərbiyəçinin bilavasitə nəzarəti olmadan, lakin onların məsləhətlərinə əsasən şəxsin cəmiyyət üçün faydalı keyfiyyətləri məqsədyönlü və planlı surətdə mənimsəməsi özünütərbiyədir. N.Tusinin, K.D.Uşinskinin, L.Tolstoyun və başqalarının özünütərbiyə nümunələri tarixdən məlumdur.

Çox qədim tarixə və zəngin mədəniyyətə malik olan, coğrafi cəhətdən türk-islam dünyasının mərkəzində yerləşən Azərbaycan və bu yurdun qədim sakinləri olan azərbaycanlılar hələ qədim zamanlardan yazı və oxu mədəniyyətinə malik olmuş, dövrün, ictimai həyatın xüsusiyyətlərinə uyğun təhsil ocaqları yaratmış, insanları inkişafa, tərəqqiyə, yüksək əxlaqa səsləyən müdrik fikirlər söyləmişlər. Zaman-zaman ölkəmizə edilən basqınlar üzündən ulu babalarımızın yaratdıqları zəngin elmi, ədəbi və pedaqoji irsin mühüm bir qismi tələf edilmiş, böyük bir mənəvi xəzinə vətənimizdən çıxarılmış, başqa ölkələrə aparılmış və bir qismi də zəmanəmizə gəlib çıxmamışdır.

**2.** Zəngin şifahi xalq ədəbiyyatımız – “Dədə Qorqud”, “Bilqamıs”, “Alp ər Tunqa”, “Oğuz”, “Ərkənəkun”, ”Köç”, “Manas” kimi dastanlar, Oğuznamələr, Ustadnamələr türk dünyası və xalqımızın qədim tarixindən, onun ictimai mədəni həyatından, zəkasından, istək və arzularından, tərbiyə və təhsil səviyyəsindən xəbər verir. Qobustan, Gəmiqaya, Oğlanqala, Kültəpə, Orxan kitabələri və daha bir çox qayaüstü yazılı abidələrimiz xalqımızın yazı yazmaq, oxumaq, hesablamaq, rəqs etmək və s. mədəni, təhsil vərdişlərinə sahib olmasından xəbər verir. Tariximizin çox qədimliyini göstərən arxeoloji qazıntılar, əldə edilmiş maddi, mədəni nümunələr, xaraba şəhər və qəsəbələr Azərbaycanın ayrılmaz bir parçası olan Naxçıvanda hələ daş dövründən istifadə edilən duz mədəni və buradan tapılmış daş baltalar, buradakı müalicəxana çox uzaq keçmişdən xəbər verir. Bütün bunlar Azərbaycan xalqının hələ miladdan əvvəl mədəniyyətə, yazıya, oxuya, təlim-tərbiyə mədəniyyətinə sahib olduqlarını təsdiq edir.

Qobustan qayaüstü rəsmlərinin təhlilindən məlum olur ki, buradakı tərbiyə məsələləri əsas etibarı ilə ovçuluq, əməksevərlik, peşəyə, sənətə məhəbbət, fiziki

tərbiyə, təsviri sənət, rəqs musiqi, estetik yərbiyə kimi keyfiyyətlər gənc nəslə aşılanmışdır. Ovlanacaq heyvanı düzgün nişan almaq, atmaq, silah (ox, nizə, kaman) hazırlamaq və ondan bacarıqla istifadə etmək, eləcə də əmək alətləri hazırlamaq və istifadə etmək, qida əldə etmək kimi bacarıq və vərdişləri gənc nəslə öyrətmək tərbiyə vasitəsi olmuşdur. Qobustan mütəxəssisləri qeyd etmişdir ki, burada böyük öküz rəsmlərində nizə və ox izləri indi də görünür. Bu, o deməkdir ki, qədim qobustanlılar vəhşi öküz ovlamağı öyrənmək üçün qayanın üstündə rəsm edilmiş öküz fiquruna nizə, yaxud ox atmaqla gənc nəslə təcrübi olaraq məşqlər keçmiş, onları buna öyrətmişlər. Gənclər məşq prosesində ox və ya nizə atmağın sirlərini təcrübəli böyüklərdən, ağsaqqal ata və dədələrdən öyrənmişlər. Demək bəsit şəkildə olsa bugünkü pedaqoji dillə desək, əyani vəsaitlə müşaiyət edilən təcrübi məşğələlərin əhəmiyyəti qədim insanlarımıza bəlli olmuşdur. Yetişən gənc nəsil müxtəlif oyun, rəqs, mərasimlər, adət və ənənələr vasitəsilə xalqın müəyyən etdiyi əxlaq normalarına yiyələnirdilər. Rəqs və mərasimlər zamanı gənclərdə əməksevərlik, həyatsevərlik, kollektivçilik, insanpərvərlik, birlik, qarşılıqlı yardımlaşma, qoçaqlıq, çeviklik və bir sıra əxlaqi, iradi keyfiyyətlər tərbiyə edilib formalaşırdı. Qayalardakı rəsmlər, rəqs səhnələri, daş qaval, piktoqrafik işarələr maarif və mədəniyyət tariximizin qədimliyindən, insanların estetik və bədii tərbiyəsindən xəbər verir. Uşaqlar və gənclər oyun və rəqsləri müşahidə etməklə və ya praktik olaraq bu prosesdə iştirak etməklə qəbilə və ya tayfanın adət və ənənələrini mənimsəyir, onları yadda saxlayıb digər gələn nəsillərə ötürürdülər.

Gəmiqaya, Oğlanqaya, Kültəpədə, eləcə də Kəlbəcər, Zəngəzur, Göyəm dağlarının (indiki Ermənistan ərazisində), habelə Cənubi Azərbaycan abidələrinin, xüsusilə Qaradağ üzərindəki qayaüstü təsvirlərində insanların iqtisadi, mədəni, mənəvi həyatını əks etdirən müxtəlif işarələr, simvollar, damğalar, (dairə formalı, düz, sınıq xətt, haça şəkilli, qarmaq şəkilli, “P”, “T” şəkilli işarələr, “həyat ağacı” təsvirləri) aşkar edilmişdir ki, onlara pedaqoji yöndən yanaşdıqda deyə bilərik ki, onlar qədim insanların bilik, savad və mədəni səviyyəsini, yazı mədəniyyətini, rəssamlıq, heykəltaraşlıq bacarığını, inancını göstərən dəlillərdir. Digər tərəfdən bu işarələrin müxtəlif yerlərdə oxşarlığı regionun qədim insanlarının bir-birilə iqtisadi-mədəni əlaqələrindən xəbər verir. Qədim insanlarımızın daşlar üzərində qoyduqları

müxtəlif məzmunlu izlər, işarələr, rəsmlər maarifləndirici, inkişafetdirici, tərbiyəedici olmaqla qədim insanların "öyrətmə-öyrənmə mexanizmi"ni, tərbiyə və təhsil işlərini bəsit şəkildə də olsa bizə bildirir.

Qədim dövr – ibtidai icma quruluşunda yetişən nəslin tərbiyəsinə, icmanın əxlaq normalarına əməl edilməsinə şübhəsiz qəbilə və tayfanın ağsaqqalları, ataları, dədələri, təcrübəli, bilikli insanları rəhbərlik edir, icmaya və onun üzvlərinə məsləhət və istiqamətlər, öyüd və nəsihətlər verirdi. Buna görə də atalar, dədələr, ağsaqqallar bir tərbiyəçi kimi hörmətli şəxs hesab edilir, onlara pərəstiş edilir, hətta sitayiş ayinləri də meydana gəlmişdi ki, bunu tunc dövrünün daş kitabələrində görmək mümkündür.

Urmiya gölünün ətrafından başlayaraq, zaman-zaman Dəclə və Fərat vadiləri də daxil olmaqla, İran körfəzinə qədərki ərazilərdə e.ə. III-II minilliklərdə Aratta, Lullubi və Kuti qəbilə tayfaları yaşayırdı. Bu əyalətlərdəki təlim-tərbiyə mədəniyyəti haqqında da müəyyən məlumatlara görə Aratta inkişaf etmiş Şumer dövləti ilə həmişə sıx iqtisadi, siyasi, mədəni əlaqələrdə olmuşdur. Bu əlaqələr haqqında bir neçə Şumer dastanında, o cümlədən "En-Merkar və Aratta hökmdarı" dastanında ətraflı məlumat verilmişdir. Bu dastanlarda Aratta saf, təmiz ənənələr ölkəsi adlandırılır. Şumerin Uruk şəhər dövlətinin hökmdarı En-Merkar ilə Aratta hökmdarı arasında gah dostluq, gah da düşmənçilik münasibətləri mövcud olmuşdur. Bu hər iki hökmdarın yazışmalarından bəlli olmuşdur.

Zaman keçdikcə Azərbaycanın dövlətçilik mədəniyyəti daha da yüksəlmiş, ölkə ərazisində daha təkmil və daha geniş əraziləri əhatə edən yeni dövlətlər yaranmışdır. Eramızdan əvvəl I minillikdə - bizim eranın I minilliyinin əvvəllərində Azərbaycan torpaqlarında Manna, İskit (Skit, Skif) şahlığı, Atropatena və Albaniya kimi qüvvətli dövlətlər yaranmışdır. Bu dövlətlər Azərbaycanda dövlət idarəçiliyi mədəniyyətinin, maarifinin daha da yüksəlməsində, ölkənin iqtisadi-mədəni tarixində mühüm rol oynamışlar. Prof. V.Z.Piriyev haqlı olaraq yazır ki, mannalılar bugünkü azərbaycanlıların əcdadları olmuşlar.

Manna quldarlıq dövləti idi. Burada maldarlıq, atçılıq, incəsənət, memarlıq sürətlə inkişaf etmişdi. Sənətkarlar qiymətli metallardan müxtəlif əşyalar hazırlayır və onların hazırlanmasını da gənc nəslə öyrədirlər. Mannada uşaq və yeniyetmələrin

tərbiyəsində bütpərəstlik ayin və mərasimlərinin, meydan tamaşalarının, qəbilə və tayfa adətlərinin müşahidəsi, habelə böyüklərin maddi nemətlər əldə etmələri təcrübələrinin öyrənilməsi mühüm tərbiyəvi əhəmiyyət kəsb edirdi. Uşaqlar böyüklərdən öyrənir, təlim və tərbiyə alırdılar.

Mannalıların zəngin şifahi xalq ədəbiyyatı – ağız ədəbiyyatı da olmuşdur. Bu xalqın müxtəlif məzmunlu nağılları, dastanları, müxtəlif janr şerləri, bayatıları olmuşdur ki, bu ədəbiyyat nümunələri gənc nəslin mənəvi tərbiyəsində demək olar ki, dəyərli pedaqoji əsərlər sayıla bilər. Əlimizdə o dövrün ədəbiyatına dair nümunələr olmasa da qədim alimlərin yazılarından onlar barədə müəyyən məlumat, təsəvvür əldə etmək mümkündür. Qədim yunan tarixçiləri yazırlar ki, Manna şahlarının saraylarında şairlər olmuşdur ki, onlar mövzularını, öz şerlərini milli, şifahi xalq dastanları və rəvayətlərindən almışlar.

Atropatena ilə bərabər Azərbaycanın şimalında Albaniya dövləti də mövcud idi ki, mərkəzi əvvəlcə Qəbələ, sonra Bərdə şəhəri olmuşdur. Albaniya dövründə Azərbaycanın dövlət idarəçiliyi, maarif və mədəniyyəti xeyli yüksəldi. Alban hökmdarları ölkənin dünyəvi və dini başçısı hesab olunurdular.

Mənim Şərq ölkəmi bürüdü kədər,
Yayılmış cahana bu qara xəbər.
Qoy ellər eşitsin səsimi mənim,
Səsimə səs verib ağı desinlər!
Sakit həyatımız matəmlə doldu,
Bizə soyğunçular müsəllət oldu.
Misilsiz bir dövlət çökdü kökündən,
O parlaq şüası saraldı soldu.

Davdağın bu şerində qoçaq sərkərdə və ağıllı dövlət xadimi Cavanşirin mərd sifətləri, əxlaqi-mənəvi keyfiyyətləri, vətənpərvərliyi tərənnüm edilir, bu keyfiyyətlər gənclərə nümunə göstərilir və bu gün də onun qəhrəmanlığı məktəblilərimizin vətənpərvərlik tərbiyəsində bir nümunədir. Xalqımızın vətənpərvər oğlu, ulu öndərimiz Heydər Əliyev çıxışlarının birində bu barədə belə deyirdi: "Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, vətənin bütövlüyü, xalqın birliyinin təcəssümü olmuşdur."

**3.** Zərdüştlük qədim və erkən orta əsrlərdə Azərbaycan, İran, Orta Asiya və bir sıra başqa ölkələrdə geniş yayılmış bir fəlsəfə, ədəbi abidə, pedaqoji fikir və din olmuşdur. Zərdüşt dininin müqəddəs dini kitabı "Avesta" ("Qanun") adlanır. "Avesta"nın ilkin variantı bizə gəlib çatmamışdır. Bu kitabın yalnız müəyyən hissələri bəzi əlavələrlə, dəyişikliklərlə bizə gəlib çatmışdır.

Tədqiqatçı alim B.C.Şərifzadə Zərdüştün vətəninin Azərbaycan olduğunu, onun Savalan dağının yanında, Duruca çayı sahilində doğulduğunu, həm Cənubi Azərbaycanda Savalan dağı, Savalan kəndi, Duruca çayı və Zərdüştlüklə bağlı saysız toponimika və məişət ayinlərinin indi də olduğunu qeyd edir. Professor Ə.R.Yaqubi Zərdüştlük haqqında belə yazır: "Zərdüşt öz əqidəsini ilk dəfə olaraq Azərbaycanda təbliğ etmişdir". Cənubi Azərbaycan alimi Məhəmməd Tağı Zöhtabı da öz əsərində Zərdüştün vətəninin Azərbaycan olduğunu, "Avesta"nın Azərbaycanda yazıldığını söyləmişdir. O, "İran türklərinin əski tarixi" adlı əsərində yazır: "Zərdüşt dininin ilk ruhaniləri olmuş "Muğ"lar Midiya hökuməti torpaqlarında yaşamışlar" (23,50).

Akademik H.M.Əhmədov Azərbaycanda məktəb təhsili dövrünün Zərdüşt məktəbləri ilə başladığını bildirmişdir. Mənbələrdən də məlum olur ki, islamiyyətin yayılmasına qədər Azərbaycanda Zərdüşt məktəbləri daha geniş fəaliyyət göstərmiş, atəşkədə və atəşgahlar Zərdüştlüyün həm ibadət yeri, həm də təlim, tədris mərkəzləri kimi fəaliyyət göstərmişdir. Bunlar da Azərbaycanda məktəb təhsilinin əsasını təşkil etmiş və təməl amillərdən olmuşdur.

Bu dövrdə yüksək silkə malik olan şahzadələrin, rütbə sahiblərinin uşaqları Saray məktəblərində gənclərin təlim-tərbiyəsi ilə şahzadələr və yüksək səviyyəli müəllimlər məşğul olurdular. Bu məktəblərdə dövlət üçün kadrlar hazırlanırdı.

Zərdüşt məktəblərində təlim "Avesta" duaları, ayinləri və nəğmələri ilə başlayırdı. Daha sonra əlifba və oxu təliminə keçilirdi. Məktəblərdə fiziki tərbiyəyə, uşaqların sağlam həyat tərzinə xüsusi diqqət yetirilir, "Avesta"nın "Xəstələnmə", "Zəifləmə"- kimi çağırışları əzbərlədilir və ona əməl edilirdi. Xəstəlik, zəiflik, pislik Əhrimanın əməlləri hesab olunurdu. Ox atmaq, nizə tullamaq, üzmək, ov etmək, qurşaq tutmaq kimi fəaliyyətlər fiziki tərbiyənin əsas məzmununu təşkil edirdi. Ona görə də şərə qalib gəlmək üçün sağlam, təmizkar və qüvvətli olmaqla bərabər, məktəbdə dərin bilik almaq tələb edilirdi. Yazıb-oxumaq, bilik qazanmağın mühüm

şərti hesab edildiyindən Zərdüştlükdə buna ciddi fikir verilir, uşaqların əqli qabiliyyətləri inkişaf etdirilirdi. Bununla əlaqədar prof. R.L.Hüseynzadə yazır: "Zərdüşt məktəblərində öyrədilirdi ki, insan həmişə mülayim, xoşxasiyyət, adil və xeyirxah, fitnə-fəsaddan,qəddarlıqdan, paxıllıqdan, yalançılıqdan uzaq olmalıdır. O, cəmiyyətin fəal üzvü kimi əkinçiliklə, maldarlıqla məşğul olmalı, bataqlıqları qurudub onun məhsuldar torpağa çevrilməsinə səy göstərməlidir.

Zərdüşt məktəblərində yetişən gənc nəslin mənəvi-əxlaqi tərbiyəsinə xüsusi diqqət və əhəmiyət verilirdi. Belə ki, zərdüştlüyün əxlaqi idealı xeyirxahlıq, ədalət, yaxşılıq olduğundan Zərdüşt təlimində yaxşılıq və pislik anlayışı kəskin şəkildə qoyulur və bunların mahiyyəti açılır: "Anlayan adam gərək pisi deyil, yaxşını seçə" fikri irəli sürülür" (23,48).

Zərdüşt məktəblərində ibtidai təhsil 7 yaşdan 15 yaşa qədər davam edirdi. Ibtidai təlim ilə məşğul olan müəllimə "Hirbod", şagirdlərinə isə "Həvişt" deyilirdi. Ibtidai təhsil səhər tezdən xüsusi mərasimdə və dua ilə başlayırdı. "Avesta" duaları dini ayin və mərasimlərin, nəğmələrin öyrədilməsi, əzbərlədilməsi ibtidai təhsilin əsas məzmununu təşkil edirdi. Ona görə də ruhanilər "Avesta" dualarında "Elm ilahəsi"ndən qüvvətli hafizə diləmişlər. Oğlan uşaqlarının 7 yaşı tamam olandan sonra onlara müqəddəs köynək geyindirilir, onları münəccimlərlə bir sıraya üzü günəşə doğru düzüb dini "Avesta" ayinlərini əzbərlədirlər: "Mən vəd edirəm ki, Zərdüştlüyə sadiq olacam. Mən xeyirxah fikrə, xeyirxah sözə, xeyirxah əmələ inanıram." Bundan sonra uşaqlara hədiyyələr verilirdi. Bu məşğələ gündə 5 dəfə təkrar edilirdi.

"Avesta"da insanların yüksək məqsədə, xoşbəxtliyə çatmasında müəllimin roluna yüksək qiymət verilməklə bərabər, həm də bunun əksi olaraq göstərilir ki, pis müəllim isə uşağın şüurunu, əqlini pozar, onu bədbəxt edər: "Pis müəllim şüuru korlar, sözün mənasını çatdırmaz, ağlın inkişafını dayandırar, təlim-tərbiyə işini fəsada çevirər. Nəticədə həyatın təbii axınına və gözəlliyinə zərər yetirər" (23,49).

"Avesta"da ataların vasitəsilə övlada verilən tərbiyəyə dair xüsusi fəsil ayrılmışdır. Həmin fəslin xülasəsində deyilir ki, təlim-tərbiyə varlığın bünövrəsi kimi mühüm əhəmiyyətə malikdir. Hər bir şəxs müəllim və tərbiyəçilərin vasitəsilə yazıb oxumağı öyrənməli, həm də özünün sağlamlığına ciddi fikir verməlidir. Yalnız bu

yolla insanlar yüksək nailiyyətlər əldə edərlər.

Zərdüşt müəllimlərlə yanaşı, alimlərin də roluna yüksək qiymət verir: "Çalışın ki, alim ilə cahil arasında fərq qoyasınız. Alimlər həyatın yol göstəriciləridir" (23,49).

"Avesta"da müəllim və şagird münasibətləri haqqında məlumatların verilməsi bu dövrdə Azərbaycanda digər məktəblərin, təhsil ocaqlarının, tədris müəssisələrinin olmasından da xəbər verir.

"Zərdüşt yüksək pedaqoji dəyərə malik müdrik fikirlər söyləmişdir ki, onlar "Avesta" kitabında öz əksini tapmışdır. "Avesta" insanları halal zəhmətə, vətənə sədaqətə, düzlüyə, şər qüvvələrə qarşı mübarizəyə səsləyir. "Avesta"da təsvir olunan mühit, günahlarını yuyan, xeyirxah ruhlara sədaqət nümayiş etdirən, dualar oxuyan adamların mənəviyyatı, həyatı olduqca ibrətamizdir. Bu təlimi öyrənməklə adamlar çətin vəziyyətlərdə Allaha dua etmiş, şər qüvvələri lənətləmiş, xeyirin və xeyirxahlığın himayəsinə sığınmışlar. "Avesta"da xeyir və şər anlayışları bir əxlaqi, mənəvi kateqoriya kimi nəzərdən keçirilir. "Avesta"da bütün kainatı, insanlığı, xeyirxahlığı Hürmüz (Ahurə-Məzdə) idarə edir. Əhriman isə (Ahura-Manyu) şərin, bədxahlığın, hiylənin timsalıdır" (23,49-50). Zərdüştlük xeyirin şər üzərində, işığın zülmət üzərində qələbəsinə inam və etiqaddır. Gec-tez xeyir qələbə çalacaqdır. "Avesta"nın əsas ideyasında xeyirin şər üzərində qələbəsi ilk növbədə insanların xeyirli biliyindən, yaxşı düşüncəsindən və faydalı əməlindən irəli gəlir. Buna görə də "Avesta"da elm və biliklərə yiyələnmək, əqli tərbiyə, xeyirxahlıq əsas dini vəzifə hesab olunur. Bütün bunlar isə öz başlanğıcını üç müqəddəs kəlamdan alır: 1) Xeyirxah fikir; 2) Xeyirxah söz; 3) Xeyirxah əməl. Pedaqoji elmlər doktoru, prof. Ə.Ə.Ağayev "Avesta"da şəxsiyyətin tərbiyəsi məsələsinə toxunaraq yazır: "Avesta"nın müəllifi Zərdüştün (b.e.ə. 596-492) təliminə görə bu dünyada hər şey bir-birinə əks olan iki başlanğıca bölünüb: Xeyir və Şər başlanğıcına. Ümumiyyətlə, Azərbaycan pedaqoji fikrində şəxsiyyət tərbiyəsinin əsas mahiyyəti xeyir və şərin vəhdətini özündə birləşdirir..." Qədim Azərbaycan pedaqoji fikri şəxsiyyətin mahiyyətini xeyirdə-yaxşı düşünməkdə, yaxşı danışmağa (ünsiyyətdə) və yaxşı işlərdə (fəaliyyətdə) görür. Bu keyfiyyətləri özündə daşıyan şəxs əsl şəxsiyyət hesab edilir.

"Avesta"nın "Yəştha" adlı bölməsində "Çista" elm və bilik ilahəsi kimi

göstərilmişdir. Zərdüşt "Çista" ilahəsinə xitabən belə demişdir: "Sən əgər irəlidə olsan, məni gözlə, əgər geridə qalsan özünü mənə çatdır". Bununla Zərdüşt hər cür durğunluğun əleyhinə olaraq hamını fəaliyyətdə olub elm, bilik qazanmağa çağırmışdır. Buna görə də "Avesta"da elmə yiyələnmək əsas dini vəzifələrdən biri hesab edilmişdir. "Avesta"da təlim-tərbiyə məsələləri ilə bağlı göstərilir ki, təhsil almaq məqsədilə yanınıza kimsə gəlib sizə müraciət edirsə, o şəxsin kim olmasından asılı olmayaraq onu qəbul et və istədiyini ona öyrət.

"Avesta" dualarının birində valideyn Hürmüzdən "yaxşı rəftarlı, şüurlu övlad" diləyir. Demək, Hörmüzün oğlu hesab edilən Azərdən şüur və zəka istənilmişdir. Bu ifadələrdən məlum olur ki, Zərdüştlükdə əxlaqi, əqli tərbiyə əsas diqqət mərkəzində olmuşdur. Əqli tərbiyə isə təlim vasitəsilə həyata keçirilir. Təlim isə müəllimin rəhbərliyi və müşaiyəti ilə keçirilən pedaqoji prosesdir.

"Avesta"da mənəvi dəyərlər – xeyirxah fikir, xeyirxah söz və xeyirxah əməl üçlüyündə öz ifadəsini tapır. Burada əxlaqi-mənəvi proses üç mərhələyə bölünür. Əvvəlcə xeyirxah fikir yaranmalı, sonra bu fikir sözdə ifadə edilməli və nəticədə xeyirxah əməldə özünü göstərməlidir. Bu üç mənəvi keyfiyyət ailə münasibətlərində, icmada və vilayətdə hər zaman öz əksini tapmalıdır. "Avesta"da deyilir ki, "Tərbiyə həyatın ən zəruri sütunu hesab edilməlidir. Hər kəsi elə tərbiyə etmək lazımdır ki, o, oxumağı, yazmağı bacarmaqla yüksək pilləyə qalxa bilsin."

"Avesta"da tərbiyə məsələləri maddi və mənəvi təmizliyə əsaslanır. Yəni 1) fiziki təmizlik (bədən, geyim, ev-eşik təmizliyi); 2) mənəvi təmizlik (əqidə və əməllərin saflığı). Burada insanın həm bədəninin təmizliyi, ev-eşik, geyim təmizliyi, həm də mənəvi təmizlik – yəni insanın daxili təmizliyi nəzərdə tutulur. "Avesta"da insana qiymət, insan şəxsiyyəti yüksək dəyərləndirilir, onun ağlına, yaxşı əməllərinə inam, xeyirxahlığa çağırış, günahsız, pak yaşamaq anlayışı təlqin edilir. "Yəsnə"nin 19-cu bəndində deyilir: "Uğurlu düşüncə nədir? Müqəddəs kəlam. Uğurlu əməl nədir? Müqəddəs yaranmışları üstün tutaraq onlara sitayiş etmək." 33-cü bənddə bu fikir daha da inkişaf edir: "Yalan din əleyhinə öz sözü, düşüncəsi və əməli ilə mübarizə edənlər, eləcə də öz adamlarına yaxşılıq öyrədənlər Ahura Məzdanın istədiyini yerinə yetirmiş olurlar." Burada "Xeyirxahlıq", "Yaxşılıq" bir əxlaqi kateqoriya kimi xeyirxah idrak və xeyirxah fikirdən irəli gəlmişdir. Ona görə də

Zərdüşt insanları fikrində, sözündə, əməlində xeyirxahlığa, yaxşılığa çağırır.

"Avesta"da insanlar öz millət və irqlərinə görə deyil, onların dinə olan münasibətlərinə görə 2 yerə (imkanlılar və imkansızlar) ayrılırlar. Burada göstərilir ki, dünyanın sonunda hər kəs öz əməllərinə, əqidəsinə görə cavab verəcəkdir. Ona görə də insanın düşüncəsindən irəli gələn söz və əməl xeyirli və faydalı olmalıdır.

Zərdüşt "əkinin və bol məhsullu tarlanın da, gözəl ailənin" də əsasını düzlük və gözütoxluqda görürdü. Bunların hər ikisi insanı nəfsə qalib gəlməyə, intizamlı və mütəşəkkil olmağa sövq edir. "Avesta"da insanları zəhmətə, əməyə, müqəddəs yola dəvət, düzlüyə, doğruçuluğa qüvvətli təlqin vardır: "Kim taxıl səpir, məhsul becərirsə, o, möminlik, düzlük, doğruçuluq, təmizlik əkib becərir, həyata, insanlara xoşbəxtlik və səadət gətirir." Zərdüşt kəlamlarında pəhrizkarlıq düzlük və doğruçuluğun əsası kimi təlqin edilir: "Düzlüklə pəhrizkarlıq birləşəndə əsl insanlıq cilvələnir. Gəlin hamımız üz tutub bu səmtə yollanaq".

Beləliklə, deyə bilərik ki, Zərdüşt məktəbləri Azərbaycan məktəb təhsilinin təşəkkülündə, inkişafında mühüm mərhələni təşkil etmiş və Zərdüştün müqəddəs kitabı "Avesta" insanların mənəvi, əxlaqi keyfiyyətlərinin formalaşmasında, inkişafında və təkmilləşməsində böyük əhəmiyyət kəsb etmişdir ki, bu da Azərbaycan məktəb və pedaqoji fikir tarixinin mühüm qolunu təşkil etməkdədir.

Xalqın tərbiyə sahəsində tarix boyu irəli sürdüyü fikir və ideyalarının bir qismi onun adət və ənənələrində, etnoqrafik və tarixi sənədlərində, folklor materiallarında ifadə olunmuşdur. Xalq müdrikliyi bizim ulu babalarımızın təcrübəsi ilə yaranaraq dərin mənaya malik olub, insan əqlinin, şüurunun, təfəkkürünün, zövqünün və mənəviyyatının formalaşmasında, təbiət və cəmiyyət hadisələrini düzgün dərk etməsində, adamları doğru yola çəkməkdə, onları pis əməllərdən uzaqlaşdırmaqda mühüm rol oynamışdır. Xalq pedaqoji fikrində milyonlarla əql və kamal sahiblərinin sınaqdan çıxmış müdrik fikirləri, hikmətli söz və ifadələri ən gözəl və ən nəcib mənəvi keyfiyyətləri toplanmışdır. Xalq müdrikliyi hər bir insan üçün ağıl mücrüsü, yaxşı məsləhətçi, dərrakəli nəsihətçi və etibarlı mənbə hesab oluna bilər. Bu mənada deyə bilərik ki, xalq ən yaxşı tərbiyəçidir. Pedaqoji fikir tariximizin görkəmli nümayəndəsi, professor Əhməd Seyidov bu barədə belə yazırdı: "Bizim mədəniyyət tariximizin ümumi mənzərəsində gənc nəslin təlim və tərbiyə məsələləri görkəmli yer

tutmuş və tutmaqda davam edir. Atalar sözü, zərbi-məsəllər, nağıllar xalqımızın bütün folklor materialı buna parlaq misaldır. Xalq yaradıcılığı Azərbaycanda pedaqoji fikrin ilk carçısı olmuşdur" (48,32).

**4.** Prof. R.L.Hüseynzadə yazır: "Xalqın insanlarının təlim-tərbiyəsi, təhsili ilə bağlı söylədiyi müdrik fikirlər daha çox atalar sözləri və zərbül-məsəllərdə, nağıllarda, dastanlarda toplanmışdır ki, bu barədə xeyli əsərlər yazılmış, dissertasiyalar müdafiə edilmişdir. Amma, xalqımızın müdrik fikirlərinin bir çoxu "Oğuznamə"lərdə toplanmışdır ki, bu qiymətli əsərin ilk dəfə pedaqoji yöndən tədqiqi və əsərin mənəvi-əxlaqi cəhətlərinin təhlili onu göstərir ki, "Oğuznamə"lər xalqın müdriklik xəzinəsi, insanlara ibrətamiz öyüd və nəsihətlərdir" (23,177). Görkəmli alim Əmin Abid yazırdı ki, azərbaycanlıların ən qədim ədəbiyyatı xalq ədəbiyyatıdır ki, bu da "Oğuznamə"lərdir. "Oğuznamə"lər miladi tariximizin ilk əsərlərindən başlayaraq XVIII əsrə qədər gəlmişdir.

Azərbaycanın Oğuz elinə daxil olması tarixi faktlardan məlumdur. Bir çox alimlər oğuzların Azərbaycanda, Anadoluda eradan çox-çox əvvəllər yaşadıqlarını qeyd etmişlər. Faruq Sümərin "Oğuzlar" əsərində deyilir: "Oğuzlar azərbaycanlıların əcdadlarıdır... Oğuzlar Türkiyə türkləri, Azərbaycan türkləri, İran və Türkmənistan türklərinin atalarıdır" (23,177).

Bizə məlum olan bir neçə "Oğuznamə" mövcuddur. Daha qədim, daha geniş yayılmış və dərin məzmunlu "Oğuznamə"ni ilk dəfə olaraq XIX əsrin əvvəllərində alman F.Dits bəzi hissələrini almancaya tərcümə edib 1815-ci ildə Berlində nəşr etmişdir.

Oğuz xanın tarixi-əfsanəvi şəxsiyyət olması haqqında, onun yüksək qəhrəmanlığı, şücaəti, əxlaqi-mənəvi keyfiyyətlərə sahib olması haqqında Yazıçıoğlu Əlinin "Səlcuqnamə"sində də, "Oğuznamə" parçalarında da görmək olar.

Daha bir "Oğuznamə" haqqında XIV əsrin tarixçisi Əbubəkr İbn Abdulla İbn Aybək əd-Dəvadari məlumat vermişdir. Dəvadari X əsrə qədər Azərbaycan tarixində baş vermiş hadisələr haqqında yazdığı kitabında "Oğuznamə"nin adını çəkir. Təəssüf ki, adını çəkdiyi kitab hələ tapılmamışdır. Amma, başqa mənbələrdən məlum olur ki, bizə gəlib çatmayan həmin "Oğuznamə"də Təpəgöz haqqında danışılır ki, bu da Dədə Qorquddakı Təpəgöz sərgüzəştlərindən bir qədər fərqlidir. Belə ki, Təpəgöz əcaib,

nəhəng bir məxluq imiş, təpəsində bir göz varmış. Anası böyük dənizin cinlərindən, atası nəhəng bir adam olmuşdur. O, məmləkəti dağıdır, insanları öldürür, yeyirdi. Nəhayət Oğuzların içindən yetişən Ərs (Aruz) oğlu Busat adında bir qəhrəman Təpəgözü öldürmüşdür. Bu hadisə belə olmuşdur: Bir qız varmış, onu yeyən adama gedəcəyini bildirmişdir. Büsat bu qızı yendi və bu qızla bərabər atasının yanına gəldi, qızı yendiyini bildirdi. Atası da cavab olaraq bildirdi ki, mən elə sandım ki, Təpəgözü öldürmüşsən. Büsat bu sözün üzərinə həmən getdi və Təpəgözü əqlin qəbul etmədiyi bir yolla öldürdü. Əmin Abid bu məlumatdan çıxış edərək yazır ki, "Oğuznamə"lər V-VII əsrlərə aiddir.

"Oğuznamə"lərdən məlum olur ki, Oğuzun altı oğlu olmuşdur. Bunların hər biri mifik adlar daşımaqdadır: Gün, Ay, Ulduz, Dağ, Dəniz. Oğuzun bu altı oğlunun hər birinin dörd oğlu olmuşdur. Bunlardan meydana gələn oğuz boyları Oğuzun bu iyirmi dörd nəvəsinin adlarını almışdır. Haqqında danışdığımız "Oğuznamə" Dədə Qorqud oğuzlarının həyat tərzini, məişətini, adət və ənənəsini, mənəvi, əxlaqi keyfiyyətlərini əks etdirir. "Oğuznamə" də deyilir: "Mən sənə başımı, canımı verərəm, vergi verib dostluqdan çıxmaram. Oğuz Kağan cavanın sözünü bəyndi, sevindi, güldü".

""Oğuznamə"lər yetişən gənc nəslimizdə milli mənlik, milli özünüdərk, milli müstəqillik təfəkkürünü və şüuru formalaşdırır, insanlarımızda milli dövlətçilik, vətən, millət sevgisi, böyüklərimizə, ulularımıza hörmət tələb edir. "Oğuznamə"lərdə ulu babalarımızın həyat tərzi, adət-ənənələri, Oğuz xaqanı və Oğuz bəylərinin qəhrəmanlıq səhifələri əks etdirilmişdir. Bu mənəvi abidə qədim və erkən orta əsrlər dövrünə aid olub nəsillərin təlim və tərbiyəsində, yaşayış tərzində, ədəb-ərkanında mühüm rol oynamış və ümumtürk pedaqoji fikrinin formalaşmasına, inkişafına qüvvətli təsir göstərmişdir" (23,181).

"Oğuznamə"lərdəki atalar sözləri və zərbül məsəllərin bir qismi Dədə Qorqud kitabının əvvəlindəki ata sözlərinin eynisidir. Dədə Qorqud hekayələri Oğuz dastanının bir hissəssi və ya davamı kimi də adlandırıla bilər.

Həm Oğuzun, həm də Dədə Qorqudun ümumi cəhətlərindən biri müəyyən əşyalara ad verməsidir. Məsələn, Oğuz Xaqan müəyyən hadisələrlə bağlı "Xalaç, Kanqli, Karluq, Qıpçaq" və s. adlar verilmişdir. "Oğuznamə"də belə deyilir: "ər

ləqəbi ilə tanınar". Demək oğuzlar arasında "ər" – igid sayılmaq üçün onun qəhrəmanlığına uyğun bir ləqəb qazanması zəruri imiş. Ləqəb şəxsiyyətin kimliyini müəyyənləşdirən vacib titul sayılırmış. "Dədə Qorqud" qəhrəmanlarının adı konkret iş, əməllə, qəhrəmanlıq hadisələri ilə bağlı olur. Məsələn, Buğac, Bamsı Beyrək, Basat və s.

"Oğuznamə"lər bütün dövrlərdə xalqın qiymətli tərbiyə vasitəsi, yaradıcı insanların müraciət mənbəyi olmuş və xalq pedaqoji fikrinin formalaşmasında, etnopedaqogikanın inkişafında mühüm əhəmiyyət kəsb etmişdir.

**5.** Mənəvi abidələrimiz sırasında, pedqoji fikrin inkişafında xalqımızın ən qədim mənəvi abidəsi olan "Kitabi-Dədə Qorqud"un son dərəcə əvəzsiz yeri vardır.

Müstəqillik qazanmış Azərbaycanımızda milli-mənəvi şüurun yüksəlişində, soykökümüzə qayıdışın dərinləşməsində "Kitabi-Dədə Qorqud" dastanlarının oyada biləcəyi təsiri əvəz edən yazılı və ya şifahi ədəbi abidə tapmaq çətindir.

Azərbaycan Respublikasının dahi şəxsiyyəti, türk dünyasının böyük oğlu, ümummilli liderimiz H.Əliyevin "Kitabi-Dədə Qorqud"un 1300 illiyini qeyd etmək barədə 20 aprel 1997-ci il tarixli fərmanı tariximizə, mədəni irsimizə göstərilən böyük qayğı və diqqətin parlaq nümunəsidir. Fərmanda deyilir: "Oğuz türklərinin tarixini əks etdirən "Kitabi-Dədə Qorqud" yüksək bəşəri ideallar tərənnümçüsü kimi dünya xalqlarının mənəvi sərvətlər xəzinəsinə daxil olmuşdur" (3).

Dastanda əxlaq tərbiyəsinin mühüm tərkib hissəsi olan vətənpərvərlik, yurd sevgisi əsərin əsas ideyasını təşkil edir. Bu ideya isə qədim oğuz türklərinin qəhrəmanlıq şücaətlərindən süzülüb gəlməkdədir. Dastanda yetişən nəsildə vətənə məhəbbət tərbiyəsi üçün ilk növbədə onlara vətəni tanıtmağa və sevdirməyə yön verilir.

Dastanda oğuz-türk anaları vətəni müdafiə edən oğullarına tərbiyə verərək deyirdilər: "Oğul dağdan uçmasın, oğul suda axmasın. Oğul azğın düşmənə əsir düşməsin". Dastanda döyüşü tərk edib, geri dönmək, yoldaşı müdafiə etməyib qaçmaq çox ağır cəzalandırılır, hətta beləsi öldürülməkdən vaz keçilmir. Məsələn, Qazan Xan oğlunun döyüş meydanından qaçdığını zənn edib deyir: "Onu altı bölük edib, altı yolun ayrıcına tullayacam ki, kimsə yoldaşını qoyub qaçmasın"(25,74).

Oğuzlar düşməni yurdun sərhədlərindən qaçıb çıxardıqdan sonra aman diləyəni

bağışlayır, qaçanı qovmurdular. Dastanda döyüş meydanında kişi kimi döyüşmək tələb olunur. Qaçanı öldürmək, yatanı vurmaq, xəbərsiz hücum etmək pislənilir. Türk qəhrəmanlarının hansı birinin mübarizə yoluna baxsaq, onların tarixdə kişilik, mərdlik ənənəsi qoyub getdiyini görürük. Oğuzlar mərdi-mərdanə döyüşmüşlər. Bu mənada dastanda deyilir ki, Qazan xan qaçanı qovmadı, aman deyəni öldürmədi.

Qəhrəmanlıq səhnələri ilə zəngin olan dastanda xalq təfəkkürünün elimizin qəhrəmanlığına, ailəyə, qadına, bəyə, ozana, düşmənə münasibətləri əsasında özünü göstərir. At belində ərənlərdən geri qalmayan, köç yollarında oğul doğub böyüdən oğuz qadınları kişilərdən geri qalmır. Sərt mübarizə yolları oğuz qadınlarını mətinləşdirmiş, ərənlər də özləri kimi qəhrəman, dəyanətli həyat yoldaşı seçirlər.

Dastanda ad vermə mərasimi qəhrəmanlıq, igidliklə bağlı olub, böyük tərbiyəvi əhəmiyyət daşıyır. Burada oğuz adətinə görə oğlan uşaqları doğularkən deyil, haq etdikləri işinə görə, qəhrəmanlığına görə ad verilir. Bu cəhətdən oğuz elində yaxşı ad qazanmaq üçün yaxşı işlər görmək lazımdır. Dirsə xan oğlu Buğac xan hekayəsində Dədə Qorqudun Buğac xana ad verməsi də bu qəbildəndir: "...Bu oğlan Bayandır xanın meydanında vuruşmuşdur. Sənin oğlun bir buğa öldürmüş, adı Buğac olmuşdur. Adını mən verdim, yaşını Allah versin"- deyə Qorqud Dədə deyir (25,20).

Dastanda gənclərə döyüşmək qaydaları, döyüş, zəfər taktikası öyrədilir. Dastanda göstərilir ki, Bayandır xanın bir buğası bir də buğrası vardı. Bir yazda, bir payızda onları meydana buraxırdılar. Bayandır xan oğuz bəyləri ilə tamaşaya baxırdı. Bu, əslində sadəcə "tamaşa", "əyləncə" deyildi, əvvəlcədən düşünülmüş, təşkil edilmiş bir məşğələ idi. Oğuz ərənlərini, xüsusilə gəncliyi yetişdirmək, güclü, qüdrətli etmək üçün təlim, tərbiyə növlərindən biri idi.

Dastanda qadınlar da kişilər qədər mübarizdir. Dastanda Beyrəyin evlənmək vaxtı çatanda deyir ki, "Ata, mənə elə qız al ki, mən yerimdən durmamış o dursun, mən ata minməmiş o minmiş olsun. Mən düşmənin üstünə gedənə qədər, o, mənə baş gətirsin". Qadın həm də evin dirəyi, nəsil artıran, incə məlahətli, gözəl nəvazişli, yüksək mənəviyyatlı xanım kimi təsvir edilir.

Dastanda oğuzlar həyatın bütün sahələrində əxlaqi davranış və rəftarlarında igidlik, qorxmazlıq, cəsurluq və düzlük nümayiş etdirirlər. Belə ki, böyük miqdarda silahlı düşmən Qaraca Çobanın üzərinə gəldikdə o qorxmur, özünü itirmir.

O,düşməni görərkən dərhal qərar çıxarır; vəziyyətin çox qorxulu olmasına baxmayaraq, düşmənlə çarpışmağı qərara alır.

"Kitabi-Dədə Qorqud"un hər bir boyu elə-obaya, ata-anaya, qardaş-bacıya ülvi məhəbbətin canlı salnaməsidir. Burada ailə şərəfini, namusunu qorumaq, ocağa dərin bağlılıq, ana və qadın ləyaqətinə dərin hörmət, ata ehtiramını saxlamaq, ailə tərbiyəsi ilə bağlı çox qiymətli, ibrətamiz nümunələr və ifadələr vardır. Dastanda "Ana haqqı" – "Tanrı haqqı" kimi qəbul olunur. Bu da Məhəmməd Peyğəmbərin (s.ə.s) "cənnət anaların ayaqları altındadır" kəlamı ilə səsləşir. Oğuzlarda anaya məhəbbət tərbiyəsi ən müqəddəs iş hesab edilmişdir. Dastanın boylarında ana haqqı tanrı haqqı ilə bərabər tutulur. Qadınlar qəhrəmanlıq göstərərək ərlərinin, qızlar isə nişanlılarının yolunda fədakarlıqlar göstərərdilər.

Qazan xanın evi yağmalanır, var dövləti talan edilir, anası, arvadı Burla xatun, oğlu Uruz əsir aparılır. Qazan xan döyüşmədən əvvəl Şöklü Məliyə müraciət edərək belə deyir:

Qırx incə belli qızla Burla xatunu gətirmisən sənə əsir olsun?
Qırx igidlə oğlum Uruzu gətirib gəlmisən sənin olsun!
Qoca ananı gətirmisən, ay kafir, anamı ver mənə!
Savaşmadan, vuruşmadan qayıdıb, geri dönüb gedim.

Salur Qazan var-dövlətini, sərvətini düşmənlərə verdiyi halda, anasını, arvadını, oğlunu, bütövlüklə bütün adamları almağa özünə müqəddəs borc hesab edir və belə edilərsə, günahsız qanların tökülməsinə də razı olmur. Salur Qazan sülh, əminamanlıq istəyir. Burada oğulun anasına olan ülvi, sonsuz məhəbbətin, ana müqəddəsliyinin nümunəsini görürük.

"Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy"da oğuzlarda ata-oğul münasibətinin gözəl və təsirli nümunəsi verilmişdir. Kef məclisində oturan Qazan xan sağ yanında oturan qardaşı Qarangünəyə, sol yanında oturan dayısı Aruza baxır, qəh-qəh gülüb sevinir. Qarşısında duran oğlu Uruza baxıb ağlayır. Bunun səbəbini atasından soruşduqda o cavab verir ki, 16 yaşına çatmısan, bu vaxtadək baş kəsməyibsən, qan tökməyibsən, bir mükafat almamısan. Fikirləşdim ki, mən öləndən sonra taxt-tacımı sənə verməzlər, ona görə də ağladım. Burada birinci növbədə, cəmiyyət üçün çox böyük əhəmiyyəti olan bir xüsusiyyətə diqqət yetirmək lazımdır

ki, oğuzlarda övlad bəyzadə alsa da igid deyilsə, ona məmləkət həvalə edilə bilməz. Uruz həmişəki kimi atasına müraciət edərək – "qara başım qurban olsun, atam (ağam), sənə" – deyir və atasının nöqsanını çəkinmədən, sanki bir dostuna söyləyərək belə deyir: "Sən məni haçan götürüb kafir sərhəddinə çıxardın, qılınc çalıb baş kəsdim? Mən səndən nə gördüm ki, nə öyrənim?"- dedi. Qazan bəy oğlunun bu sözlərindən heç də qəzəblənmir, onu səmimi qəbul edir və gülür. Oğlunu götürüb bəylərlə dağlara ova çıxır. Kafirlərlə qarşılaşırlar, Qazan xan oğlu Uruza döyüşməyə girməyə icazə verməsə də Uruz döyüşə girir, düşmənləri qırıb, tökür.

Dastanda ailə münasibətləri, qohumluq əlaqələri yüksək əxlaqi keyfiyyətlər əsasında qurulur. Oğuz gəlinləri bir övlad kimi qayınataya, qayınanaya çox böyük hörmət və ehtiramla yanaşır, onları öz valideynlərindən də yüksək tuturlar. Qardaşını axtarmaq üçün səfərə çıxan Səyrəyi bu yoldan çəkindirmək üçün Qazan xanın məsləhəti ilə evləndirirlər – ayağına ət tuşağı (buxov) vururlar. Oğlan fikrindən dönmür, qardaşını tapmayınca gərdəyə girmir. Gəlin onu yolundan saxlaya bilməyəcəyini başa düşür və öz-özünə deyir: "Mənə qədəmi uğursuz gəlin deyincə, utanmaz, arsız gəlin desinlər. Qayınatama, qayınanama xəbər verim gərək" – söyləmiş, qız demişdir:

Atamdan yaxşı qayınata!
Anamdan yaxşı qayınana!
Ala gözlü oğlun qardaşını anıb gedir (23,54).

Burada həm də qardaş məhəbbəti, qardaş borcu, qardaş məhəbbəti, qardaş yolunda xoşbəxtliyini, canını qurban verməyə hazır olmaq fədakarlığı tərənnüm edilir.

Oğuz elində qadına həmişə yüksək məhəbbət bəslənmiş, onu evin dirəyi, nəsil artıran adlandırmışlar. Dirsə xan qadını "başının baxtı, evimin taxtı", "sərv boylum", "qara saçlım, çatma qaşlım, al yanaqlım", "qadının-dayağım" adlandırır, ona sonsuz məhəbbətini bildirir. Qadın ailəni quran, yüksəldən, onu dağılmaqdan qoruyan, bu yolda qəhrəmanlıqlar göstərən, əxlaqi dəyərləri, ərinə sədaqəti və məhəbbəti ilə böyük tanrını güzəştə getməyə razı salan həyat yoldaşıdır, anadır... Dastanda ər-arvad məhəbbəti, valideyn-övlad münasibətindən də üstün verilmişdir. Domrulun atası, anası öz həyatlarını oğullarına qıymadıqları halda, onun həyat yoldaşı öz canını verməyə hazırdır və tanrıya yalvarır ki:

"Alırsansa, ikimizin canını birgə al
Sağ qoyursan, ikimizə də eəhm et
Kərəmi çox qadir tanrı".

Dastanlarda cəmiyyətin inkişafına təkan verən üç mühüm tərbiyə amili öz bədii ifadəsini tapmışdır: 1) Qurulan ailənin məhsulu – oğlu, qızı olmalıdır; 2) Oğul-qız sağlam, güclü, qüdrətli yetişməlidir; 3) Ailə kin-küdurətdən uzaq olmalı, övladın təlim tərbiyəsi ilk növbədə ana telinə bağlıdır.

Dastandan aydın görünür ki, ailənin tamlığı üçün müstəqil uşaq sahibi olmaq gərəkdir. Uşağı olmayan ailələrə yaxşı baxılmaz. Dastanda deyilir ki, Dirsə xanın uşağı yoxdur. Bir gün o, Bayandır xanın verdiyi ziyafətə gedir. Ancaq o, uşağı olmadığına görə məclisdə yaxşı qarşılanmır.

Oğuz elində əxlaq, tərbiyə, ədəb-ərkan, böyük-kiçik münasibətləri ali insani keyfiyyətlər, mənəvi mədəniyyətdir. Bütün dastan boyu əxlaqi keyfiyyətlərin təntənəsi müşahidə edilir. Yaşlı nəsil – ulular da, atalar da, gənclər də, yeniyetmələr də yüksək əxlaqi üstünlüyə malikdir, bunun üçüncəmiyyətdə bütün imkanlar var: ənənəvi davam edib gələn qayda-qanunlar, azad sevgi, sevib-sevilmək, axtarıb bəyənmək, seçmək, sınaqdan keçirmək - hər şey yüksək insani səciyyədir.

Lakin bütün bunlarla bərabər oğuz eli nadürüstlərdən də xali deyildir. Belələrinə qarşı, şər qüvvələrə qarşı mübarizə dastanda daha kəskin şəkildə qoyulmuşdur. Əxlaqın aliliyi pozulsa bu oğuz elinə çox ağır oturar, fəlakət törəyər, başına müsibətlər gələr. Bu mənada "Basatın Təpəgözü öldürməsi boyu"nda nəsillərə çox dərs verilir. Dastanda təsvir olunur ki, Aruzun Qonur qoca Sarı adlı Çobanı hamıdan tez yaylağa köçür. Arxacda qoyun ürkür. Çoban "Uzun bulaq" deyilən yerdə görür ki, pəri qızlar qanad-qanada veriblər. Yapıncasını atıb onların birini tutur və ona tamah salır. Pəri qızı da zina edir və çobana deyir: "Çoban, il tamam olacaq, məndə əmanətin var, gəl al dedi. Amma Oğuzun başına bəla gətirdin". "Salur Qazanın evinin yağmalanması boyu"nda ailə tərbiyəsi, ailənin namusu, qeyrəti və şərəfinin ali və müqəddəs olması diqqət mərkəzindədir. Dastanda oğuz-türk əxlaqı, türk mənliyi, paklığı açılır, bu mənəvi durum Uruzun timsalında öz ibrətli ifadəsini tapır.

Düşmən Qazan xanın evini yağmalamış, ananı, arvadı Burla xatunu, oğlu

Uruzu və qırx incə belli qızını-gəlinini əsir edib aparmışdır. Düşmən Qazan xanın namusunu hədələyir, ondan hayıf almaq, onu təhqir etmək üçün hər vasitəyə əl atır; arvad Burla xatunu çəkib məclisə gətirmək istəyir. Amma bu heç də asan iş deyilmiş. Düşmən qorxulu bir plan hazırlayır; Uruzu çəkib gətirmək, ətindən qovurma edib qadınlara vermək. Kim yedi o deyil, yeməyən oğlanın anasıdır, çəkin gətirin məclisə... Vəziyyət Burla anaya əyan olur, ana və oğul arasında belə bir söhbət gedir. "Kafirlər tərs danışmışlar. Qazan oğlu Uruzu həbsdən çıxarın, boğazından örkənlə asın. Iki kürəyindən çəngələ sancın, qıyma-qıyma ətindən çəkin. Qara qovurma edib qırx bəy qızına aparın. Hər kim yedi, o deyil. Hər kim yemədi, o Qazanın xatunudur. Çəkin, gətirin, döşəyimizə salaq, şərab paylatdıraq! Sənin ətindən ay oğul yeyimmi? Yoxsa, iyrənc dinli kafirin döşəyinə girimmi? Ağan Qazanın namusunu tapdayımmı? Neyləyim, ay oğul?!"- dedi.

Yəqin ki, ana Burla bu suallarla həm də oğlunun ağlını, tərbiyəsini yoxlayır. Uruz anasının bu sözlərindən bərk qəzəblənir, ona ağır cavab verir: "Ağzın qurusun ana! Dilin çürüsün ana! "Ana haqqı – Tanrı haqqı" deyilməsəydi qalxıb yerimdən durardım, yaxandan, boğazından tutardım. Qaba dizimin altına salardım. Ağ üzünü qara yerə çırpardım. Ağzından, üzündən qan şoruldayardı, can şirinliyini sənə göstərərdim. Bu nə sözdür? Saqın, xanım ana! Mənim üzərimə gəlməyəsən! Mənim üçün ağlamayasan! Qoy məni çəngələ sancsınlar! Qoy ətimdən çəksinlər, qara qovurma edib, qırx bəy qızının önünə aparsınlar. Onlar bir yeyəndə, sən iki dəfə ye! Kafirlər duymasınlar, səni tanımasınlar. Təki murdar dinli kafirin döşəyinə düşməyəsən. Onlara şərab paylayıb, atam Qazanın namusunu sındırmayasan. Saqın!"(25,36) Oğuz övladı tikə-tikə doğranmasına razıdır, amma ata qeyrətindən, ana namusundan keçmir. Ana övladına verdiyi tərbiyə ilə fəxr etməlidir.

Dastanların pedaqoji təhlilindən aydın olur ki, oğuzlar mərdlik, igidlik, cəsurluq, kişilik kimi keyfiyyətlərə çox böyük önəm vermişlər, hər bir oğuzun ən yüksək səviyyəsini bu keyfiyyətlər ilə müəyyənləşdirirlər, həyata gözlərini açandan bu hisslər, duyğular və təsəvvürlər ilə yaşayır və tərbiyə edilirlər.

Namərdliyə, yalana və xəyanətə nifrət dastanda özünə yer tutduğu kimi, bununla belə mənfi hərəkəti bağışlaya bilmək oğuzların davranışlarında daim təzahür edən tərbiyə nümunəsidir. Bu keyfiyyətlərin təzahüründə isə müvafiq şəxslər,

obrazlar iştirak edir, hadisələr cərəyan edir. Beyrəyin nişanlısı Banuçiçəyi almaq üçün yalançı oğlu Yalıncıq yalandan onun ölüm xəbərini gətirir. Nəhayət, o ifşa olunur və oğuzların ümumi nifrətini qazanır. Layiq olduğu cəzadan qurtarmaq üçün yalançı oğlu Beyrəyin ayağına yıxılır, rəhm diləyir və onun qılıncının altından keçir. Bundan sonra Beyrək onu bağışlayır.

Dastanda ailə tərbiyəsinə və ailədə valideyn nümunəsinə xüsusi diqqət verilir və deyilir – "qız anadan görməyincə öyüd almaz. Oğul atadan görməyincə süfrə açmaz. Oğul atanı yetirməsi, iki gözünün biridir".

Dastanda türk anaları uşaqlarını tərbiyə edərkən lovğa olmamağı, zəfərdə, döyüşdə qazandıqları adla, xeyirxah əməlləri ilə yüksəlməyi məsləhət bilirdilər. Dədə Qorqudda Selcan xatun deyir: "Öyünərsə ər öyünsün, aslandır. Öyünməklik övrətlərə böhtandır. Öyünməklə övlat olmaz".

Dastanda özünü aparmaq, çox bilmək, mənəvi zənginlik yüksək qiymətləndirildiyi halda mənəmlik iddiası axmaqlıq, ikiüzlülük, xəbərçilik, lovğalıq mənəvi şikəstlik kimi qələmə verilir. Bu münasibətlə "Dədə Qorqud"da deyilir "Təkəbbürlük eyləyəni tanrı verməz; Könlünü uca tutan adamda ağıl olmaz".

Dastanda səxavətlilik, əliaçıqlıq, kasıba əl tutmaq bir əxlaqi keyfiyyət kimi yüksək qiymətləndirilməklə bərabər, bu keyfiyyət təmənnasız, hiss etdirilmədən yerinə yetirilir və böyüklər öz övladlarına bu sahədə nümunə göstərirlər. Dastanda bir əxlaqi keyfiyyət kimi yoldaşlıq və dostluq məsələsinə xüsusi diqqət yetirilir. Dostluq bir kişilik keyfiyyəti kimi qəbul edilir. Dastanda uşaqların bir-biri ilə dost olmalarını, qonşularla dostluq münasibəti yarada bilməsinə diqqət yetirilir. Dastanda uşaqların dostluğunun hörmətə, ideya birliyinə, qarşılıqlı yardıma əsaslanması tərbiyə edilir. Beyrək – "Mən Qazana dönük çıxmaram"- deyir:

Mən Qazanın nemətini çox yemişəm
Bilməzsəm gözümü tutsun!
Qaraçıqda Qazlıq atına çox minmişəm
Bilməzsəm tabutum olsun!
Yaşı qaftanları çox geymişəm
Bilməzsən kəfənim olsun.

Dastanda ağıl böyük nemət hesab olunur. Ağıl dövlət mənasında işlədilir. Oğuz

elində ağıl tərbiyəsi, gənclərin həmişə ağlını işlətməsi məsələsinə diqqət yetirilir. Hamı o cümlədən fiziki cəhətdən güclü olanlar da ağıla-kamala yiyələnməlidirlər. Dastanda ağılın yüksək nemət olması aşağıdakı fikirlərdə aydın ifadə olunmuşdur: "Biliyi unutmayan əqil yaxşıdır; Baba malından nə fayda, başda dövlət olmasa; Ağıllı oğul olsa, ocağın gözüdür; Ağılsız oğul olsa, o ocağın külüdür; Ağılsız adamın şərindən Allah saxlasın".

Dədə Qorqudun qənaətinə görə, "Adamın dəvəcə boyu olunca, düyməcə ağlı olması yaxşıdır". Dastanda oğlanın buğa ilə döyüş səhnəsində daha çox ağılın nümayiş etdirilməsinin şahidi oluruq. Oğlanla buğa xeyli çəkişdilər. Buğa iki kürəyi üstündə köpük dururdu. Nə buğa, nə də oğlan qalib gəlirdi. Oğlan fikirləşib öz-özünə dedi. "Bir dama dirək vururlar, o dama dayaq olur. Mən niyə bunun alnına dayaq olub dururam?" Yumruğunu buğanın alnından çəkib, yolundan atıldı. Buğa ayaq üstündə dura bilmədi, yıxıldı, təpəsi üstə düşdü. Oğlan bıçağına əl atdı. Buğanın başını kəsdi. Burada oğlan əqil və zəkasını işlədir və fiziki qüvvəsi tükənməkdə olan oğlan, əqli qabiliyyəti, mühakiməsi hesabına buğaya qalib gəlir. Qanturalı və Buğanın vuruşunda da eyni səhnənin şahidi oluruq.

Dastanda estetik tərbiyə, bədii zövqə malik olmaq kamil insan olmağın mühüm şərtlərindən sayılır. Dastandakı ideyaya görə, fiziki və əqli cəhətdən inkişaf etmiş şəxs – yəni qüvvə kamal sahibi, eyni zamanda, camal sahibi olmalı, estetik gözəlliyi ilə xoş təsir bağışlamalıdır. Dədə Qorqud dastanlarının əksər qəhrəmanları təkcə qüvvəsi və kamalı ilə deyil, həm də camalı ilə fərqlənirlər. Məsələn, "Qanlı qoca ilə Qanturalı" boyunda deyilir: "Qanturalı camal və kamal əlamətləri olduğunu və onlardan birincisinin estetik, ikincisinin zehni, üçüncüsünün fiziki tərbiyə sahəsinə aid olduğunu xatırlasaq, həmin cümlədə tərbiyənin bu üç qolunun vəhdət şəklində birləşdiyini aydın görərik"(23,97).

Prof. R.L.Hüseynzadə yazır: "Dədə Qorqud qəhrəmanlarının boy-buxunu yaraşıqlıdır, cəlbedicidir. Qanturalı, Bamsı Beyrək, Səkrək, Uruz, Buğac, Dəli Dondar, Yeynək, Qazan xan, Burla Xatun, Selcan, Banuçiçək və başqaları məhz cazibədar "Ağ üzlü", "Ağ biləkli", "İncə belli", "Sərv qamətli", "Qırmızı yanaqlı", "Badam dodaqlı", "Çatma qaşlı" adamlardır. Çoxları da çalıb-oxumağı, rəqs etməyi bilirlər. Onlar gözəlliklərdən zövq almağı bacarır, "əsən dan yellərindən", "Köksü

gözəl dağlardan”, “Durnalı, kəklikli, turaclı soyuq bulaqlı, göy çəmənlikli” yerlərdə dincəlir, özlərinə məskən salırlar”(23,198).

Qanturalı üç canavarla (buğa, aslan və dəvə) vuruşmaq üçün musiqi və mahnı ilə qızışmaq istəyir. O, hər dəfə meydanda musiqi sədaları altında cəng edir. DeməK, dastanda insan və təbiət, incəsənət gözəlliyi, ümumən insanın estetik, zövqü, tərbiyəsi mühüm yer tutur. Dastanda saza, musiqiyə ecazkar bir qüvvə kimi baxılır. Qəhrəmanlar saza and içirlər, ən qatı düşmənin əlində qopuz gördükdə ona əl qaldırmırlar.

Dədə Qorqudda əlbəttə mənəvi, əxlaqi gözəllik həmişə ilkin yerdə durmuşdur.

**Ədəbiyyat**

1. Həşimov Ə.Ş., Sadıqov F.B. Azərbaycan xalq pedaqogikası, Bakı-1993.

2. Hüseynzadə R.L. Qədim və erkən orta əsrlərdə Azərbaycanda tərbiyə-təhsil və pedaqoji fikir, Bakı-2007.

3. Rüstəmov F.A. Pedaqogika tarixi, Bakı-2006.

4. Seyidov Ə.Y. Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən, Bakı-1987.

5. Seyidov Ə.Y. Pedaqogika tarixi, Bakı-1968.

6. Tusi X.N. Əxlaqi-Nasiri, Bakı-1980.

## *2.2. Klassik Şərq mütəfəkkirləri uşaqların inkişafı, tərbiyəsi və təhsili haqqında*

Plan:

1. İslam dinində müqəddəslər uşaqların inkişafı, tərbiyəsi və təhsili haqqında
2. Azərbaycan və Şərq mütəfəkkirləri uşaqların inkişafı, tərbiyəsi və təhsili haqqında: Əbu Nəsr Məhəmməd əl-Farabi, İbn Sina, Nizami Gəncəvi və Sədi Şirazi
3. N. Tusi, M.Füzuli, A.A.Bakıxanov, M.F.Axundov, S.Ə.Şirvani və M.T.Sidqinin uşaqların tərbiyəsi, təhsili və inkişafı ilə bağlı fikirləri
4. M.Ə.Sabir, A.Səhhət və Ü.Hacıbəyovun problemlə bağlı müddəaları
5. A.Şaiq, H.Cavid, F.Ağazadənin pedaqoji fikirləri.

**1.** Məlumdur ki, müsəlman dünyasının peyğəmbəri Məhəmməd Əleyhissəlam və Şərqin böyük irs qoyub getmiş mütəfəkkirlərinin tərbiyə - uşaq tərbiyəsi haqqında fikirləri, müddəaları və nəzəriyyələri daim tədqiq edilmiş, öyrənilmiş, öyrənilir və daim öyrənməyə layiqdir.

Uşaqlarda humanist keyfiyyətlərin formalaşdırılması elə bir yüksək əxlaqi borc, vəzifədir ki, bütün dövrlərin zəka, fikir sahibləri, mütəfəkkirlər ona biganə qalmamış və onu yüksək fəzilətlərdən biri kimi qiymətləndirmişlər. Müsəlmanların müqəddəs Kitabı olan "Qurani Kərim"də və Məhəmməd peyğəmbərin (570-632) müqəddəs kəlamları içərisində insanların bir-birinə qarşı mərhəmətli olmaları, nəzakətlə rəftar etmələri, valideynlərə hörmət etmələri, balaca uşaqlara məhəbbət bəsləmələri dönə-dönə tövsiyə edilir: "Balaca uşaqlara məhəbbət bəsləməyən, qocaların hörmətini saxlamayan, həmçinin faydalı iş görməyən, pis əməllərə qurşanan kəs bizdən deyildir"; "Bir-birinizi xoşlamayınca imanınız olmayacaq"; "Qonşusunun aclığından xəbərdar olan, lakin təkcə öz qarnını doyuran şəxs həqiqi müsəlman deyil"; "heç vaxt deməyin ki, xalq bizə yaxşılıq etdiyi halda biz də onlara yaxşılıq edərik və eləcə də bizə zülm etdiyi təqdirdə biz də zülm edərik. Bəlkə etiqadınız olsun ki, sizə yaxşılıq edildiyi vaxt, siz də yaxşılıq edin. Əgər sizə zülm olunarsa, siz onlara zülm etməkdən çəkinin"; "heç kəs gərək başqasını incitməsin"- kimi müqəddəs kəlamlar sahibi Məhəmməd peyğəmbər insansevərliyi, humanistliyi insanlara buyurmuş və onları yüksək əxlaqi keyfiyyətlər hesab etmişdir (30. Səh.32, 39).

Uşaqlarda xeyirxahlıq və humanist keyfiyyətlərin tərbiyə edilməsi və ümumiyyətlə humanistlik istər mütərəqqi Şərq fəlsəfi fikrində, istərsə də Qərb fəlsəfəsində özünə geniş yer tapmış əxlaqi keyfiyyətlərdən biridir.

**Məhəmməd Peyğəmbərin** (ə.s.) həyatı ən güclü tərbiyə məktəbidir. Çünki "Məhəmməddə Adəmin dürüst əxlaqı, Asəfin dərin zəkası, Nuhun ağlasığmaz cəsarəti, İbrahimin tükənməz mərhəməti, İsmayılın bəlağətli nitqi, Yaqubun müəammaları dərk etmək məharəti, Yusifin misilsiz gözəlliyi, Musanın sarsılmaz dəyanəti, İsanın dönməz iradəsi, Davudun təmannasız xeyirxahlığı toplanmışdır.

Peyğəmbərin kəlamlarını gənc nəslin tərbiyəsi baxımından məzmun və qayəsinə görə aşağıdakı kimi təsnif etmək olar:

1. Yer üzünün bütün canlılarına, canlı varlıqların əşrəfi və tacı olan insanlara qayğı və məhəbbət;

2. Torpağa, doğma yurda, əməyə, əmək adamlarına, xalqa dərin məhəbbət;

3. Haqqı, ədaləti qorumaq, xeyirxahlıq, elm öyrənmək, elmin faydasını dərk edib, onu xalqın xidmətinə vermək;

4. Ümumbəşəri norma və əxlaq qaydalarını qoruyub təkmilləşdirmək; böyüyə, ata-anaya hörmət etmək, nəzakətli olmaq, əmanətə xəyanət etməmək, insani hissləri təcəssüm etdirmək;

5. Qadınlara hörmət və ehtiramla yanaşmaq, təmiz, pak olmaq və s.

Peyğəmbərin kəlamları sırasında insana, canlılara, təbiətə qayğı mühüm yer tutur, yer üzündə hərəkət edən nə varsa, hamısına mehribanlıq göstərmək lazımdır. Mövcud olduğu on minillər ərzində bir hörümçək yarada bilməyən insanlar təbiətə, onun canlılarına mərhəmətli olmalı, bir-birinə kömək etməli, qayğı göstərməlidirlər.

Peyğəmbərlər haqlı olaraq bunu deyirdi ki, necə uşaqlar doğulması heç kəsdən asılı deyildir. Lakin onların yaxşı adamlar kimi böyümələri bizim verdiyimiz düzgün tərbiyədən asılıdır. Heç kim dünyaya vəhşi və ya mələk kimi gəlmir. Onun insan olması, necə yaşaması tərbiyədən asılıdır. Buna görə də peyğəmbərlər kiçik yaşlarından uşaqları düzgün tərbiyə etməyi, onlarda həya hissinin tərbiyə olunmasını zəruri sayır və deyirdi ki, insan övladı yalnız həyat sayəsində insan olur. Insan həyalı olmalıdır. Çünki həya nəcibliyin əsasıdır, həya və iman bir beşikdə iki körpə kimidir, həya bəzəkdir. Adamlarda üç gözəl keyfiyyəti həya, etibar, düzlük gördünüzmü, onlardan bərk yapışın, onlardan öyrənin. Ən yüksək fəzilət mehribanlıqdır. Mehribanlıq iman nişanəsidir. Mehriban olmayan insan imansızdır.

Peyğəmbər adamları acgözlüyə, tamahkarlığa, həsədə qarşı mübarizə aparmağı çağırır və deyirdi ki, tamahkarlıq yoxsulluğa aparan yoldur. Başqasına həsəd aparmaq qəbahətdir. Nəfs və tamah ən böyük düşməndir. Atəş yeri-göyü yandırdığı kimi həsəd də yaxşılıqları yandırıb, kül edir. Kin və həsəd çatılan tonqalı külə döndərən atəşə bənzəyir, bütün yaxşılıqları puç edir. Dünyada savaş, döyüş çoxdur. Lakin ən böyük döyüş insanın özü ilə döyüşüdür. Dünyada ən böyük qələbə insanın öz nəfsi, arzusu və həvəsi üzərindəki qələbədir.

Peyğəmbər uşaqlara qayğı göstərməyi tələb edirdi. O deyirdi ki, kiçik uşağın

ağlamasını eşidəndə namazı dayandırın. Uşaq olmayan evdə bərəkət olmaz, hər ağacın öz meyvəsi var, qəlbin də meyvəsi övladdır. Bu meyvənin – övladın qayğısına qalmaq, ona yaxşı tərbiyə vermək ata-ananın borcudur. Üç mühüm keyfiyyətin – zəiflərlə xoşrəftar, ata-ananı sayan, kölələrə qarşı mərhəmətli olan şəxs cənnətlikdir.

**Həzrəti Əli** (598-661) islamın ikinci böyük şəxsiyyəti hesab olunur. O, 598-ci ildə Məkkədə Məhəmməd Peyğəmbərin (ə.s.) əmisi Əbu Talibin ailəsində anadan olmuşdur.

Əli (ə) islam dinini ilk qəbul edənlərdən olmuş, "İslamın qılıncı" adını qazanmışdır. Əbu Bəkir, Ömər və Osmandan sonra xəlifə (656-661) seçilmişdir. Suriya valisi Müaviyə ilə müharibədə müvəffəqiyyətsizliyi nəticəsində tərəfdarları olan şiələr arasında parçalanma baş vermişdir. 661-ci ildə Əli (ə) sui-qəsd nəticəsində məsciddə namaz qılarkən zəhərli qılıncla qətlə yetirilmiş, Nəcəf şəhərində dəfn olunmuşdur. Həyat yoldaşı Fatimə gənc yaşlarında ikən vəfat etmiş, oğlanları Həsən və Hüseyn, nəvə və nəticələri amansızlıqla öldürülmüşdür.

Əli (ə) dünya qəhrəmanlıq, ədəbiyyat və fəlsəfə tarixinə ancaq qəhrəman sərkərdə və xəlifə, inam və əqidə adamı kimi deyil, yüzlərlə dərin mənalı, zərif ruhlu şerlər, qitələr, aforizmlər, risalələr müəllifi kimi daxil olmuşdur. "Nəhcül-Bəlağə" kitabı onun islamın müdafiəçisi və carçısı olmaqla bərabər, həm də dövrün görkəmli siyasət adamı, dərin təfəkkür, sağlam və işıqlı düşüncə sahibi, yüksək mənəvi keyfiyyətlər daşıyıcısı olmasına dəlalət edir.

Həzrət Əli (ə)nin zəngin irsində həm uşaqların, həm də böyüklərin təlim-tərbiyə və təhsili məsələləri geniş yer tutur. Onun tərbiyə ilə bağlı fikirlərində məqsəd insanı müdrikləşdirmək, ruhunu paklaşdırmaq, əxlaqını kamilləşdirmək, davranış və əməllərini salehləşdirməkdir. Bunun üçün insan özünü və Allahını dərk etməli, hər şeyə iman gözü ilə yanaşmalıdır.

Əli (ə) uşağın fiziki və ruhi inkişafında ana südünün böyük təsir gücünə malik olduğunu bilirdi. Ana südü uşaqda qorxusuzluq, təhlükəsizlik və rahatlıq yaratmaqla yanaşı uşaqla ana arasında məhəbbət tellərini möhkəmləndirir. Əli (ə) demişdir: "Baxın, övladlarınıza kim süd verir. Çünki uşaq onun südü ilə inkişaf edəcək. Axmaq qadını dayə tutmayın, çünki süd təbiətə, xasiyyətə üstün gəlir" (48,151).

Ana südünün uşağın ruhi və psixoloji vəziyyətinə müsbət təsirini əsaslandıran

Əli (ə) bir il doqquz aydan az müddətə uşağa süd verilməsini ona zülm etmək hesab etmişdir.

Əli (ə) uşaqların yaş dövrlərini Aristotel və Məhəmməd Peyğəmbər (ə.s.) kimi yeddi-yeddi olmaqlaüç dövrə bölmüş, hər bir mərhələdə tərbiyənin məzmununu açıqlamışdır: uşağı yeddi il azad buraxın, yeddi il ədəb və tərbiyə öyrədin, yeddi il isə işlədin. Məhəmməd Peyğəmbərin (ə.s.) "Atanın övladına öyrətdiyi ən yaxşı şey ədəbdir" – fikrini Əli (ə) daha qüvvətləndirərək yazırdı: "Ata övladına yaxşı ad qoymalı, onun ədəb və əxlaqını gözəlləşdirməli, "Quran"ı öyrətməlidir" (48,151).

Yaxşı tərbiyə verməyi, təlim yolu ilə onlara ədəb, əxlaq öyrətməyi valideynlərin əsas vəzifələrindən biri hesab edirdi.

*Verməsə övlada ana tərbiyət,*
*Onda qalar daimə heyvaniyət.*
*Olmasa fərzəndə ata çün kəfil,*
*Daim o fərzənd olacaqdır zəlil.*

O, yetim uşaqların tərbiyəsini unutmamağı tövsiyə edirdi (Yetim uşağı öz övladını tərbiyələndirdiyin kim tərbiyə et). Özü övladlarına çıxış etməyi, nitq söyləməyi öyrədir. Uşaqları itaət və ibadət etməyə alışdırmaqda tənbeh etməkdən və rəğbətləndirməkdən düzgün istifadə etməyi məsləhət bilirdi: "Evindəki kiçik uşaqlara dilinlə namaz və paklığı təlim et, elə ki, on yaşlarına çatdılar tənbeh et, lakin üç dəfədən artıq olmasın. Danlamağı ifrat həddinə çatdırmaq, inadkarlıq odunu artırır". Əli (ə) uşaqları sevməklə yanaşı onlara qarşı tələbkar olmağı tələb edirdi: "Tərbiyə ağacı yumşaq olanın övlad və təbbəələri tərbiyəsiz olar".

Əli (ə) uşaqların iffətli olmasında, hər cür pis əməllərdən uzaq böyüməsində onların cinsi tərbiyəsinin düzgün qurulmasını vacib bilirdi: "On yaşına çatanda yataqda uşaqlarınızı bir-birindən ayırın".

**2.** Məşhur ensiklopedist alim, filosof və pedaqoq, hələ sağlığında ikən Aristoteldən sonra "ikinci müəllim" adını qazanan **Əbu Nəsr Məhəmməd əl-Farabi** (870-950) Şərqdə orta əsr fəlsəfəsinin banisi hesab olunur.

Əl-Farabi yunan mütəfəkkirlərinin, xüsusilə Aristotelin, Evklidin, Ptolomeyin irsinin öyrənilməsi ilə ciddi məşğul olurdu. Hegelin yazdığına görə o, Aristotelin "Fizika" əsərini 40 dəfə, "Ruh haqqında" əsərini 100 dəfə, "Retorika"sını isə 200

dəfə oxumuşdur.

Bir dəfə Farabidən soruşurlar: "Kim çox bilir, sən, yoxsa Aristotel?" o, cavab verir: "Əgər mən onun dövründə yaşasaydım, onunla görüşüb, yanında təhsil alsaydım, mən ən yaxşı davamçısı olardım".

Əl-Farabi insanı həqiqi xoşbəxtliyə aparan yolun məqsəd və vəzifələri haqqında Platon və Aristotelin təlimini inkişaf etdirərək öz elmi-pedaqoji əsərlərində tərbiyə məsələlərinə xüsusi diqqət yetirir. Onun fikrincə, tərbiyənin vəzifəsi insandakı mənfi keyfiyyətləri cilovlamaq, onda müsbət keyfiyyətlərin inkişafına imkan yaratmaqdır.

Insanların, xüsusilə gənclərin tərbiyəsi işində Farabi mənəvi tərbiyəni ön plana çəkir. Əxlaqi-mənəvi tərbiyə məsələləri onun bir çox əsərlərində ("Xoşbəxtliyə yolun göstərilməsi", "Xöşbəxtliyin əldə edilməsi", "Vətəndaşlıq siyasəti" və s.) qırmızı xətt kimi keçir.

Tərbiyənin məqsəd və vəzifələrindən danışarkən Farabi mənəvi tərbiyənin anadangəlmə deyil, təmrinlərin, adət və vərdişlərin nəticəsi olması ilə bağlı Aristotelin ideyalarına istinad edir. Burada iradənin rolu böyükdür, onun köməyi ilə insan özündəki hissi və mənəvi tələbatlarına şüurlu surətdə seçmək bacarığına yiyələnir.

Şübhəsiz, insanın mənəvi aləmi, xarakteri müxtəlif obyektiv və subyektiv amillərin – ictimai mühitin, tərbiyənin, xəstəliklərin, iradənin təsiri nəticəsində formalaşır.

Farabiyə görə düzgün mənəvi tərbiyə insanda nəcib keyfiyyətlərin formalaşması ilə başlayır. Şübhəsiz, insanda bu və ya digər xüsusiyyətin tərbiyəsi ətraf mühitdən, tərbiyə olunanın iradə və arzusundan asılıdır. Yaxşı əxlaq hər bir insanın tərbiyəsində vardır, lakin o, yalnız sistemli, şüurlu tərbiyə vasitəsilə həyata keçirilir və gerçəkləşdirilir.

Farabinin fikrincə, insanın öz əxlaqını kamilləşdirmək üçün müvəffəq olduğu hərəkətlər, onu öz bədənini təkmilləşdirmək üçün nail olduğu hərəkətlərə bənzəyir. Insanın bədənini kamilləşdirməsi sağlamlıqdır, əgər sağlamlıq varsa, onu qorumaq, yoxsa, onu qazanmaq lazımdır. Sağlamlığa yalnız bəzi qaydalara əməl etməklə nail olunduğu kimi, yaxşı əxlaqa da yalnız mülayim hərəkətlərlə yiyələnmək mümkündür.

Farabi uşağın doğulduğu gündən yetkinlik yaşına çatana qədər onun fiziki tərbiyəsinə, fiziki və mənəvi qüvvələrinin ahəngdar inkişafına xüsusi diqqət yetirməyi tövsiyə edirdi.

Onu özünün elmi-pedaqoji əsərlərində Farabi estetik tərbiyənin xüsusilə, musiqinin roluna müstəsna əhəmiyyət verirdi. Onun fikrincə, musiqi kamilliyə çatmayanları kamilləşdirir, tarazlıq vəziyyətində olanlarda həmin vəziyyəti saxlamağa kömək edir: "Musiqi həm bədənin, həm də qəlbin sağlamlığı üçün faydalıdır".

Musiqi təhsili və tərbiyəsi məsələsini gözdən keçirərkən Farabi onu anadangəlmə və sonradan qazanılmış qabiliyyətlərlə əlaqələndirirdi: "Musiqi sənəti doğulur, inkişaf edir və fitri istedad formasında kamilləşir, təlimin və məşqlərin köməyi ilə musiqi istedadına və kamilliyə yiyələnmək olar" (48,206).

**Ibn Sina** (980-1037) həmişə öyrənmək, axtarışlar aparmaqdan yorulmurdu. O, deyirdi: "Yerdən Zühəl ulduzuna qədər hər şeyin sirrini öyrəndim, lakin ölümün sirrini aça bilmədim".

Ibn Sina həkim haqqında deyirdi ki, "həkimin qartal baxışı, zərif, qız əlləri kimi əlləri, ilan müdrikliyi və şir ürəyi olmalıdır".

Ibn Sina insan sağlamlığında üç şərti əsas götürür: səmərəli qida, yuxu və rejim.

Rejimə idman oyunları, iradi çalışmaları və bərpaedici çalışmaları daxil edir.

O, gimnastikanı sağlamlığın rəhni hesab etmişdir. Gimnastika təbabətin tərkib hissəsidir, şəfaverici dərmandır, hərəkətsiz müalicə yoxdur, deyirdi.

Ibn Sina "Qanun"da xəstəliyin müalicəsi üçün üç yol təklif edirdi: Rejim, Dərman və Müxtəlif prosedurlar. (Hamam, təpitmə, qanalma və s.), İbn Sinaya görə sağlamlığı qorumaq məharətinin əsasını sağlamlığa təsir edən amillərin ölçüsünü bilmək, onları gözləməkdir. Bu amillər həkimlərin böyük və daimi qayğısına möhtacdır. Sağlamlığı təyin edən amillərdən yeddisinə İbn Sina xüsusi əhəmiyyət verirdi. Onun fikrincə həmin amillərə: bədən quruluşunun bir qaydada saxlanılması, qida və yemək rejiminin düzgün seçilməsi, bədənin artıq şeylərdən təmizlənməsi, bədən üzvləri arasında tarazlığın saxlanılması, paltarın, habelə bədənin təmasda olduğu hər şeyin təmizliyi, müəyyən dərəcədə yuxu və oyaqlığın da daxil olduğu

cismani və ruhi həyat arasında müvazinətin gözlənilməsi daxildir. Bu bir həqiqətdir ki, həmin məsləhətlərdən həkimlər indi də istifadə edirlər, lakin təəssüflə qeyd etməliyik ki, çox vaxt həmin məsləhətlərə riayət olunmur.

Ibn Sina bunu da unutmur və deyirdi ki, sağlamlığın qorunması rejimdə başlıca məsələ fiziki hərəkətlərlə məşğul olmaqdır. Qida və yuxu rejimi sonrakı məsələdir. Fiziki hərəkətlə müntəzəm və vaxtında məşğul olan adama heç bir müalicə lazım deyildir.

Böyük loğman gənc nəslin tərbiyəsinə, sağlamlığına xüsusi əhəmiyyət verər, uşaqların tərbiyəsi qayğısına qalmağı zəruri sayır və deyərdi ki, uşağın təmkinli olmasına lazımi diqqət yetirilməlidir. Buna nail olmaq üçün İbn Sina uşağı əsəbilikdən, qorxmaqdan və yuxusuzluqdan qorumağı lazım bilirdi. Istədiyi və arzuladığı şeyi ona verməK üçün daim hazır olmaq, istəmədiyi şeyi isə dərhal ondan uzaqlaşdırmaq lazımdır. Böyük təbibin fikrincə, bu iki baxımdan xeyirlidir. Xeyrin biri onun qəlbi üçündür. O, uşaqlıqdan ədəbli, tərbiyəli böyüyər. Ikinci xeyir onun bədəni üçündür. Çünki bəd xasiyyət müxtəlif növ pis təbiətdən irəli gəlir. Bu isə ona bərabərdir ki, pis xasiyyət adətə çevrilərsə, onda o, özünə uyğun pis təbiətə səbəb olur. Buradan aydın olur ki, İbn Sinanın uşağa müvafiq qaydada yanaşmaq tələbi insanda onun fiziki və psixi tərəfləri sıx qarşılıqlı əlaqədə olduğunu dərindən dərk etməsindən irəli gəlir.

Ibn Sina pedaqoji məsələlərə yaradıcı iş kimi baxır, uşağın təbiətinə, temperamentinə bir həkim, psixoloq və pedaqoq kimi yanaşırdı. Uşağın tərbiyəsi, təhsili və təliminin məzmununu aşağıdakı kimi müəyyənləşdirirdi: 1) əqli tərbiyə; 2) fiziki sağlamlıq; 3) estetik tərbiyə; 4) əxlaq tərbiyəsi; 5) sənət (peşə) öyrətmək.

Deməli, Əbu Əli İbn Sina uşaqların inkişafında tərbiyənin gücünü əsaslandırır.

Dahi Azərbaycan şairi və mütəfəkkiri, yaradıcılığında yüksək insanpərvərlik nümunələrini dünya mədəniyyəti xəzinəsinə bəxş etmiş **Nizami Gəncəvi** (1141-1209) insanpərvərliyə, onun tərbiyə edilməsinə yüksək qiymət vermişdir. N.Gəncəvi əxlaq tərbiyəsi, həmçinin humanistlik tərbiyəsinin formalaşmasında təlimə xüsusi əhəmiyyət verərək, onun tərbiyələndirici rolunu yüksək qiymətləndirmişdir. Nizamiyə görə təlim insanı həm maddi, həm də mənəvi cəhətdən yüksəldir, zehni

cilalayır, təlimsiz ağıl sərt və qabadır – pardaxlanmamış daş kimi kobuddur. Buna görə də təlim hamı üçün zəruridir. Təlim insanı həmişə təkmilləşdirməlidir, həm də təlimə kiçik yaşlardan başlamaq daha səmərəlidir. Qızların təlim-tərbiyəsinin həm birlikdə kiçik yaşlardan, həm də ayrılıqda böyük yaşlarda həyata keçirmək olar. Təlimin məzmunu və nəzəriyyə ilə praktikanın uyğunluğuna dair Nizaminin irəli sürdüyü fikirlər, mülahizələr XV-XVI əsrlərdə Qərbi Avropada intibah dövrünün humanistərinin (Vittorino, Rable, Rotterdamlı Erazm və başqaları), həmçinin XVIII əsr maarifpərvərlərinin ideyaları ilə müəyyən dərəcədə səsləşir.

Nizami Gəncəvinin əsərlərində əxlaq tərbiyəsinə də geniş yer verilmişdir. Bunun hamısı şairin dərin insanpərvərliyindən, şəxsiyyətə və xalqa olan sonsuz məhəbbətindən irəli gəlir. O, həyatın məqsədini xeyirxahlıqda görürdü, insan xeyirxah olmalıdır. Lakin belə adamlar başqalarına qarşı münasibətini düzgün müəyyən etməyi, xeyirxahlığı tətbiq edərkən səhvə yol verməməyi də bacarmalıdır. Bütün adamlara, daha doğrusu, düşmənə xeyirxahlıq göstərmək olmaz, əksinə xeyirxahlıq düşməni, şər qüvvələri məhv etməyi tələb edir. Əxlaq tərbiyəsi və əxlaq məsələlərinə dair görüşlərində dostluq və yoldaşlıq da mühüm cəhətlərdən biri kimi nəzərə çarpır. Şair dönə-dönə qeyd etmişdir ki, adam-adama gərək olur. Dostu, yoldaşı olmaq insanı fərəhləndirir, sadiq dost adamın sevincinə, kədərinə şərik olur, dostsuz, yoldaşsız keçinmək, bəşər cəmiyyətindən uzaq düşmək adamı yazıq vəziyyətə salır və s.

Yüksək əxlaqi keyfiyyətlərin formalaşmasında qarşılıqlı yardımı, xeyirxahlığı, böyüklərə və həmyaşıdlarına hörməti həqiqi insanın ilkin əlamətlərindən biri kimi hesab edir. O, təlim-tərbiyədə tərbiyəçinin roluna böyük əhəmiyyət verərək göstərmişdir ki, müəllim, tərbiyəçi geniş biliyə, saf əxlaqa, iti zehnə malik olmalıdır. Onun fikrincə tərbiyəçi həm dünyagörüşü, həm yüksək mənəvi keyfiyyətləri ilə tərbiyə edilənə nümunə olmalıdır. Hər bir tərbiyəçi tərbiyə etdiyi şəxsə qayğı ilə yanaşmalıdır. Tərbiyə verənlə tərbiyə olunan arasında səmimi dostluq münasibəti olmalıdır (38, səh.11-18).

**Nizaminin** əsərlərində antik dövrün filosofu Aristotelin bölgüsü ilə səsləşən fikirlər də diqqəti cəlb edir. Bunu oğlu Məhəmmədə yazdığı nəsihətlərdən aydın görürük. Birinci nəsihət yazılanda oğlu Məhəmmədin 7 yaşı, ikinci nəsihət yazılanda

14 yaşı, üçüncü nəsihət yazılanda 21 yaşı vardı. Hər yaş bölgüsündə o, oğluna yaşa uyğun işlər görməyi məsləhət görürdü. Nizami təlimə 7 yaşdan başlamağı tövsiyə edir. Bu yaşda uşağa əslinə görə hörmət edirlər. 7 yaşına qədər uşaqların qayğısına qalmağı, onlarda gözəl keyfiyyətlər tərbiyə etməyi zəruri sayırdı. Erkən yaşdan uşağı elə böyütmək lazımdır ki, atasına layiq övlaq olsun:

Uşaqkən əslini sorsalar bir az
Ağac bar verəndə cinsi sorulmaz.
7 yaşlı balam, gözümün nuru,
Ey dilim əzbəri, qəlbim qüruru.
Bu Hilal dövründə gəl eyləmə qəm.
Bədr olan zamanda gözəl Hilalın,
Göyə nur saçacaq sənin kamalın.
Biliyə raqib ol, dünyanı qazan.
Vaxtı boş keçirmə, qələm al ələ,
Elə namuslu ol, desin hər görən,
Ağıllı oğluna Nizami əhsən.

Deyən Nizami oğlunun gələcəyinə böyük ümid bəsləyir. Ikinci nəsihətində, insanın elmlə ucaldığına işarə edir:

Ucalmaq istəsən bir kamala çat,
Kamala ehtiram göstərər həyat.

Üçüncü nəsihətində oğlunun əxlaqı məsələlərinə diqqət yetirir. Oğlundan xalqa fayda verməyi, əsl kişi olmağı, yaxşı dost tapmağı məsləhət görür:

Bir dostun olsa da eyibli əgər,
Yüzünün adına ləkə gətirər.
Hünər ardınca qaç, xalqa hünər saç,
Qapılar bağlama, ər ol, qapı aç.
Hər kim öyrənməyi bilməyirsə ar,
Sudan dürr, daşdan gövhər çıxarar.

Artıq 5 yaş olanda uşaq hər şeyi dərk edir, yaxşını pisdən seçir. Gördüyü hər şeydən ibrət götürür. 6 yaşda ətrafı dərk edir. 7 yaşa çatanda ona müəllim tuturlar ki, ona dərs desin. Lakin 9 yaşa kimi oynamaq olar. Bundan sonra ciddi iş başlayır.

Nizami elmə, biliyə yüksək qiymət verir. Insan elmlə ucalır. Sən çalış yaxşıca öyrən dünyanı, bəşəri, bitkini, daşı, heyvanı deyəndə, dünyəvi fənlərin öyrənilməsini nəzərdə tutur. O, insanı yer üzünün əşrəfi hesab edirmiş. Bu əşrəfin yetişməsində irsiyyətlə yanaşı ictimai mühitin, tərbiyənin rolunu yüksək qiymətləndirmişdi.

Şahana tərbiyə, hünər, nəzakət,
Ağıla nur verər, ürəyə qüvvət.

Gəncləri ata şöhrətinə arxalanmamağa, zəhmət çəkməyə, elm öyrənməyə, əməklə məşğul olmağa çağırır. Ata müəyyən vaxta qədər övladına kömək edə bilər.

**Sədi Şirazi** (1189-1291) yardıcılığında insan şəxsiyyətinin formalaşmasına təsir edən amillər – irsiyyət, tərbiyə və mühit eyni dərəcədə dəyərləndirilir, hər üçünün də həlledici olmasının qənaətinə gəlinir. O, ayrı-ayrı hekayətlərdə və şer parçalarında hər üçünün fəzilətlərindən bəhs edir. Şərq klassikləri kimi o da hər şeydən öncə şəxsiyyətin təşəkkülündə irsiyyəti aparıcı amil kimi tərənnüm edir:

Heç seyqəl götürməz zatı pis dəmir,
Nə qədər çalışsan bədgöhər olar.

Və yaxud o belə bir maraqlı əhvalatı təsvir edir: Bir dəstə quldur dağ başında məskən salıb, gəlib-gedən karvana hücum edir, onların var-yoxlarını alırdı. Ona görə yerli adamlar onları tutmağı qərara alırlar. Onlar pusqu təşkil edir və quldurları əsir alırlar. Şah quldurların hamısını öldürməyi əmr edir. Onların sırasında gənc bir oğlan da vardı. O, çox gözəl idi. Vəzirlərdən birinin ona rəhmi gəldi və onun bağışlanmasını xahiş etdi. Vəzirin sözündən xoşlanmayan şah dedi:

Yaxşı ibrət götürməz, zatı bəd, nacins olan
Necə ki, günbəz başında qoz dayanmaz heç zaman.

Belə yaramazların kökünü kəsmək lazımdır. Odu söndürüb, qorunu saxlamaq, əfini öldürüb balasına rəhm etmək ağıllı iş deyildir. Vəzir şahın dediklərini təsdiq edib deyir ki, onun buyuruqları həqiqətdir. Lakin oğlanı yaxşı tərbiyə etsək o düzələr. Şah oğlanın günahından keçdi və dedi: - Məsləhət bilmirəm, lakin bağışlayıram.

Oğlanı bir müəllimə verdilər. Vəzir oğlanı şaha təriflədikcə hökmdar vəzirin sözünə gülümsəyib deyirdi:

Insanla qalmağa etsə də adət,
Qurd oğlu qurd olar yenə nəhayət.

Bu hadisədən bir neçə il keçdi. Oğlan bir dəstə dələduzlarla dostlaşıb, onlarla yoldaşlıq edir. Bir gün fürsət tapıb, həmin vəziri, onun iki oğlunu öldürüb dağlara qaçır. Şah bunu eşidib təəssüflənir və deyir:

Iti şəmşir olmaz paslı dəmirdən,
Gözləmə nakəsdən adamlığı sən,
Yağışla sulansa bağ da, şoran da,
Bağda lalə bitər, şoranda tikan.

Göründüyü kimi o, burada irsiyyəti əsas götürür. Bəzi rübailərində isə əqli qabiliyyətlərin inkişafında tərbiyəyə üstünlük verir. Insan şəxsiyyətinin formalaşmasında onun özünün fəal iştirakını zəruri hesab edən Sədi əqli tərbiyə altında biliklərə yiyələnməyi, onları praktikaya tətbiq etməyi və əqli qabiliyyətləri inkişaf etdirməyi nəzərdə tuturdu. O, biliyin həyatı əhəmiyyətini göstərməyə çalışır və qeyd edirdi ki, kim biliklərə yiyələnərsə, ağıllı, xeyirxah, gözəl davranışa malik olar. Ona görə də uşaqların tərbiyəsinə kiçik yaşdan başlamaq lazımdır:

Kiçik ikən hər uşaq edilməzsə tərbiyət,
Böyüyəndə görünməz onda ədəb, nəzakət.
Yaş çubuğu, istəsən hər şəklə salarsan,
Od qurudub düzəldər o çubuğu nəhayət.

**3.** Şərqdə qədim və orta əsrlərdə yaşayıb-yaratmış alim, şair və dövlət xadimlərinin hərəsinin özünə məxsus orijinal və səciyyəvi cəhətləri, sirli tərəfləri, ziddiyyətli və mübahisəli məsələləri vardır. Belə görkəmli şəxsiyyətlərdən biri də **Xacə Nəsirəddin Tusidir (1201-1274).** Tusinin əsərləri içərisində "Əxlaqi-Nasiri" məzmununun ictimai, iqtisadi, siyasi, əxlaqi, fəlsəfi və tərbiyəvi səciyyəsi baxımından xüsusi əhəmiyyətə malik olub, yeddi yüz ildən artıq bir müddət ərzində Orta və Yaxın Şərq məktəblərində əxlaq dərsliyi kimi şöhrət tapmışdır. O, ailədə övladın bir çox müsbət keyfiyyətlərə yiyələnməsi üçün valideynlərin necə olmasını göstərir, ilk əvvəl ananın ailədə tərbiyəlilik səviyyəsindən başlayır. Ilk növbədə uşağa yaxşı bir ad qoyduqdan sonra onun tərbiyə olunması üçün sağlam və ağıllı bir dayəni tapmağı məsləhət görür. O, deyir ki, "Uşaq süddən ayrıldıqdan sonra hələ əxlaqı korlanmağa vaxt tapmamış onu tərbiyə etməyə, nizam-intizama öyrətməyə başlamaq lazımdır. Uşaq təbiətində olan fitri nöqsanlara görə, pis adətlərə meyl edə

biləcəyindən vaxtından əvvəl onun qarşısını almaq, təbiətini nəzərdə tutmaqla əxlaqını saflaşdırmaq gərəkdir, yəni hansı təmiz qüvvə uşaqda özünü əvvəl biruzə verirsə, onun da təkmilləşdirilməsi əvvələ salınmalıdır" (47, səh.156).

Nəsirəddin Tusi qeyd edir ki, uşaqda təmiz, idraki qüvvələrdən ən əvvəl utanmaq, həya əlamətləri özünü göstərir. Deməli, diqqət edilməli, fikir verilməlidir: əgər uşaq həyalıdırsa əksər halda başını aşağı salıb sırtıqlıq etmirsə, bu onun nəcibliyinə sübutdur; bu o deməkdir ki, onun nəfsi çirkin əməllərdən ikrah edib, gözəl işlərə meyl göstərir, bu əlamət həmin istedadın uşaqda olduğuna dəlalət edir. Belə isə həmin uşağın tərbiyəsinə xüsusi fikir verilməli, heç bir şeyi əsirgəməməli, istedadın sönüb getməsinə yol verilməməlidir. Tərbiyənin birinci şərti budur ki, uşağı onun təbiətini korlaya biləcək adamlarla və şeylərlə oturub-durmağa və oynamağa qoymayasan, çünki uşaq nəfsi sadə olar, ətrafdakıların xasiyyətini tez götürər.

Nəsirəddin Tusi xeyirli işləri uşağın yanında tərifləməyi, zərərli şeyləri pisləməyi məsləhət görür. O, göstərir ki, uşaqda pis adətlərə, bəd əməllərə nifrət yaratmaq lazımdır. Uşaq inkişafın ilk anlarında çoxlu səhvlərə yol verərsə, qəbahətli iş görər, çox zaman yalançı, paxıl, oğru, xəbərçi, tərs və inadkar olar, füzulluq edər, dediyindən əl çəkməz, başqalarını da zərərli və xoşagəlməz iş tutmağa vadar edər, sonra isə tənbeh və tərbiyə yaşı keçər. Deməli, uşağı körpəlikdən tərbiyə etmək lazımdır. Sonra dərs öyrətməyə, təlimə başlarlar. Hikmətli kəlamlar, tərbiyəvi şerlər əzbərlədərlər ki, öyrətmək istədikləri şeylər yadında qalsın (48, səh.158-159).

Nəsirəddin Tusi göstərirdi ki, uşaqda hamıya qarşı təvazökarlıq, yaxın adamlara hörmət qoymaq təlqin edilməli, özündən zəiflərə əl qaldırıb özündən güclülərə boyun əymək, tay-tuşlarına paxıllıq etmək qadağan olunmalıdır. Uşaq özündən böyüklərə, tərbiyəçisinə, özünə hörmət və xidmət etməyi bilməlidir. Xüsusi səbəb olmadıqda başqa uşaqları danlamağa qoymamalı, günahları olduqda isə təhrik etməli, yaxşı iş gördükdə, kömək göstərdikdə tərifləməli, mükafat verilməlidir ki, insanlara yardım etmək onun qanına işləsin, adətə keçsin (48, səh.160).

Ümumiyyətlə, Nəsirəddin Tusi uşaqlarda xeyirxah olmaq, insanlarla oturub-durmağı, həmişə bəd əməllərdən uzaq olmağı, böyüklərə, kiçiklərə, həmyaşıdlarına və özünə hörmət etməyi, əlindən gələn yaxşılığı kimliyindən asılı olmayaraq etməyi, pislikdən uzaqlaşmağı, tamahkarlıqdan, xəsislikdən uzaqlaşmağı da məsləhət görür.

Bundan savayı o, uşaqların tərbiyə olunmasında tərbiyəçinin hansı xüsusiyyətlərə malik olması haqqında da çox qiymətli fikirlər söyləmişdir. Tərbiyəçinin ağıllı, vicdanlı, əxlaq normalarına, uşaq ruhiyyəsinə bələd, şirin danışıqlı, insaflı rəftarlı, pak və təmizlikdə məşhur olmaq kimi tələblər qoyurdu (48, səh.161-162).

Pedaqogikanın bir elm kimi formalaşmağa başladığı XVII əsrdən etibarən uşaqlarda bir sıra əxlaqi keyfiyyətlərin, o cümlədən xeyirxahlıq və humanist hisslərin formalaşmasına mühüm diqqət verilmiş və ayrı-ayrı pedaqoqların əsərlərində və pedaqoji fikirlərində bi məsələ xüsusi qeyd edilmişdir.

Nəsirəddin Tusi "Əxlaqi-Nasiri" əsərində əxlaq məsələlərinin dərin təhlilini verir, təhlil etdiyi əxlaqı insanların ictimai münasibətlərini tənzim edən ölçü olduğunu göstərir. O, insan, onun şəxsiyyəti və onun şəxsiyyətinə təsir edən əxlaqı şərh etməklə uşaqların tərbiyəsində tərbiyənin həlledici əhəmiyyətini açıb göstərmişdir. Bu işdə valideynlərin, tərbiyəçilərin, müəllimlərin böyük məsuliyyət daşıdığını qeyd etmişdir. O, mənəvi təmizliyə, əxlaqi saflığa böyük əhəmiyyət verərək uşaqların və gənclərin mənəvi tərbiyəsi ilə məşğul olmalarını məsləhət görürdü.

Tusi uşaqların tərbiyəsində ailənin roluna diqqət verir. O qeyd edirdi ki, mənzil dedikdə, palçıq, daş, kərpicdən tikilən bina nəzərdə tutulmur, burada həmçinin ərlə arvad, valideynlə övlad münasibətləri də olmalıdır. Ailə başçısı ailə üzvlərinin yerini və vəzifəsini bilməlidir. Təbiətdə olduğu kimi insan orqanizmində də hər üzvün öz vəzifəsi var. Ümumi mənafe üçün bu vəzifələr birləşəndə bədənə xidmət edir. Ailə üzvləri də belə olmalıdır. Ailə üzvləri ayrılıqda fərddir, hər birinin öz xarakterik xüsusiyyəti var. Lakin onlar birlikdə bir məqsədə xidmət etməlidirlər ki, ailədə iş düzgün getsin. Ailə münasibətlərində kişi, qadın münasibətlərini geniş təhlil edir və göstərir ki, yaxşı qadın, yaxşı ana yaxşı uşaq tərbiyə edə bilər. Dahi alim adqoyma məsələsinə də toxunaraq söyləyir ki, ailə uşağa yaxşı ad qoymalıdır ki, o, gələcəkdə öz adından xəcalət çəkməsin. Yaxşı ad xoşbəxtlik nişanəsidir. Bundan sonra uşağın fiziki sağlamlığı və tərbiyəsi ilə maşğul olmaq lazımdır. Uşaqlara rəngarəng yeməklər verməklə onları yeməyə şirnikləndirmək lazım deyil. Onu orta bir xörəyə alışdırmaq lazımdır. Arabir yavan çörək də yemək lazımdır. O, səhərlər az yeməyi məsləhət görür. Səhərlər çox yemək insan zehnini kütləşdirir. Az yemək isə

insanda çeviklik, cəldlik əmələ gətirir.

N.Tusi həyatı uşaqlarsız təsəvvür etmir və bütün əsər boyu uşaqların tərbiyəsi alimin diqqət mərkəzində olduğu açıq-aydın görünür. Əsərdə bu məsələyə xüsusi fəsil həsr edən alim uşaqların gələcəkdə necə olacaqlarını lap ilk südəmər çağlarından veriləcək tərbiyəsindən asılı olduğunu göstərir. Bu məsələdə o yazır: "...ata-ananın borcudur ki, hər şeydən əvvəl övladlarını vicdanlı olmağa öyrətsinlər, sonra müxtəlif tərbiyə və təlim işlərinə başlasınlar" (62, səh.74).

N.Tusinin fikrincə uşaqlarda özünü göstərən "həya" hissinin tərbiyəsi ilə birinci növbədə məşğul olunmalıdır. O, həya hissinin böyük əhəmiyyətini göstərərək yazır: "...uşaq həyalıdırsa əksər halda başını aşağı salıb durursa, sırtıqlıq etmirsə, bu onun nəcibliyinə sübutdur, bu o deməkdir ki, onun nəfsi çirkin əməllərdən çəkinir və onlara ikrah hissi ilə yanaşaraq gözəl işlərə meyl göstərir, bu əlamət həmin istedadın uşaqda olmasına dəlalət edir". Bununla da o, uşağın gələcək xoşbəxtliyini böyük istedadın nəticəsi hesab edir.

Dahi alim uşaqlarda yalana, böhtana, iftiraya, kədər və qəmlərə biganə qalmağa, xudpəsəndliyə nifrət hissi oyatmağı uşaq tərbiyəsinin əsası sayır və bunu tərbiyəçilərin ən ümdə vəzifəsi hesab edir. N.Tusi göstərir ki, uşaq inkişafının ilk anlarından yalançı, paxıl, tərs və inadkar ola bilər. Bu, vaxtında tənbeh edilməzsə, gec olar. Buna görə də uşaq körpəlikdən belə əməllərdən uzaqlaşdırılmalı və vaxtında tərbiyə edilməlidir.

N.Tusi uşaqların tərbiyəsində onların böyüklərə hörmət ruhunda tərbiyəsinə xüsusi diqqət vermişdir. Bu hissin tərbiyəsi əsasına özünə hörməti qoyur, yəni yalnız özünə hörmət olduqda bu hiss başqalarına da rəva görülür.

N.Tusi uşaqları pis təsirlərdən qorumağı, əxlaq normaları pozulmuş mühitdən uzaqlaşdırılmağı, nəyin pis, nəyin yaxşı olduğunu vaxtında uşaqlara başa salmağı tövsiyə edir. O uşaqlarda, doğruçuluq, düzlük tərbiyə etməyi məsləhət görür və yazır: "...elə etmək lazımdır ki, uşaq heç bir şeyi gizlətməsin, bir şeyi gizlətmək onun qəbih iş olduğunu başa düşməyi göstərir, bir qəbih iş gizlədildimi, başqa qəbih işləri də gizlətməyə cəsarət edər" (62, səh.75).

Dahi mütəfəkkir alim, müəllim məsələsinə də toxunmuş, onun uşaqların tərbiyəsində böyük roluna xüsusi əhəmiyyət vermişdir. O, özünün nümunəvi olması,

peşəsinin isə son dərəcə məsuliyyətli olması qeyd etmişdir, müəllimi ata ilə bərabər tutur və yazır: "Müəllimlərin ədəb və tərbiyə öyrətmələri əsl vücuda nisbətən ikinci, ata-babaların tərbiyəsinə nisbətən isə şərəflidir və həqiqətən müəllim cismani atadır". Mütəfəkkir müəllim şərəfini yüksəldən belə hikmətli ifadəyə müraciət edərək yazır: "İskəndərdən soruşurlar: "atanı çox sevirsən, yoxsa müəllimi?" – dedi: "Müəllimi. Atam məni dünyaya gətirmişdir, müəllimim isə mənə əbədiyyət bəxş etmişdir".

Beləliklə, N.Tusi müəllimin uşaq üzərindəki əzab və əziyyətini ata zəhmətinə bərabər tutmaqla öz fikrini belə ümumiləşdirir: "Müəllimin tələbəyə olan məhəbbəti xeyirxahlıq məhəbbəti nöqteyi-nəzərindən də atanın oğula onan məhəbətindən üstün olar, çünki onun tərbiyəsi tam fəzilət, mənəvi qida, xalıs fikmət əsasında olar." Ona görə də o uşaqların tərbiyəsini, onların tərbiyəsinin düzgün, qüsursuz aparılması üçün, dunu saf, pak tərbiyəçilərə tapşırılmasına tövsiyə edir.

Bununla da N.Tusi "Əxlaqi-Nasiri" əsərinin övladların tərbiyəsinə həsr etdiyi fəslin uşaqların mənəvi təmizlik, əxlaqi saflıq ruhunda tərbiyə olunması ilə yekun vuraraq bunu valideyn, tərbiyəçi və müəllimin ən ümdə vəzifəsi hesab edir.

N.Tusi doğulan uşaq üçün ağıllı və sağlam bir dayə tapmağı məsləhət görür. Çünki pis adət və xəstəliyin çoxu süd vasitəsilə uşağa keçir.

Südəmər bir uşaq tutmamış maya
Tutmayın siz axmaq, xəstə bir dayə,
Süd ilə bədənə girərsə zəhər
O, bədəndən yalnız öləndə çıxar.

Uşaq süddən ayrıldıqdan sonra onu tərbiyə etmək, nizam-intizamı öyrətmək lazımdır.

Uşağın təbiətində həmişə fitri nöqsanlar var, tərbiyə vasitəsilə vaxtından əvvəl onun qarşısını almaq lazımdır ki, onun əməlləri pis vərdişə çevrilib, qəlbində kök salmasın. Onun əxlaqını saflaşdırmaq üçün uşaqda özünü biruzə vermək istəyən nəcib keyfiyyətləri təkmilləşdirmək, inkişaf etdirmək lazımdır.

Uşaqda təmiz, idraki qüvvələrdən əvvəl utanmaq, həya əlaməti özünü göstərir. Uşaqları erkən yaşdan mehribanlıq, məhəbbət doğuran kəlamlarla tərbiyə etmək lazımdır - xüsusilə ağıla, idraka, şüura təsir edən başa salmaq yolu ilə, yəni, inandırma yolu ilə. Tusi qeyd edirdi ki, elə valideynlər var ki, uşağı düzgün tərbiyə

etmir, ən qorxulu vasitəyə - pul verməklə, onu başqa şeylər vəd edib, şirnikləndirmək yolunu seçirlər. Bu isə erkən yaşdan uşaqlarda riyakarlıq, yalançılıq tərbiyə edir.

O, adət-ənənələri davranış qaydalarını, dini vəzifələri öyrənməyi zəruri sayır. Xeyirli işləri onun yanında təriflәmək, zərərli işləri pisləmək lazımdır. Uşaq yaxşı iş görəndə onu həvəsləndirmə yaxşı nəticə verir. Onları sadə geyimə, sadə yeməyə öyrətmək lazımdır. Tusi yazır ki, kiçik yaş dövründə uşaqlar çoxlu səhvlərə yol verirlər. Qəbahətli işlər görər, çox zaman yalançı və paxıl, oğru, xəbərçi və tərs ola bilər. Uşağı körpəlikdən tərbiyə etmək, sonra təlimə başlamaq lazımdır. Burada tərbiyəvi şerlər, kəlamlar öyrətmək lazımdır.

Uşağı çoxlu danlamaq da olmaz. Uşağı çox danlayanda sırtılır, sonra qəsdən pis hərəkətlər edər ki, qarşısındakını əsəbiləşdirsin.

Uşaqların tərbiyəsində mədəni-gigiyenik adət və vərdişlərin tərbiyəsinə xüsusi fikir verilməlidir. Uşağın xoşuna gəlsin deyə ona rəngarəng, ləzzətli xörəklər vermək lazım deyil. Bu uşaqda qarınqululuq və ləzzətli yeməyə hərislik tərbiyə edir.

Onlara orta bir yemək vermək lazımdır ki, bu həm yoxsullara, həm də varlılara aiddir. Uşağa səhər yeməyini az və yüngül vermək lazımdır. Əgər uşaq səhər-səhər çox yesə onu yuxu basar, zehni kütləşər. Bu yaşda uşağa az ət vermək lazımdır. Əgər az ət yesə onda çeviklik, oynaqlıq, şənlik meylləri daha güclü olar. Xörək arasında su içmək də olmaz. Uşağı nalayiq söz, şit zarafat olan yerdən uzaq saxlamaq lazımdır.

Uşağı qorxu hissindən uzaq saxlamaq lazımdır. Qorxaq uşaqlar pis iş tutanda cəzalanacağından qorxub, əsil həqiqəti demir, uşağı elə etmək lazımdır ki, o, öz sirrini valideynlərindən gizlətməsin. Uşağı yatağanlığa öyrətmək lazım deyil, yatağanlıq insanda süstlük, tənbəllik yaradır. Uşaqlara yumşaq paltar geyindirməməli, onun bədəni möhkəm olsun deyə yatağı və paltarı cod olmalıdır. Böyüklərə tərbiyə hissi tərbiyə edilir ki, lovğalığa qarşı mübarizə aparılmalıdır. Az danışmağı erkən yaşdan uşaqda tərbiyə etmək lazımdır. Uşaq az danışsın, böyüklərin danışmağına qulaq assın. Nalayiq sözlər danışmaq, söyüş söymək, yersiz danışmaqdan çəkindirməli.

N.Tusi cəza tədbirindən də istifadə etməyi lazım bilir. Uşaqları pula, qızıla, gümüşə hərislikdən qorumaq lazımdır. Bunlarda olan zəhər heç əfi ilanda da yoxdur.

Tusi uşaq oyununa da böyük əhəmiyyət verir. Uşaq hər vaxt oynamaq istəsə, ona icazə verilməlidir. Lakin oyun gözəl olmalıdır. Onun uşağa xeyri olmalıdır. Oyun yorucu olmamalıdır. Oyun uşağı yorub əldən salmamalı, qanını qaraltmamalı, zehnini kütləşdirməməlidir. Tusi oğlanlarla bərabər qızların da tərbiyəsinə xüsusi fikir verir, onların həyalı, ismətli, vüqarlı böyüdülməsini zəruri sayır.

Hərəkət qaydalarından danışarkən qeyd edir ki, çox yüngül yeriyib tələsmək yelbeyinliyə dəlalət edir. Çox ağır yerimək tənbəlliyə dəlalət edir. Təkəbbürlü adamlar kimi özünü çəkə-çəkə yeriyəndə o tərəf bu tərəfə baxmamalı, bu gözü dağınıq, huşu özündə olmayan adamlara aiddir, həmişə başı aşağı getməməli, orta həddi gözləmək lazımdır. Oturaq qaydaları da belədir, başı dizi üstə qoymamalı, burnunu qurtdalamamalı, bərkdən əsnəməməli, adamların qabağında uzanmamalı, tüpürməməli, məclisdə öz yerini tanımalıdır.

Yemək qaydalarından danışarkən məsləhət görür ki, əl-üzü yuyandan sonra süfrə başına gəlməli, yeyərkən üst-başını bulamamalı, ağzını çox iri açmamalı, barmaqlarını yalamamalıdır. Xörəyin rənginə diqqətlə baxmamalı, onu iyləməməli, seçməməli, ləzzətli xörək azdırsa, ləlöyünlük etməməli, əli yağlı çörəyə-duza vurmamalı, çörək yeyəndə başqasının üzünə baxmamalı, əgər xörəkdən tük çıxarsa, onu elə etməlidir ki, heç kim görməsin.

Adamların yanında dişində qalmış əti çıxarmamalı. Bu qaydalar bu günümüz üçün də zəruridir.

N.Tusinin tərbiyə-təlim və əxlaq məsələlərinin izahına dair maraqlı fikirləri bu gün də öz əhəmiyyətini itirməmiş, uzun illər keçməsinə baxmayaraq, xüsusi məna kəsb edərək müasir olaraq qalmışdır.

O, uşaqların inkişafında irsiyyət, mühit və tərbiyə amillərini əsas götürür.

Azərbaycan xalqının görkəmli oğlu **Məhəmməd Füzulinin** (1498-1556) də əsərlərində təlim-tərbiyə məsələləri öz ifadəsini geniş təzahür edir. Füzulinin zəngin və qiymətli əsərləri insanı yoldaşlığı, yaxşılıq və pisliyi, ədalət və ədalətsizliyi, haqq və haqsızlığı dərindən duymağa, hiss etməyə, düşünməyə yönəldir. Onları oxuduqca insan düşüncəsi və hissləri nəcib, yüksək bir istiqamət alır.

M.Füzuli bildirir ki, elm, hikmət, şərəf, qüvvət – hamısı insana cəm halında verilmir. Bu keyfiyyətlər insana ardıcıl, sistemli və inadla aşılanmalıdır, yəni insan

tərbiyə olunmalıdır. O, tərbiyənin ecazkar qüvvəsini, onun böyük rolunu xüsusi olaraq göstərir. Insanın tərbiyəsində təlim, elm böyük rol oynayır. Tərbiyə düzgün verildikdə insanı kamil edir, onu həqiqi insan mövqeyinə qaldırır. Buna görə də insana təhsil vermək, onun əqlini inkişaf etdirmək lazımdır. Tərbiyəçi insan qəlbini dərindən hiss etməli, onun qəlbinin gizli sirlərini duymalı, bütün elmlərdən və sənətlərdən xəbərdar olmalıdır ki, onun dükanına gələn müştərilər orada hər şey tapsınlar, yəni onun təlim-tərbiyəsinə möhtac olanlar, ona müəyyən süallarla müraciət edənlər ondan razı qalsınlar (45, səh.45-50).

Füzuli yaradıcılığında tərbiyə məsələləri mühüm yer tutur. Humanizm, vətənpərvərlik, xəlqilik, nikbinlik, əməyə və əmək adamlarına dərin məhəbbət, Füzuli yaradıcılığının, eləcə də onun tərbiyə haqqında fikirlərinin metodoloji əsasını təşkil edir. Onun tərbiyənin məqsədi haqqındakı fikirlərini belə xülasə etmək olar: tərbiyənin məqsədi elmli, pak, əxlaqlı, zəngin mənəvi həyata malik, insan həyatını dərin hiss edən, şəxsi mənafeyini xalqın mənafeyi ilə, sözünü, fikrini işlə bağlamağı bacarmaq, sözündə, əhdində vəfalı, sədaqətli və səmimi bir insan yetişdirməkdir. Təbiət aləminə arası kəsilməyən yağışların köməyilə biyabanlar, çöllər bağ-bostana çevrilir, ruzigarın uzun  müddətli təsirləri nəticəsində daş rəngini dəyişdirib ləl olur, su  qiymətli incilərə çevrilə bilir, zərrələrin günəşlə birləşməsi ona parlaqlıq verir, arası kəsilməyən damcılardan dərya əmələ gəlir. Füzuli bununla da, insan da insana düzgün münasibət göstərərsə, onu lütf ilə, nəvaziş ilə tərbiyə etsə, ondan yüksək mənada insan olacağını göstərir.

Füzuliyə görə yalnız gözəl insani rəftar nəticəsində insanı tərbiyə etmək mümkündür. Tərbiyəni mümkün qədər aşağı yaşlardan başlamalı, ağıl və zəka sahiblərinin söhbətlərindən elm və mərifətin bu yaşlarda kəsb edilməsinə çalışmaq lazımdır. Tərbiyə vaxtında, düzgün verilməsə insan ağlının ayinəsini pas basar və həmin şəxs sərt daşa, zərərli tikana çevrilər, hamı təlim-tərbiyə görməlidir. Yalnız gözəl əxlaqlı adamlar hörmətə, qayğıya, tərifə layiqdirlər. Cəmiyyətin faydalı üzvü olmaq üçün insanın üzərində zəhmət çəkməli, çətinlikdən qorxmamalı, arzu olunan məqsədə çatmaq üçün məhrumiyyətə dözməlidir.

O, uşaqların tərbiyəsi ilə təcrübəli şəxslərin məşğul olmasını göstərir və tərbiyəçilərdən yüksək təcrübə tələb olunduğunu bildirir. Füzuli tərbiyədə mühitin,

şəraitin böyük təsir göstərdiyini qeyd etmişdir. Əxlaq tərbiyəsi ilə əlaqədar olaraq insan davranışı haqqında qiymətli fikirlər söyləmişdir. Övlad gözəl nemətdir, lakin onun həqiqi gözəlliyi öz ifadəsini onun gözəl əxlaqında tapmalıdır. Gənc nəslə tərbiyə məsələsinə aid oğlu "Fəzliyə nəsihət"də və "Rindü Zahid" əsərlərində öz fikrini aydın bildirmişdir.

Füzuli insan əxlaqında olan riyakarlıq, paxıllıq, fitnəkarlıq, fəsad, yalançılıq, xudpəsəndlik, hərislik, tamahkarlıq, şöhrətpərəstlik və s. bu kimi nöqsanları tənqid edir. O, insanda humanizm, vətənə və xalqa sevgi, doğruçuluq, mərdlik, vəfa, sədaqət və s. müsbət əxlaqi keyfiyyətləri tərbiyə etməyi lazım bilir (47, səh.34-58).

Məhəmməd Füzuli yaradıcılığında tərbiyə məsələləri mühüm yer tutur. Onun tərbiyə haqqında fikirlərinin əsasını humanizm, vətənpərvərlik, xəlqilik, nikbinlik, əməyə və əmək adamına dərin məhəbbət təşkil edir. Füzuli tərbiyənin məqsədini pak əxlaqlı, zəngin mənəvi keyfiyyətlərə malik sədaqətli bir insanlar yetişdirməkdə görürdü. Ona görə tərbiyə nə qədər tez, kiçik yaşlarından verilərsə, onun faydası daha yaxşı olur. Füzuli yazırdı ki, tərbiyə vaxtında verilməzsə, insan əqlinin aynasını pas basar və o şəxs sərt daşa, zərərli tikana çevrilər. Əgər insan tərbiyə olmazsa o, nə qədər yüksəlib, əyan olsa belə, ən yüksək mövqe olan insanlığa yüksələ bilməz. Buna görə də tərbiyəyə məxsus olan əsas rola kiçik yaşlarından daha ciddi diqqət vermək lazımdır. O, bunu oğlu Fəzliyə nəsihətində belə izah edir: "Bağda qoca bir bağban gördüm. Bir ağacdan meyvə almaq üçün vaxtını sərf edib çalışırdı". Bununla o demək istəyirdi ki, insandan meyvə almaq üçün onun üzərində də iş aparılmalı, onun tərbiyəsi ilə məşğul olmaq lazımdır.

M.Füzuliyə görə insanın gələcəkdə cəmiyyətdə mövqeyi ondan ciddi hazırlıq tələb edir. Bu tələbi isə tərbiyə həll etməlidir. Füzuli tərbiyənin ecazkar qüvvəsini, böyük rolunu xüsusi ifadə edir.

Feyz lütfilən əgər insana qılsa tərbiyət,
Qədrilə insan-mələk nisbət əzimüşşan olur,
Var mələk həm tapsa eyni iltifatından nəzər,
Əql kamil kəsb edər, əlbəttə bir insan olur.

Füzuliyə görə insan öz daxili aləminin zənginliyi ilə həmişə yüksəkdə durur, insana bunu nəsib edən isə onun tərbiyəsidir. Yeni nəslin tərbiyəsindən gələcək

cəmiyyətin asılılığını duyan Füzuli bu məsələyə “Fəzliyə nəsihət” və “Rindü Zahid” əsərlərində geniş toxunmuşdur.

M.Füzuli tərbiyəsinin ən aktual bir sahəsi olan ailə tərbiyəsini də geniş işıqlandırmış, bu məsələyə bir sıra əsərlərində toxunmuşdur. Füzuli ata və ana olmağı şərəfli bir vəzifə sayır. Övladı isə heç bir ləl-cəvahirata bənzəməyən dünyanın ən böyük neməti sayır və onsuz ad-sanın heç bir qiyməti olmadığını qeyd edir. Füzuliyə görə ata və ananın həyatının mənası övladdır. Övladın isə gələcəkdə təqdirə layiq olması üçün onun valideyn tərəfindən kiçik yaşlarından tərbiyəsi düzgün qurulmalıdır. Bu tərbiyə gələcəkdə öz səmərəsini göstərəcəkdir.

Füzuli irsiyyət, mühit və tərbiyə məsələsinə də toxunmuşdur.

O yazır:

Hər kimin ki, zatında var şərafət nüfuzu,
Istilahi ülum ilə müsəlman olmaz.

Yəni kimin ki qəlbində yamanlıq, pislik etmək istəyi varsa, ondan müsəlmanlıq umma.

Yaxud qara daşın qızıl qan ilə rəngin etsən,
Təbə təğyir verib, ləli bədəxşan olmaz.
Eyləsən tutiyə əzayi kəlamın,
Nitqi insan olur, amma özü insan olmaz.
Hər uzun boylu şücaət edə bilməz dəva
Hər ağac kim boy ata, sərvi Xuraman olmaz.

Füzuli insanda qabiliyyətin anadangəlmə olmasını, tərbiyədə imkan məsələsini irəli sürmüşdür. Çünki tuti danışar. Lakin onda insan olmaq qabiliyyəti yoxdur. Yaxud daşı rəngləməklə ondan yaqut almaq olmaz, deməli, tərbiyə imkanlarını nəzərə almaq lazımdır.

Füzuli ana ağuşunu cənnətə bənzədir. Əgər ana qucağı körpə uşaq üçün cənnətdirsə, tərbiyəçinin ağzı bal arxıdır. Yəni ana qucağında uşaq rahatlıq tapır. Dayə isə şirin sözləri ilə, hərəkətləri ilə onu tərbiyələndirir.

XIX əsrin əvvəllərindən başlamış, Azərbaycanın bir çox mütəfəkkir, yazıçı və pedaqoqlarının humanizmə, humanist tərbiyəyə baxışlarında və uşaqların bu ruhda tərbiyə olunmasının zəruriliyinə aid bir sıra yeni fikirlər və diqqət özünü göstərir.

XIX əsrin birinci yarısında yaşamış **A.A.Bakıxanov** (1794-1847) təhsil, tərbiyə və təlimə dair bir sıra qiymətli fikirlər söyləmişdir. Hər şeydən əvvəl tərbiyənin məqsədini müəyyənləşdirmişdir. Bakıxanovun pedaqoji baxışlarında insan tərbiyəsinin əsas iki cəhəti: əxlaq tərbiyəsi və əqli tərbiyəyə daha mühüm yer verilir. O, yazır ki, hamının sənə qarşı dost olmasını istəyirsənsə, özün hamıya mehriban ol. O, uşağın yoldaşlıq mühitinin düzgün təşkilinə böyük əhəmiyyət verirdi. Uşaqların ancaq yaxşı adamlarla dostluq etməsini, rəzil, boşboğaz və səfeh olmamaq üçün axmaq və boşboğazlardan uzaq olmasını lazım bilirdi.

Bakıxanov insandakı kobudluq, tənbəllik, paxıllıq, yaltaqlıq, yalan danışmaq və s. kimi pis cəhətlərə qarşı mübarizə aparmağı tələb edir və uşaqlarda arzu olunan yaxşı keyfiyyətlərin tərbiyə edilməsini məsləhət görürdü. Müsbət keyfiyyət dedikdə, nəzakətli olmağı, təvazökarlığı, səmimiliyi, dostluğu, diqqətliliyi, düşüncəli hərəkət etməyi, dəqiqliyi, səliqəliliyi, dözümlülüyü, əməksevərliyi və s. nəzərdə tuturdu (51, səh.108-182).

Tərbiyə məsələlərinə böyük əhəmiyyət verən Bakıxanov, hər şeydən əvvəl tərbiyənin məqsədini müəyyənləşdirir. Onun fikrincə, tərbiyənin məqsədi həqiqi insan yetişdirməkdir. Bu ideyaya həm Rusiyanın, həm də Qərbi Avropanın bütün maarifpərvər pedaqoqlarının yaradıcılığında da təsadüf edilir.

Bakıxanov göstərir ki, insan orqanizmində başlıca üzv ürək olduğu kimi, kainatda da insan ən yüksək varlıqdır. Onun fikrincə, insan bilmədiyi hər şeyi öyrənməyə qadirdir, insanın mənəvi aləmi o qədər zəngin və tükənməzdir ki, onun təsviri üçün nə deyilsə azdır. Insanın mənəvi aləmi yerdən göylərə yüksələn günəşə bənzəyir. Bakıxanov özünün “Mişkatül-ənvar” adlı poemasında deyir ki, mən adamı öz yüksək insani mövqeyinə hazırlamaq üçün onun ruhi xəzinəsinin sərfini təsvir etmək istəyirəm.

Insanın yetişməsində tərbiyənin böyük rolu olduğunu qeyd edən Bakıxanov, uşağın tərbiyəsinə lap kiçik yaşlardan başlamağı tələb edirdi. O deyirdi ki, tərbiyə düzgün olmayan ənənə və adətlərin qarşısını alır, həm də uşaqlıqda verilən təlim, iti alətlə daş üzərində salınmış nəqş kimi möhkəm olur.

Görkəmli maarifpərvər **M.F.Axundov** (1812-1878) insana bu dünyada azadlıq və xoşbəxtlik təmin edən əxlaq normaları olmasını arzu edirdi. Uşaqları şən

və gümrah tərbiyə etməyi və dünya zövqlərindən – musiqidən, rəsmdən, rəqsdən və s. məhrum etməməyi lazım bilirdi.

M.F.Axundov uşaqlara nəcib əxlaqi keyfiyyətlər aşılamağa, vətənpərvərlik tərbiyəsinə böyük əhəmiyyət verirdi. O, əxlaq tərbiyəsi haqqındakı fikirlərində yoldaşlıq, sədaqət, insanpərvərlik və dostluğu əsas hesab edirdi. O, cəmiyyətin üzvlərinin xalqa, qadın hüququna hörmət bəsləyən, nəzakətli, mədəni, həqiqəti sevən, özünə və başqalarına tələbkar adamlar olmalarını arzu edir və həyatda da belə görmək istəyirdi (51, səh.268-276).

M.F.Axundov deyirdi ki, yeni insan mətin iradəli, yeniliyi, azadlığı sevməyi, zülmə, ədalətsizliyə nifrət etməyi bacaran mübariz qəhrəmanlar kimi yetişsin. O istəyirdi ki, yeni insan xalqın mənafeyini öz şəxsi mənafeyindən üstün tutan, dostluqda, yoldaşlıqda sədaqətli, möhkəm ideyalı, prinsipial olsun. O istəyirdi ki, cəmiyyətin üzvləri xalqa, qadın hüququna hörmət bəsləyən, nəzakətli, mədəni, həqiqəti sevən, özünə və başqalarına tələbkar adamlar olsun.

Azərbaycanın görkəmli şairi **Seyid Əzim Şirvani** (1835-1888) gənc nəslin əxlaq tərbiyəsinə böyük əhəmiyyət verərək irəli sürdüyü əxlaq normalarında humanizmə, demokratizmə və xeyirxahlığa geniş yer vermişdir. O, adamlarda müşahidə etdiyi kobudluğu, zorakılığı, paxıllığı, xəsisliyi, mənsəbpərəstliyi, özünü öyməyi, yaltaqlığı, qorxaqlığı, fırıldaqçılığı, iradə zəifliyi, boşboğazlığı, qayğısızlığı, fərdiyyətçiliyi və s. iyrənc keyfiyyətləri tənqid etmişdir.

Seyid Əzim gənc nəslə yoldaşlıq, təvazökarlıq, mərdlik, cəsarətlilik, işgüzarlıq, əməksevərlik, təşəbbüskarlıq, açıqgözlülük, səmimilik, səxavətlilik, həssaslıq, nəzakətlilik və s. ən nəcib əxlaqi keyfiyyətlər aşılamağı tələb edirdi. O, bütün bu müsbət əxlaqi keyfiyyətlərin tərbiyəsində ailənin, kollektivin, gözəl uşaq ədəbiyyatının böyük rolu olduğunu söyləyirdi. Gənc nəslin təlim-tərbiyəsində müəllimin, tərbiyəçinin roluna böyük qiymət verərək, yüksək ideyalılıq, hərtərəfli bilik və bacarıq, elmi dünyagörüş, təlim və tərbiyənin üsullarını bilmək, əxlaq saflığı, nəcib xüsusiyyətləri tələb edirdi. Ailə tərbiyəsində zorakılığı rədd etmiş və uşaq şəxsiyyətinə hörmət olunmasını tələb etmişdir (51, səh.277-278).

Zəngin mədəni irsə malik olan Azərbaycan xalqının məktəb və pedaqoji fikir tarixinin müxtəlif dövrlərində ayrı-ayrı maarifçi ədiblər məktəbəqədər yaşlı uşaqların

tərbiyəsinə aid maraqlı fikirlər söyləmişlər. Bu baxımdan **Məhəmməd Tağı (Sidqi) Səfərovun** (1854-1903) pedaqoji görüşləri, onun "Nümuneyi-əxlaq", "Tənviri-əfkar" və "Təhfimi-insaniyyət" əlyazmaları, müəllimlərə kömək məqsədilə tərtib etdiyi "Pedaqogika" dərsliyi, qiymətli tədqiqatları diqqəti cəlb edir. M.T.Sidqi "Əxtər", "Tərbiyə" və "Qız məktəbi" kimi milli məktəblərin yaradıcısı kimi tədris və təlim-tərbiyə sahəsində öz əhəmiyyətini itirməmiş, dəyərli irs qoyub getmiş görkəmli pedaqoqlardan biri olmuşdur. Böyük pedaqoq "Nəfsi səlamət uşağın hekayəsi"ndə bir maraqlı məsələ nəql edir: "bir kişinin dörd oğlu olur, həmin kişi qohumlarının göndərdiyi huludan hər oğluna birini bağışlayır, sonra oğullarından soruşarkən aydın olur ki, Firuz – beş girvənkəyə satıb; Rauf – yarısını özü yeyib, yarısını anasına verib; Bəhram – yeyib şirin və lətif meyvə olduğunu söyləyir, həm də dənəsini əkmək üçün saxlayıb; Əziz isə qonşunun oğlu naxoş olduğu üçün ona bağışlayıb. Ata bütün oğullarını hamısından cavab alandan sonra kiçik oğlu Əzizi bağrına basıb qucaqlayır, öpür və ona afərin söyləyir. Bu balaca uşağın fikrində və xəyalında nə qədər insaniyyət havası və nəfsi bütünlük əlaməti görünür. Böyüyəndə Əzizim rəhmdil və insaniyyətli və nəfsi səlamət adamlardan olacaqdır və o həmişə öz qohum-əqrəbasının ata-anasının, millətinin əsayiş və istirahətinin, onun tədrisinin fikrinə qalacaqdır" (52, səh.39-40).

Belə-belə hekayələr və hekayəti-misallar M.T.Sidqinin "Nümuneyi-əxlaq" dərsliyində yüzlərlədir. Sidqi uşaqları həmin məsələlərlə təmin edərək onları dostluğa, yoldaşlığa və insan şəxsiyyətinə hörmət etməyə səsləmişdir. "Nümuneyi-əxlaq" dərsliyində gətirdiyi həyati hekayələr, nəql etdiyi hadisələr, söylədiyi hikmətamiz sözlər, ifadə etdiyi dərin mənalı cümlələr bu gün də öz əhəmiyyətini itirməmiş, uşaqlarda humanizmin, insanpərvərliyin tərbiyə edilməsində bu gün də öz qüvvəsini saxlamışdır.

Sidqi ədəb qaydaları ilə uşaqların tərbiyəyə, tərbiyəçi müəllimlərə, böyüklərə, qocalara hörmət etməyi, oxuduqları "tərbiyə" məktəbinə hüsn-rəğbət bəsləməsini ciddi surətdə tələb edirdi. Pedaqogikaya gətirdiyi yenilik və pedaqoji fikir tarixində göstərdiyi misilsiz xidmətlərindən biri də onun psixologiya , pedaqogika, pedaqogika tarixi, təlim, tərbiyə, elm, ədəb, dostluq, yoldaşlıq, əxlaq, təvazökarlıq, səadət, mülahizə və s. kimi sırf pedaqoji, psixoloji, etik, əxlaqi, fəlsəfi anlayış və terminlərin

təqdim edilməsində və aydınlaşdırılmasında olmuşdur.

M.T.Sidqinin açdığı məktəbin adı “Əxtər” idi. O, “Tərbiyə” məktəbində müdir və müəllim olduğu müddətdə “heykəli-insana bir nəzər”, “Kəblə-Həsir”, “Mənəviyyati-mədəniyyə”, “Həkimanə sözlər” kimi bir çox əsərlər, əlyazmalar, dərsliklər yazmışdır. Bu əsərlərin hamısında uşaqları humanistliyə çağıran, humanist hisslər tərbiyələndirən motivlər daha çox üstünlük təşkil edir. M.T.Sidqinin yaratdığı “Tərbiyə” məktəbində müdirdən tutmuş ta müəllimlərədək hamı, uşaq şəxsiyyətinə hörmət etməklə bərabər, uşaqların mənfi davranışına təsadüf edilərsə, nəsihət yolu ilə həmin xasiyyətlərin islah olunmasına çalışırmışlar. Sidqi hər bir adama elmli, tərbiyəli olmağı məsləhət görür və yazırdı ki, insana yemək, içmək və geymək nə qədər lazım olsa, elm, mərifət və tərbiyət eləcə lazımdır (58, səh.59).

M.T.Sidqi göstərirdi ki, insanın cəmiyyətdə davranışı və özünü aparması, yoldaşları ilə münasibəti və s. onun əxlaqi keyfiyyətlərə malik olmasından çox asılıdır. Buna görə də Sidqi bir pedaqoq kimi, uşaqlara lap kiçikliyindən tərbiyə verməyi məsləhət görürdü. Çünki, “Təzə əkilən tənəklərə və ağaclara su vermək nə qədər lazım olsa, uşaqlara da təlim-tərbiyə kiçiklikdə o qədər lazımdır” (52, səh.77).

Insanın xasiyyəti, əxlaqı mürəkkəb və müxtəlif olduğundan Sidqi tərbiyəni uşaqlara lap kiçiklikdən verməyi lazım bilirdi. O, yazırdı: “Bu cəhətə barmaq boyda balalar ağ və qaranı, isti və soyuğu anlamağa başladıqları vaxtdan gözəl-gözəl xasiyyətləri onlara anlatmaq, təlim və tərbiyəsinə diqqət etmək lazım və bəlkə də vacibdir. Çünki uşaqlıq yaş ağaca bənzər. Təzə yaş ağacı, hər nə qədər əyri olsa, düzəltmək asandır” (52, səh.58).

Sidqi uşaqların tərbiyəsini nəzarətsiz qoymamağı təklif edərək, göstərir ki, uşağın tərbiyəsi gözdən yayınarsa, o böyüyən vaxt əxlaq və ədəbdən uzaqlaşıb bəd xasiyyətlər vücuduna təbiəti-sənəviyyən olduqca islahı müşgül və düşvardır. “Tərbiyəsiz uşaqların müsahibatı kömürə bənzər, hərgah insanın libasını yandırmasa da qaraldar” (52, səh.29). Pedaqoq belə uşaqları təsvir edərək göstərir ki, “biədəb uşaqlarda əsla ar və namus olmaz, böyük və kiçik tanımaz, ata və anasının ehtiramını saxlamaz, ustad və müəllimin qədrini bilməz, gələcək günlərini əsla xəyala gətirməz, avara və sərgərdan adamlar kimi küçələrdə boş və bekar dolaşıb, əziz ömrünü qəflət və cəhalət ilə keçirər” (52, səh.29).

Insan tərbiyəsinin müxtəlifliyini görən pedaqoq qeyd edirdi ki, bu müxtəliflik uşaqlara aşılanan tərbiyə formalarının bir-birindən fərqli olmasından əmələ gəlir. Pis tərbiyə olunan ədəbsizliyə, yaxşı tərbiyə olunan isə lazımi əxlaqi sifətlərə malik olur. Beləliklə, Sidqi uşaqlarda humanist hisslərin formalaşmasının da əsasını yaxşı tərbiyədə görürdü. Sidqinin bu fikrinə Azərbaycanın görkəmli maarifpərvəri Firudin bər Köçərli də şərik olub, "Tərbiyənin amilləri" əsərində Sidqi ilə eyni mövqedə çıxış etmişdir. O, yazırdı: "Tərbiyə uşağın ruhunda bir iz, bir əsər buraxır və onun qəlbini bu və ya digər hala salır" (29).

Sidqi əxlaqi sifətlərin hədsiz dərəcədə mürəkkəb olmasını göstərməklə bərabər, bu hərəkətlərin nizama salınmasının tam mümkün olmasını da şərh etmişdir. O, tərbiyənin təsiredici qüvvəsinə möhkəm inanır və hər bir mənfi əxlaqi sifətə malik olan insanın tərbiyə vasitəsilə islah olunmasını mümkün hesab edir və "islaha gəlməz insan yoxdur" – deyirdi. Pedaqoq "tərbiyəni insanın parası və ailənin güzgüsü" hesab edirdi.

**4. Mirzə Ələkbər Sabir** (1862-1911) tərbiyənin gücünə inanır və deyirdi ki, bütün insan doğulmuşların tərbiyəyə ehtiyacı vardır. Çünki, tərbiyə insanı inkişaf etdirir, təkmilləşdirir, onun daxili imkanlarını və qabiliyyətlərini üzə çıxarır. Bunun üçün düzgün ictimai mühit və tərbiyə lazımdır. Sabirə görə xalqın, millətin yol göstərəni, rəhbəri tərbiyədir. Dünyanın bütün işləri tərbiyə ilə keçir, hər işin başlanğıcı ibtidaisi tərbiyədir. Valideynlərin övlada ilk bəxşişi tərbiyədir. Övlad həqq nemətidir. Buna görə şüurlu - həqqin ədası tərbiyədir. Tərbiyə elmsiz məğbul deyil, çünki onun zəruri şərti tərbiyədir. Elmin ümdə vəzifəsi insan tərbiyə etməkdir. Elm isə məktəbdə kitabla, səylə hasil olur. Elmlə zinətlənən tərbiyə həyata layiqdir. Həyata layiq olan zinət tərbiyə və elm qövhəridir. Insan tərbiyə nəticəsində ətraf mühiti daha yaxşı anlamaqla insanlar arasındakı münasibətə şüurlu yanaşmağa başlayır.

Uşaqlarda yüksək əxlaqi hisslər, o cümlədən humanist münasibətlərin formalaşdırılmasında yorulmaz mübarizlərdən biri də Azərbaycan xalqının böyük şairi M.Ə.Sabir olmuşdur. Sabirə görə tərbiyənin məqsədi əsl insan hazırlığıdır, onun mənəvi və fiziki qabiliyyətlərini ahəngdar surətdə təkmilləşdirmək, onda yüksək əqli və əxlaqi keyfiyyətlər tərbiyə etməkdir. Bu anlayışlara Sabir zəngin məzmun verir. O,

tərbiyənin insanı dəyişdirməkdə və təkmilləşdirməkdə böyük gücünü görür, lakin onu həddindən artıq qiymətləndirmir və şişirtmir. Tərbiyə insanda geniş bilik, əsrin qabaqcıl elmləri ilə silahlanmaq, insanpərvərlik, vətənpərvərlik, əməksevərlik, xalq mənafeyi uğrunda mübarizlik, obyektivlik, doğruçuluq aşılayır. Sabir əxlaq tərbiyəsinin məzmununa uşaqların davranış məsələlərini də daxil etmişdir. Cəmiyyətdə insanların bir-birinə münasibətində elə məsələ yoxdur ki, Sabir ona toxunmasın, Sabirin əxlaqi normalar və insan davranışına aid irəli sürdüyü müddəalarda humanizm, demokratizm, insanpərvərlik geniş mənasında öz ifadəsini tapmışdır. Onlar insanı alicənablığa, mərdliyə, ədalətə doğruçuluğa, əməksevərliyə, işgüzarlığa, təvazökarlığa, fəallığa, təşəbbüskarlığa, müstəqilliyə, insan şəxsiyyətinə ehtiramla yanaşmağa, özünə və başqasına qarşı tələbkarlığa, səmimiyyətə, ardıcıllığa, həssaslığa, dostluğa, yoldaşlığa, ictimai fəaliyyətə, düşüncəli hərəkətə, fədakarlığa və bu kimi müsbət əxlaqi keyfiyyətlərin aşılanmasına yönəldir.

Sabir eyni zamanda insan əxlaqında və onun davranışında müşahidə etdiyi kobudluğu, zorakılığı, paxıllığı, xəsisliyi, şöhrətpərəstliyi, cəhaləti, lovğalığı, tamahkarlığı, acgözlüyü, qrınqululuğu, fitnəkarlığı, böhtançılığı, eqoizmi, avaralılığı, tənbəlliyi, yaltaqlığı, ikiüzlülüyü, fırıldaqçılığı, nəzakətsizliyi, qayğısızlığı, qərəzkarlığı, axmaqlığı, kütlüyü və digər bu kimi nöqsanları kəskin və amansız tənqid etmişdir. Insan əxlaqındakı, davranışındakı müsbət və mənfi keyfiyyətlər haqqında Sabirin mülahizələrini təhlil etdikdə həssas və böyük tərbiyəçinin, psixoloqun, qayğıkeş, ağıllı bir atanın, cəmiyyətin inkişafının irəliyə doğru hərəkətini ləngidən hər cür kəsalət və mühafizəkarlığa qarşı barışmaz mübarizin, mərd və cəsarətli vətəndaşın, ictimai xadimin dünyagörüşü, iti müşahidəsi aydın görünür.

M.Ə.Sabir gənc nəslin tərbiyəsində və onun dünyagörüşünün formalaşmasında uşaq ədəbiyyatının böyük rolunu görmüş, bu məqsədlə də balalarımız üçün bir neçə şerlər, təmsillər, nəsihıətlər, mənzum hekayələr yazmışdır. Sabirin uşaq ədəbiyyatı mövzuları müxtəlifdir. Lakin bu müxtəlif mövzuların tərbiyəvi əhəmiyyətinə və daxili mənasına görə bir vəhdəti var. Bu da gənc nəsildən kamil, saf əxlaqlı adamlar yetişdirməyə, özləri və insanlıq üçün yüksək dərəcədə faydalı olmağa kömək edən şəxsiyyətlər formalaşdırmağa yönəldilən ideyalardır.

Sabirin istər təbiət, istərsə cəmiyyət və adi məişət hadisələrinə aid yazılmış

şerləri nəinki uşaqları gümrahlaşdırır, həyatı və təbiəti onlara sevdirir. Bəzən onları ürəkdən güldürür, nifrət, qəzəb, bəzən də məhəbbət, sevinc, qorxu, kədər və sair bu kimi emosional hisslər oyadaraq ruhi müvazinətin sarsılmasına, obyektiv mühakimə qabiliyyətinin zəifləməsinə yol vermir. O, öz fikrini oxucusuna zorla qəbul etdirmir. “Cütcü”, “Yaz günləri”, “Uşaq və buz”, “Qarğa və tülkü”, “Ağacların bəhsi” və s. şerləri onun uşaqların tərbiyəsinə həvəs və dərin münasibətinin parlaq ifadəsidir. O, uşaqlara həyatı doğru göstərməyə çalışmışdır. Sabirin “Uşaq və pul” şerindən bir daha aydın olur ki, uşağa müsbət əxlaqi keyfiyyətlərin aşılanması kiçik yaşlarından başlanmalıdır. Sabirin bu şerini Seyid Əzimin “Qoca ana və oğru uşaq” şeri ilə müqayisə edərkən bir daha ailədə valideynlərin uşaqların tərbiyəsində diqqətli olmalarını və onun körpəlikdən, ilk addımdan tərbiyə olunmasını bir daha görürük.

M.Ə.Sabir gənc nəslin təlim-tərbiyəsində, ona müsbət əxlaqi keyfiyyətlərin aşılanmasında, insani hisslərin formalaşmasında ailəni nəzərdən qaçırmamış, ona böyük diqqət vermiş və haqlı olaraq yeni insanın formalaşmasında rəhbər rolu tərbiyəçi, müəllimə vermişdir. O, ailədə valideynlərdən və tərbiyə müəssisələrində tərbiyəçilərdən uşağa qarşı yüksək dərəcədə diqqət və qayğı tələb edir.

Insanı tərbiyə etmək ona bir yığın əxlaq qaydalarını əzbərlətmək deyildir. Tərbiyə insanın dünyagörüşü və əqidəsini formalaşdırmalıdır. Bunun nəticədində insan təbiət və cəmiyyət hadisələrini, özünün və başqalarının davranışını yüksək qiymətləndirir. Insanın mənəvi inkişafında təhsil və elm qüdrətli silahdır. Sabirə görə tərbiyənin məqsədi əsl insan yetişdirməkdir. Tərbiyə insanda geniş bilik, əsrin qabaqcıl elmləri ilə silahlanmaq, insanpərvərlik, vətənpərvərlik əməksevərlik və s. tələb edir. Sabir tərbiyənin gücünə inam bəsləməklə insanın formalaşmasında mühitə, insanın daxili imkanlarına da diqqət yetirir. O yeni insan tərbiyəsi haqqında fikirlərini həyata keçirilməsində əsas vasitə təlim hesab etmiş, böyük müəllimi S.Ə.Şirvaninin yolu ilə getmiş, xalq məktəblərinin sayını artırmağı zəruri saymışdır.

Sabirin əsərlərində əxlaq tərbiyəsinə, vətənpərvərliyə, dostluq və yoldaşlığa, böyüklərə hörmətə və s. keyfiyyətlərə yüksək qiymət verir. O, vətənə, xalqa xidməti hər şeydən üstün tuturdu. Sabir vətənə, xalqa xidməti adamların mənsəb və tutduğu vəzifəsi ilə deyil, gördüyü konkret əməli işlə qiymətləndirməyi tələb edirdi. Sabirin əxlaq tərbiyəsi haqqında fikirləri sırasında mühüm yer tutan məsələlərdən biri də

əməkdir. Sabirə görə insanlığı yaşadan əmək adamlarının haqqı qorunmalıdır. Insan cəmiyyətdə gördüyü faydalı əməyə görə qiymətləndirilir. Zəhmətin nəticəsi olmalıdır. Zəhmət insandan böyük səy, iradə tələb etsə də nəticəsi fərəhlidir.

Sabir "Tərbiyə", "Analar bəzəyi", "Məktəb şərqisi","Məktəb uşaqlarına tövhə" və başqa şerlərində uşaqların ədəb və davranış qaydalarına geniş yer verir və onların ailədə, məktəbdə ictimai yerlərdə özlərini ləyaqətli aparmalarını tövsiyə edirdi.

Sabir ailə tərbiyəsinə, ailənin məktəblə əlaqəsinə böyük əhəmiyyət verərək deyirdi ki, valideynlər övladlarının tərbiyəsi üçün tam məsuliyyət daşımalıdır. O düzgün ailə tərbiyəsini valideynlərin xoşbəxtliyi adlandırır, ailədə düzgün tərbiyə verməyən valideynləri kəskin tənqid edirdi. O, "Olmur-olmasın", "Bəxtəvər", "Uşaqdır, uşağım", "Ata nəsihəti", "Leyli və Məcnun", "Həyatın qop-qopuna cavab" şerlərində, "Bu əməldən ucalarsan" bəhri-təvilində nadan, cahil valideynlərin verdiyi səhv tərbiyənin acı nəticələrini hər ailəyə məxsus töhvələr şerində təsvir edir, qəribə səhnələr yaradır.

Sabirin uşaq şerləri məzmunca ibrətamiz olduğu kimi formaca da maraqlı və rəngarəngdir. O, aşılamaq istədiyi ideyanı balaca oxuculara qabarıq şəkildə çatdırmaq üçün maraqlı hadisələr seçir: bu gün bütün uşaqların əzbər bildiyi "Uşaq və buz", "Yalançı çoban", "Yaz günləri", "Cütcü" şerləri məktəbəqədər yaşlı uşaqların da dilinin əzbəridir.

Klassik və qabaqcıl pedaqoji irsdən, Azərbaycan maarifçilərinin ideyalarından bəhrələnən dahi bəstəkarımız **Ü.Hacıbəyov** (1885-1948) öz yaradıcılığında tərbiyə məsələlərinə xüsusi yer vermişdir. Insanın inkişaf edib formalaşmasında tərbiyənin rolunu yüksək qiymətləndirən Ü.Hacıbəyovun tərbiyə haqqındakı fikirlərinin əsasını humanizm, vətənpərvərlik, beynəlmiləlçilik, nikbinlik, mübarizlik təşkil edir. o, insan şəxsiyyətinin inkişaf etdiyi yazılarında, bir tərəfdən köhnə cəmiyyətdəki tərbiyə sistemini – mənsəbpərəstliyi, acgözlüyü, avaraçılığı, ikiüzlülüyü, soyğunçuluğu və s. barışmaz sifətləri tənqid etmiş, digər tərəfdən isə XX əsrin ictimai tələblərinə müvafiq sağlam bədənli, sağlam mənəviyyatlı gənclərin yetişdirilməsində öz yaradıcılığı ilə mühüm rol oynamışdır. O, tərbiyə işinə ardıcıl, müntəzəm, mütəşəkkil və məqsədyönlü aparılan bir proses kimi baxmışdır. Əxlaq məsələlərini dövrün

tələbləri baxımından azadlıq uğrunda gedən mübarizənin tərkib hissəsi hesab etmişdir.

Ü.Hacıbəyov cürətsizlikdən doğan bir sifət kimi, mənfi keyfiyyət kimi – acizliyi də tənqid etmiş, bunlara qarşı təşəbbüskarlıq və mübarizlik kimi gözəl əxlaqi keyfiyyətlər təlqin etmişdir. O, yazırdı: "Odur ki, biz hər bir təşəbbüs müqabilində özümüzü aciz bilib, cürətsizlik etməməliyik. Insan ruzigarın önümüzə yumalatdığı çətinliklərlə mübarizədə olmaq üçün yaranıbdır. Acizlik və cürətsizlik göstərməkdənsə, mübarizə edib ruzigara basılmamaq əfsəldir" (63, səh.640-653). Beləliklə, Ü.Hacıbəyov cürətsizlik və acizliyi uşağın tərbiyəsində əxlaqi yoxsulluq hesab etmiş və humanist keyfiyyətlərə malik olmağı mühüm əxlaqi mənəviyyat kimi qiymətləndirmişdir.

Ü.Hacıbəyov şəxsi mənafeyi ictimai mənafeyə qarşı qoyurdu. O, belə bir əqidədə olmuşdur ki, insan gərək həm özü üçün, həm də ümummillət üçün çalışsın. O, ictimai və şəxsi mənafeyin əlaqəsi məsələsində ictimai mənafeyə üstünlük verir, bunu əxlaqlı olmağın mühüm şərtlərindən biri hesab edirdi.

A.A.Bakıxanov, S.Ə.Şirvani, M.T.Sidqi, M.Ə.Sabir kimi Ü.Hacıbəyov da şəxsiyyətin təşəkkülü və gələcək inkişafında ailənin roluna yüksək qiymət vermiş və humanizm tərbiyəsində onun mühüm rol oynadığını qeyd etmişdir. Apardığı müşahidələr nəticəsində o, belə qənaətə gəlmişdir ki, uşağın inkişafının istiqaməti və intensivliyi bilavasitə ilkin tərbiyədən – ailə tərbiyəsindən çox asılıdır. Çünki uşağın fiziki və psixi inkişafının ilk rüşeymləri ailədə qoyulur. Ü.Hacıbəyovun fikrincə ailədə tərbiyə məsələsinin düzgün qoyuluşunu şəxsiyyətin gələcək inkişafına güclü təsir edir. o, insanda yüksək mənəvi sifətlərin yaranıb təşəkkül tapmasına məktəb illərində deyil, məktəbəqədərki dövrdə başlanmalı fikrini müdafiə edir və göstərir ki, uşağın tərbiyə edilməsi prosesində ailənin rolu məktəbin və məktəbəqədər tərbiyə müəssisələrinin rolu qədər əhəmiyyətlidir.

Ü.Hacıbəyov uşaq oyunlarının gözəlliyi, uşaqlarda əxlaqi keyfiyyətlərin formalaşması və humanist hisslərin daha da təşəkkül tapması üçün onun tərbiyəvi məzmununa malikliyini və milliliyini, yaş səviyyəsinə uyğunluğunu təklif etmişdir. Oyuncaqların obrazlılığına, uşaqların yaş səviyyəsinin uyğunluğuna, tərbiyəvi əhəmiyyətinə xüsusi fikir verilməsini və ondan yerli-yerində istifadə olunmasını

təklif etmişdir.

Təkcə adlarını çəkdiyimiz maarifçi ədiblərimiz deyil, N.Nərimanov, A.Səhhət, C.Məmmədquluzadə və başqa görkəmli şəxsiyyətlər də birtərəfli tərbiyə ilə razılaşmayaraq, insanı həm əqli, həm əxlaqi, həm də fiziki və estetik cəhətdən ahəngdar tərbiyə etməyi lazım bilmişlər. Onlar uşaq şəxsiyyətini təhqir edən hər cür cəzanın əleyhinə idilər. Müəllim, tərbiyəçi öz biliyi, bacarığı, mədəniyyəti, nəzakəti, davranışı, sadəliyi, ictimaiyyətçiliyi və sair ilə həm uşaqlar, həm də əhali arasında nüfuz qazanmalıdır. Tərbiyənin uşaqlara qayğı ilə yanaşmasını, onlarla rəftarında həssas və mülayim olmasını, mərifət gözləməsini tələb edərək, bunların uşaqlarda insanpərvərlik, humanistlik, adamlara qayğı ilə yanaşmaq kimi əxlaqi sifətlərin formalaşmasına mühüm təsir göstərdiyini qeyd etmişlər.

**Abbas Səhhət** (1874-1918) uşaqlar üçün də zəngin ədəbi irs qoyub getmişdir. O, Azərbaycan uşaq ədəbiyyatında şərəfli bir yer tutur. Uşaq ədəbiyyatını təsirli tərbiyə vasitəsi hesab edən şair sələfləri M.Füzuli, Q.Zakir, S.Ə.Şirvaninin gözəl ədəbi ənənələrini davam etdirmiş, öz yaradıcılığı ilə uşaq ədəbiyyatı xəzinəsini xeyli zənginləşdirmişdir. Onun "Cücələr", "Quşlar", "Ana və bala", "Yaz", "İlk bahar", "Qış" kimi onlarca şeri Azərbaycan uşaq ədəbiyyatının qızıl fonduna daxil olmuşdur. Şairin şerlərinin bir çoxu bu gün də balacaların dilinin əzbəridir. A.Səhhətin şerlərini yaşadan, hər şeydən əvvəl, onların uşaq yaşına və ruhuna münasib olmasıdır. Məlumdur ki, məktəbəqədər yaşlı uşaqlar nağılları dinlədikcə xəyal aləminə qapılır, onlarda təxəyyül qüvvətli olur. Uşaq çubuqdan "at", qutudan "maşın" düzəldib yorlulmaq bilmədən "sürür". Uşaq ədəbiyyatı uşaq xəyalına qanad verməli, onların hisslərinə təsir etməlidir. Bu cəhətdən A.Səhhətin şerləri çox səciyyəvidir. "Yaz", "Qaranquş balaları", "Bağça" və başqa şerlər uşaqlarda hisslərin tərbiyəsinə yönəldilmişdir. "Qaranquş balaları" şerindən bir parçaya diqqət edək:

Ay quşcuğazlar, nə yaraşıqlısız,
Can kimi bəslənməyə layiqsiniz.
Nədir o istəkli, o heyran baxış,
Nə dadlı cik-cik, nə gözəl çırpınış?!

Şairin digər şerləri də belə səmimidir. A.Səhhətin uşaq şerlərini səciyyələndirən cəhətlərdən biri də onların uşaqları yoran, darıxdıran nəsihətçilikdən,

quru mühakimələrdən uzaq olmasıdır. Uşağın təbiəti konkretlik, əyanilik tələb edir. uşaqlar üçün yazılan əsərlər öz konkretliyi, parlaqlığı ilə fərqlənməlidir. A.Səhhətin bir çox uşaq şerləri buna gözəl nümunə ola bilər. "Cücələr" şerində oxuyuruq:

Cücələrim bəzəklidir,
Bəzəklidir, düzəklidir,
Sarı, çil-çil, hər rənglidir.
Yeyər, içər cücələrim
Doyub qaçar cücələrim.

A.Səhhət parlaq lövhələr, canlı surətlər yaradır, məqsədi balaca oxuculara surətlər vasitəsilə çatdırmağa çalışır. Şair tülkü və qurdu, qarışqa və milçəyi, gün və küləyi, gülləri "dilə gətirir", özü isə sanki hadisələrin arxasında gizlənib gözə görünmür.

A.Səhhətin şerlərinin bir xüsusiyyəti də dilin sadəliyi və oynaqlığıdır. Çətin, uzun, ağır tələffüz olunan sözlərlə dolu əsərlərin ideyası, məzmunu balaca oxucuya çatmır, ona lazımi tərbiyəvi təsir göstərmir. A.Səhhətin uşaq şerlərinin əksəriyyəti dilinin sadəliyi, oynaqlığı, axıcılığı və bədiiliyi ilə fərqlənir. "Quşlar" şeri xüsusilə sadə və bədii dildə yazılmışdır:

Quşlar, quşlar, a quşlar!
Qaranquşlar, a quşlar!
Cəh-cəh vurun burada,
Gah yerdə, gah yuvada...

Şair uşağa aydın olmayan, çətin tələffüz olunan ifadələrdən, çoxsözlü misralardan qaçır, mümkün qədər yığcam və oynaq misralardan istifadə etməyə çalışır. Şair uşaqlarla onların dilində danışır, fakt və hadisələri uşaq anlayışlarına uyğun surətdə ifadə edir. Azsözlü misralar, qoşa misralarda müvəffəqiyyətlə seçilmiş qafiyələr onun uşaq şerləri üçün tipikdir:

Quşlar ötür çöllərdə,
Ördək üzür göllərdə.
Əsir isti küləklər,
Uçur qazlar, ördəklər...("İlk bahar")

Şerdəki aydınlıq, ahəngdarlıq onun yadda qalmasını asanlaşdırır.

A.Səhhətin uşaqlar üçün yazdığı maraqlı və oynaq şerləri onu yaxşı bir uşaq yazıçısı kimi xarakterizə edir. Böyük rus tənqidçisi V.Q.Belinskinin uşaq yazıçısı barədə dediyi sözləri A.Səhhətə də aid etmək olar: "...Uşaq yazıçısının yaranması üçün çox, olduqca çox şərtlər vardır: nəcib, sevən, riqqətli, sakit, körpəcə-sadədil bir qəlb, yüksək məlumatlı bir ağıl, şeylərə aydın baxış, yalnız canlı təsəvvür, həm də canlı, şairanə bir xəyal lazımdır... Uşaqlara qarşı məhəbbət uşaq yaşının tələb, xüsusiyyət və təfərrüatının dərindən bilmək də mühüm şərtlərdəndir".

A.Səhhət uşaq yazıçılığına təsadüfən gəlməmişdir. 15 illik müəllimlik fəaliyyəti onun bir uşaq yazıçısı kimi formalaşmasına müəyyən dərəcədə təsir göstərmişdir. Tənqidçi K.Talıbzadənin qeyd etdiyi kimi, A.Səhhətin ədəbi yaradıcılığında da bir növ müəllim-tərbiyəçi olmuş, öz əsərləri ilə uşaqların təlim-tərbiyəsinə kömək etmişdir.

A.Səhhətin uşaq şerləri indi də öz tərbiyəvi təsirini mühafizə edir. Məktəbəqədər yaşlı uşaqların dünyagörüşünü genişləndirməkdə, onlara müsbət əxlaqi keyfiyyətlər aşılamaqda bu şerlər böyük əhəmiyyətə malikdir. Şairin şerləri uşaqları təbiətlə tanış etmək sahəsində böyük imkanlara malikdir. "Uşaq bağçasında tərbiyə proqramı"nın "Ətraf mühitlə tanışlıq və nitq inkişafı" bölməsində uşaqlara müxtəlif əmək növləri (rabitə, nəqliyyat, tikinit, tikiş və s.), əmək adamları ilə, ilk növbədə isə valideynlər, uşaq bağçasının işçilərinin əməyi ilə, habelə doğma yerlərlə, təbiətlə tanışlığa geniş yer verilir. Tərbiyəçi bu məqsədlə A.Səhhətin bir çox şerlərinə istinad edə bilər.

"Ana və bala" şeri uşaqlarda anaya məhəbbət aşılamağa kömək edir. 4-5 yaşlı uşaqlar ananın fəaliyyətini təqlid etdikləri oyun prosesində (ana uşağını yatızdırır) bu şerin ayrı-ayrı bəndlərini həvəslə oxuyurlar:

Dağın maralı,
Gözü qaralı,
Dünyanın malı,
Bu balama qurban...

Məktəbə hazırlıq qrupunda uşaqları psixoloji cəhətdən məktəbə hazırlamaq, məktəblə tanış etmək, onlarda təlimə həvəs oyatmaq məqsədilə "Ata və oğul" şerindən istifadə etmək olar. Məktəbə həvəs göstərən bir uşağın dilindən yayılmış bu

şerdə uşaqların məktəbdə birlikdə oxumaları, müəllimin onlara dərs keçməsi təsvir olunur.

Təbiətlə tanışlıq və nitq inkişafı sahəsində A.Səhhət şerləri daha böyük imkanlara malikdir. "Uşaq bağçasında tərbiyə proqramı" bütün qruplarda uşaqları ilin fəsilləri, müxtəlif fəsillərdə hava, bitki və heyvanlar aləmində, insanların əməyində baş verən dəyişiklərlə tanış etməyi nəzərdə tutur. 12 misralıq "Yaz" şerində yazın bir çox əlamətləri öz əksini tapmışdır: yazda gecə-gündüzün bərabər olması, havaların istiləşməsi, qarların əriyib çaylara tökülməsi, çayların daşması, quşların isti ölkələrə qayıtması uşağın başa düşəcəyi şer dili ilə təsvir olunur. "İlk bahar" şerində yazın digər əlamətləri də (havanın tutulub-açılması, yağmurlu olması, isti küləklərin əsməsi, ağacların yarpaqlanması, çəmənin göyərməsi və s.) göstərilir. Bu şerdə şair balaca oxucunu təbiət hadisələri arasında sadə əlaqələrlə tanış edir:

Qar əridi,yox oldu,
Çaylarda su çox oldu.

Və ya:

Yüngül, sərin meh əsir,
Yağmuru birdən kəsir.

"Yay" şerində uşaqlar yay fəslinin əlamətləri ilə (havanın istiləşməsi, quş və heyvanların kölgəyə çəkilməsi, meyvələrin yetişməsi, taxılın biçilməsi və s.) tanış olurlar.

"Yaz" və "İlk bahar" şerlərini əzbərlətmək mümkün olduğu halda, "Yay" şerinin uşaqlara oxunması münasibdir. Bu şerlərin məzmunundan məktəbə hazırlıq qrupu uşaqlarının rəsmi məşğələlərində təbiət lövhələri çəkmələri üçün də istifadə edilə bilər.

"Güllərin bəhsi" alleqoriyasında uşaqlar qızılgül, zanbaq, şəbbu gülünün xüsusiyyətləri ilə tanış olurlar. "Bağça" şeri uşaqları bağ bostanla, onların məhsulları ilə şən bir şəraitdə tanış edir:

Göyərin, göy çəmənlərim, göyərin!
Sünbülüm, yasəmənlərim, göyərin!
Açılın, iyli güllərim, açılın!
Allı-əlvanlı güllərim, açılın!

Şerdən böyük məktəbə hazırlıq qruplarında oxunmaq üçün istifadə edilə bilər. “Bağban” oyunu zamanı isə şerin bəzi misralarını əzbərlətmək olar.

A.Səhhətin uşaq şerləri içərisində məktəbəqədər yaşlı uşaqların dünyagörüşünü genişləndirməyə, təbiət hadisələri haqqında təsəvvürlər aşılamağa imkan verən şerlərlə yanaşı, uşaqların tərbiyəsinə xidmət edən şerlər də vardır. Bu şerlərdən uşaqlar nəyin yaxşı, nəyin pis olması haqqında təsəvvürlərə yiyələnirlər. Onlar tənbəlliyin, yalançılığın, qorxaqlığın, pintiliyin pis olmasını, çalıqanlığın, doğruçu və təmizkar olmağın, böyüklərə və yoldaşlara hörmət etməyin, lovğalanmamağın yaxşı olmasını öyrənirlər.

Uşağın yaxşı və pis haqqında təsəvvürləri özünün konkretliyi ilə fərqlənir. Onun həyat təcrübəsi, müşahidə və həyəcanları, parlaq, obrazlı təəssüratları ilə bağlı olan şey, əsasən, uşağa anlaşıqlıdır. Uşaq üçün xarakterik olan təfəkkürün konkretliyi əxlaqi təsəvvür və anlayışların mənimsənilməsi sahəsində də özünü göstərir.

A.Səhhət əxlaqi ideyaları konkret və uşaqlara anlaşıqlı bir tərzdə çatdırmaq üçün təmsil janrından daha çox istifadə etmişdir. Bu da təsadüfi deyildir. Təmsillərdə bir-birinə zidd cəbhənin nümayəndələri iştirak edirlər. Bu isə əxlaqi ideyaları dərk etməkdə uşaqlar üçün əyani-konkret material rolunu oynayır: əxlaqi fikir uşaqlara daha tez çatır. Digər tərəfdən, təmsillərdə yumor hissi güclü olur. Uşaqlar yumora daha çox meyl edirlər. M.Qorki bu münasibətlə yazmışdır:

“...Elə düşünmək lazım deyildir ki, bütün uşaq kitabları istisnasız olaraq dərkedici material verməlidir... Bizə uşaqda yumor hissini inkişaf etdirən şən, maraqlı kitablar da lazımdır” (Seçilmiş əsərləri, c.27, 1953, səh.3-4, rusca).

A.Səhhətin bəzi təmsilləri dil etibarilə məktəbəqədər yaşlı uşaqların əzbərləməsi və onlara oxunması üçün münasib olmasa da tərbiyəçinin nağılı kimi məzmununun dinlənilməsi üçün yararlıdır.

Məzmunu şifahi xalq ədəbiyyatından götürülmüş “Ulaq və Aslan”, “Gün və külək” təmsillərində lovğalıq pislənilir. “Ulaq və Aslan” təmsilində lovğa ulaq aslanı öldürmək iddiasına düşür, lakin özü pis vəziyyətdə qalır: aslan onu parçalayır. “Gün və külək” təmsilində külək nə qədər güc verirsə, çobanın çuxasını çıxarda bilmir. Günəş isə öz istisi ilə buna nail olur. Bu təmsildən çıxan nəticə belədir: işi zorla yox, xoşluqla görmək lazımdır.

“Ayı və arılar”, “Ayı və şir” təmsillərində fikirləşmədən iş görmək tənqid olunur. Birinci təmsildə bal yemək həvəsi ilə arıların yeşiyinə girən ayı, ikinci təmsildə isə ovladıqları dovşanı bölmək üstündə bir-birilə didişən, nəticədə ovu tülküyə verən ayı və şir gülünc vəziyyətdə qalırlar. Bu təmsillər əsasında uşaqlar nəticəyə gəlirlər ki, hər bir işi əvvəl fikirləşmək, sonra isə görmək lazımdır.

“İki dana”, “Aşbaz və pişik” təmsillərində sözə baxmamaq pislənilir. “İki dana” təmsilində yoldaşının sözünə baxmayan dana, “Aşbaz və pişik” təmsilində isə qoca meymunun sözünə baxmayan meymunlar tələf olurlar. Böyük bağça yaşlı uşaqlar tərbiyəçinin köməyi ilə təmsillərdən belə nəticə çıxarırlar: yaşlıların sözünə baxmayan ziyan çəkər.

“Qarışqa və milçək”, “Tülkü və qurd” təmsillərində lovğalıq tənqid edilir, zəhmətə məhəbbət təbliğ olunur. Yayda xörəklərə qonub yeyən, qışda isə ac qalan milçəkdən fərqli olaraq, qarışqa yayda qış üçün azuqə toplayır, heç kəsə möhtac olmur. Şair balaca oxucularını milçək kimi lovğa, tənbəl olmamağa, qarışqa kimi işgüzar və əməksevər olmağa çağırır. “Tülkü və qurd” təmsilində də quyuya düşmüş tülkünü çıxartmaq əvəzinə, ona sözdə ürəyi yanan qurd pislənilir. Təmsildən belə nəticə çıxır ki, iş görmək tələb olunan vaxt quru söz lazım deyildir.

A.Səhhətin uşaq şerlərinin məzmunundan göründüyü kimi şerlərin bir çoxu məktəbəqədər yaşlı uşaqların tərbiyəsi üçün böyük imkanlara malikdir. Bu şerlərdən uşaq bağçasının əsasən böyük və məktəbə hazırlıq qruplarında, qismən orta qrupda istifadə edilə bilər. Şerlərin məzmununun qavrama prosesində qarşıya çıxa biləcək çətinliklər haqqında tərbiyəçinin əvvəlcədən düşünməsi mühüm şərtdir. Bəzi şerləri (“Yaz”, “İlk bahar”, “Qış”, “Ata və oğul”, “Bağça” və s.) oxumaqdan qabaq uşaqları gerçəkliyin bu və ya digər hadisələri ilə tanış etmək, onlara tanış olmayan sözləri izah etmək lazımdır.

A.Səhhət şerlərindən həm ətrafa bələdlik prosesində, həm oyun və məşğələlər zamanı, həm söhbət, gəzinti və ekskursiyalarda, həm də bayram və əyləncələrdə istifadə etmək mümkündür.

Şerlərin bəzilərinin bütöv və ya bir hissəsini əzbərləmək (“Cücələr”, “Quşlar”, “Ana və bala”, “Yazda”, “Bağça”), bəzilərini tam və ya seçmə oxumaq (“Yaz”, “İlk bahar”, “Güllərin bəhsi”, “Yaz gəldi”, “Bağça” və s.), bir qismini isə

oyun və məşğələlər zamanı (əsasən tərbiyəvi məzmunlu təmsilləri) uşaqlara nağıl etmək məqsədəmüvafiqdir. Göstərilən şerləri “Uşaq bağçasında tərbiyə proqramı”nın böyük və məktəbə hazırlıq qruplarının müvafiq bölməsinə daxil etmək məsləhətdir.

Təmsillərin məzmunu üzrə səhnələşdirilmiş oyunlar təşkil etmək mümkündür: məsələn, “Gün və külək” təmsilinin nağılından sonra uşaqlardan birinə günəş, digərinə külək, üçüncüyə isə çoban rolunu tapşırmaq olar. Rolun bəzi sözlərinin uşaqlar tərəfindən əzbər deyilməsi faydalıdır: məsələn, “İki dana” təmsilində dana rolunu ifa edən uşaq o birinə deyir:

-Ay dana, dana, dur gedək,
Qarnını doldur gedək.

Belə oyunlar uşaqlarda nitq və hafizəni inkişaf etdirir, onların müstəqilliyini artırır, oxunan əsərə, ümumiyyətlə, kitaba maraq aşılayır.

A.Səhhət şerlərinin əhəmiyyəti təkcə onların təlim-tərbiyə işinə kömək etməsi ilə məhdudlaşmır. Onun bir çox şerləri uşaq psixologiyasına, uşaq marağına müvafiq yazılmış müvəffəqiyyətli uşaq əsərləri kimi bir nümunə rolunu oynayır. Biz müasir yazıçı və şairlərimizi son dərəcə həssas olan uşaqlar üçün, xüsusən məktəbəqədər yaşlı uşaqlar üçün daha çox əsərlər yazmağa çağırır və böyük rus tənqidçisi V.Q.Belinskinin məşhur sözlərini xatırlatmaq istəyirik: “Yazın, uşaqlar üçün yazın, ancaq elə yazın ki, onu yaşlılar da eyni zövq ilə oxuya bilsin və oxuyarkən xəfif bir xəyal içində öz gözəl uşaqlıq illərini yad etsinlər”.

**5.** XX əsr Azərbaycan ədəbiyyatında şair, nasir, dramaturq, ədəbiyyatşünas, tərcüməçi kimi tanınan **Abdulla Şaiq** (1881-1959) həm də bacarıqlı uşaq yazıçısıdır. Özünün dediyi kimi, o, həm pedaqoji fəaliyyəti ilə, həm də ədəbi əsərləri ilə gənc nəsli yeni ruhda tərbiyələndirmək məqsədini qarşıya qoymuşdur.

Ədəbiyyat təsirli tərbiyə vasitəsidir. Xüsusən uşaq ədəbiyyatı tərbiyə işində qüvvətli rol oynayır. Biliyi və həyat təcrübəsi məhdud olan balaca oxucu “dilsiz müəllim” olan kitabdan olduqca çox şeylər öyrənir. Həm də bunu quru mühakimələrlə yox, canlı surətdə öyrənir. Bu, konkret obrazlı təfəkkürə malik balaca oxucu üçün çox vacib məsələdir. Digər tərəfdən, ədəbiyyat təkcə ağıla yox, habelə hissiyyata yönəlir, uşağa xəyal vasitəsilə təsir göstərir. Ağıl və hissiyyat birləşdikdə isə hər hansı ideya oxucuya daha tez çatır və daha möhkəm yadda qalır.

Böyük rus tənqidçisi V.Q.Belinski uşaq kitablarının tərbiyəvi rolundan danışaraq demişdir: "Uşaq kitabları həyat həqiqətlərini öz balaca oxucularına çeynənmiş nəsihət və soyuq əxlaqi təlimat şəklində deyil, quru hekayələr halında deyil, həyat və hərəkətlə dolu, canlı, hissi hərarətə malik hekayə və lövhələr halında, zərif, azad, oynaq, sadə və rəngli bir dil ilə çatdırmalıdır. Bu zaman uşaq kitabları tərbiyə üçün ən möhkəm bir əsas və ən təsirli bir vasitə ola bilər" (Seçilmiş məqalələr, Bakı, 1948, səh.132).

Uşaq əsərlərinin böyük tərbiyəvi rolunu yaxşı başa düşən A.Şaiq, başqa şair və yazıçılarla (M.Ə.Sabir, A.Səhhət və b.) birlikdə, Azərbaycan uşaq ədəbiyyatını yeni-yeni əsərlərlə zənginləşdirmişdir. A.Şaiqi uşaq ədəbiyyatına gətirən, hər şeydən əvvəl, onun yüksək vətənpərvərlik hissləri olmuşdur. Ədib özü bu münasibətlə belə yazırdı ki, şair – həm müəllim, həm də mürəbbidir. Xalqını və onun gələcəyi olan balaları sevən hər şair, hər yazıçı böyüklər üçün əsər yazdığı kimi, əziz balaları da unutmamalıdır. Onların da payını ayırıb verməlidir.

Uşaqlar üçün əsər yazmaq asan deyildir. Bundan ötrü uşaqların daxili aləmini, maraq dairəsini yaxşı bilmək, həyata bir növ "uşağın gözü ilə baxmaq", onu düşündürməyi bacarmaq tələb olunur. Təsadüfi deyildir ki, V.Q.Belinski uşaq yazıçısı üçün yalnız istedad deyil, həm də xüsusi bir düha lazım olduğunu göstərmişdir.

Uşaqlar üçün əsər yazmaq – məsuliyyətli, həm də şərəfli işdir. Uşaqlar olduqca həssasdırlar. Uşaqlıq təəssüratı qüvvətli olub, bütün ömür boyu mühafizə olunur. V.Q.Belinskinin dediyi kimi, uşaqların mum kimi yumşaq və qavrayıcı, təmiz və təravətli beyinlərini yalnız faydalı və yararlı təsirlərlə zənginləşdirmək böyük səadətdir.

A.Şaiq də belə yazıçılardan olmuşdur. Onun şerləri milyonlarla gənc qəlbi yüksək mənəvi hisslərlə, saf duyğularla zənginləşdirmişdir. Ədibin tələbəsi şairə M.Dilbazi bu münasibətlə yazır: "Şaiq şeri insanın ruhunu gəncləşdirir, saflaşdırır, onu gəncliyə, uşaqlığın nağıllı-laylalı dünyasına qaytarır. Bu sənət insana yüksək məqsədlərlə doğulduğunu öyrədir" ("Azərbaycan gəncləri" qəzeti, 05.05.1971).

A.Şaiqin uşaq əsərləri üçün səciyyəvi cəhət onların dilinin sadəliyi və aydınlığıdır. Onun fikrincə sayılan dildə sadəlik, yığcamlıq, anlaşıqlıq hər cür əsər

üçün, xüsusən uşaq əsərləri üçün zəruri şərtdir. Uşaqla hər dildə danışmaq olmaz, onunla, necə deyərlər, onun öz dilində danışmaq lazımdır. Əks halda əsərin ideyası balaca oxucuya çatmaz. A.Şaiqin bu cəhəti nəzərə alıb, uşaq şerlərini sadə dildə, oynaq vəzndə yazmağa çalışmışdır:

Ay pipiyi qan xoruz,
Gözləri mərcan xoruz!

(Xoruz)

Və ya:

Ala-bula boz keçi,
Ay qoşa buynuz keçi!

(Keçi)

A.Şaiq uşaqlarla onların öz dilində, həm də onlara yaxın olan şerlərdən danışmağı bacarır. Onun əksər uşaq şerləri yığcamlığı, aydınlığı ilə uşaq qəlbinə tez yol tapır. Təsadüfi deyildir ki, Şaiqin bir çox şerləri uşaqların dilinin əzbəridir.

A.Şaiqin ədəbi irsi məktəbəqədər yaşlı uşaqların tərbiyəsi üçün zəngin material verir. Onun bir çox şerlərindən uşaqların təbiətlə tanışlığı və nitq inkişafı üçün müvəffəqiyyətlə istifadə etmək olar. Məlum olduğu kimi, təbiət – həyata təzəcə göz açan, ona yenicə bələdləşən körpə uşaqlar üçün sirli bir aləmdir. “Bu nədir?” refleksinin təsiri ilə uşaq bu aləmi öyrənməyə can atır. Quşlar, heyvanlar, bitkilər aləmi, təbiətin əsrarəngiz gözəlliyi uşağı özünə cəlb edir. Təbiət uşaq üçün təkcə estetik zövq mənbəyi deyil, həm də idrak mənbəyidir. Təbiətlə tanışlıq uşaqların həyati təsəvvürlərini genişləndirir, onlarda düzgün dünyagörüşün formalaşmasına kömək göstərir.

Uşaqların təbiətlə tanışlığında bədii ədəbiyyatın əvəzedilməz rolunu duyan A.Şaiq təbiəti tərənnüm etmiş, onlara fəsillər, heyvanlar, quşlar, bitkilər, sadə şəkildə təbiət hadisələri haqqında məlumat verməyə çalışmışdır. Onun bir çox şerləri (“Bahar”, “Payız”, “Payız gecəsi”, “Qışın nəğməsi” və b.) balacaları ilin fəsilləri ilə tanış edir. Bu şerləri uşaq bağçasının böyük və məktəbə hazırlıq qruplarında oxumaq və qismən əzbərlətmək məsləhətdir.

A.Şaiqin bitki və heyvanlara dair lirik şerləri uşaqları mədəni və vəhşi bitkilərə, vəhşi və ev heyvanlarının həyat tərzi ilə tanış edir. A.Şaiq, müəllim-yazıçı kimi, uşaqları bitkilərə, heyvan və quşlara qayğı ilə yanaşmağa çağırır. Şairin 1928-ci

ildə yazdığı “Qərənfil”, “Bənövşə”, “Qızılgül”, “Zanbaq” kimi şerləri uşaqları gül və çiçəklərlə tanış etmək cəhətdən maraqlıdır. “Qərənfil” şerində uşaqlar qərənfilin çəhrayı, ağ, qırmızı, sarı rəngdə, həm də yaşıl saplaqlı olduğunu öyrənirlər:

Qərənfiləm mən,
Gözəl güləm mən,
Yaşıl saplaqlı
Bir sünbüləm mən...

“Bənövşə” şerində uşaqlar az ömürlü, gözəl ətirli, boynu bükük bənövşə ilə tanış olurlar. “Qızılgül” şerində yaşıl belli, qızıl telli, ətri hər yanı tutan, süfrələrin bəzəyi olan qızılgül uşaqların gözü qarşısında canlanır. “Zanbaq” şerində şair balaca oxucuları ağ ipəyə oxşayan, gümüş kimi parıldayan, ətrafa ətir saçan zanbaqla tanış edir. Şair kiçik lirik lövhələrlə, bir tərəfdən uşaqları gül və çiçəklərin konkret əlamətləri ilə tanış edir.

Göstərilən şerlər məktəbəqədər yaşlı uşaqların anlaq səviyyəsinə müvafiqdir. Uşaq bağçasının tərbiyə proqramında “Qərənfil” və “Zanbaq” şerlərinin ikinci kiçik qrupda, “Bənövşə”, “Qızılgül” şerinin böyük qrupda əzbərlənməsi tövsiyə olunur.

Nəzərdən keçirilən şerlərdə A.Şaiq gül və çiçəkləri “öz dillərində danışdırmaq” kimi maraqlı ədəbi priyomdan istifadə etmişdir. Bu cəhət onun bir çox başqa uşaq şerləri üçün də səciyyəvidir. Şairin heyvanlara və quşlara həsr etdiyi şerlərin bir qismi də (“Kəpənək”, “Torağay”, “Arı”, “İt” və b.) həmin priyomla yazılmışdır. Bu şerlərdən balacalar arının çiçəklərdən şirə çəkməsini, pətək tökməsini və bal hazırlamasını (“Arı”), torağayın kol-kosda, dayaz çaylarda yaşadığını, çəyirtkə, qurd-quş yediyini (“Torağay”), atın yallı olduğunu, gözdən ceyrana, qulaqdan isə dovşana oxşadığını (“At”), itin hürərək ev-eşiyi qoruduğunu (“İt”), quzunun mələdiyini, ana qoyundan süd əmməsini (“Quzu”) öyrənirlər.

Göstərilən şerlərdən yalnız “Kəpənək” uşaq bağçası proqramında böyük qrupda əzbərlənmək üçün tövsiyə olunur, lakin adı çəkilən digər şerlərdən də böyük və məktəbə hazırlıq qruplarında oxumaq və qismən əzbərlətmək üçün istifadə edilə bilər.

A.Şaiqin 1906-cı ildə yazdığı “Xoruz”, “Keçi”, “Dovşan” və “Uşaq və dovşan” şerləri uşaqları heyvan və quşlarla tanış edən səmimi şerlərdir. Uşaqların

dilinin əzbəri olan bu şerlər oynaq və axıcı yazılmışdır. Bunlar bağça yaşı üçün ən münasib şerlərdir. Proqramda həmin şerlər (sonuncu şer istisna olmaqla) birinci kiçik qrupda uşaqlara oxunmaq üçün tövsiyə olunmuşdur. Həmin şerləri orta qrupda uşaqlara əzbərlətmək məsləhətdir.

Uşaqlara heyvan və quşlar haqqında düzgün təsəvvürlər aşılamaq baxımından A.Şaiqin hekayələri, xüsusən mənzum hekayələri və təmsilləri müəyyən əhəmiyyətə malikdir.

A.Şaiq yaradıcılığı balacaları ətrafla tanış etmək üçün də xeyli material vardır. Məktəbəqədər tərbiyə işində ətrafla tanışlıq mühüm yer tutur. Uşaqların əqli, əxlaqi, əmək və estetik tərbiyəsinin ilk təməli onları əhatə edən mühitin təsiri ilə qoyulur. Uşaq həyatı, insan münasibətlərini ilk əvvəl ona yaxın olan ətraf mühitdən öyrənir. Bu mühitdə isə valideynlər, bağça işçiləri, uşağı əhatə edən qonşular, yaşlı adamlar, ətrafdakı hadisələr, doğma məhəllə, doğma yurd başlıca yer tutur.

Ətrafla tanışlıq işində gəzinti və ekskursiyalarla yanaşı, uşaq əsərlərindən də istifadə edilə bilər. A.Şaiqin bir çox şerləri bunun üçün yaxşı material verir. “Uşaq bağçası”, “Bağça” şerləri uşaqları bağça həyatı ilə, müdir və tərbiyəçilərin əməli ilə tanış etmək cəhətdən faydalıdır. Uşaqları yaşlıların əməyi ilə tanış etmək işində “Yeni köməkçi”, “Çoban mahnısı”, “Dəmirçi nəğməsi” şerləri müəyyən əhəmiyyətə malikdir. “Oyan oğlum” və “Məktəbdə” şerlərindən məktəbə hazırlıq qrupu uşaqlarını psixoloji cəhətdən məktəbə hazırlamaq məqsədi ilə istifadə etmək mümkündür. “Təmizlik” şeri uşaqlara gigiyenik vərdişlərin aşılanması vəzifəsinə xidmət edən gözəl uşaq şeridir. Şerin axıcıllığı, sözlərin ustalıqla seçilməsi, əsasən ikisözlü misraların bacarıqla cüt-cüt qafiyələndirilməsi şerin tez əzbərlənməsini təmin edən şərtlərdəndir:

Səhər durunca,
Əlimdə fırça,
Sildim dişimi,
Bildim işimi...

Proqramda bu şerin ikinci kiçik qrupda əzbərlənməsi nəzərdə tutulmuşdur.

Göründüyü kimi, A.Şaiqin uşaq əsərləri məktəbəqədər yaşlı uşaqların əqli tərbiyəsində böyük imkanlara malikdir, lakin həmin əsərlərin əhəmiyyəti təkcə

bununla məhdudlaşmır. Bu əsərlər balacaları əxlaq tərbiyəsi üçün də zəngin material verir. Yuxarıda adlarını çəkdiyimiz "Uşaq bağçası", "Bağça", "Çalışan qazanar" şerlərindən uşaqların yoldaşlıq və intizam tərbiyəsi məqsədilə istifadə etmək olar.

A.Şaiqin uşaqlar üçün yazdığı mənzum hekayə və təmsillərində tərbiyə məqsədləri ön plana çəkilmişdir. "Tıq-tıq xanım", "Tülkü həccə gedir", "Yaxşı arxa" mənzum hekayələrində yazıçı şəxsləndirmədən, yəni heyvan surətlərinin müəyyən adamları təmsil etməsi priyomundan istifadə etmişdir. Əxlaqi ideyanın uşaqlara daha tez çatması və əsəri cansıxıcılıqdan qurtarmaq üçün Şaiq nağıl janrından istifadə etmişdir. Kiçik uşaqlar nağılı çox sevirlər. Nağıl öz maraqları süjet xətti ilə, canlı surətləri ilə uşağı daha çox cəlb edir.

Nağıl üslubunda yazılmış hər üç mənzum hekayədə A.Şaiq heyvan tipləri ilə ictimai mənalı hadisələri təsvir etmişdir. O, xalqın alleqorik təsəvvürləri ilə zəngin şən yumor və kəskin satiradan istifadə etmişdir. Təkəbbürlü tıq-tıq xanımın ölümü balaca oxucuda gülüş doğurursa, sadəlövh leyləyin və toyuq-cücənin aldanması ürək ağrısı, tədbirli qarğanın yaxşılığı sevinc, hiyləgər tülkünün ikiüzlülüyü, qəddarlığı qəzəb doğurur. Hekayələrdən yüksək əxlaqi-tərbiyəvi nəticələr çıxır: lovğalıq, hiyləgərlik, ikiüzlülük, axmaqlıq pisdir. Əksinə, ağıllı və ayıq olmaq yaxşı sifətdir.

"Tıq-tıq xanım" mənzum hekayəsi "Dozanqurdu" adlı xalq rəvayətindən götürülmüşdür. Tıq-tıq xanım küsəyən, lovğa adamları təmsil edir. O, başına "soğan qabığından çadra" örtüb, ayağına "fındıq qabığından başmaq" geyib özünə yoldaş axtarmağa çıxır. Tıq-tıq xanım nə zəhmətkeş çobanı, nə də tülkünü bəyənir. Nəhayət, müəyyən şərtlərlə Siçan bəylə dostluq etməyə razılaşır. Lakin dostluğu uzun sürmür. Lovğalığı, küsəyənliyi onu ölümə aparır.

Əsərdən çıxan nəticə belədir: yersiz küsəyənlik, lovğalıq adama zərər vurur.

"Yaxşı arxa" mənzum hekayəsində tülkü hiyləgər, ikiüzlü adamları təmsil edir. leylək isə ağılsız, hiylədən tez aldanan şəxsləri göstərir. Kələkbaz tülkü sadəlövh leyləyi "atasından qalma" çinarı kəsəcəyi ilə hədələyərək, onun iki istəkli balasını yeyir. Bunu görən xeyirxah qarğa leyləyi başa salır ki, tülkü ağacı kəsə bilməz. Üçüncü dəfə "payını" almağa gələn tülkünü leylək qovur. Tülkü başa düşür ki, leyləyi qarğa öyrətmişdir. Tülkü bu dəfə qarğanı tutub yemək üçün hiylə işlədir: özünü ölülüyə vuraraq onu dimdikləyən qarğanı tutur. Lakin qarğa tülkünü aldadıb

qaça bilir.

Əsərdən belə bir nəticə çıxır ki, hiyləyə tez aldanan adamlar ziyan çəkirlər. Ağıllı adamlar belələrinə kömək etməli, arxa olmalıdırlar.

"Tülkü həccə gedir" mənzum hejayəsində bu ideya bir daha qüvvətlənir. Qocalıb əldən düşmüş tülkü toyuq-cücələri aldadıb yemək üçün hiyləyə əl atır. O, özünü elə göstərir ki, guya öz əvvəlki işlərindən peşiman olmuşdur; daha toyuq-cücələrlə işi olmayacaqdır. Tülkü paltarını dəyişib, ağlaya-ağlaya çölləri dolaşır. Tülkünün peşiman olmasına inanan toyuq-cücənin üstünə cumur, onların çoxunu boğur.

A.Şaiqin belə mənzum hekayələri uşaqlara qüvvətli təsir göstərən qiymətli əsərlərdir. Bu təsir nə ilə izah edilə bilər? Bu suala prof. M.Cəlal belə cavab verir: "Şaiq uşaqları lövhələrlə düşündürməyi bacarır. O, vətən sevgisi, bəşəri məhəbbət, əmək sevgisi, ata-ana məhəbbəti, yoldaşlıq hissi, sədaqət, doğruluq, saflıq, mərdanəlik, etibar, alicənablıq kimi xüsusiyyətləri təbliğ edən əsərlərin hər birində bu duyğuları müstəqil dil ilə tərifləmir, canlı insan və ya alleqorik surətlər, maraqlı sərgüzəştlər vasitəsilə verməyə çalışır" (39, səh.247).

Yüksək əxlaqi ideyalar A.Şaiqin təmsillərində yaltaq və hiyləgər tülkü pis vəziyyətdə qalır ("Tülkü və xoruz"), lovğa siçan gülünc hala düşür ("Dəvə və siçan"), zəhmətkeş arı öz gümüş xallı qanadları ilə öyünən kəpənəyə qarşı qoyulur ("Arı və kəpənək"), tamahkar tülkü itlərə yem olur ("Tülkü və dəvə"), dəvə öz ağlı ilə qurdun və tülkünün əlindən canını qurtarır ("Dəvə, tülkü və qurd").

Qeyd olunan mənzum hekayə və təmsillərdən məktəbəqədər tərbiyə işində istifadə etmək mümkündür. Bu üç mənzum hekayələrin hər üçünün məktəbə hazırlıq qruplarında oxunması nəzərdə tutulmuşdur. Uşaqların nitq inkişafı baxımından hekayələrdəki bəzi münasib parçaların əzbərlədilməsi faydalıdır. Təmsilləri isə böyük və məktəbə hazırlıq qruplarında nağıl etmək və qismən oxumaq məsləhətdir. Əxlaqi nəticələri uşaqları hazır şəkildə demək yox, onların fəal iştirakı ilə çıxartmaq məqsədəmüvafiqdir.

A.Şaiq müxtəlif janrlarda yazdığı əsərləri ilə balacaların qəlbinə saf duyğular, nəcib sifətlər aşılamağa çalışmış və zəngin bir irs qoyub getmişdir. Bu qiymətli irsi öyrənmək və ondan məktəbəqədər tərbiyə işində istifadə etmək mühüm və aktual

vəzifə kimi qarşıda durur.

**Hüseyn Cavid** (1882-1943) “Xəyyam”, “Şeyda”, “Topal Teymur”, “Şeyx Sənan”, “İblis”, “Ana”, “Peyğəmbər” kimi dram əsərləri yazmışdır. Bu əsərlərin hər birində Cavid mühüm bir problemi qoyur, onu həll etmişdir. Əsərlərin məğzi vətənpərvərlik, xalqın gözü açıq, azad görmək istəyidir.

Hüseyn Cavid uşağın tərbiyəsində irsiyyət, mühit və tərbiyənin rolundan danışır. Bunların hər üçünün insanın yetişdirilməsində mühüm rolu olduğunu göstərir. Insan tərbiyəsində irsiyyətin mühüm amil olduğunu izah edir. Onun fikrincə bir çox uşaqlar anadan xəstə doğulurlar. Bu xəstəliyin mənbəyi ata və anadır. Əgər onlardakı xəstəlik keçicidirsə, irsən o uşağa keçəcək. Uşaq ömrü boyu bundan əziyyət çəkəcək. Uşağı ən öncə anadan olan xəstəlik keçir. Çünki ana doqquz ay onu bətnində saxlayır, sonra da əmizdirir. Bu xəstəlik bir növ uşağın iliyinə işləyir. Uşaq böyüdükcə xəstəlik də böyüyür. Bəzən isə elə olur ki, uşaq anadan sağlam doğulur, lakin onun yaşadığı yer, yeməyi, içməyi uşağn xəstə olmasına səbəb olur. Deməli, uşağın sağlam olması üçün səmərəli və kalorili qida əsas şərtdir.

Cavid uşaqların tərbiyəsində mühitin də böyük əhəmiyyəti olduğunu göstərir. Mühit insanın tərbiyəsində elə mühüm amildir ki, bunu heç nə ilə əvəz etmək olmaz. Mühit hətta 35-40 yaşına qədər adama təsir edir. Lap məktəbi qurtarandan sonra insan elə bir mühitə düşə bilər ki, onun aldığı təlim-tərbiyə yerlə yeksan ola bilər.

Hüseyn Cavidin istər elmi məqalələrində, istərsə də bədii əsərlərində ailə tərbiyəsi mühüm yer tutur. Bu çətin işdə ananın rolu böyükdür. Ana tərbiyəçilər tərbiyəçisidir. Biz istəyiriksə uşaqlarımız elmli, əxlaqlı cəmiyyət üçün yararlı olsun, birinci növbədə qadınlarımızın oxuması lazımdır. Çünki nadan qadın nadan övlad tərbiyə edəcək. Ananın vəzifəsi təkcə doğub törəmək deyil, ana həm də dünyaya gətirdiyi övladı vətən üçün tərbiyə etməlidir. Çox vaxt bizim qəzetlərimiz millət, vətən təəssübündən danışır, lakin heç kim demir ki, belə vətəni qoruyan, millət qeyrəti çəkən adamları kim tərbiyə etməlidir. Bunun üçün onlara müraciət etmək lazımdır. Çünki millətin də, vətənin də gələcəyi qucağında böyüyən, məktəb sıralarında çırpınan məsum körpələrdir. Uşağın inkişafı, gələcək fəaliyyəti onlardan asılıdır. Belə anaların olması üçün qadın və qız məktəblərinin olması zəruridir. Əgər qadın savadlı olsa, o, uşağını rejimlə yedizdirər, yeməyini, yatağını növbələşdirər.

Onların sağlamlığı qayğısına qalar. Uşaqlar hava, su, günəş vannasından istifadə edir, amma bəzi qadınlar bilmir ki, uşağı harda olur, nə yeyir. Bütün günü küçədə olur, yalnız axşam yatmaq üçün evə gəlir. Uşaq nə çox ac qalmalıdır, nə də çörəyi axşama kimi saqqız kimi çeynəməlidir. Çox təəssüf ki, Qafqazda uşağın düzgün tərbiyəsi ilə məşğul olan az adam tapmaq olar. Cavid Aişə Sədiqə xanımın "Təlim-tərbiyə" adlı kitabından belə bir iqtibas gətirir ki, hər kim olsa dərs verə bilər, fəqət tərbiyə və əxlaq dərsini anadan başqa heç kim yaxşı verə bilməz. Uşağın ilk tərbiyəçisi anadır. Demək olar ki, bəşəriyyətin səadəti qadınların əlindədir. Necə ki, "Qurani-Kərim"də deyilir ki, "Cənnət anaların ayağı altındadır".

**Fərhad Ağazadə** (1880-1931) Şuşada anadan olmuş, 1895-ci ildə Qori Müəllimlər Seminariyasını bitirmişdir. O, Xaçmaz, Şuşa, Gorus məktəblərində müəllim, 1905-ci ildən Bakıda "Rus-müsəlman" məktəbində müəllim və müdir işləmişdir.

1923-cü ildə məktəbəqədər tərbiyə işləri ilə məşğul olmuş, uşaq bağçalarında işləyənlər üçün "Kubcuqlar və xırda cocuqlara savad öyrədilməsi" və əlifba təlimini əsaslandırmaq məqsədilə "Şəkillərdə hərflər" əsərlərini yazmışdır.

F.Ağazadə müəllim şəxsiyyətinə yüksək qiymət verir, cəmiyyətin inkişafında önəmli rol oynayan əsas qüvvə hesab edirdi. O, müəllim olması ilə fəxr edir və sənətini bütün varlığı ilə sevirdi. O qeyd edirdi ki, müəllim xalqın maariflənməsinə çalışmalı, təkcə dərs deməklə vəzifəsini bitmiş hesab etməməli, cəmiyyətin siyasi-ictimai həyatında yaxından iştirak etməlidir. Müəllim bilikli, geniş dünyagörüşlü olmalı, zəmanəsinin ictimai və siyasi hadisələrindən yaxşı baş çıxarmalıdır.

XX əsrin əvvəllərində Azərbaycanda artıq ilk uşaq bağçaları yaradılmağa başlamışdır. 1907-ci ildə ilk uşaq bağçası yaradıldı. "Dəcəllər məktəbi" adlanan bu bağçada təlim-tərbiyə rus dilində aparılırdı. 1914-1915-ci illərdə Azərbaycanda 150 uşağı əhatə edən 5 uşaq bağçası açılmışdır. F.Ağazadə məktəbəqədər yaşlı uşaqların tərbiyəsi məsələsi ilə maraqlanmış, uşaq bağçasının əhəmiyyətli və onların azərbaycanlı uşaqlar üçün nə dərəcədə lazım olduğunu dərk edərək, uşaq bağçaları açılmasının zəruriliyindən danışmış və belə bağçaların açılmasına çalışmışdır.

F.Ağazadə yaradılmış uşaq bağçalarında işləyən tərbiyəçilərin müvəffəqiyyət qazanmasına xüsusi diqqət yetirirdi. Bu məqsədlə onun Azərbaycan dilində üç illik

Frebel kurslarını və Azərbaycan məktəbəqədər tərbiyə qadın pedaqoji institutunun açılmasında müəyyən qədər rolu olmuşdur.

F.Ağazadə bağçalarda uşaqların maraq və ehtiyacların təmin edilməsinə, təlim-tərbiyə işlərinin planlı, şüurlu məqsədə yönəldilmiş şəkildə aparılmasına, məktəbəqədər pedaqogikanın mütərəqqi nailiyyətlərindən istifadə edilməsinə, bağçalarda uşaqlara əxlaqı, fiziki, estetik tərbiyə aşılanmaqla bərabər, onların məktəblərin birinci sinfinə layiqincə hazırlanmasına böyük qruplarda oyuncaqlar və əyləncələrdən istifadə edərək savad təlimi aparılmasına əhəmiyyət verirdi. Məktəbəqədər tərbiyə sahəsində də təkcə tələblərlə kifayətlənməmiş, yuxarıdakı işlərini həyata keçirmək məqsədilə “Kubçalar ilə xırda cocuqlara savad öyrədilişi” adlı əsər yazmışdır. O, əsərinin başlanqıcında nəzəri məsələlərə toxunmuş, uşaq bağçalarının yaradılmasının ilk təşəbbüskarları olan isveçrəli İohan Henrix Pestalotsi və almaniyalı Fridrix Frebelin bu sahədə gördükləri işlər barədə məlumat verir. Daha sonra F.Ağazadə əsərin yazılmasının məqsədi haqqında danışır. O, uşaq bağçalarının böyük qrupuna məktəbə hazırlıq pilləsi kimi baxırdı. Ona görə də bu dövrdən əlifbanın öyrədilməsinə başlamağı məsləhət bilir. Bu, Azərbaycan şəraiti üçün yeni bir hadisə idi.

Millətin övladlarını savadlı görmək istəyən F.Ağazadə təlimə məktəbəqədər dövrdən başlamağı lazım bilir. Uşaqların maraq dairəsini nəzərə alan F.Ağazadə, onlara savad öyrədilməsini bu maraq əsasında qurmağı məsləhət bilir.

F.Ağazadə belə hesab edirdi ki, uşaq bağçalarında təlim düzgün təşkil olunarsa, bu zaman uşaqlar əqli cəhətdən yaxşı inkişaf edər, diqqət, təfəkkür və nitqi zənginləşər. Eyni zamanda bu, onların əxlaq tərbiyəsinə müsbət təsir edər. Məsələn, uşaqlarda çətinlikləri aradan qaldırmaq qabiliyyətinin formalaşmasına, yəni dəyanətlilik tərbiyəsinə kömək edər. Bu da gələcəkdə onların bir şəxsiyyət kimi formalaşmasına təkan vermiş olar. F.Ağazadə tərbiyəyə məktəbəqədər dövrdən başlamağın əhəmiyyətini qeyd edir və tərbiyənin məqsədini qorxmaz, cəsarətli, mübariz və savadlı insanlar yetişdirməkdə görürdü.

F.Ağazadənin vətənpərvərlik tərbiyəsi haqqında çox dolğun fikirləri vardır. O, vətənpərvərlik tərbiyəsinə böyük əhəmiyyət verirdi və qeyd edirdi ki, tərbiyənin əsas işi uşaqlara vətənpərvərlik hissi aşılamaq və əsil vətənpərvər yetişdirmək olmalıdır.

O, yalançı, yalnız sözdə vətənpərvər olanları, boş danışıqlarla özlərini vətənpərvər kimi qələmə verənləri tənqid edirdi.

**Ədəbiyyat**

1. Ağayev Ə.A. Fərhad Ağazadənin pedaqoji görüşləri, Bakı-1987.
2. Qurani-Kərim. Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov, V.M.Məmmədəliyev, Bakı-2009.
3. Əhmədov H.M., Üzeyir Hacıbəyov müəllim və onun hazırlığı haqqında, “Azərbaycan məktəbi” jurnalı, 1985, №10, səh.35-60.
4. Əhmədov H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi, Bakı-2001.
5. Ələddin B. Məhəmməd Peyğəmbər (s)in hekayəti, Bakı-1991.
6. Füzuli M. Kəlamlar, Bakı-1990.
7. Sidqi M.T. Seçilmiş pedaqoji əsərləri, Bakı-1987.

## *2.3. Azərbaycanda məktəbəqədər tərbiyə, təhsil və müəssisələrin inkişafı tarixindən*

Plan:

1. Məktəbəqədər tərbiyə və təhsil haqında klassik mütəfəkkirlərin pedaqoji fikirləri
2. Azərbaycanda məktəbəqədər müəssisələrin inkişafı tarixindən
3. Məktəbəqədər tərbiyə, təhsil haqqında Azərbaycanda ilk tədqiqatlar, direktiv sənədlər və ədəbiyyat haqqında
4. XX əsrdə məktəbəqədər müəssisələrdə uşaqların inkişafı, tərbiyəsi və təhsili işinə verilən tələblər
5. Müstəqillik illərində uşaqların inkişafı, tərbiyəsi və təhsilinə dair.

1. Mövcud pedaqoji ədəbiyyatda təhsil kateqoriyası uşaqların və ya şagirdlərin təhsili ilə məhdudlaşdırılır. Belə çıxır ki, təhsil kateqoriyasının tələbələrə və ya yaşlılara dəxli yoxdur (Bax: 1) Pedaqogika. M.Muradxanovun redaktəsi ilə, Bakı-1964, səh.6. 2) Pedaqoqika, Moskva, 1956, str.15).

Bəzi pedaqoji mənbələrdə (Bax: Pedaqogika, Moskva, 1972, str.11) əksinə, təhsil kateqoriyasına verilən təriflər onun daşıyıcılarını heç nəzərə almır; məsələn, bu cür

mənbələrdən birində oxuyuruq: "Təhsil dedikdə sistemləşdirilmiş biliklər, bacarıq, və vərdişlər nəzərdə tutulur (Bax: "Vvedeniye v pedaqoqiku" Mos.,1975, str.222).

Təhsili təlimin yalnız nəticəsi hesab edənlər də az deyil (Bax: İ.Podlasıy. Pedaqoqika, Novıy kurs, Mos.,2002).

Verilən təriflərdə nəzərə çarpan nöqsanlardan biri də təhsil və təlim anlayışlarını eyniləşdirməkdir. Məsələn, 1964-cü ildə çap olunmuş (M.Muradxanovun redaktəsi ilə) "Pedaqogika" kitabında təhsilə belə tərif verilir: "Təhsil uşaqların bilik, bacarıq və vərdişlər sisteminə yiyələnməsi, bu zəmin üzərində onlarda dünyagörüşünün yaranmasıdır".

Təlim və təhsil anlayışlarının eyniləşdirilməsinə bir sıra başqa kitablarda da rast gəlmək olur (Bax: Pedaqoqika, Mos.,1967, str.6; Pedaqogika, Bakı, "Renessans", 2000, səh.6).

Yuxarıda istinad etdiyimiz mənbələrin, demək olar ki, hamısında təlimə verilən təriflər mahiyyətcə təhsilə verilən təriflərdən fərqlənmir. Məsələn, dərs vəsaitlərindən birində oxuyuruq: "Təlim prosesi müəllim və şagird fəaliyyətinin müəyyən vəhdətidir ki, ümumi məqsədə məktəbəqədər yaşlı uşaqların və şagirdlərin biliklərlə, bacarıq və vərdişlərlə silahlanmalarına, onların inkişafı və tərbiyəsinə yönəlir" (Q.İ.Şukinanın redaktəsi ilə, Mos.,1977, str.252).

Təhsil və təlim kateqoriyalarının nəinki təlim, hətta tərbiyə kateqoriyası ilə eyniləşdirmək halları da müşahidə edilir. Məs., V.S.Lednev yazır: "Otnogenez cəhətdən şəxsiyyətin biososioloji formalaşması prosesi kimi sosial mahiyyəti təcrübənin əvvəlki nəsil tərəfindən sonrakı nəsillərə mütəşəkkil və normallaşdırılmış şəkildə verilməsi prosesi təhsildir" (Bax: V.S.Lednev. Soderjaniye obrazovaniya, M.,"Vısşaya şkola", 1989, str.52).

Gətirilən faktlardan belə bir nəticə də çıxır ki, guya təhsil kateqoriyasının düzgün tərifi təlim və tərbiyə kateqoriyalarına verilən təriflərlə üst-üstə düşməlidir. Halbuki, təlim, tərbiyə və təhsil anlayışları bir-birilə üzvi şəkildə bağlı olsalar da onların hərəsini səciyyələndirən spesifik xüsusiyyətlər vardır.

Təriflərdə təlim, tərbiyə və təhsil kateqoriyalarını eyniləşdirməyin, onların fərqini görə bilməməyin iki başlıca səbəbi vardır. Birincisi, həmin kateqoriyalarda fərqə nisbətən oxşarlığın üstünlük təşkil etməsidir; ikincisi, bu kateqoriyalarda

dialektikanın olduğuna, onların bir-birinə çevrilmək imkanına əhəmiyyət verməməkdir.

Azərbaycanda təhsil kateqoriyasının mahiyyətini açan fikirlər 1996-cı ildən söylənməyə başlanmışdır. Təlimin mahiyyətinə dair eyni müəllifin eyni əsərində ziddiyyətli fikirlərə də rast gəlmək olur. Məsələn, 2000-ci ildə çap olunmuş "Pedaqoqika" (İ.P.Podlasıy. Pedaqoqika, M., 2000) adlı əsərin 26-cı səhifəsində oxuyuruq: "Təhsil-təlimin nəticəsidir", 295-ci səhifədə isə yazılır: "Təhsil-təlim prosesində mənimsənilən biliklərin, bacarıq və vərdişlərin, təfəkkür tərzlərinin sistemidir".

Pedaqoji ədəbiyyatın ötəri təhlilindən belə bir nəticə çıxır ki, məktəbəqədər və digər təhsil kateqoriyasının mahiyyətini və məzmununu açan tərif onun bir sıra xüsusiyyətlərini: sosial-iqtisadi həyatın tərkib hissəsi olduğunu; müvafiq tədris müəssisələrində (o cümlədən məktəbəqədər müəssisədə) həyata keçirildiyini; müəyyən biliklərin, bacarıq və vərdişlərin, habelə mənəvi keyfiyyətlərin məcmuundan ibarət olduğunu; tərbiyə və inkişaf imkanlarına malik olduğunu; təlimlə bağlılığını, bir halda təlimin şərti, digər halda nəticəsi olduğunu özündə birləşdirməlidir.

Əvvəla, təhsilin məktəbəqədər və ya digər növünü sosial-iqtisadi həyatdan təcrid edilmiş şəkildə nəzərdən keçirmək düzgün deyil. Çünki təhsil sosial-iqtisadi həyatın ehtiyacları ilə şərtlənir və onun sonrakı inkişafına səbəb olur. Buna görə də o, sosial-iqtisadi həyatın tərkib hissəsi kimi cərəyan edir.

Ikincisi, təhsil, onun növləri (məktəbəqədər təhsil də daxil olmaqla) və formaları müəyyən tədris və ya məktəbəqədər müəssisələrdə həyata keçirilir.

Üçüncüsü, tədris müəssisələrinin növündən və ya tipindən asılı olaraq təhsilin məzmunu başqa-başqa olur. Məsələn, məktəbəqədər müəssisələrdə öyrədilən bilik, bacarıq və vərdişlər sistemi, ümumtəhsil məktəblərində öyrədilən bilik, bacarıq və vərdişlər sistemi peşə məktəbindəkindən, peşə məktəbindəki bilik, bacarıq və vərdişlər sistemi orta ixtisas məktəbdəkindən, ali məktəbdəkindən və s. fərqlənir. Həmin biliklər, bacarıq və vərdişlər elə sistemləşdirilir ki, gənc nəslə tərbiyəvi təsir göstərsin və onların qabiliyyətlərini inkişaf etdirsin.

Dördüncüsü, tədris planında, tədris proqramları və dərsliklərdə nəzərə alınan

biliklərin, bacarıq və vərdişlərin məcmuu tədris müəssisəsində tədrisin zəruri şərtidir. Təlim bu əsasda mümkün olur. Gənc nəsil həmin biliklər, bacarıq və vərdişlər sisteminə yiyələndikdə təhsil təlimin nəticəsinə çevrilir. Bu mənada təlimə təhsilin həyata keçirilməsi prosesi kimi də baxmaq olur.

Nəhayət, təhsil məqsədyönlü, planlı və mütəşəkkil səciyyə daşıyır.

Bütün bu zəruri xüsusiyyətləri nəzərə alan pedaqogikada təhsil kateqoriyasının mahiyyəti belə başa düşülür: "Təhsil sosial-iqtisadi həyatın tərkib hissəsi kimi, müvafiq tədris müəssisəsində (və ya məktəbəqədər müəssisədə) müəyyən müddətdə məqsədyönlü, planlı və mütəşəkkil, öyrənilən, tərbiyə və psixoloji inkişaf imkanlarına malik olan, təlimin bir halda zəruri şərti, digər halda gedişi, üçüncü halda isə nəticəsi kimi özünü göstərən sistemləşdirilmiş biliklərin, bacarıq və vərdişlərin, habelə mənəvi keyfiyyətlərin məcmuudur" (29, səh.95).

Məktəbəqədər tərbiyənin elementləri ibtidai icma quruluşu dövrünə təsadüf edir. İbtidai icma cəmiyyətində həyata hazırlamaq üçün əmək və ovçuluğu əks etdirən bəsit oyunlardan istifadə ediblər. Belə oyuncaqlarla oyun zamanı uşaqlar yaşlıları təqlid ediblər. Mənəvi tərbiyənin güclü vasitələrindən biri folklor (nağıllar, atalar sözləri, zərb məsəllər və s.) nümunələri əsasında olubdur.

Qədim Yunanıstanda meydana gələn pedaqoji nəzəriyyələrdə məktəbəqədər yaşlı uşaqların ailə tərbiyəsindən də bəhs edilib. Afina və Sparta tərbiyə sistemindən daha geniş istifadə olunub. Sparta tərbiyəsində hərbiləşdirmə geniş yer tutur, qul sahiblərinin uşaqları kiçik yaşdan qullara qarşı amansızlıq ruhunda tərbiyə olunurdular. Bu məqsədlə uşaqların cəsurluq, amansızlıq, fiziki cəhətdən dözümlülük və s. ruhda tərbiyə olunmasına ciddi fikir verilirdi.

Qədim Yunan filosofları Platon və Aristotel də bu haqda öz fikirlərini söyləyiblər.

Platon (eramızdan əvvəl 427-347-ci illər) mühüm pedaqoji anlayışları, xüsusilə dini tərbiyə, ictimai quruluşun təlim-tərbiyə ilə əlaqəsi və s. anlayışları müəyyən edib. O, erkən yaşlı uşaqların vətəndaş kimi mövcud quruluş ilə bağlı olduğunu əsaslandırmışdır. Platon uşaq tərbiyəsində oyuna yüksək əhəmiyyət vermişdir.

Aristotel (e.ə.384-322) şəxsiyyətin hərtərəfli inkişafı anlayışı yaratmış və

buraya fiziki, əqli və əxlaq tərbiyəsini daxil edirdi. Təbiətəmüvafiqlik tərbiyəsinə yüksək əhəmiyyət verməklə, məktəbəqədər tərbiyəni şəxsiyyətin inkişafında mühüm mərhələ hesab edirdi. O, 5 yaşdan sonra uşağı nağıl və oyunla məktəbə hazırlamağı mümkün hesab etmişdir.

Məktəbəqədər yaşlı uşaqlar üçün əsərlər yazmış romalı pedaqoq Mark Fabi Kvintilian (42-118) "Orator tərbiyəsi haqqında" əsəri uşaqların məktəbəqədər dövründə tərbiyəsində mühüm rol oynamışdır. Bu əsər bir çox problemi, o cümlədən, məktəbəqədər tərbiyəni əhatə edir. O, uşaq tərbiyəsində ictimai mühitə yüksək əhəmiyyət vermişdir.

Kvintilian uşağı məktəbəqədər dövründə sistemli şəkildə tərbiyə etməyi lazım bilir.

Intibah dövründə (XIV-XVI əsrlər) uşaq təbiətin vergisi kimi qiymətləndirilir. O, xoşbəxt yaşamalı, fiziki cəhətdən sağlam olmalı, oyun və əqli fəaliyyəti gücləndirən tədbirlərdə iştirak etməlidir – deyir. Bu tərbiyə sistemi hakim sinfin uşaqlarına aid edilə bilərdi, yoxsul uşaqlar isə məktəbdən, təlim-tərbiyədən kənarda qalırdı.

Utopik sosialistlərdən Tomas Morun (1478-1535) "Utopiya" və Tomazo Kampanellonun (1568-1639) "Günəş əsəri" əsərlərində istismardan azad, yoxsulluq və zülmdən uzaq bir cəmiyyət təsvir olunurdu. T.Mor və T.Kampanellonun təsvir etdiyi cəmiyyətdə bütün uşaqlar məktəbə gedir, məktəbəqədər yaşlı uşaqlar tərbiyəyə cəlb olunur və azad tərbiyə alırlar. Onların təsvir etdiyi və cəmiyyətdə uşaqların fiziki tərbiyəsinə də geniş yer verilir, dini tərbiyə oyun prosesində, əyanilik şəraitində həyata keçirilir.

Əvvəldə qeyd edildi ki, məktəbəqədər təhsil müəssisələrinin yaranması, orada yaşauyğunluq prinsipi əsasında aparılan təhsil prosesi ümumiyyətlə keçmiş SSRİ və dünya miqyasında böyük tarixi inkişaf yolu keçmişdir. Bu mənada Azərbaycanda da məktəbəqədər tərbiyə müəssisələrinin meydana gəlməsi keçən əsrin (XX əsr) əvvəllərindən başlasa da müəyyən qədər tarixi inkişaf yolu keçmişdir. Lakin təəssüf ki, uşaq və körpələrin ləyaqətli gənclər, hərtərəfli inkişaf etmiş vətəndaşlar kimi yetişməsində bu tərbiyə ocaqlarının rolu və inkişaf tarixi bu günə qədər hərtərəfli və dərindən öyrənilməmişdir (Ped. elm namizədi Əfşan xanım Qədimbəyova,

ped.el.namizədi, dosent Nazimə Rüstəmova və ped. elm. doktoru, prof. Ağahüseyn Həsənov və ped. elm. nam. Mehriban Şirzadovanın bu sahədəki tədqiqatları istisna olmaqla).

**2.** Ilkin olaraq qeyd edilməlidir ki, Azərbaycanda məktəbəqədər tərbiyə müəssisəsi ilk dəfə 1907-ci ildə Bakının Bayıl qəsəbəsində Alisa İvanovna Radçenko adlı bir qadın tərəfindən təşkil edilmişdir. "Dəcəllər məktəbi" adlanan bu uşaq bağçası ilə Azərbaycanda məktəbəqədər tərbiyə müəssisələrinin əsası qoyulmuşdur (65, səh.8).

A.İ.Radçenko özü hələ gənc ikən T.F.Lesqaft tərəfindən təşkil edilmiş pedaqoji kursları bitirmiş, inqilabçı əhval-ruhiyyədə olmuşdur. A.İ. Radçenkonun "Dəcəllər məktəbi"ndə uşaqların fiziki, bədii, əxlaqi və əqli inkişafına xüsusi diqqət yetirilirdi. Məşğələlərdə oyundan, söhbət və nağıllardan, kitab oxumaqdan, gəzintilərdən geniş istifadə edilirdi. A.İ.Radçenko Bakıdan getdiyinə görə "Dəcəllər məktəbi" həmin ilin yazında bağlanmışdı.

Tarixdən bəllidir ki, Böyük Oktyabr Sosialist İnqilabının qələbəsindən (oktyabr 1917-ci il) əvvəlki 10 illiklərdə, xüsusilə 1905-1907-ci illər inqilabı dövründə mitinqlərdə, iclaslarda, qurultaylarda, dövri mətbuatda irəli sürülən qətnamələrdə, müraciətlərdə xalq maarifi sahəsində milyonların fikrini ifadə edən bir sıra demokratik tələblər verilirdi.

Həmin inqilabın sürətlə yetişməkdə olduğu həmin dövrdə xalq maarifi sahəsində irəli sürülən demokratik tələbləri ümumiləşdirmək, onları aşağıdakı formada qruplaşdırmaq olar:

1. Xalq maarifini yerli əhalinin idarəsinə vermək;
2. Müəllim kütləsini xalq maarifinin idarə işinə cəlb etmək;
3. Üçillik ibtidai məktəb həcmində ümumi icbari təhsili həyata keçirmək;
4. Qadınlara kişilərlə bərabər təhsil hüququ vermək;
5. Tədrisi ana dilində aparmaq;
6. Orta məktəb şəbəkəsini gücləndirmək, onun hüququnu artırmaq, maddi vəziyyətini yaxşılaşdırmaq;
7. Məktəbəqədər tərbiyə və mədəni-maarif müəssisələrini inkişaf etdirmək.

Qeyd edilən və Rusiyada maarif və mədəniyyətlə bağlı xalq tələblərinin

tədricən həyata keçirilməsi prosesi Azərbaycan maarifinə də təsirsiz ötüşmürdü. Belə ki, bütün bunların nəticəsində XX əsrin ilk onilliklərində respublikamızın ərazisində yeni-yeni uşaq bağçaları təşkil edilmişdir. O cümlədən, növbəti bağça 1914-cü ildə Sumarokova Zinaida Alekseyevna adlı bir qadın tərəfindən açılmışdır. Sayca 3-cü bağça yenə də həmin illərdə Baranova tərəfindən, dördüncü Bakı şəhər xalq məktəbləri müdiriyyətinin qadın gimnaziyası nəzdində açılmış uşaq bağçası (H.Əhmədov. "Nəriman Nərimanov", Bakı, ABU, 2004, səh.37), beşinci isə Kələntərova tərəfindən açılan uşaq bağçası olmuşdur (65, səh.9).

Bu sahədə Bakı qız gimnaziyası xüsusilə fərqlənirdi. Əsası 1874-cü ildə qoyulan Bakı qız gimnaziyasının məzunları dünyəvi təhsili yaymaqla bərabər yeni-yeni uşaq bağçaları da açırdılar. Belə bağçalardan biri 1916-cı ildə Bakıda həmin gimnaziya yanında açılmışdır. Bu uşaq bağçası 4 yaşından 7 yaşına kimi 20 uşağı əhatə edirdi. Burada uşaqlara maraqlı hərəkətli oyunlar öyrədilir, idman məşğələləri keçirilir, əl işləri vərdişləri öyrədilirdi. Uşaqlar rəngli saplar ilə toxuma, rəngli kağızlardan kəsib yapışdırma, şəkillərin rənglənməsi ilə məşğul olur, rəngli kağız zolaqlarından "səbət" və "xalça" toxuyurdular. Burada uşaqlara hekayələr, nağıllar oxunur, kitablar üzrə müsahibələr keçirilirdi. Bu uşaq bağçasına yalnız varlı ailələrin uşaqları qəbul edilirdi. Bakı qız gimnaziyasını bitirən qızların uşaq bağçaları açmaları və orada fəaliyyət göstərmələri o dövr üçün mütərəqqi hadisə idi.

1918-1920-ci illərdə uşaq bağçalarının sayında artım az-çox müşahidə edilir. Bu illərdə Gəncə Gimnaziyasının direktoru olmuş, Azərbaycanın ilk maarif naziri Nəsib bəy Yusifbəylinin nəslindən olan Şükufə xanım Gəncədə ilk dəfə uşaq bağçası açmışdır (76).

Uşaq bağçalarının inkişafına Nəriman Nərimanov xüsusi kömək göstərirdi. 1918-ci ildə Xalq Maarif Komissarlığında işləyən N.N.Kolesnikova yazırdı ki, tərbiyəçilər hazırlayan kursların təşkilində, tərbiyə ocaqlarının avadanlıqla təchiz olunmasında N.Nərimanov bizə çox kömək edirdi. Onun vasitəsilə bir bina, lazımi avadanlıq və ərzaq malları alırdıq. Yoldaş Nərimanov bizim işimizə diqqətlə yanaşırdı. O, bizim uşaq ocaqlarımızı tanıyırdı, tez-tez bu və ya digər uşaq ocağına gəlirdi. Uşaqlar, tərbiyəçilər və eləcə də valideynlərlə söhbət aparırdı (22, səh.7).

Məktəb işimizin islahatı, məktəb şəbəkəsinin genişləndirilməsi, məktəbəqədər

tərbiyə və məktəbdənkənar təhsil müəssisələrinin yaradılması o vaxtlar Xalq Maarif Komissarlığının əsas vəzifələrindən olmuşdur.

Bütün bunların nəticəsidir ki, 1920-ci ilə kimi məktəbəqədər tərbiyə müəssisələrinin sayı xeyli artmışdı. Bununla belə o zamanlar respublikada pedaqoji kadr hazırlanması problemi meydana çıxmışdı. Bu problemin aradan qaldırılmasında yenə də N.Nərimanov yaxından kömək etmişdi. 1920-ci ilin may ayının 24-də N.Nərimanovun Azərbaycan İnqilab Komitəsi adından Xalq Maarif Komissarlığına göndərdiyi 54 №-li telefonoqramda deyilirdi: “Təklif edirəm ki, bir həftə müddətində şəhərin müsəlman məhəllələrində uşaq bağçaları təşkil edilsin. Bu məqsədlə də şəhərin bütün müəllim və müəllimələrini səfərbərliyə almaq lazımdır” (65, səh.10). Bu telefonoqramdan sonra respublikada, xüsusilə Bakının müsəlmanlar yaşayan rayonlarında yeni-yeni uşaq bağçaları və körpələr evi təşkil edilmiş və bu məqsədlə şəhərin ən yaxşı müəllim və tərbiyəçiləri bu işə cəlb edilmişdi.

1921-ci il yanvarın 10-da Azərbaycan İcraiyyə Komitəsinin iclasında Dadaş Bünyadzadə Xalq Maarif Komissarlığının 8 ay müddətində (1920-ci il aprel ayından 1921-ci ilin yanvarına qədər) görülmüş işləri haqqındakı məruzəsində göstərir ki, bu müddətdə Bakıda 35 uşaq bağçası təşkil edilmişdir ki, bunlarda da 2400 uşaq tərbiyə alır. Bunlar ilk növbədə Azərbaycanın şəhər və qəzalarında, o cümlədən Gəncədə 8, Nuxada (Şəki) 6, Şuşada 5, Qubada 1, Qazaxda 3, Göyçayda 3, Lənkəranda 2, Şamaxıda 1, Zaqatalada 1, Şamxorda 2, Salyanda 1 uşaq bağçası açılmışdır. (65, səh.10).

Azərbaycan Xalq Maarifi Komissarlığı kollegiyasının 27 yanvar 1921-ci il tarixli qərarı əsasında uşaq bağçalarında beynəlmiləl qruplar təşkil edilir (rus, tatar, yəhudi, gürcü və s.). Uşaqların milli tərkibinin belə müxtəlifliyi onların lap kiçik yaşlarından xalqlar dostluğu ruhunda tərbiyə edilmələrini göstərir. Uşaq bağçasında təlim-tərbiyə işləri Azərbaycan dilində aparılsa da, bu qruplarda iş əsasən rus dilində gedirdi.

1920-ci il iyun ayının 28-nə kimi təkcə Bakıda “Yuva”, “Svetlyaçok”, “Xutorok”, “Sünbül”, Suraxanı rayonunda “Krasnoye solnışko”, “Aydınlıq”, “Krasnıy uqolok”, “Kolokolçik” adlı uşaq bağçaları təşkil edilmişdi.

1920-ci ildən sonra (Az-da Sovet hakimiyyəti) məktəbəqədər tərbiyə

müəssisələrinin sayı nəinki şəhərlərdə, həm də kənd yerlərində də artmağa başladı. 1921-1922-ci illərdə respublikada 4 mindən çox uşağı əhatə edən 76 məktəbəqədər tərbiyə müəssisəsi təşkil edilmişdir.

Nadejda Kolesnikovanın rəhbərliyi ilə komissarlıq məktəbləri yenidən təşkil etdi, xalq universitetləri təşkil olundu, zəhmətkeş uşaqları üçün uşaq evləri və uşaq meydançaları yarandı. Şuşa Xalq təhsil şöbəsi ilə uşaq bağçası, meydançaların açılması, məktəblərin zəruri ləvazimatlarla təmin olunması və başqa məsələlər haqqında yazışmalar əldə edildi. Ağdaşda uşaq evlərinin açılması haqqında qərar verildi. (65, səh.11).

O zamanlar Dağlıq Qarabağ ərazisində məktəbəqədər təhsil müəssisələri də diqqət mərkəzində olmuşdur. Tədqiqat nəticəsində məlum olmuşdur ki, hələ 1920-ci illərdə Qaryagino, Horadis, Cəbrayıl, Şuşa, Ağdam, Daşbulaq, Ağcabədi, Tərtər, Çardaxlı və s. ərazilərdə də uşaq evlərinin açılması nəzərdə tutulurdu.

1920 –ci il noyabrın 1-də Şuşa Maarif şöbəsinin məktəbəqədər bölməsinin müdiri təyin edilən Yusif Qazızadə tərəfindən Şuşanın beş məhəlləsində uşaq bağçası açıldı. Bunlar aşağıdakılar idi: 1.Mərdanlı; 2.Balaca-Qurdlar; 3.Hamam qabağı; 4.Ağa Dədəli və Təzə məhəllə. Hər uşaq bağçasında 25 nəfər uşaq var idi. Diqqəti cəlb edən cəhət isə Yusif Qazızadənin bu uşaqların hamısının türk olduğunu xüsusilə vurğulamasıdır. (65, səh.11).

1920-ci il oktyabrın 3-də Xalq Maarif Komissarlığı tərəfindən "Məktəbəqədər tərbiyə işçiləri evi" (Dom doşkolnikov) təşkil edilir. Burada məqsəd məktəbəqədər tərbiyə ideyalarının təbliğ edilməsi, uşaqların tərbiyəsi və inkişafı üçün zəruri şəraitin yaradılması idi. Burada yığılan materiallar gələnləri məktəbəqədər tərbiyənin müxtəlif məsələləri ilə daha dərindən tanış edirdi.

Bu dövrdə Xalq Maarif Komissarlığı məktəbəqədər müəssisələri üçün kadrlar hazırlığı məqsədilə üç və altı aylıq pedaqoji kurslar təşkil edilmişdi.

1921-ci ildə isə Azərb.SSR Xalq Maarif Komissarlığının kollegiyasının qərarı ilə Bakıda Azərbaycan qadın pedaqoji texnikumu yaradıldı. Bu texnikumun məqsədi qadın pedaqoqlar hazırlamaq idi. 1921-ci il yanvar ayının 11-də N.Nərimanovun göstərişi ilə Azərbaycanda birinci Məktəbəqədər Tərbiyə Pedaqoji İnstitutunun açılması haqqında dekret verildi. Azərbaycan İnqilab Komitəsinin bu barədə

dekretində deyilirdi: "Məktəbəqədər tərbiyə sahəsində təcrübəli kadrlar və rəhbər işçilər hazırlamaq və həmçinin qadınlar arasında tərbiyə məsələlərini yaymaqdan ötrü Azərbaycan İnqilab Komitəsi qərara alır ki, 1921-ci il mart ayının 1-dən etibarən Bakı şəhərində birinci Azərbaycan tərbiyə ocağı açılsın" (21, səh.69). Bu dekretə əsasən 1921-ci il mart ayının 4-də Məktəbəqədər Pedaqoji İnstitutu təşkil edildi. O vaxtlar məktəbəqədər tərbiyə müəssisələri üçün müvafiq kadr hazırlığı işində Məktəbəqədər Tərbiyə Pedaqoji İnstitutunun təşkili mühüm rol oynadı. Belə ki, instituta ilk dəfə 30 nəfər qadın qəbul olundu. Maarif Komissarı D.Bünyadzadənin köməyi ilə bu dövrdə məktəbəqədər tərbiyə müəssisələrində çalışan azərbaycanlı tərbiyəçilər üçün rus dilindən xeyli pedaqoji ədəbiyyat tərcümə edilib çap olundu.

1922-ci ildə Məktəbəqədər Tərbiyə İnstitutu Pedaqoji İnstituta çevrildi və nəzdində məktəbəqədər tərbiyə fakültəsi təşkil edildi.

Azərbaycanda məktəbəqədər tərbiyə müəssisələri yaradılmasında böyük xidmətləri olan və bu sahədə uzun illər çalışan tanınmış maarifçi Gülrix Qədimbəyova öz xatirələrində yazırdı: "Məktəbəqədər tərbiyə işçilərinin hazırlanmasında qısamüddətli kursların çox böyük rolu olmuşdur. Kurslara geniş qadın kütlələrini cəlb etmək məqsədilə N.Nərimanov öz qadın ailə üzvlərini də bu kurslara oxumağa göndərmişdi. O zaman azərbaycanlı qadınların kurslara cəlb edilməsi çox çətin məsələ idi" (60, səh.12).

**3.** Azərbaycan Maarif Komissarlığı məktəbəqədər tərbiyə şöbəsinin uşaq müəssisələri üçün 1920-ci ildə tərtib etdiyi təlimatnamə məktəbəqədər tərbiyə sahəsində çalışan işçilərə çox kömək etdi. Həmin təlimatda məktəbəqədər tərbiyə müəssisələrinin tipləri müəyyənləşdirildi. Bunlar aşağıdakılar idi: körpələr evi, uşaq bağçaları, meydança, koloniya və uşaq evləri. Təlimatda məktəbəqədər tərbiyə müəssisələrinin təşkili prinsipləri, işin məzmunu, uşaqları neçə yaşdan qəbul etmək müəyyən edilir, uşaqların qidalanmasına xüsusi yer verilir, rejim və onun tərtibinin əsasları göstərilirdi. Bu sənəddə təvazökarlıq, bir-birinə qarşılıqlı qayğı və kömək, əməyə hörmət və s. kimi keyfiyyətlərin bir yerdə tərbiyəsi tövsiyə edilir, oyunlara, ailə ilə əlaqəyə, valideynlər arasında pedaqoji təbliğata ciddi diqqət yetirilirdi.

1924-cü ildə ümumittifaq məktəbəqədər tərbiyə işçilərinin 3-cü qurultayı çağırıldı. Qurultayda fəhlə klubları nəzdində uşaq evləri, gecə-gündüz işləyən uşaq

bağçalarının açılması qarşıya məqsəd kimi qoyuldu. Həmçinin kənd yerlərində uşaq bağçaları açılması ideyası irəli sürüldü. Bundan əlavə uşaq bağçalarında təlim-tərbiyə işinin yaxşılaşdırılması və təkmilləşdirilməsi sahəsində məsələlər müzakirə edildi.

Məktəbəqədər tərbiyə müəssisələrində o zamanlar işin səmərə və keyfiyyətinin yaxşılaşmasında ilk təcrübə üçün nəşr edilmiş kitab və kitabçaların da böyük rolu olmuşdur. O vaxtlar bu sahədə nəşr edilən kitab və kitabçalara nümunə üçün "Məktəbəqədər yaşlı uşaqlar üçün nağıllar məcmuəsi", "Tərbiyə prinsipləri", "Uşaq bağçalarını necə təşkil etməli və onun işini aparmaq qaydaları" adlı kitabçaları göstərmək olar. Bu dövrdə Məktəbəqədər Ali Pedaqoji İnstitutu tələbələrinin təşəbbüsü ilə buraxılan "Rəhbər" məcmuəsində "Məqsəd və yolumuz", "Tərbiyə haqqında atalar sözü", "Şəkillər üzrə cavab nağılları" və s. adlı məqalələr dərc olunmuşdu. Məhz bu illərdə və sonrakı dövrlərdə bağça yaşlı uşaqların mənəvi-əxlaqi, estetik və fiziki tərbiyəsinin formalaşmasında uşaq ədəbiyyatının yaradıcılarının, ilk növbədə M.Ə.Sabirin, Abbas Səhhətin, Rəşid bəy Əfəndiyevin, Firudin bəy Köçərlinin, Yusif Vəzir Çəmənzəminlinin, Sultan Məcid Qənizadənin, Fərhad Ağazadənin, Şaiqin və digər şair və yazıçıların uşaqlar üçün yazdıqları əsərlərin böyük rolu olmuşdur. Elə bu gün də gənc nəslin tərbiyəsi işində bu unudulmaz şəxsiyyətlərin əsərləri müəllim və tərbiyəçilərin stolüstü kitablarındandır. Bütün bunların nəticəsidir ki, o zamanlar uşaq bağçalarının və burada tərbiyə alan uşaqların sayı ildən-ilə artmaqda davam etmişdi.

Azərbaycanda məktəbəqədər tərbiyə müəssisələri tarixinin tanınmış tədqiqatçısı Əfşan Qədimbəyovanın apardığı tədqiqatlar göstərir ki, əgər 1924-1925-ci dərs ilində respublikada fəaliyyət göstərən 19 uşaq bağçasında 1096 nəfər uşaq tərbiyə alırdısa, 1930-1931-ci dərs ilində uşaq bağçalarının ümumi sayı artaraq 463 olmuş, burada tərbiyə alanların sayı isə artaraq 135,043-ə çatmışdı (33, səh.12). Bu illərdə uşaq bağçalarında aparılan tərbiyənin qarşısında; uşaq kollektivinin təşkili və onun tərbiyədə rolu, uşaqların təşkilatçılıq qabiliyyətini inkişaf etdirilmək, təbiətlə tanışlıq, yoldaşlıq, dostluq və s. keyfiyyətlərin aşılanması kimi vəzifələr qoyulmuşdu.

1926-cı ildə Dövlət Elmi Şurası "Uşaq bağçaları üçün Nizamnamə" təsdiq etdi (22, səh.70). Nizamnamənin birinci bölməsində məqsəd və vəzifələrdən, məktəbəqədər yaşlı uşaqlarla aparılan işin məzmunundan, ictimai tərbiyənin

məqsədindən, uşaq bağçalarında işlərin ana dilində aparılmasından və qəbul qaydalarından bəhs edilirdi. Daha sonra bu bölmədə uşaq bağçalarına yetimlərin, anası işdə olan uşaqların, qızıl əsgər və yoxsul kəndli uşaqlarının birinci növbədə qəbul komissiyaları vasitəsi ilə qəbul edilməsi xüsusi qeyd edilirdi.

O vaxtlar məktəbəqədər tərbiyə müəssisələrinin idarə edilməsində bu nizamnamənin böyük əhəmiyyəti olmuşdu. Belə ki, nizamnamədə uşaq fəaliyyətinin bir çox cəhətləri öz əksini tapmışdı. Məsələn, nizamnamənin uşaq bağçalarının daxili işlərinin təşkilinə həsr edilmiş bölməsində uşaq bağçasının iş müddəti, bağçada uşaqların qidalanması, bir bağçada tərbiyə ala bilən uşaqların minimum və maksimum miqdarı, bağçada məsul şəxs olan müdirin, tərbiyəçinin vəzifələri ətraflı şərh olunurdu.

Nizamnamənin başqa bir bölməsində uşaq bağçası kollektivinin işindən bəhs edilərkən göstərilirdi ki, uşaq bağçasının bütün pedaqoji işçiləri müdir və kollektivin birgə fəaliyyəti ilə idarə olunur. Kollektiv müəssisənin ümumi planını və hesabatını nəzərdən keçirir, həmçinin pedaqoji məsələləri müzakirə edir. bu bölmədə daha sonra uşaq bağçasının həyat fəaliyyəti ilə əlaqədar və məktəbəqədər tərbiyə məsələləri üzrə ayda bir dəfədən gec olmayaraq valideynlərlə birlikdə iclas çağırmaq lazım bilinirdi.

"Uşaq bağçasının şurası" adlanan bölmədə şura üzvlərinin miqdarı, tərkibi, onun çağırılması vaxtı, həll edəcəyi məsələlər çox yığcam göstərilirdi.

Göstərilən nizamnamənin qəbulundan sonra, 1932-ci ildə uşaq bağçaları üçün ilk proqram hazırlandı. Bu proqramda uşaq bağçası və körpələr evinin məktəblə əlaqəsi, uşaqların beynəlmiləl tərbiyəsi, əməyə məhəbbət və s. məsələlər öz əksini tapmışdı. Bununla belə təlim-tərbiyə işlərində uşaqların yaş xüsusiyyətləri, ətraf aləmlə tanışlığın uşaqların əqli, əxlaqi və fiziki tərbiyəsində rolu nəzərə alınırdı.

1934-cü ildə RSFSR Maarif Komissarlığı uşaq bağçaları üçün yeni proqram təsdiq etdi. O vaxtlar onun bəzi mühüm bölmələri Azərbaycan dilinə tərcümə edildi və məktəbəqədər tərbiyə müəssisələrinə çatdırıldı. Lakin 1936-cı ildə ÜİKBP MK-nın pedalogiya ilə bağlı məlum qərarından sonra proqramın tətbiqi dayandırıldı və yeni proqramın hazırlanması məsələsi qarşıya qoyuldu. Yeni proqram məktəbəqədər müəssisələrdə pedalogiyanın təsirini aradan qaldırmalı və uşaqların tərbiyəsində mühüm sənəd olmalı idi. Bütün bunlar onunla nəticələndi ki, 1938-ci ildə "Uşaq

bağçasının tərbiyəçisi üçün rəhbərlik" adlanan yeni proqram nəşr olunaraq ölkənin hər yerində olduğu kimi Azərbaycanda da istifadə edildi.

Məktəbəqədər təhsil vahid təhsil sisteminin pilləsi olmaqla uşaqların intellektual, fiziki və psixoloji inkişafında, onların şəxsiyyətinin formalaşmasında və məktəbə hazırlanmasında xüsusi əhəmiyyətə malikdir.

Təsadüfi deyil ki, "Təhsil Haqqında Qanun"da göstərilir: "Məktəbəqədər təhsil təhsilin ilk pilləsi olmaqla, ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətlərinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edir" (69, səh.26). (Maddə 18.1).

Azərbaycanda məktəbəqədər təhsilin inkişafı tarixini daha dərindən öyrənmək məqsədi ilə bu problemin pedaqoji ədəbiyyatda – dərs vəsaitlərində və ya problemlə bağlı müxtəlif səviyyələrdə yazılmış kitab və məqalələrdə irəli sürülmüş müddəaların, fikirlərin sərf-nəzər edilməsi lazımdır.

Əvvəlcə qeyd edilməlidir ki, tarixən "Məktəbəqədər pedaqogika" ifadəsinə mövcud "Pedaqogika" adlı dərslik və dərs vəsaitlərində müxtəlif mövqedən, müxtəlif baxımdan yanaşılmışdır. Müəlliflərin bir qismi məktəbəqədər pedaqogika deyəndə yalnız uşaq bağçalarında həyata keçirilən tərbiyə işlərini nəzərdə tutursa, bir qismi həmin müəssisədə həyata keçirilən həm tərbiyə, həm də təlim işlərini nəzərdə tutur. Müəlliflərin bir qismi isə məktəbəqədər pedaqogika deyəndə həm ailədə, həm də uşaq bağçalarında həyata keçirilən pedaqoji işin məzmununu göz önünə gətirirlər. Hazırda istifadədə olan və keçmişlərdə yazılmış "Məktəbəqədər pedaqogika" adlı dərs vəsaitlərində isə haqqında danışılan məsələyə yanaşmalarda da müxtəliflik vardır. Birincisi, ona görə ki, 1990-cı illərin sonuna qədər respublikamızda "Məktəbəqədər pedaqogika" adı altında heç bir dərslik və dərs vəsaiti çap olunmadığı üçün bu ifadəyə münasibət bildirən mütəxəssislərin demək olar ki, hamısı keçmiş SSRİ məkanında çap olunmuş ədəbiyyata istinad etmişlər. Ikincisi, respublikamızda hazırlanan "Uşaq bağçasında hazırlanan tərbiyə proqramı", "Uşaq bağçasında tərbiyə və təlim proqramı" adı altında çap edilmiş ədəbiyyatın heç birində məktəbəqədər pedaqogika ifadəsi işlədilmir və məsələyə məktəbəqədər pedaqogika sferasından

yanaşılmır. Üçüncüsü, keçmiş SSRİ məkanında "Məktəbəqədər pedaqogika" adı altında çap olunan dərs vəsaitlərinə qədər çap olunan ədəbiyyatın demək olar ki, hamısı "Məktəbəqədər tərbiyə" ("Doşkolnoye vospitaniye"), "Məktəbəqədər müəssisələrdə tərbiyə" ("Vospitaniye v doşkolnıx uçrejdeniyax") adı altında hazırlanmış bu materialların hamısında məktəbəqədər tərbiyə müəssisələrində həyata keçirilən tərbiyə işləri, qismən isə təlim işləri işıqlandırılır. Bu materiallarda uşaqların yaş dövrlərinə də münasibət müxtəlifdir. Əksər ədəbiyyatda bağça yaşlı uşaqların yaş dövrləri qruplar üzrə aparılan bölgüyə əsasən müəyyənləşdirilərək "kiçik qrup", "orta qrup", "böyük qrup", "məktəbəhazırlıq qrupu" şəklində ifadə olunmuşdur. Maraqlı orasıdır ki, mövcud ədəbiyyatda qruplardakı yaş dövrləri də müxtəlif tərzdə ifadə olunur. Bütün bunların səbəblərini aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. Bir sıra ədəbiyyatda məktəbəqədər pedaqogikanın növlərə bölünərək "çağalıq pedaqogikası", "körpəlik pedaqogikası", "məktəbəqədər pedaqogika" kimi göstərilməsi.

2. Bir qism mütəxəssislərin uşaqların ailədə, körpələr evində və uşaq bağçalarında tərbiyəsinə aid olan işlərin məktəbəqədər tərbiyəyə şamil etməsi və bütün bunları "məktəbəqədər pedaqogika" kimi nəzərdən keçirməsi.

3. Bəzi mütəxəssislərin körpələr evində aparılan tərbiyə işlərinin uşaq bağçalarında aparılan tərbiyə işlərilə fərqli və ya vəhdətdə götürmələri.

4. Ənənəvi pedaqogikaların pedaqoji elmlər sistemi adlanan bölmələrində məktəbəqədər pedaqogikaya yanaşmaların müxtəlif olması.

Ənənəvi pedaqogikalardakı bu məsələyə dair bəzi yanaşmaları nəzərdən keçirsək fikrimizi daha ətraflı əsaslandıra bilərik.

1958-ci ildə respublikamızda dərc olunmuş ilk "Pedaqogika" adlı dərs vəsaitində (50, səh.22) göstərilir: "Körpəlik pedaqogikası – 3 yaşına qədər olan uşaqların bəslənməsi və tərbiyəsindən bəhs edir. Məktəbəqədər pedaqogika - 3 yaşından 7 yaşınadək uşaqların bəslənməsi və tərbiyəsindən bəhs edir. Məktəbəqədər pedaqogika 3 yaşından 7 yaşınadək olan uşaqların təlim və tərbiyəsindən bəhs edir". Göründüyü kimi ayrı-ayrı illərdə çap olunmuş iki dərslikdə bir fikir olduğu kimi, eyni cür ifadə edilir.

Müəllifləri A.Abbasov, H.Əlizadə, N.Kazımov, Ə.Həşimov, Ə.Paşayev və

F.Rüstəmov olan pedaqogikalara diqqət edək: Körpəlik pedaqogikası – Pedaqogikanın bu sahəsi 3 yaşınadək olan uşaqlara göstərilən qaygı və diqqət məsələləri ilə məşğuldur. Məktəbəqədər tərbiyə pedaqogikası – bağça yaşlı uşaqların tərbiyəsi, təlim məsələlərini tədqiq edir və əsaslandırılmış tövsiyələr hazırlayır. (30, səh.16); Məktəbəqədər pedaqogika məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyəsinin qanunauyğunluqlarını araşdırır, onların təlim-tərbiyəsini təşkil etmək üçün proqram hazırlayır və həmin proqramın həyata keçirilməsi yollarını müəyyənləşdirir (7, səh.9,10); Məktəbəqədər pedaqogika məktəb yaşına çatmamış uşaqların tərbiyə və təlim məsələlərini öyrənir (51, səh.21).

**3.** Buradan belə bir nəticəyə gəlmək olur ki, müəlliflərin bir qismi çağalıq pedaqogikasını, körpəlik pedaqogikası - məktəbəqədər pedaqogikadan ayrı təsəvvür edir, bir qismi onları məktəbəqədər pedaqogikanın tərkibində nəzərdən keçirməyə üstünlük verir, bir qismi məktəbəqədər pedaqogika deyəndə uşaqların məktəbəqədər yaş dövründəki tərbiyəsilə məşğul olmağı göstərsələr də bu işi konkret olaraq harada (ailədə və ya bağçada) həyata keçirilməsini nəzərdən qaçırır, bir qismi isə məktəbəqədər pedaqogika deyəndə konkret olaraq məktəbəqədər yaşlı uşaqların bağçada tərbiyəsi və təliminin pedaqoji, psixoloji, fizioloji və metodik imkanlarından istifadə edərək bir şəxsiyyət kimi formalaşmasına xidmət edən elm sahəsi kimi nəzərdə tuturlar. Bütün bunlar deməyə əsas verir ki, bu günə qədər hələ də məktəbəqədər pedaqogikanın sərhədləri düzgün, konkret müəyyənləşdirilməmişdir.

Prof. Fərahim Sadıqov "Pedaqogika" adlı (Bakı-2006, səh.40) yazdığı dərs vəsaitində təklif edir ki, ölkəmizdə yaranmaqda olan Milli pedaqogikanın struktur bölmələri yenidən nəzərdən keçirilsin. Milli pedaqogikanın müvafiq bölmələri, o cümlədən pedaqoji elmlər sistemi bölməsi daha aydın, daha geniş, daha ətraflı şəkildə yenidən öyrənilib ümumiləşdirilsin.

5. Prof. F.Sadıqov pedaqoji elmlər sisteminin aşağıdakı şəkildə nəzərdən keçirilməsini daha məqsədəuyğun hesab edir:

1) Çağalıq və körpəlik pedaqogikası. 2) Məktəbəqədər pedaqogika. 3) Məktəb pedaqogikası. 4) Texniki peşə məktəbi pedaqogikası. 5) Milli pedaqogika. 7) Əlahiddə pedaqogika. 8) Əmək-islah pedaqogikası. 9) İstehsalat pedaqogikası. 10) Mədəni-maarif pedaqogikası. 11) Fənlərin tədrisi metodikası. 12) Pedaqogika

tarixi. 13) Müqayisəli pedaqogika. 14) Ailə tərbiyəsi pedaqogikası. 15) Azərbaycan xalq pedaqogikası. 16) Pedaqoji psixologiya. 17) Tibbi pedaqogika. 18) Sosial pedaqogika. 19) İdman pedaqogikası. 20) Musiqi pedaqogikası və s.

O, məktəbəqədər pedaqogikanın ilkin sahəsi olan çağalıq və körpəlik pedaqogikasının aşağıdakı şəkildə nəzərdən keçirilməsini məqsədəuyğun hesab edir:

- Çağalıq və körpəlik pedaqogikası ailədə, körpələr evi-uşaq bağçalarında uşaqların fizioloji, psixoloji inkişafını, pedaqoji baxımdan formalaşdırılmasını öyrənir və ümumiləşdirir.

- Məktəbəqədər pedaqogika ailədə və uşaq bağçasında uşaqların fizioloji, psixoloji inkişafı, habelə onların pedaqoji baxımdan hərtərəfli formalaşdırılmasını öyrənir və ümumiləşdirir (60, səh.40).

Xalqımızın yüksək zəka sahiblərinin, aqil və müdrik şəxsiyyətlərinin səyi ilə zaman-zaman yaradılmış mənəviyyatımızın, ictimai şüurun bir forması olan yüksək əxlaqi dəyərlərlə yetişməkdə olan gənc nəsli tərbiyə etmək vacibdir. Ulularımızın, klassik pedaqoqların tətbiq etdiyi bu tərbiyə prinsiplərini örnək götürməklə, körpələrimizi Vətənə, xalqa, doğma torpağa məhəbbət ruhunda tərbiyə edilməsi lazım bilinmiş və indi də vacib sayılır.

Azərbaycanda məktəbəqədər təhsil və tərbiyə probleminin həyata keçirildiyi bütün dövrlərdə xalqın taleyi gələcək nəslin düzgün təhsilləndirilməsi və tərbiyə olunması ilə sıx bağlı olmuşdur.

Eyni zamanda bütün fəaliyyəti dövründə gənc nəslin mənəvi tərbiyəsini və təlimini əsas vəzifə kimi qarşıya qoyan ulu öndərimiz H.Ə.Əliyev Azərbaycan Respublikası gənclərinin birinci forumundakı yüksək əhəmiyyətli çıxışında demişdir: “Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir... Mənəviyyat olmayan yerdə heç bir şey də ola bilməz. Xalqımızın tarixinin əsasını təşkil edən bütün mərhələlərdə, keçmiş əsrlərdə yüksək mənəviyyat olmuşdur. Keçmiş tariximizdən bizə qalan simaları bu gün bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır. Ona görə də bu gün mənəvi tərbiyə bəlkə də keçmiş illərdən daha çox lazımdır”.

Odur ki, yüksək intellektə, bacarığa, hərtərəfli biliyə, mütərəqqi dünyagörüşünə, yüksək mədəniyyətə malik olan və onu daim inkişaf etdirməyə qadir

vətəndaşlar yetişdirmək Azərbaycan Respublikasının təhsil sistemi qarşısında başlıca vəzifə kimi durur.

Həmin mənəvi keyfiyyətlər yetişməkdə olan gənc nəslə məktəbəqədər yaş dövründən başlayaraq və anlaq səviyyəsinə uyğun olaraq aşılanmalı və tədricən onun ahəngdar inkişafı təmin edilməlidir. Hərtərəfli təhsilin, tərbiyənin təməli kiçik yaş dövründən qoyulur ki, bu sahədə mühüm yeri məktəbəqədər tərbiyə müəssisələri tutur.

Qeyd edilməlidir ki, məktəbəqədər tərbiyə müəssisələrində tərbiyə və təhsilin əsas vəzifəsi ailənin və cəmiyyətin mənafeyinə uyğun olaraq, uşaqların hərtərəfli inkişafına nail olmaq, fiziki və psixi sağlamlığını mühafizə etmək, fərdi xüsusiyyətlərini məqsədyönlü surətdə inkişaf etdirmək, xarakterlərinin başlıca cəhətlərini formalaşdırmaq və onların inkişafındakı çatışmazlıqları vaxtında aradan qaldırmaqdır.

Uşaq fiziki və psixi cəhətdən mürəkkəb bir yol keçir. Bu məqsədlə inkişafın ilk günündən başlayaraq sağlamlığın bünövrəsi qoyulur, uşaq əqli, əxlaqi, fiziki və estetik cəhətdən xeyli inkişaf edir.

Məktəbəqədər dövr ətraf aləmi öyrənməklə sıx bağlıdır. Uşaq ayaq tutub yeriyən gündən özü üçün "kəşflər" edir. Ətraf mühitdə, evdə, uşaq bağçasında, küçədə rastlaşdığı əşya və hadisələrlə tanış olur. Müxtəlif əşyalara toxunaraq haqqında ilkin məlumatlar qazanır, onların səsini dinləyir, əlamət və keyfiyyətlərini öyrəndikcə bunların əyani təsviri şüurunda formalaşır. Bu məqsədlə uşaq ətrafındakı cism və hadisələrlə tanış olduğu zaman emosional şərait yaratmaq lazımdır ki, onda rahatlıq, fərəh və sevinc hissi yaransın.

Məktəbəqədər yaş dövründə uşaqlarda təqlidçilik çox güclü olur. Məhz, bu xüsusiyyəti nəzərə alaraq, uşaqlarla ünsiyyətdə olan hər bir şəxs (tərbiyəçi, müəllim, valideyn və s.) yüksək nümunə göstərməlidir. Yaşlı nəslin hərəkəti, əmək fəaliyyəti, cism və hadisələrə, insanlara, heyvanlara, ev əşyalarına münasibəti uşaqların əxlaq tərbiyəsində mühüm əhəmiyyət kəsb edir.

Uşaqların yaş və fərdi xüsusiyyətlərini dərindən bilmək tərbiyəçi və ya valideyn üçün çox vacibdir. Yalnız mükəmməl bilik sayəsində uşaqların bir yaş mərhələsindən digərinə keçməsini müvəffəqiyyətlə təşkil etmək olar.

Bilmək lazımdır ki, məktəbəqədər pedaqogika dünyanın ən mütərəqqi elmi-pedaqoji nəzəriyyələrinə istinad edərək müasir dövrdə uşaqların tərbiyə olunmasının mühüm vəzifəsini, məqsədini və məzmununu müstəqil Azərbaycan Respublikasının daxili və xarici siyasətinə müvafiq müəyyən edir, bu sahədə qabaqcıl pedaqoji təcrübənin öyrənilib yayılmasına yüksək məsuliyyətlə yanaşır.

Indiyə qədər məktəbəqədər təhsil və tərbiyə ilə bağlı ədəbiyyatdan məlumdur ki, məktəbəqədər yaş dövründə uşaqların təlim və tərbiyəsinin müvəffəqiyyətlə həyata keçirilməsində valideynin və tərbiyəçinin şəxsi əməyi müstəsna əhəmiyyətə malikdir. Tərbiyəçi birinci növbədə uşaqları dərin məhəbbətlə sevməli, onları pedaqoji cəhətdən düzgün tərbiyə etmək metodologiyasına hərtərəfli yiyələnməli, iradəsi möhmək, əqidəsi saf olmalıdır. Tərbiyəçi Vətənini, xalqını yüksək məhəbbətlə sevməli, dövlətimizin məktəbəqədər tərbiyə ocaqları qarşısında qoyduğu vəzifələri ləyaqətlə və şərəflə yerinə yetirməlidir. Unutmaq olmaz ki, məktəbəqədər müəssisələrdə fəaliyyət göstərən hər bir kadr öz pedaqoji ustalığını, metodik hazırlığını durmadan artırmalı, elmi yeniliklərə müntəzəm yiyələnməli, müxtəlif elm sahələrinə bələd olmalı, uşaqların tərbiyəsində ətraf aləmlə tanışlıqdan bacarıqla istifadə etməlidir. O, uşaqların və valideynlərin yanında dərin nüfuza, sözü ilə əməli arasında möhkəm əlaqəyə malik olmalıdır.

Indiyə qədər öyrəndiyimiz pedaqogika, pedaqogika tarixi və digər qismdən müxtəlif aspektdə bizə məlum olan mənbələrdən məlumatlanmışıq ki, lap uzaq keçmişlərdən uşaqların tərbiyəsi və təhsili xalqımızın həmişə diqqət mərkəzində olmuşdur. Milli adətlərimiz, ənənələrimiz, davranış qaydaları, böyük-kiçik münasibətləri uşaqlarımızın yaddaşına həkk olunaraq qorunub saxlanılmış, nəsildən-nəsilə ötürülmüşdür. Sözsüz ki, tərbiyə və təhsil məsələlərində məsuliyyət əsasən anaların üzərinə düşüb. Lakin illər keçdikcə zaman dəyişib, qadınlar ictimai fəaliyyətə, əməyə cəlb olunublar və bəzi hallarda uşaqların tərbiyəsi ilə xüsusi dayələr və mürəbbiyələr məşğul olub.

Illər, əsrlər ötdükcə bu problemin inkişafında zamanın hökmü ilə irəliyə doğru yüksək dəyişikliklər baş vermişdir. Bu irəliləyişlərin ən başlıcası məktəbəqədər müəssisələrin yaranması ilə əlaqədar olaraq tərbiyə və təhsilin müəyyən bir hissəsi uşaq bağçalarının üzərinə düşüb.

Məlum olduğu kimi pedaqoji elmlər sistemində məktəbəqədər tərbiyə-təhsil sistemi özünəməxsus yer tutur. Eyni zamanda qeyd edilməlidir ki, məktəbəqədər tərbiyə sisteminin yaradılması, uşaq bağçalarının əsasını qoymuş alman pedaqoqu Fridrix Frebelə (1782-1852) məxsusdur. Frebel birinci dəfə olaraq ictimaiyyətin diqqətini yeddi yaşa qədər olan uşaqlarla pedaqoji işin aparılması zəruriyyətinə cəlb etmişdir. Bütün dünyada qəbul edilmiş "Uşaq bağçası" termini ona məxsusdur. Həm müəssisənin adının "bağça", həm də tərbiyəçilərin "bağban" adlandırılmasında uşaqlara xüsusi qayğı, onların təbiətini dəyişmədən "güllər"ə qulluq etmək kimi zərif və qayğıkeş münasibət özünü göstərirdi. Frebel sistemi məktəbəqədər pedaqogikanın inkişafına mühüm təsir göstərmiş və qısa bir müddətdə bütün Avropanı əhatə etmişdi.

Frebelin uşaq dünyasında, onların tərbiyəsi və təhsili ilə bağlı problemin həllinə dair bu yeniliyi nəinki Avropanı, hətta demək olar ki, dünyanın çox yerində, o cümlədən Rusiyada da əks-səda vermişdi. Belə ki, Rusiyada birinci uşaq bağçası XIX əsrin ikinci yarısında meydana gəlmişdir. 1871-ci ildə Sankt-Peterqburqda mədəniyyət xadimlərini, pedaqoqları cəlb edən Frebel cəmiyyəti təşkil olunmuşdu.

Nəhayət, bu ənənənin Azərbaycana da gəlib çatması yetişməkdə olan nəslin tərbiyə-təhsilinin inkişafına güclü təkan verdi və bu sahədə pedaqoji elmin yeniliklərlə zənginləşməsinə stimul yaratdı. Belə ki, Azərbaycanda ilk məktəbəqədər təhsil müəssisəsi 1907-ci ildə Bakıda "Dəcəllər məktəbi" adı ilə açılmış və elə bundan sonra da öz inkişafına qədəm qoymuşdur. Vətənimizin bütün sahələrdə güclənməsinə təsir göstərə bilən qadınların oxuması, ölkə təsərrüfatının, elmin və incəsənətin müxtəlif sahələrində çalışması üçün məktəbəqədər təhsil müəssisələri geniş imkanlar açmışdır.

**4.** Vətənimizin sosial-iqtisadi inkişafının dinamik sürəti bu gün məktəbəqədər təhsil müəssisələrinin qarşısında uşaqları altı yaşına kimi tərbiyə etmək, müstəqil Azərbaycan Respublikası üçün layiqli vətəndaş yetişdirmək kimi məsuliyyətli vəzifələr durur.

Nəzərə almaq lazımdır ki, həm bu dövrdə, həm də hazırki zamanda – ümumiyyətlə tarixi inkişafın bu və ya digər mərhələsində cəmiyyət hər hansı bir məsələni həll edərkən həmişə ilk növbədə insan amilini ön plana çəkmişdir. Iqtisadiyyatımızın, mədəniyyətimizin, sosial və mənəvi həyatımızın inkişafı

yollarının müəyyənləşdirilməsinə hansı mövqelərdən yanağırıqsa-yanaşaq, insanın özü, onun siyasi və intellektli siması, ustalığı, vətənpərvərliyi və beynəlmiləlçiliyi, yaradıcılıq qabiliyyəti, vətəndaşlıq mövqeyi və fəallığı həmişə həlledici amil olacaqdır.

Məhz buna görə cəmiyyətimiz əsaslı iqtisadi islahat, bütövlükdə ictimai həyatın demokratikləşdirlməsi ilə yanaşı böyüməkdə olan nəslin təlim-tərbiyəsinin kökündən yaxşılaşdırılmasını mühüm vəzifə kimi qarşıya qoymuşdur.

Xalq maarifi sisteminin ilkin həlqəsi olan məktəbəqədər müəssisə uşağın tərbiyə edilməsində ailəyə yaxındanköməklik göstərir, şəxsiyyətin formalaşmasının əsasını qoyur, onların məktəbə hazırlaşmasını həyata keçirir. Tibb işçilərinin, psixoloq və pedaqoqların tədqiqatları göstərir ki, məktəbəqədər yaş dövrü intensiv psixi və fiziki inkişaf dövrüdür. Məhz bu yaş dövründə tərbiyə və əlverişli şərait yaradıldıqda uşaqda əqli qabiliyyət inkişaf edir, xarakterin ilkin əlamətləri təşəkkül tapır, əxlaqi keyfiyyətlər formalaşır. Lakin bəzi xalq maarifi orqanları, müəllim və valideynlər hələ də məktəbəqədər yaş dövrünü düzgün qiymətləndirə bilmirlər. Onlara gələcəyin vətəndaşı kimi deyil, qayğısız uşaqlar kimi münasibət bəsləyirlər. Uşaq bağçalarında orqanizmin möhkəmləndirilməsi, sağlamlıq məsələləri ilə yanaşı uşaqlarda ictimai-faydalı əmək vərdişləri yaradılmalı, doğma torpağa məhəbbət, vətəndaşlıq hissi, əxlaqi davranışın əsasları qoyulmalı, eyni zamanda, onların ümumi inkişafına fikir verilməli, məktəbə hazırlanmalarına diqqət yetirilməlidir. Bütün bunlar isə təlim və tərbiyənin müxtəlif sahələrini əhatə edən elmi tövsiyələr, əlavə metodik və bədii ədəbiyyat yaradılmasını tələb edir.

Eyni zamanda, ictimaiyyətin, valideynlərin fiziki, əxlaqi və əmək tərbiyəsi ilə bağlı təklifləri nəzərdən qaçırılmamalı, əksinə onlar praktikada tətbiq olunmalıdır.

Məktəbəqədər tərbiyə işində yeni tipli tərbiyəçilər əsas simadırlar. Məktəbəqədər müəssisələrə hər il gənc mütəxəssislər gəlirlər. Bəs məktəb islahatının həyata keçirildiyi müasir dövrdə onların hazırlığı nə səviyyədədir? Onların pedaqoji-psixoloji hazırlığı, yaradıcı təfəkkürü necədir? Təlim-tərbiyə işini demokratik əsaslarda qura bilirlərmi? Valideynlərlə münasibət yarada bilirlərmi, uşaqları sevirlərmi, əməksevərliyi və nümunəvi davranışı ilə nümunə olmağa hazırdırlarmı?

Bu və bu kimi suallar pedaqoji institut və texnikumlarda işləyən hər bir kəsi

dərindən düşündürməlidir. Cəmiyyət tərbiyəçilərə ən qiymətli şeyi – ölkənin gələcəyi olan uşaqları etibar etmişdir. Bu isə pedaqoji institut və məktəblərin məktəbəqədər şöbələrində təlim-tərbiyə prosesinin yenidən qurulmasını tələb edir. Sirr deyil ki, bu məzunların çoxu hələ də pedaqoji-psixoloji bilikləri təcrübədə tətbiq edə bilmir.

Vahid fasiləsiz pedaqoji təhsil sisteminə tərbiyəçilər hazırlanması da daxildir. Tədris müəssisələri, metodik kabinetlər gələcək müəllim və tərbiyəçilərin inkişafına, yenilik axtarmaq hissinə, işdə proqressiv metodlara yiyələnmələrinə, hər bir uşağa hörmət və qayğı göstərə, onlara şəxsiyyət kimi yanaşa bilmələrinə, bu zəmində təlim-tərbiyə prosesini təkmilləşdirə bilmək bacarıqlarına diqqət yetirməlidirlər. Bir çox məktəbəqədər müəssisə işçilərində məhz bu keyfiyyətlər çatışmadığından onlar öz işlərini yenidən qura, hər bir uşağın hərtərəfli inkişafı vəzifəsinin öhdəsindən gələ bilmirlər.

Bu gün biz məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin təkmilləşdirilməsi barədə danışmaya bilmərik. Hər bir uşağın mənəvi inkişafına qayğı, vətənpərvərlik, beynəlmiləlçilik tərbiyəsi valideyn və müəllimlərin diqqət mərkəzində olmalıdır. Vətənpərvərlik tərbiyəsi isə yeni metod, yeni yanaşma tələb edir. Bu gün hələ heç də hamı uşaqların mənəvi tərbiyəsinə kifayət qədər fikir vermir, hələ də burada formalizm, sözçülük hökm sürür.

Bizlərdən hər birimiz yaxşı bilirik ki, əmək olmadan, əməkdənkənar tərbiyə də ola bilməz. Məktəbəqədər müəssisələrdə əmək fəaliyyəti ilk növbədə uşaqların ümumi inkişafının yaxşılaşdırılmasına, maraqlarının genişlənməsinə, əməksevərlik, məsuliyyət, borc, yaşlıların əməyinə hörmət hissinin formalaşmasına xidmət edir. Uşaq müxtəlif növ tapşırıqları yerinə yetirməklə yalnız sadə hərəkətləri öyrənmir, eyni zamanda öyrənir ki, yaxşı nədir, pis nədir, öz istəyini ümuminin, kollektivin mənafeyinə uyğunlaşdıra bilir, davranış qaydalarını mənimsəyir. Bu isə mənəvi tərbiyənin əsasının təşkilində, müxtəlif uşaq fəaliyyətində: məişət, əmək, oyun, təlim prosesində öz əksini tapır.

Uşağın ümumi inkişafında gözəlliyə məhəbbət, daxili aləminin zənginləşməsi, təxəyyülün inkişafı xüsusi əhəmiyyət kəsb edir. Burada müəllimin başlıca vəzifəsi uşaqlarda vaxtında estetik hissi, bədii qavrayışı, incəsənət və musiqi əsərlərini, ətraf aləmin gözəlliyini dərk etməyi inkişaf etdirməkdən ibarətdir. Bu zaman yaxşı olar ki,

tərbiyəçi uşaqların müstəqil, yaradıcı bədii fəaliyyətinə köməklik göstərsin. Bu isə uşaq qəlbinin dərk edilməsinin ən qısa yoludur.

Məktəbəqədər müəssisələrin müəllimləri təlimə xüsusi fikir verirlər, lakin burada da görüləsi işlər çoxdur. Təlim fəaliyyətinin təşkili forması, istifadə edilən metod və üsullar çox zaman məktəb təliminin praktikaya mexaniki şəkildə köçürülməsi xarakteri daşıyır. Şagirdin yaşından asılı olaraq differensial metod və üsullardan az istifadə edilir.

Bir qayda olaraq tərbiyəçilər elə hesab edirlər ki, əsas məqsəd uşaqlara bilik verməkdir. Bilikləri mənimsətmək, uşaqların qabiliyyətlərini inkişaf etdirmək isə sanki onların işi deyildir. Nəticədə uşaqlar evdə qalmaq istəyirlər.

Əgər biz bütün məktəbəqədər müəssisələrin təlim-tərbiyə işinin səviyyəsini lazımi səviyyəyə çatdıra bilsək, onda uşaqların məktəbdə müvəffəqiyyətlə oxumaları üçün yaxşı baza yaratmış olarıq.

Xoşbəxt uşaqlığın əsası olan fiziki inkişaf əqli, mənəvi və estetik tərbiyə üçün əsas zəmindir. Buna isə yalnız bir sıra kompleks tədbirlərin: sanitar-gigiyenik şəraitin, yeməyin yaxşılaşdırılması, orqanizmin möhkəmlənməsi, bədən tərbiyəsi məşğələləri, səhər gimnastikası, gün ərzində uşaqların hərəkət aktivliyini artıran tədbirlərin həyata keçirilməsi nəticəsində nail olmaq mümkündür.

Məktəbəqədər müəssisələrdə indi də rast gəldiyimiz tələblərin pozulması nəticəsində bir çox uşaq fiziki cəhətdən qüsurlu inkişaf edir, xəstəliklərin qarşısı zəif alınır. Hələ də uşaqların fiziki tərbiyəsi və sağlamlığının möhkəmlənməsi sahəsində əldə olunmuş təcrübədən pis istifadə olunur.

Kiçik vətəndaşların inkişafı və tərbiyəsi işində ailə müəllimlərin yaxın köməkçisi olmalıdır. Bununla yanaşı, hələ də bir sıra məktəbəqədər müəssisələrin tərbiyəçiləri valideynlərlə iş apararkən optimal təsir metodlarından istifadə edə bilmir. Nəsihət verməyə, öyrətməyə səy göstərirlər. Hər bir məktəbəqədər müəssisədə müəllim və valideynlərin əməkdaşlığını təmin etmək, qabaqcıl ailə tərbiyəsinin roluna diqqət yetirmək lazımdır.

Gələcəyə nəzər salarkən bu günü də yaddan çıxarmaq olmaz. Tərbiyəçinin gündəlik qəyyumluqdan azad edilməsi, ona müstəqillik verilməsi heç də onun öz tərəddüd və həyəcanları, axtarışları ilə tək qalması demək deyildir. Təhsil işçiləri

köməyə ehtiyacı olanlara müntəzəm kömək göstərməlidir. Bizcə, işin bu cəhətinə idarəetmə aparatı daha dərindən fikir verməlidir.

Uşaqların təlim-tərbiyəsinin yenidənqurulması tərbiyəçilərin peşə ustalığının artmasına təkan verən, bütövlükdə mədəni səviyyəsini yüksəldən təkmilləşdirmə kursları sisteminin təkmilləşdirilməsi, özünütəhsilin rolunu artırmadan mümkün deyildir.

Kadrlara yüksək tələbkarlıq göstərməklə yanaşı məktəbəqədər müəssisə işçilərinin yaradıcı fəaliyyəti, maddi şəraitin yaxşılaşdırılması üçün əlavə tədbirlər fikirləşmək, tərbiyəçilərin yaradıcı təşəbbüskarlığı, pedaqoji ustalığının artırılması üzərində düşünmək lazımdır.

Cəmiyyətdə, təhsil sistemində əsas sima müəllim və tərbiyəçidir. Kadr siyasətində hərtərəfli demokratiyaya əməl olunmalı, rəhbər işçilər seçki yolu ilə seçilməli, onlar vaxtaşırı valideynlər və ictimaiyyət qarşısında hesabat verməlidirlər. Tərbiyəçilərin əməyini qiymətləndirərkən valideyn və uşaqların rəyi nəzərə alınmaqla pedaqoji kollektivə ictimai təşkilatlara maksimum müstəqillik verilməlidir. Özünü istər təşkilati, istərsə də elmi cəhətdən xalq maarifi sisteminin bütün həlqələrini – uşaq bağçası, məktəb, litseylər, texnikum və ali məktəbləri əhatə edən birliklərin yaradılmasını alqışlamaq lazımdır. Bu müəssisələr arasındakı hasarın dağıdılmasının vaxtı artıq yetişmişdir.

Hazırki şəraitdə respublikamızın məktəbəqədər tərbiyə müəssisələrində tərbiyə və təhsilin təşkili ilə əlaqədar bir sıra problemlər qarşıya çıxır. Təşkilati, iqtisadi problemlərin həlli sahəsində çətinlikləri tədricən aradan qaldırmaq mümkün olacaq. Tərbiyəçinin pedaqoji hazırlığının yüksəldilməsi, onların nəzəri və metodik biliklərə yiyələnmələri ilə əlaqədar problemin həlli isə təxirə salınmazıdr. Bu problemin həlli həm də nisbətən asandır.

Tərbiyəçilərin öz üzərində işləmələri istiqamətində müntəzəm iş aparmalı, məktəbəqədər tərbiyə və təlimin məzmununun təkmilləşdirilməsi üçün metodik işin səviyyəsi yüksəldilməlidir.

Məktəbəqədər müəssisədə metodik iş kompleks şəkildə aparılan yaradıcı fəaliyyətdir. Praktik təlim və tərbiyə prinsiplərinə əsaslanan metodik işlərin həyata keçirilmə dairəsi çox geniş əhəmiyyətlidir. Ona görə də hər bir uşaq bağçasında elmi-

metodik mərkəz fəaliyyət göstərməlidir ki, tərbiyəçilərin nəzəri və metodik səviyyəsinin aşağı düşməsinə imkan verilməsin, əksinə onları müasir biliklərə hərtərəfli silahlandırmaq mümkün olsun. Hazırki dövrdə baş tərbiyəçilərin fəaliyətinin təkmilləşdirilməsinə daha çox ehtiyac duyulur. Axı baş tərbiyəçi həm fəal təşkilatçı, həm də məsləhətçi funksiyasını yerinə yetirir. Onun pedaqoji və psixoloji hazırlığından çox şey asılıdır. Baş tərbiyəçi sıravi tərbiyəçilərə kömək göstərməlidir ki, onlar özünütəhsil yolu ilə bilik və bacarıqlarını yüksəldə bilsinlər.

Pedaqoji ədəbiyyatda bu barədə az-çox yazılıb. Həmin yazılarda metodik işin əsas formalarına aşağıdakılar daxil edilir: pedaqoji şuralar, nəzəri seminarlar, seminar-praktikumlar, yaradıcı laboratoriyalar, məsləhətlər və s.

Pedaqoji şuraya məktəbəqədər müəssisənin fəaliyyətinə kollegial baxış əsasında qiymətvermə, habelə qabaqcıl təcrübənin ümumiləşdirilməsi və yayılması tribunası kimi baxılır. Pedaqoji şura məktəbəqədər tərbiyə müəssisələrində pedaqoji fəaliyyətinin istiqamətlərini müzakirə edir, ən mühüm problemlərini yerinə yetirir.

Pedaqoji şurada pedaqoji kadrların mənəvi inkişafı, pedaqoji ustalığı, pedaqoji-psixoloji problemlərin həlli yolları, çətinliklərin aradan qaldırılması, tərbiyəçilərin, musiqi rəhbərlərinin, valideyn komitəsinin sədrinin öz işləri haqqında hesabatlarının dinlənilməsi, pedaqogika elminin son nailiyyətləri və onun təcrübəyə tətbiqi məsələləri əhatə olunur. Burada həmçinin bir sıra pedaqoji-təşkilati tədbirlər də həyata keçirilir. Bu tədbirlərə məktəbəqədər müəssisələrin maddi-texniki və sanitar-gigiyenik-təchizi ilə bağlı məsələlərin müzakirəsi, valideynlərlə, ictimai təşkilatlarla müntəzəm və vaxtaşırı əlaqə, tərbiyəçilərin pedaqoji fəaliyyətlərinin nəticələrinə görə onların rayon təhsil şöbələri tərəfindən attestasiyadan keçirilməsi və s. daxildir.

Pedaqoji şuranın sədri məktəbəqədər tərbiyə müəssisəsinin müdiri olur. Onun tərkibinə metodist, tərbiyəçilər, musiqi rəhbəri, həkim, şəfqət bacısı, həmkarlaq ittifaqı komitəsinin sədri, valideynlər komitəsinin sədri daxil olur. Pedaqoji şuranın iclaslarında ictimaiyyətin nümayəndələri, tərbiyəçilər və valideynlər də iştirak edirlər.

Pedaqoji şuralara ciddi hazırlıq getməlidir. Bu zaman məsələn, tərbiyəçilərdən birinə uşaqlarla ünsiyyət mədəniyyəti mövzusunda iş təcrübəsindən danışmaq, digərinə uşaq bağçası ilə əlaqədar pedaqoji-psixoloji yeniliklər barədə danışmaq,

üçüncüsünə qrupunda tərbiyəçinin fəaliyyəti üzrə təcrübə mübadiləsi haqqında informasiya vermək təklif edilə bilər.

Məktəbəqədər tərbiyə müəssisələrində metodik işin yüksək şəkildə təşkilində pedaqoji şuraların məzmunlu keçirilməsində metodist mühüm rol oynamalıdır. Metodist bir sıra çətin suallar hazırlayıb, onların nəzəri cəhətdən şərhini verməyi tərbiyəçilər tapşırmalı və bu işdə onlara əməli kömək göstərilməlidir. Ümumiyyətlə, tərbiyəçilərin hazırlığı, onların məruzə və tezislərinin məzmunlu olması üçün metodist məsuliyyət daşıyır.

Tərbiyəçilərin məruzə və dərin məzmunu, dəqiq və aydın ifadə üslubu, məsələnin nəzəri cəhətdən asanlaşdırılması, faktların konkretliyi və təhlili, arqumentlərin inandırıcılığı ilə diqqəti cəlb etməlidir. Eyni zamanda məruzə, çıxış və ya informasiya müəyyən vaxt çərçivəsinə sığışdırılmalı, ən aktual problem ətrafında olsa belə, 30 dəqiqəni aşmamalı, dinləyicinin narahatlığına səbəb olmamalıdır.

Bütün tərbiyəçilərin il boyu keçirilən tədbirlərə hazırlaşmaq və çıxış etmək imkanları var. Çıxış və məruzələr başqa müəlliflə birlikdə də hazırlana bilər. Bundan əlavə, tərbiyəçi bütün aktual məsələlər üzrə məruzələr ətrafənda çıxış etməyə, eyni zamanda öz biliyi və təcrübəsi nümunəsində pedaqoji şuraya qaldırılmış problemlərə münasibət bildirməyə çalışmalıdır.

Pedaqoji şurada müntəzəm olaraq "Məktəbəqədər tərbiyə və təlim proqramları" üzrə məruzə və çıxışların, hesabatların qoyulması da məqsədəuyğundur.

Belə məruzə və çıxışlarda uğurlarla yanaşı uğursuzluqların səbəbinin təhlilini vermək vəziyyətdən çıxış yollarını göstərmək, öz proqnozları ilə dinləyicidə işin düzələcəyinə müəyyən ümid oyatmaq, inam yaratmaq mümkündür. Təcrübə göstərir ki, qurulan məruzə və çıxışlara tərbiyəçilər ürəkdən qoşulurlar. Beləliklə də, aşkarlıq demokratiya prinsiplərinə geniş yer verilir. Bunu pedaqoji nəzəriyyədə aşkarlıq pedaqogikası kimi qəbul etmək düzgün olar.

Məlum həqiqətdir ki, uşaq bağçaları kollektivlərində tərbiyəçilərin hazırlığı, onların öz sahələrinə dair dünyagörüşləri eynibiçimli deyil. Hər bir tərbiyəçi ayrıca fərd olduğu kimi onların qabiliyyəti, bacarıqları, təbii olaraq bu və ya digər hadisəyə münasibəti, ümumi hazırlıqları, imkanları da eyni deyildir.

Ona görə də pedaqoji şuraya hazırlıq müddətində metodist bütün bunları

nəzərə almalı, onların hər birinə fərdi yanaşmalı, onlara kömək göstərməlidir. Metodist hər şeyə diqqət yetirməli, hər şeyi əhəmiyyətsiz, ikinci dərəcəli hesab etməməlidir. O, bir tərbiyəçiyə yalnız məruzə hazırlamaqda kömək edərsə, digərinə üstəlik məruzəni başqalarına necə çatdırmağın yolunu da öyrətməlidir.

Təcrübə göstərir ki, bəzən çox gözəl, ibrətamiz iş təcrübəsi olan tərbiyəçi öz fəaliyyətindən bəhs edə bilmir. Ya utancaqlıq, ciddilik üzündən, ya fəaliyyətindəki yeniliyi görə bilmədiyindən, ya da sadəcə olaraq şifahi və yazılı nitqinin zəifliyinə görə danışmaqdan imtina edir. Ona görə də metodist hərtərəfli, dərin müşahidə aparmalı, tərbiyəçinin işindəki yeniliyi vaxtında görməli, onu ümumiləşdirməli, ona elmi don geydirməli, nə şəkildə yaymağın formasını və yollarını müəyyənləşdirməlidir. Baş metodist ən təcrübəli tərbiyəçilərə belə müvafiq məsləhət və tövsiyələr vermək üçün hazır olmalıdır.

Əlbəttə, belə tərbiyəçilərlə iş metodisti heç vaxt qorxutmur. Təcrübəli tərbiyəçilərlə iş prosesində mütləq yeniliklər olur. Bu zaman axtarışlardan alınan nəticələr pedaqoji təcrübəyə nələri isə əlavə edir.

Respublikamızın təhsil sisteminin müxtəlif mərhələləri arasında qarşılıqlı əlaqə və ardıcıllıq mövcuddur. Təhsil sistemində ardıcıllıq o deməkdir ki, təlim-tərbiyə vəzifələrinin ardıcıl həlli məqsədilə onun qarışıq halqaları arasında qarşılıqlı əlaqə müəyyən edilir. Belə ki, təhsil sisteminin hər bir mərhələsi öz işini əvvəlki mərhələ əsasında ibtidai məktəbin I sinfi də öz fəaliyyətini təhsil sistemində ilk halqa olan məktəbəqədər təlim-tərbiyə zəminində qurur.

Respublikamızda geniş miqyaslı islahatların aparıldığı bir dövrdə uşaq bağçası ilə məktəb, o cümlədən məktəbəqədər və məktəb pedaqogikası arasında ardıcıllıq mühüm əhəmiyyət kəsb edir. Bu problem pedaqoq və psixoloqların (prof.Y.Ş.Kərimov, A.P.Usova, R.İ.Jukovskaya, L.A.Levinova, L.İ.Bojoviç və b.) daim diqqətini cəlb etmişdir. Onlar bununla əlaqədar müxtəlif fikirlər irəli sürmüşlər.

Bəs uşaq bağçası ilə məktəbin işində əlaqə və ardıcıllıq dedikdə biz nəyi nəzərdə tuturuq?

1) Uşaq bağçası uşağı məktəbin irəli sürdüyü tələblərə (məktəbə) hazırlamalıdır.

2) Məktəb uşağın uşaq bağçasında əldə etdiyi bilik, bacarıq və vərdişlərə

əsaslanmaqla şagirdlərin sonrakı hərtərəfli inkişafı üçün ondan istifadə etməlidir.

3) Ardıcıllıq yalnız təlim-tərbiyənin məzmunu üzrə deyil, həm də metodları, priyomları, təşkili formaları üzrə həyata keçirilməlidir.

4) Əlaqə və ardıcıllıq məktəbə keçid şəraitini yaratmalı və bu zaman əvvəllər mənimsənilmiş vərdişlər yeni vərdişlərin inkişafına təsir göstərməlidir.

Uşaq bağçası ilə məktəbin, məktəbəqədər və məktəb pedaqogikası arasında əlaqə və ardıcıllığın nəzəri əsası uşaqlara vahid tərbiyəvi təsirləri tələb edir.

Uşaq bağçası məktəblə əlaqə və ardıcıllığı həyata keçirmək üçün ilk növbədə uşaqları məktəbə hazırlamalıdır. Uşaqların məktəb təliminə hazırlanması dedikdə fiziki, əqli və psixoloji hazırlıq nəzərdə tutulur. Fiziki hazırlıq uşaqların sağlamlığını, fiziki cəhətdən möhkəmliyini, çevikliyini, məişət və təlim gigiyenası qaydalarının gözlənilməsini tələb edir. Əqli hazırlıq bəzilərinin düşündükləri kimi uşağın yazmağı, oxumağı öyrənməsi kimi başa düşülməlidir. Bu anlayış uşaqların yazı və oxu texnikasına yiyələnmələri üçün ilkin hazırlıq mərhələsi, sadə riyazi anlayışlarla əlaqədar praktik vərdişlərə yiyələnmələri, ətraf aləmlə (təbiət və cəmiyyətlə) – canlı və cansız aləmin əşyaları, hadisələri, qanunları, qanunauyğunluqları ilə tanış olmaları və s. daxildir. Bütün bunlarla yanaşı, uşaqların müşahidə aparma, müqayisə etmə, qruplaşdırma və təsnifetmə, ümumiləşdirmə, mücərrədləşdirmə və əqli nəticəyə gəlmə kimi bacarıqlar üzrə psixi hazırlığı da tələb olunur.

Uşaqlarda ilkin təlimə hazırlıq iki mərhələdə gedir:

1) məktəbəqədər tərbiyə sistemində, ilkin təlimə başlayanadək;

2) ilkin təlim prosesinin özündə.

Ilkin təlimin hazırlıq mərhələsində müəllimin məktəbəqədər tərbiyənin nəticələrindən hərtərəfli istifadə etməsi zəruridir. Bununla belə, bəzi I sinif müəllimləri uşaq bağçasına gedən uşaqların kifayət qədər ümumi inkişafa malik olduğunu desələr də, onların potensial imkanlarından tam istifadə etmirlər.

Sinif müəllimi pedaqoji diaqnostikanın köməyi ilə uşaqların məktəbə hazırlıq səviyyəsini öyrənməli və onların uşaq bağçasında qazandıqları bilik və bacarıqlardan məktəbdə verilən yeni məzmunla əlaqələndirərək istifadə etməlidir. Sinif müəllimi uşaqların əvvəlki mərhələdə - uşaq bağçasındakı təlim-tərbiyənin nəticələrindən nə qədər çox və səmərəli istifadə edərsə, I sinifdə təlimi daha müvəffəqiyyətlə təşkil edə

bilər. Bununla yanaşı, o, sonrakı siniflərdə müvəffəqiyyətli təlim üçün zəmi yaratmalıdır.

Uşaq bağçasının məktəbə hazırlıq qrupu ilə məktəbin I sinfi arasında ümumi, oxşar cəhətlər mövcuddur:

1. Uşaq bağçası və məktəbdə təlim pedaqoq tərəfindən həyata keçirilir.
2. Uşaq bağçası və məktəbdə təlim uşaqlarda "oxumaq bacarığı" yəni, bilikləri mənimsəmək, tərbiyəçi və müəllimin göstərdiyi fikri iş priyomlarına və yollarına yiyələnmək bacarığı, nəticəni əldə etmək qabiliyyəti formalaşdırır.
3. Uşaq bağçasında və məktəbdə uşaqların davranışına bir sıra ümumi tələblər verilir: pedaqoqu və yoldaşını dinləmək, pedaqoqun hərəkətlərini müşahidə etmək, onu göstərişlərini izləmək, onları diqqətlə yerinə yetirmək, aldığı qiymətə fikir vermək, sonra öz işini müstəqil qiymətləndirmək bacarığı, məlum qaydalara müvafiq səhvləri düzəltmək. Bütün bunlar diqqəti, təfəkkürün fəallığını, iradəni və səyi tərbiyə edir.

Bu oxşar cəhətlər heç də uşaq bağçasında və məktbdə təlimi eyniləşdirməyə əsas vermir.

Məktəb təliminə keçid məktəbəqədər yaşlı uşaqların həyatında yeni mərhələnin başlanğıcıdır. Sentyabrın on beşindən məktəbli statusunu alan uşaq "Biliklər aləmi"nə ilk addımını atır. Bu zaman uşağın başlıca fəaliyyət növü dəyişir, oyun təlimlə əvəz olunur. Buna baxmayaraq uşağın oyuna olan marağı davam edir. Sinif müəllimləri kiçik yaşlı məktəblilərin orqanizminin oyuna olan tələbatını nəzərə alaraq təlim prosesində ondan geniş istifadə etməlidirlər.

Məktəbə keçidlə əlaqədar uşaq yeni həyat tərzinə başlayır, yeni fəaliyyət şəraitinə daxil olur, cəmiyyətdə yeni mövqe tutur, yaşlılar və yaşıdlar ilə yeni qarşılıqlı münasibətlərə keçir. Uşağın inkişafını, həyatını müəyyən edən sosial mühit dəyişir.

Orqanizmin inkişafı onun yaşadığı mühitdən asılıdır. Ona görə də uşağın düşdüyü mühit əvvəlkindən kəskin surətdə fərqlənərsə, əsəb sistemi ciddi çətinliklə qarşılaşa bilər. Ardıcıllığın gözlənilməsi bir mərhələdən digərinə keçid zamanı kəskin dəyişikliklərin olmamasını və təlim-tərbiyənin yaxınlığını təmin edir.

Məktəbə daxil olan uşaq böyük, mütəşəkkil şagird kollektivinin üzvü olur. Bu zaman şagirdlə yaşıdları arasında qarşılıqlı münasibətlərin yeni tipi yaranır. Uşağın davranışına və təlimdə müvəffəqiyyətinə müəllimin veridiyi qiymət, onun yaşıdları arasında mövqeyini müəyyən edən başlıca meyar olur. Bu mövqe ilə bağlı uşağın öhdəsinə bir çox vəzifələr düşür, onunla məktəbdə və məktəbdənkənar davranışı müəyyən edilir.

Məktəbdə təlimin ilk mərhələlərindən uşaqlara məcburi yada salma, öyrənmə, mənimsəmə kimi yeni tələblər verilir. Yeni tələblər uşağın psixikasında yeni keyfiyyətlər formalaşdırır. Məktəbdə təlim prosesinin inkişafı uşaqlardan əqli fəaliyyətin müəyyən sürətini tələb edir.

Məktəbli təlimə məsuliyyətlə yanaşmalı, onun mahiyyətini dərk etməli, məktəb həyatının tələb və qaydalarına tabe olmalıdır. Müvəffəqiyyətli təlim üçün o inkişaf etmiş idrak marağına kifayət qədər geniş əqli dünyagörüşə malik olmalıdır.

Bu dövrdə uşaqların müəllimlə qarşılıqlı münasibətləri yenidən qurulur. Bu münasibətlər uşaq bağçasında tərbiyəçi ilə münasibətlərə nisbətən daha işgüzar və təmkinli xarakter alır. I sinif şagirdi üçün ona dərs deyən qeyri-adi adamdır – ilk müəllimdir. Uşağın həyatında çox şey ondan asılıdır.

Ona görə də sinif müəllimi özünə tələbkarlıqla yanaşmalı, uşaqların mənəvi aləmi, qayğı və həyəcanları ilə maraqlanmalı, onlara vaxtında kömək göstərməlidir. O, uşaqların potensial imkanlarını üzə çıxarmağa çalışmalı, onların malik olduqları bilik və bacarıqlara əsaslanaraq yeni biliklərə yiyələnmələrinə nail olmalı, uşaq bağçası ilə məktəbin işi arasında əlaqə və ardıcıllığın həyata keçirilməsində fəal iştirak etməlidir.

Təəssüf ki, istər sinif müəllimlərinin, istərsə də tərbiyəçilərin bəziləri, nədənsə, uşaq bağçası ilə məktəbin işində əlaqə və ardıcıllığa laqeyd yanaşır, onu ikinci dərəcəli məsələ hesab edirlər. Bir çox tərbiyəçilərin I sinfin proqramından, sinif müəllimlərinin isə uşaq bağçasının təlim-tərbiyə proqramından xəbəri olmur. Uşaq bağçasında məktəbə hazırlıqla əlaqədar az-çox iş gedirsə də, tərbiyəçilərin əksəriyyəti öz məzunlarının məktəbdəki aqibəti ilə maraqlanmırlar. Sinif müəllimlərinin bəziləri isə uşaq bağçasında uşaqların hansı inkişaf səviyyəsinə çatdığını öyrənmirlər.

Fikrimizcə, problemin həllinə kömək etmək məqsədilə aşağıdakı işlər

görülməlidir:

1. Uşaq bağçasının məktəbəhazırlıq qrupunda uşaqların məktəbə ekskursiyaları təşkil olunmalıdır. Ekskursiyadan sonra tərbiyəçi şərait yaratmalıdır:

a) uşaqların məktəb haqqında hekayə tərtib etmələrinə;

b) uşaq bağçasındakı rejimlə məktəbin rejimi arasındakı oxşar və fərqli cəhətlərin müəyyənləşdirilməsinə dair didaktik oyunun keçirilməsinə;

c) uşaqların yaradıcı təxəyyüllərinə əsasən məktəbə dair müstəqil oyunların təşkilinə və s.

2. Məktəbə hazırlıq qrup uşaqları ilə I sinif şagirdlərinin birgə tədbirlərdə (səhərciklər, bayramlar, rəsm sərgiləri, məşğələlər və s.) iştirakı təmin olunmalıdır.

3. Ibtidai sinif müəllimləri uşaq bağçasında tərbiyə alan uşaqlar, tərbiyəçilər isə məzunlar-məktəblilər üzərində müşahidələr aparmalı, bir-biri ilə təcrübə mübadiləsi etməli, məsləhətləşməlidirlər.

4. Rayon, şəhər, respublika miqyasına problemlə əlaqədar konfranslar keçirilməli, habelə orta ixtisas və ali məktəblərin müvafiq fakültələrinin müəllimləri, tələbələri bura dəvət olunmalı, xarici ölkələrin bu sahədə qabaqcıl təcrübəsi ilə tanış olan görkəmli alimlərin məruzələri dinlənilməlidir.

5. Uşaqların məktəbə hazırlanmalarına xidmət edən çap əsaslı stolüstü oyunlar sistemi nəşr edilib, tərbiyəçi və sinif müəllimlərinə çatdırılmalıdır.

6. “İbtidai məktəb və məktəbəqədər tərbiyə” məcmuəsində problemin həllinə kömək edən yazılar dərc olunmalıdır.

7. Problemlə əlaqədar televiziya verilişləri hazırlanmalıdır.

8. Tərbiyəçi və sinif müəllimləri özlərinin elmi-pedaqoji hazırlıqları üzərində müntəzəm işləməli, əlaqə və ardıcıllığın yeni forma və metodlarını axtarmağa səy göstərməlidirlər.

Qeyd edildiyi kimi məktəbəqədər tərbiyə təhsil sisteminin ilk mərhələsidir. O, uşaqların tərbiyəsində hərtərəfli inkişafın özülünü qoyur və uşaqları məktəbə hazırlayır.

Tərbiyəçilər məktəbdə I sinif şagirdlərinə verilən pedaqoji tələbləri yaxşı bilməli və buna müvafiq olaraq uşaqları məktəbdə təlim prosesinə hazırlamalıdırlar. Uşaq bağçası ilə məktəbin arasındakı əlaqə və ardıcıllıq tərbiyə prosesində varislik

prinsipinə əsaslanır.

Təhsil sistemində ardıcıllıq anlayışı tərbiyə və təlim prosesinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün qarşılıqlı əlaqənin ən səmərəli yoludur. Uşaq bağçasının və məktəbin işindəki ardıcıllığın həyata keçirilməsi bir tərəfdən uşaq bağçasında uşaqların məktəb təliminə hazırlanması, digər tərəfdən məktəbin öz vəzifələrini həll etməsi üçün uşaq bağçası məzunlarının nailiyyətlərindən, onların bilik və bacarığından optimal istifadə edilməsi deməkdir.

Uşaq bağçası ilə məktəb arasında varislik təlim metodlarının seçilməsində özünü göstərir.

Məktəbdə dərs və uşaq bağçasında məşğələ bir sıra özünəməxsus xüsusiyyətlərə malik olsa da, onların bəzi ümumi cəhətləri də var. Başlıcası budur ki, onların hər ikisi təlim mahiyyəti daşıyır. Belə ümumi cəhət dərs və məşğələlərdə, proqramın məzmunuda, vaxt bölgüsündə, müəllim və tərbiyəçinin rəhbər rol oynamasında, müxtəlif metodlardan istifadə olunmasında özünü göstərir. Sübut olunur ki, məşğələ və dərs ardıcıl bir prosesdir. Uşaq bağçasında məşğələ təlim prosesinin elementləri üzərində qurulur və əqli fəaliyyətin inkişafı üçün şərait yaradır.

Uşaqların məktəbə hazırlığında fiziki tərbiyənin müstəsna əhəmiyyəti var. Məktəb uşağın həyat tərzində yeni mərhələdir. Rejimin dəyişməsi, ciddi tədris əməyi, dərs vaxtının artması, ev tapşırıqlarının yerinə yetirilməsi uşaqlardan xeyli fiziki gərginlik, ilk növbədə əsəb gərginliyi tələb edir, ona görə də fiziki hazırlıq uşağın məktəbə daxil olması ərəfəsində mühüm şərtlərdən biridir. Fiziki hazırlıq səhhətin yaxşı vəziyyətdə olması, görmə, eşitmə, əzələ-toxuma orqanlarının normal fəaliyyəti, dərs müddətinə dözümlülük və iradi keyfiyyətlərin inkişafı deməkdir.

Uşaqların məktəbə hazırlığı bağçanın kiçik qrupundan başlayaraq, ardıcıl həyata keçirilən tərbiyə və təlim işinin məqsədyönlü nəticəsidir. Uşaq bağçasının böyük qrupuna məktəbə hazırlığın əsas pilləsi kimi baxılır, çünki məktəb bu yaşlı uşaqlar üçün ən yaxın gələcəkdir.

Ona görə də məktəbin tərbiyə, təlim işinə hazırlıq məqsədyönlü xarakter daşıyır. Tərbiyəçi aydən bilməlidir ki, uşaq ayağını məktəbə qoyan gündən onun həyatı ciddi vaxt çərçivəsində keçir. Bu rejim çərçivəsində uşaq lazımi səviyyədə fəaliyyət göstərməyə hazır olmalıdır. Belə vərdişlərin formalaşdırılması, əsasən,

məktəbin üzərinə düşsə də, əslində onun təməli uşaq bağçasında qoyulur. Uşaq bağçasının məktəbəhazırlıq qrupunda uşaqlar tapşırığı dinləmək, başa düşmək, müəyyən vaxt çərçivəsində icra etmək anlayışları ilə yaxından tanış olur və rejim əsasında müəyyənləşdirilmiş vaxt çərçivəsində fəaliyyət göstərməyə alışırlar. Əks təqdirdə, məktəbin birinci sinfində uşaqların adaptasiya mərhələsi çox çətin keçə bilər.

Uşağın gələcək inkişafı məktəbdə müəllimdən, xüsusilə uşaqların bağçada qazandıqları keyfiyyətlərin necə inkişaf etdirilməsindən çox asılıdır. Varisliyin həyata keçirilməsi I sinif müəllimlərindən altıyaşlı uşaqların yaş və psixoloji xüsusiyyətlərini, habelə uşaqların bağça illərində əldə etdikləri bacarıqların səviyyəsini hərtərəfli öyrənməyi tələb edir. Bu məqsədlə I sinif müəllimləri uşaq bağçasının məktəbəhazırlıq qrupunun uşaqları ilə müntəzəm əlaqə saxlamalıdırlar.

Nəsimi rayonu 95№-li körpələr evi-uşaq bağçası 54№-li məktəblə əlaqəli iş aparır. Hər il bağçadan həmin məktəbə 25-30 uşaq yola salınır. Sentyabr ayının əvvəlində məktəblə uşaq bağçası arasında iş planı hazırlanır. Qrup tərbiyəçiləri uşaqları il ərzində bir neçə dəfə məktəbə aparır, onları məktəblə tanış edir. Uşaqlara məktəb haqqında məlumat verir, sentyabrın 15-də məktəbə gedəcəklərini başa salır. Onlara bildirirlər ki, məktəbdə oxumağı, yazmağı öyrənəcəklər. Bu məqsədlə tərbiyəçi uşaqlara deyir: "Fikirləşin ki, siz kitabı özünüz sərbəst oxuyursunuz. Bilirsinizmi kitablarda nə qədər maraqlı və elmi fikirlər var? Onları oxuduqca, öyrəndikcə sizin biliyiniz artacaq və ağıllı uşaqlar olacaqsınız. Hamı sizi çox istəyəcək. Ona görə də məktəbdə gərək yaxşı oxumağa çalışasınız. Burada çətin heç bir şey yoxdur. Yalnız yaxşı çalışmaq və intizamlı olmaq lazımdır. Əgər siz yaxşı oxusanız buna atanız da çox sevinər. Indi deyin görüm kimin məktəbə gedən bacısı, qardaşı var? Uşaqlar bir-bir cavab verirlər. Siz onlara baxın, öyrənin və soruşun, onlar necə oxuyurlar?- deyə qrup tərbiyəçisi sözünü davam edir. Sabah başçaya gələndə bu barədə danışarsınız. Növbəti məşğələdə tərbiyəçi uşaqların məktəb haqqında təsəvvürlərini öyrənəndən sonra onlara bildirir ki, iki gündən sonra mən sizi məktəbə apararam. Siz özünüz məktəbi görəcəksiniz. Bu çox maraqlı olar".

Bundan sonra uşaqlarda məktəbə maraq daha da artır. Onlar məktəbə getməyi səbirsizliklə gözləyir.

Əlbəttə, tərbiyəçi bu müddət ərzində məktəblə əlaqə saxlayır. Məktəb müəllimləri uşaqları qarşılamağa hazır olurlar. Onlar uşaqların hazırladıqları şerləri, mahnıları dinləyir, təbiət guşəsi, əl işləri ilə tanış olurlar. Uşaqlar müəllimlərlə, sinif otaqları, kitabxana, idman zalı, yeməkxana, məktəbin foyesi və həyəti ilə tanış olurlar. Məktəbin həyətində oaln "20 yanvar şəhidləri"nə həsr olunmuş memorialın qarşısına gül-çiçək dəstələri də qoyurlar, eyni zamanda onlara həsr olunmuş şerlər oxuyurlar.

Ekskursiyadan sonra tərbiyəçi bağçada məktəblə tanışlıq işini müzakirə edir. eyni zamanda tərbiyəçi məktəb müəllimini bağçaya dəvət edir. Uşaqlar müəllimlə daha yaxından tanış olurlar. Uşaqların məktəbə hazırlıq işinin bu qayda ilə təşkili çox faydalıdır. Sentyabrın 15-də altıyaşlılar şən əhval-ruhiyyə ilə məktəbə gedirlər.

Məktəb təliminin ilk gündən şən ovqatla başlanması altıyaşlıların həyatında həlledici əhəmiyyət kəsb edir, çünki altıyaşlıların doğma münasibətə çox böyük ehtiyacları var. Təcrübə göstərir ki, yalnız doğma, qayğıkeş münasibət olan şəraitdə tərbiyə və təlimin inkişafetdirici imkanı həmişə yüksək olur.

Hər il iyun ayının 1-də adı çəkilən bağçada "Əlvida bağça" bayramı keçirilir. Bu məqsədlə uşaqların məktəbə getmələri ilə əlaqədar maraqlı tədbirlər hazırlanır. Tərbiyəçilər uşaqları çıxışa hazırlayır, valideynlər uşaqlara çanta, dəftər, qələm və digər dərs ləvazimatları hədiyyə verirlər. Bütün bunlar uşaqları psixoloji cəhətdən məktəbə hazırlayır. Bayramsayağı bəzədilmiş məktəb azyaşlı uşaqlara çox maraqlı təsir bağışlayır. Ilk dərs günündə ilk zəngi vuran da bu uşaqlar olur. XI sinif şagirdləri dərs ilinin başlanması ilə əlaqədar təşkil olunmuş təntənəli tədbirlərdə məktəbə yenicə gəlmiş uşaqları təbrik edir, onların əlindən tutub öz siniflərinə aparır. Öz partalarında oturdur, sonra birincilər üçün nəzərdə tutulmuş otağa gətirirlər. Onbirincilər altıyaşlıları bir daha öz siniflərində təbrik edirlər. Ilk dərs günündə təşkil olunmuş belə tədbir altıyaşlıların həyatında unudulmaz izlər buraxır.

Uşaq bağçası ilə məktəbin işində ardıcıllığın mühüm cəhətlərindən biri də tərbiyəçinin I sinifdəki, müəllimin isə uşaq bağçasındakı işin məzmunu, formaları, rejimlə tanışlığıdır. Tərbiyəçilər və müəllimlər rəngarəng əlaqə formalarından istifadə edirlər: dərslərdə və uşaq bağçasında məşğələlərdə qarşılıqlı iştirak etmək, bayramlarda və səhərciklərdə olmaq və sonradan onları müzakirə etmək, uşaq bağçası

tərbiyəçilərinin öz yetişdirmələrini məktəbdə müşahidə etməsi, uşaq yaradıcılığı işlərindən ibarət sərgilərdə olmaq və s.

Məktəblə bağça arasındakı əlaqələrin mahiyyəti odur ki, onlardan biri digərini tamamlayır. Məktəbəqədər tərbiyə müəssisələrində uşaqların əqli inkişafına, əxlaqi cəhətdən formalaşmasına, fiziki cəhətdən sağlam və gümrah böyüməsinə nə qədər çox diqqət verilərsə, bu ümumtəhsil məktəblərinin işini bir o qədər asanlaşdırmış olar.

Müəllimlik işinin özünəməxsus xüsusiyyətləri vardır. Məktəbdə müəllim, uşaq bağçasında tərbiyəçi işləmək olduqca şərəfli və nəcib fəaliyyət sahəsidir. Onlar öz gərgin və qiymətli əməyi ilə cəmiyyət üçün yeni vətəndaşlar hazırlayır. Müəllim-tərbiyəçi məhdud görüş dairəsinə malik uşaqların gözünü dünyaya açır, onlara bilik, bacarıq və faydalı vərdişlər aşılayır. Vətənin sabahı üçün ləyaqətli vətəndaş formalaşdırırlar.

Yeri gəlmişkən qeyd etmək yerinə düşər ki, tədqiqatçılardan prof.A.Həsənov, M.Şirzadova, G.Qədimbəyova, Ə.Qədimbəyova, Ş.Səfərova və başqalarının tədqiqatlarına, problemlə bağlı elmi yazılarına əsasən deyək ki, 1930-cu illərdə pedaqoji elmlərə və maarifə ehtiyac artdığı üçün 1931-ci ildə yaranmış Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu (indiki Təhsil Problemləri İnstitutu) nəzdində məktəbəqədər qrup fəaliyyətə başladı. Dövrün tələblərindən asılı olaraq bu qrupun vəzifəsi elmi-tədqiqat işindən daha çox bir sıra təşkilati tədbirlərin düzgün həyata keçirilməsini istiqamətləndirməkdən, təlimati xarakterli materiallar hazırlamaqdan, tərbiyəçilərə praktik kömək göstərməkdən ibarət olmuşdu.

1936-cı ildə təşkil olunmuş Bakı Məktəbəqədər Pedaqoji Məktəbi Sovet dönəmində və müstəqillik dövründə məktəbəqədər yaşlı uşaqların təlimi, tərbiyəsinin inkişafına fədakarlıqla xidmət etmiş və etməkdə olan yüksək ixtisaslı kadrlar hazırlamışdır. Bakı Məktəbəqədər Pedaqoji Məktəbin müəllimlərindən G.Qədimbəyova, Ə.Qədimbəyova, Ş.Cəfərova, F.Allahverdiyeva və b. bu sahədə xidmətləri xüsusi qeyd edilməlidir.

Sovet İttifaqının tərkibində olduğu illərdə respublikamızın iqtisadi, ictimai, siyasi, elmi və pedaqoji həyatının inkişafı ilə əlaqədar olaraq Azərbaycanda məktəbəqədər tərbiyə müəssisələri də daim inkişaf etmişdir.

Keçən əsrin 20-ci illərindən başlayaraq inkişaf yoluna düşmüş məktəbəqədər uşaq müəssisələrinin şəbəkəsi keçən əsrin sonlarında misli görünməmiş bir tərəqqiyə çatmışdı.

Ölkənin siyasi quruluşundan, hakim Kommunist Partiyasının ideologiyasından, o dövrün ab-havasından asılı olmayaraq Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin böyük və möhkəm təməli olan bir sistemi yaranmışdı. Bu sistem ildən-ilə, hər beşillik, hər onilliklər ərzində həm kəmiyyət, həm də keyfiyyətcə inkişaf edərək, yeni məzmun kəsb etmişdi. Yerli hakimiyyət orqanları da bu məsələni daim diqqət mərkəzində saxlamışlar. Bu mənada sovetlər hakimiyyətinin sonuncu onilliyi dövründə, yəni müstəqillik dövrü ərəfəsində əhalinin tələb və ehtiyacını nəzərə alaraq məktəbəqədər müəssisələrin respublikanın ayrı-ayrı şəhərlərində, rayon və kəndlərində inkişaf dinamikasını özündə əks etdirən sənədlərə diqqət yetirmək çox əhəmiyyətlidir.

Hakim ideologiyanın tələblərində özünü göstərən bəzi neqativ hallara baxmayaraq keçən əsrin sonlarında əhalinin bütün təbəqələrinin məktəbəqədər müəssisələrə ehtiyacının tamamilə ödənilməsi qarşıya bir vəzifə olaraq qoyulmuşdu.

Keçən əsrin sonlarında, yəni SSRİ-nin dağılmağa doğru getdiyi vaxtlar belə məktəbəqədər tərbiyə müəssisələrini harada daha çox açmaq, başqa sözlə desək məktəbəqədər yaşlı uşaqları tərbiyə müəssisələrinə daha çox harada, hansı regionlarda cəlb etmək problemi Ümumittifaq elmi-praktik konfranslarında, digər müvafiq məclislərdə xüsusi müzakirə obyekti olurdu. Bu müzakirələrdə göstərilən problemə münasibətdə ikili standart hökm sürürdü. Mütəxəssislərin bir qrupu məktəbəqədər təhsil müəssisələrini daha çox, əsasən o regionlarda açmağa üstünlük verirdilər ki, o yerlərdə analar bilavasitə istehsalatda çalışır. Bu fikrin tərəfdarları istehsalatda, məhsuldar əməkdə və ya ictimai-faydalı əmək sahəsində çalışan anaların uşaqlarına üstünlük verirdilər və mövqelərini bununla əsaslandırırdılar ki, bu qadın-analar bilavasitə əmək cəbhəsində fəaliyyət göstərdiklərinə görə, onların uşaqları üçün əlverişli şərait yaradılmalıdır.

Bu fikir tərəfdarlarının əksinə olaraq digər mövqedə duranlar isə, məktəbəqədər təhsil müəssisələrinin yaradılmasında çoxuşaqlı regionlara üstünlük verirdilər. Onların fikrincə, əgər bu gün ana ictimai istehsalatda bilavasitə iştirak

etmirsə, lakin onun ailəsi çoxuşaqlıdırsa (5-10 nəfər və ya daha çox), ilk növbədə həmin müəssisələri bu regionlarda açmaq daha məqsədyönlüdür. Belə ki, əgər birinci mövqenin tərəfdarlarının müdafiə etdikləri ailədə bu gün bir nəfərin – ananın istehsalatda işləməsi əsas götürülürdüsə, belə ailələrin bir çoxunda əsasən bir və ya iki uşaq böyüyürdü.

Ikinci mövqedə duranlar isə haqlı olaraq göstərirdilər ki, əgər çoxuşaqlı ailədə ana bu gün istehsalatda işləmirsə, yaxın gələcəkdə bu ailədə böyüyən 5-10 uşaq həm əmək cəbhəsində çalışacaq, həm də ölkənin müdafiəsində iştirak edəcək.

Onu da qeyd edək ki, diskusiyalarda iştirak edənlər arasında birinci fikrin tərəfdarları əsasən Pribaltika respublikalarını, Rusiyanın mərkəzi regionlarını nəzərdə tutur və məktəbəqədər təhsil müəssisələrinin perspektiv inkişafını da yuxarıda dediklərimizlə əsaslandırmağa çalışırdılar.

Ikinci fikrin tərəfdarları isə, əsasən Orta Asiya və Cənubi Qafqaz respublikalarının nümayəndələri idilər.

Bütün bunlar onunla nəticələndi ki, keçən əsrin sonlarına doğru respublika hökuməti, ayrı-ayrı əlaqədar nazirliklər, komitələr və elmi-tədqiqat idarələri, təşkilatlar respublikada mövcud vəziyyəti və perspektivdə əhalinin uşaq tərbiyə müəssisələrinə olan ehtiyacını, məktəbəqədər tərbiyə müəssisələri şəbəkəsinin normativə uyğun inkişafını müəyyən etmişdilər. Bu perspektiv planda əhalinin məktəbəqədər təhsil müəssisələrinə olan ehtiyacının tamamilə ödənilməsi nəzərdə tutulurdu. Göstərilən perspektiv planın hazırlanmasında Respublika Təhsil Nazirliyinin məktəbəqədər müəssisələr idarəsinin kollektivi, mütəxəssislər və alimlər yaxından iştirak etmişdir.

**5.** Müstəqillik illərində qüvvədə olan normativ sənədlərin öyrənilməsi göstərir ki, məktəbəqədər sahənin yenidən qurulması üçün bir sıra istiqamətlər müəyyənləşdirilmişdir. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 1995-ci il 17 yanvar tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası məktəbəqədər tərbiyə müəssisələri haqqında Əsasnamə”də aşağıdakı ümumi müddəalar qeyd edilmişdir.

1. Azərbaycan Respublikası məktəbəqədər tərbiyə müəssisələri fasiləsiz milli təhsilin həyata keçirilməsində ilkin pillə olmaqla milliyətindən, cinsindən, dini

mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan Respublikasında yaşayan bütün məktəbəqədər yaşlı uşaqların (valideynlərin arzusuna uyğun olaraq) tərbiyəsi və təhsilə hazırlanması ilə məşğul olur.

2. Məktəbəqədər tərbiyə müəssisələrini dövlət orqanları, müəssisə, idarə və təşkilatlar, bütün mülkiyyət formalarından olan yerli və xarici birliklər, hüquqi şəxslər, ictimai birlik və təşkilatlar, ayrı-ayrı vətəndaşlar təşkil edə bilərlər.

3. Məktəbəqədər tərbiyə müəssisələri tabeliyindən asılı olmayaraq uşaqların ictimai tərbiyəyə cəlb edilməsində ailə və cəmiyyətin tələbatını ödəyir, milli və ərazi xüsusiyyətlərinə uyğun olaraq məktəbəqədər yaşlı uşaqların harmonik inkişafını və tərbiyəsini təmin edir.

4. Məktəbəqədər tərbiyə müəssisələri öz fəaliyyətində “Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu”, qanunvericilik və digər normativ aktlar, habelə bu əsasnaməni və öz Nizamnaməsini rəhbər tutur.

5. Məktəbəqədər tərbiyə müəssisələri uşaqların yaş və psixoloji xüsusiyyətlərinə uyğun təlim-tərbiyə prosesinin təşkili, onların sağlamlığının mühafizəsi, ilkin təhsilə hazırlanması üçün təhsil orqanları, valideynlər və ictimaiyyət qarşısında məsuliyyət daşıyır.

6. Dövlət məktəbəqədər tərbiyə müəssisələrinin inkişafı üçün təminat verir, tərbiyə və təlimin məzmununu müəyyənləşdirir, onların zəruri maddi-texniki ehtiyaclarını ödəyir, kadrlarla, proqramlarla, tədris-metodik ədəbiyyatla, oyun avadanlıqları ilə təmin edir.

7. Məktəbəqədər müəssisələrində təlim dövlət dilində aparılır. Tərbiyə və təlim prosesinin başqa dildə aparılması valideynlərin (onları əvəz edən şəxslərin) arzuları, yerli imkanlar, pedaqoji kadr və tədris təlimatı nəzərə alınmaqla, məktəbəqədər tərbiyə müəssisəsi tərəfindən həll edilir.

8. Tərbiyə alan uşaqların maraq, qabiliyyət və istedadların inkişaf etdirilməsi üçün lazımi şərait və imkan yaratmaq məqsədi ilə müxtəlif növ məktəbəqədər tərbiyə müəssisələri yaradıla bilər. Belə müəssisələr təsisçinin təsdiq etdiyi və Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən qeydə alınmış nizamnamə əsasında fəaliyyət göstərir.

Əsasnamənin II bölməsində məktəbəqədər tərbiyə müəssisələrinin strukturu,

tipləri və fəaliyyətinin əsasları da göstərilmişdir.

Məktəbəqədər tərbiyə müəssisələri aşağıdakı tiplərə bölünür:

- Körpələr evi;
- Körpələr evi-uşaq bağçası;
- Uşaq bağçası;
- Əqli və ya fiziki cəhətdən qüsurlu uşaqlar üçün məktəbəqədər tərbiyə müəssisələri;
- Məktəb-uşaq bağçası.

Əsasnamədə məktəbəqədər müəssisələrdə işin təşkili üzrə müddəalar qeyd olunur (III bölmədə), məktəbəqədər tərbiyə müəssisələrinin uşaqlarla komplektləşdirilməsi (IV bölmədə) və məktəbəqədər müəssisəsinin idarə olunması, ona rəhbərlik üzrə müddəalar müəyyən edilmişdir. Məktəbəqədər müəssisəsinin tərbiyə-təlim işləri sahəsində hüquq və vəzifələri, maliyyə-təsərrüfat fəaliyyəti, əməyin təşkili və əmək haqqının ödənilməsi sahəsində məktəbəqədər müəssisənin hüquqları, məktəbəqədər müəssisənin yaradılması, yenidən təşkili və fəaliyyətinin dayandırılması, məktəbəqədər müəssisənin hüquqi müstəqilliyi yeni dövrün tələbləri baxımından əsaslandırılmışdır.

Yuxarıda göstərilən rəhbər sənədlər, xüsusilə də məktəbəqədər tərbiyə müəssisələri haqqında "Əsasnamə"nin qəbulu müstəqillik dövrünün tələb və ehtiyacını, dövrün ruhunu özündə əks etdirən çox mühüm və tarixi əhəmiyyət kəsb edən bir sənəddir. Məhz bu sənədin qəbulu ilə müstəqil, suveren Azərbaycan Respublikasında məktəbəqədər tərbiyə müəssisələri özünün inkişafının yeni dövrünə qədəm qoydu. Məktəbəqədər tərbiyə müəssisələrinin işi, onun məzmunu yeni dövrün tələbləri əsasında yenidən qurulmağa başladı. Bu müəssisələr üçün yüksək ixtisaslı milli kadrlar hazırlığına yeni məzmunlu və istiqamətli təlimati-metodik göstərişlərin hazırlanmasında yeni mərhələnin əsası qoyuldu.

Müstəqillik dövründə təhsil sisteminin bütün həlqələri kimi, məktəbəqədər tərbiyə müəssisələrinin işində özünü göstərən yeniliklərdən, başqa sözlə desək, Sovetlər birliyi dövründən fərqli olaraq diqqəti cəlb edən cəhətlərdən biri də budur ki, tədqiq etdiyimiz dövrdə Azərbaycanda uşaq və gənclərin təlimi, tərbiyəsi və təhsili getdikcə dünya standartlarına daha çox uyğunlaşmaq yolu keçmiş məktəbdir.

2004-cü ildə hazırlanmış "Məktəbəqədər tərbiyə konsepsiyası"nda qeyd olunduğu kimi, müstəqil Azərbaycan dünya standartlarına uyğun təlim sistemini yaratmaq işinə onun ilkin pilləsi olan məktəbəqədər tərbiyə və təlimin təkmilləşməsindən başlanmışdır. Həmin sənəddə qeyd olunur ki, bunsuz gələcəyin hərtərəfli, ahəngdar inkişaf etmiş şəxsiyyətini formalaşdırmaq, onları müstəqil həyata hazırlamaq mümkün olmaz. Konsepsiyada həmçinin aşağıdakı məsələlər də açıqlanır:

- uşaqlarla pedaqoji işin məqsəd və prinsiplərinin humanistləşdirilməsi;
- məktəbəqədər tərbiyə müəssisəsinin quruluşu;
- məktəbəqədər müəssisə;
- məktəb kompleksi, evdə uşaq bağçası, xüsusi təyinatlı məktəbəqədər müəssisələr;
- müəssisə - uşaq bağçaları, məktəbəqədər tərbiyə müəssisələrində pedaqoji işin məzmunu;
- uşağın sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi, uşaqların tərbiyəsi və təlimində onların yaş xüsusiyyətlərinin nəzərə alınması, məktəbəqədər yaşlı uşaqların tərbiyəsi, məktəbəqədər yaşlı uşaqların təlimi və s.

XX əsrin son illəri və XXI əsrin əvvəlləri tərbiyəçilərin hazırlığını, bu hazırlıqda xüsusi payı olan pedaqoji təmayüllü ali və orta ixtisas məktəblərinin işinin daha da təkmilləşdirilməsini, ölkəmizdə aparılan təhsil islahatını, yeniləşən təhsil sisteminin ən vacib məsələləri kimi qarşıya qoyur.

Təsadüfi deyil ki, Təhsil islahatı proqramı təhsil sistemində yüksək intellektual potensialı formalaşdıran, müasir tələbatı ödəməyə qadir olan kadr hazırlığı həyata keçirməyə imkan verən təşkilatı-iqtisadi mexanizmin qurulmasını və lazımi elmi-metodik bazanın yaradılmasını zəruri hesab edir.

Yeniləşən təhsil sistemində aparılan islahatın müvəffəqiyyəti yüksək ixtisaslı kadrların hazırlığından və bu sahədə aparılan işlərin keyfiyyətindən daha çox asılıdır.

Paralel olaraq komfort şəraitli, yüksək ödənişli özəl uşaq bağçalarının da yaradılması prosesi getmişdir. Yüksək peşəkarlıq fəaliyyəti olan mütəxəssislərin rəhbərliyi ilə işləyən bu bağçalarda böyük müvəffəqiyyətlər əldə edilmişdir. Bəzilərində isə xüsusi təhsili olmayan adamlar rəhbərlik etdiyi üçün məktəbəqədər yaşlı uşaqların yaş xüsusiyyətləri nəzərə alınmamış, təlim-tərbiyə prosesi aşağı

səviyyədə olmuşdur. Bu cür vəziyyət dövlət uşaq bağçalarında da özünü büruzə verir. Belə müəssisələrə müxtəlif kursları bitirmiş, səriştəsi, müvafiq elmi-pedaqoji hazırlığı və bu sahədə çalışmaq üçün lazımi keyfiyyətləri olmayan şəxslər cəlb olunmuşlar. Halbuki hər hansı bir kursu bitirmək haqqında sənəd onların məktəbəqədər təhsil müəssisələrində pedaqoji işlə təmin olunmasına heç bir əsas vermir.

Kadr hazırlığında, gələcək tərbiyəçilərin peşə hazırlığında pedaqoji təcrübə həlledici mərhələdir. Müşahidələr göstərir ki, uşaq bağçasında təcrübə keçən tələbələr pedaqogika, psixologiya, metodika və ixtisas fənlərindən elementar məsələlərin həllində çətinlik çəkirlər. Onlar pedaqoji, psixoloji müşahidə apara bilmir, məşğələlərin təhlilində, tərbiyəvi tədbirlərin aparılmasında savadsızlıq nümayiş etdirirlər, mülahizələrini əsaslandıra bilmir, proqram və metodik vəsaitlərlə işləyə bilmir, gündəlik icmal tərtib etməkdə çətinlik çəkir. Bunun səbəblərindən biri ali və orta ixtisas məktəblərində bu istiqamətdə işlərin lazımi səviyyədə aparılmamasıdır. Tələbələrə gələcəkdə lazımi bacarıq və vərdişlər aşılanmır, təcrübə keçirilən uşaq bağçasının maddi-texniki bazası, təchizatı da aşağı səviyyədə olur.

Tərbiyəçi kadrların yenidən hazırlanması məsələləri də bu günün tələbidir. Qeyd etmək lazımdır ki, kadrların yenidən hazırlanmasına yönəldilən mühazirələrin elmi-pedaqoji səviyyəsi ön plana çəkilir. Artıq bəsit, müasirlikdən uzaq, təhsil islahatının tələblərinə cavab verməyən mühazirə mətnləri müasir uşaq bağçası tərbiyəçilərinin tələbini qane edə bilməz. Tərbiyəçilərin yeni təlim texnologiyalarına yiyələnmələrinə, yeni idarəetmə modelinin yaradılmasına və digər məsələlərin tərbiyəçilərə çatdırılmasına ehtiyac vardır. Yenidən hazırlanma kurslarında açıq dərslərin, onların video-kasetlərinin nümayiş etdirilməsi, qabaqcıl tərbiyəçilərin iş təcrübəsi, onlarla görüşlər təşkil edilməsi kadrların peşəkarlıq ixtisasının artırılmasında mühüm rol oynayır. Kompüterdən, internetdən istifadə edilməsi, yeni biliklərin verilməsində audiovizual vasitələrin tətbiqi tərbiyəçi kadrların öz peşəkarlıq səviyyəsini artırmasını tələb edir.

Uşaq bağçalarının təcrübəsinin öyrənilməsi göstərir ki, tərbiyəçilər arasında təlim prosesində yeni təlim texnologiyalarından istifadə etmək arzusunda olanlar da çoxdur. Metodik müşavirələr, məruzələrin dinlənilməsi, konfranslar və seminarlar,

“dəyirmi masalar”ın keçirilməsi metodist və tərbiyəçilərin fəaliyyətində müsbət dönüş yaradır.

Orta ixtisas məktəbləri içərisində Bakı Məktəbəqədər Pedaqoji Məktəbinin kadr hazırlığı sahəsində böyük təcrübəsi vardır. Burada beş ixtisas üzrə mütəxəssislər hazırlanır: 1. Məktəbəqədər təhsilin pedaqogikası və metodikası; 2. İbtidai təhsil; 3. Loqopediya; 4. Xarici dil; 5. Karlarla sosial bərpa işinin təşkili.

Pedaqoji kollektiv təcrübəli müəllimləri və gənc yaradıcı qüvvələri özündə birləşdirərək tədris işini pedaqoji ustalıqla həyata keçirir. Təcrübənin öyrənilməsi göstərmişdir ki, təlim-tərbiyə prosesində müasir təlim texnologiyalarından, kompüter təlimindən istifadə olunur. 1985-ci ildən başlayaraq tələbələr informatika və hesablama texnikasının əsaslarını öyrənməyə başlamışlar. Nəzəri fənlər üzrə alınan biliklər tələbələrin tədris emalatxanalarındakı dərslərində, eləcə də Bakı şəhər uşaq bağçalarında pedaqoji təcrübə keçən zaman möhkəmləndirilir.

Dövrümüz müasir uşaqlara müasir yanaşma bacarığı olan pedaqoqlar tələb edir. Yeni pedaqoji təfəkkür dedikdə, böyüməkdə olan nəslin təlim-tərbiyə problemlərinə yeni, müasir nöqteyi-nəzərdən baxış, dünya təcrübəsinə əsaslanan yanaşma nəzərdə tutulur.

Yeni pedaqoji təfəkkürə “innovasiya” da deyirlər, yəni yeni qayda ilə təlim. Elmi-pedaqoji ədəbiyyatda qeyd olunur ki, “yenilik” və “innovasiya” ayrı-ayrı məvhumlardır. Yenilik vasitədir, yəni yeni baxışlar, prinsiplər əsasında yaradılmış metod, metodika, texnologiya və s., innovasiya isə onu mənimsəmə prosesidir.

Yeni pedaqoji təfəkkür hərəkatına əsasən məktəb və məktəbəqədər təhsil müəssisəsi rəhbərləri, müəllimlər və tərbiyəçilər cəlb olunmuşlar. Hərəkatın predmeti dərs, məşğələ və məktəbdənkənar idarəetmədir.

Uşaq bağçalarının təcrübəsinin öyrənilməsi göstərir ki, hazırda tərbiyəçilər interaktiv təlim texnologiyalarından geniş istifadə etməyə maraq göstərirlər. Lakin bunun mahiyyətini izah edə bilmirlər. “İnteraktiv” termini “dialoq”, qarşılıqlı əlaqədə fəaliyyət göstərmək kimi izah olunur: “Texnologiya” sözü isə S.A.Smirnovun “Pedaqogika, pedaqoji nəzəriyyələr, sistemlər, texnologiyalar” kitabında bu cür izah olunur: ““Texnologiya” anlayışını tələb olunan parametrlərlə yeni biliklər almaq üçün ilkin materialların təkmilləşdirilməsi üzrə metod və proseslərin toplusu və ardıcıllığı

kimi başa düşmək lazımdır" (64, səh.172).

Texnologiya sözünə üç cür yanaşma vardır.

Bir qrup müəllimlər texnologiyanı müəyyən məqsədə çatmaq üçün xüsusi metodika kimi başa düşürlər.

Ikinci fikrin tərəfdarları texnologiya dedikdə bütövlükdə pedaqoji sistemi nəzərdə tuturlar. "Texnologiya" və "pedaqoji sistem" anlayışlarının uyğun gəlməsinə baxmayaraq, bu cür şərh həmin sözün ilkin mənasına daha yaxındır. Çünki texnologiya sözünə həm metodika daxildir, həm də təlim vasitələrinin sistemi kimi mühüm element.

Üçüncü fikrin tərəfdarları texnologiyanı təkcə metodika və yaxud pedaqoji sistem kimi deyil, müəyyən məqsədə nail olmaq üçün optimal metodika və ya alqoritm kimi sistem nəzərdə tuturlar. Lakin demək olmaz ki, bu fikir ilkin şərhə daha yaxındır. Çünki texnologiya müəyyən üsuldur. Təsadüfi deyildir ki, "müasir texnologiyalar" termini yaranmışdır.

Interaktiv təlim texnologiyaları üçün aşağıda qeyd olunanlar səciyyəvidir:

- uşaqların aktiv fəaliyyəti;
- tərbiyəçinin uşaqla və uşaqların bir-biri ilə əməkdaşlığı;
- didaktik və başqa oyunlardan istifadə;
- uşaqların qrupda qeyri-ənənəvi yerləşdirilməsi;
- müstəqil düşünmək, sərbəst rəy söyləmək bacarığı;
- başqalarını dinləmək bacarığı;
- başqasının fikrinə dözümlü olmaq;
- tənqidi təfəkkürünü inkişaf etdirmək;
- kompromis variant tapmaq;
- nitq qabiliyyətini inkişaf etdirmək.

Təlim prosesində inteqrasiya məsələlərini də yeni pedaqoji təfəkkürə aid etmək olar.

Məlumdur ki, bütün yeni məktəbəqədər təhsil müəssisələri köhnə ənənələrlə işləyən uşaq bağçalarının bazasında yaranır və burada işləyən mütəxəssislər əvvəlki dövrün məzunlarıdır. Müasir metodlar bu müəssisələrdə əsaslı dəyişikliklər aparmağı tələb edir. Pedaqoji təhsil müəssisələrinin işinin təhlili göstərir ki, mütəxəssisin

hazırlığı onun pedaqoji fəaliyyətinin metodik və didaktik istiqamətlərinə yönəlir. Bu, əlbəttə, çox vacibdir, lakin mütəxəssis hazırlığının psixoloji tərəfi nəzərdən yayınır: hər şeydən əvvəl tərbiyə olunanın başa düşülməsi, böyüyün onunla ünsiyyət etmək bacarığıdır.

### Ədəbiyyat


1. Həsənov A.M. Məktəbəqədər pedaqogika, Bakı-2000.
2. Qədimbəyova Ə.B. Uşaq bağçasında əxlaq tərbiyəsi, Bakı-1969.
3. Ismayılova M., İsmayılova C. Uşaq bağçalarının böyük qrupunda keçirilən didaktik oyunlar, Bakı-1995.
4. Komenski Y.A. Seçilmiş pedaqoji əsərləri, Bakı-1961.
5. Məktəbəqədər pedaqogika tarixi (M.Şabayevanın redaktəsi ilə), Bakı-1967.
6. Rüstəmova N.M. Məktəbəqədər pedaqogika tarixi, Bakı-2004.
7. Şirzadova M.H. Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin inkişaf tarixindən, Bakı-2007.


## *2.4. Avropa pedaqoji fikir tarixində uşaqların inkişafı, tərbiyəsi və təhsili haqqında nəzəriyyələr*

Plan:

1. Avropa pedaqoji fikir tarixində uşaqların inkişafı, tərbiyəsi və təhsili haqqında T.Kampanella və Y.A.Komenskinin pedaqoji nəzəriyyələri
2. C.Lokk və J.J.Russonun problemlə bağlı nəzəri müddəaları
3. Uşaqların inkişafı, tərbiyəsi və təhsili haqqında İ.Pestalotsi, R.Ouen, Ş.Furye və F.Frebelin pedaqoji ideyaları
4. K.D.Uşinski, Y.N.Vodovozova, Y.İ.Tixeyeva və P.Kerqomarın tərbiyəyə və təhsilə dair irsi
5. Uşaqların inkişafı, tərbiyəsi və təhsilinə dair mövcud nəzəriyyələrdə A.S.Makarenko və A.V.Suxomlinskinin yeri.

**1.** Avropa intibahının beşiyi İtaliya idi. Humanizm ideyaları əsasən İtaliyada

mərkəzləşmişdi. Şəhərlərdə zehni əməklə məşğul olan xüsusi insanlar qrupu – ziyalılar qrupu meydana gəldi. Yeni sinfin – burjuaziyanın yaranması mədəni yüksəlişə stimul verdi.

Insanların həyata baxışlarında çevriliş baş verdi. Elə ona görə də İtaliya intibahın beşiyi oldu.

Bu hərəkat Dante Aligeri (1265-1321), Françesko Petrarka (1304-1374), Vitterina de Feltre (1378-1446) və B.Quarinin (1374-1460) adı ilə bağlıdır.

Italiya humanistləri tərbiyənin ən yaxşı yolunu klassik yunan – Roma mədəniyyətinin mənimsənilməsində görürdülər. Intibah dövründə İtaliya humanistləri arasında **Tomazo Kampanella** (1568-1639) seçilirdi. Tomazo Kampanella ilk təhsilini monastırda almışdır. Gənc yaşlarında fəlsəfə ilə maraqlanmağa başlamışdır. Bir neçə fəlsəfi əsərlərin müəllifi olmuşdur.

T.Kampanella Cənubi İtaliyanın ispan monarxiyasından azad olunması uğrunda gedən mübarizələrdə fəal iştirak etmişdir. Azadlıq mübarizəsində iştirakına görə bir neçə dəfə həbs edilmişdir. Axırıncı dəfə 1602-ci ildə ömürlük həbs cəzasına məhkum edilmişdir. Lakin 1629-cu ildə o, həbsdən azad edilmişdir. Kampanella həyatının axırıncı illərini Fransada keçirmişdir. Uzunmüddətli həbsxana həyatı onu susdura bilməmiş və o, hələ həbsxanada olarkən özünün məşhur utopik əsəri olan "Günəş şəhəri"ni yazır.

"Günəş şəhəri"ndə hər şey ümumidir, hamı ümumi əməkdə iştirak edir. Burada əmək yetişən nəslin inkişafında əsas yer tutur. Əsərin iki qəhrəmanı Qostnik və Morexodun müsahibələrində Kampanella öz fikir və ideyalarını verə bilmişdir. Onun "Günəş şəhəri"ndə bütün divarlar şəkillərlə bəzədilmişdir ki, bu şəkillər vasitəsilə elmlər asan qavranılır. Bu divarların bir tərəfində həndəsi fiqurlar, digər tərəfində çaylar, dənizlər, heyvan və ağac şəkilləri əks edilmişdir.

Tomazo Kampanella belə hesab edirdi ki, uşaqların tərbiyəsi ilə məşğul olmağa iki yaşdan başlamaq, əlifbanı isə onlara şəhərin hasarlarında, evlərin divarlarında çəkilmiş şəkillərdən istifadə edərək öyrətməyə üç yaşdan başlamaq lazımdır. Səkkiz yaşdan isə müxtəlif elmlərin sisteminin öyrədilməsinə başlamalıdırlar. Elmlərin öyrədilməsində isə müntəzəm olaraq müxtəlif emalatxanalara gedilməlidir, çünki bu onlara texniki biliklər verməklə, həm də

gələcək sənətin şüurlu seçilməsinə kömək edə bilər. On iki yaşdan isə cinsindən asılı olmayaraq onların hərbi hazırlığına başlanılmalıdır ki, müharibələr zamanı qadınlar da öz uşaqları və yeniyetmələri ilə birlikdə bu müharibələrdə iştirak edə bilsinlər.

T.Kampanella utopik əsəri olan "Günəş şəhəri"ndə əməkçilərin xoşbəxt, ümumi dövlətində uşaqların erkən yaşdan ictimai tərbiyəsinin və təliminin verilməsi haqqında öz demokratik ideyalarını irəli sürmüş və orada o, əyaniliyə, təbiətə istinad etmişdir.

Bütün humanist pedaqoqları birləşdirən bir mənəvi yaxınlıq vardır ki, o da onların əşyadan sözə gəlməyi əsas tutmaları, təbiətdə təcrübəni əsas götürmələri idi. Intibah dövrünün bu pedaqoqlarının pedaqoji ideyaları gələcək pedaqoji nəzəriyyələrin formalaşmasına öz təsirini göstərə bilmişdir.

Pedaqogika elminin inkişafında böyük xidmətləri olan **Y.A.Komenski** (1592-1670) bütün mənalı həyatını insanların tərbiyəsi məsələsinə həsr etmişdir. Ömrüboyu narahat həyat keçirən otuz illik müharibədən əzab və əziyyət çəkən, övladlarını, əlyazmalarını belə itirən, insanları bəladan xilas etməyə çalışan Y.A.Komenski özünə Amos (insanları bəladan xilas edəcək peyğəmbər) təxəllüsünü seçmişdir.

Bütün həyatını xalqın maariflənməsinə həsr edən Komenski məktəbəqədər tərbiyə məsələlərinə ciddi fikir vermişdir. Onun fikrincə tərbiyə işinə uşaq hələ anadan olmamışdan başlamaq lazımdır. O, məktəbəqədər tərbiyə haqqında fikirlərini "Ana qucağı məktəbi" adlı əsərində şərh etmişdir. əsər həcmcə kiçik, məzmunca çox böyükdür, o ana qucağı məktəbini gənc nəslin tərbiyəsində mühüm mərhələ hesab edirdi. Uşaqların tərbiyəsinə bu mərhələdən başlamaq iki cəhətdən: uşaqları pis adət və vərdişlərdən qorumaq və gələcək tərbiyəni düzgün təşkil etmək üçün faydalıdır. Doğrudur, məktəbəqədər tərbiyə haqqında hələ yeni eradan əvvəl (427-347) görkəmli yunan filosofu Platon maraqlı fikirlər söyləmişdir. Komenski Platonun həmin fikirləri ilə tanış idi. Lakin, Platon uşaqların tərbiyəsində ailənin rolunu inkar edir və deyirdi ki, ailədə uşaq düzgün tərbiyə oluna bilməz. Platon uşaq doğulan kimi onu alınıb körpələr evinə verilməsini tələb edirdi. Məlumdur ki, Platon dövründə spartalılar yeni doğulan uşaq sağlam və gümrah olduqda onu götürüb, zəif və xəstə olduqda isə onu məhv edirdilər.

Y.A.Komenski ailəni uşağın tərbiyəsində ilk yer hesab etmiş, uşağın tərbiyəsində ailənin böyük rolunu yüksək qiymətləndirmişdir. “Ana qucağı məktəbi” əsərində Komenski analara, dayələrə, uşağı düzgün tərbiyə etməyin yolları haqqında qiymətli məsləhətlər vermişdir. O, ailə tərbiyəsinə dövlət əhəmiyyətli bir məsələ kimi baxmış və tərbiyə sistemində ailəni ilk mərhələ hesab etmişdir. O, uşaqları sevməyi, onlara humanist baxımdan yanaşmağı tələb edirdi. Bu isə, əlbəttə pedaqogikada yeni bir məsələ idi. Uşaqlara hörmət, məhəbbət, onlara qayğı ilə yanaşmaq həm ailənin, həm də ictimaiyyətin birgə işidir. Ailə, ictimaiyyət və dövlətin qayğısı sayəsində uşaq böyüyüb cəmiyyətin fəal bir üzvünə çevrilir. Y.A.Komenski bu əsərinə Siseronun çox qiymətli bir kəlamını epiqraf vermişdir: “Dövlətin əsasını gəncliyin düzgün tərbiyəsi təşkil edir”. Komenskinin həmin əsəri insanlığın tərbiyəsində ən yaxşı vəsaitdir. Çünki köhnə nəsli əvəz edən yeni nəsil düzgün tərbiyə olunmasa cəmiyyət məhv olub gedər.

Komenski əsərin girişində göstərir ki, tərbiyə işi ilə kim məşğul olursa onun qarşısında 3 vəzifə durur:

1. Dünyada qızıldan qiymətli olan bir şey sizə verilib, bu uşaqdır.
2. Onun qarşısında hansı məqsəd durur? Yəni tərbiyə gəmisini hansı istiqamətə yönəltmək lazımdır?
3. Gəncliyin düzgün tərbiyəyə ehtiyacı var.

Y.A. Komenskiyə görə uşaqlar 6 yaşa qədər aşağıdakı elmlərə dair məlumatları bilirlər. Fizika ilə bağlı olan təbiət hadisələrini, təbii hadisələrin adlarını: yanğın, hava, su, torpaq, qar, buz, dəmir və s. bilirlər. Bununla əlaqədar olaraq uşaqlar bir neçə ağacı, otu, çiçəyi, gül və müxtəlif heyvanları tanıyırlar, bədəninin xarici üzvləri və onların vəzifələrini bilirlər.

Astronomiyadan – günəşi, ayı, ulduzu bir-birindən fərqləndirə bilirlər. Coğrafiyadan – doğulduğu, yaşadığı yeri bilir, şəhəri, kəndi fərqləndirir, xronologiyaya aid saat, gün, ay, il və s. aid bilgilərə yiyələnmək olurlar.

Uşaq dünənki hadisəni xatırlayırsa, bu gün, keçən il, iki-üç il bundan əvvəl olmuş hadisəni dumanlı bilirsə, deməli, tarixə aid müəyyən anlayışları mənimsəmiş olur. Komenskiyə görə uşaqlar siyasətə dair biliklərə də yiyələnmiş olurlar. Onlar dövlət başçısını tanıyır və s.

Komenski göstərir ki, uşaqlar zaman anlayışını çox çətin mənimsəyirlər. Bu yaşda uşaqlar hətta bu günlə sabahı qarışdırırlar.

Komenskiyə görə uşaqlar fəaliyyətlə, ağıl və dillə bağlı olan incəsənət, dialektika, riyaziyyat, musiqi, bir neçə əl işləri və fiziki təmrinləri bilirlər.

Ilk altı ildə uşaq sual verib, cavab almağı bacarmalıdır. Bu dövrdə riyaziyyatın əsaslarından çoxu, azı, enli, ensizi və digər ölçü vahidlərini sənətkarlıq və əməkdən kəsməyi, tikməyi, sökməyi bilməlidir. Dillə əlaqədar uşaqlarda qramatikaya, ritorikaya, poetikaya aid biliklər inkişaf edir.

Beləliklə, 6 yaşlı uşaqlarda əşyaları tanımaq, fiziki əmək və cəldlik, nitq mədəniyyəti, əxlaq və xeyirxahlıq, mərhəmətlilik və s. kimi anlayışlar formalaşdırılmalıdır.

Komenski analara uşaqların qayğısına hələ uşaq dünyaya gəlməzdən əvvəl qalmağı məsləhət görür, bunun üçün ilk növbədə hamilə qadınlar öz sağlamlıqları qayğısına qalmalıdırlar, hamilə qadınlara içki içmək, həyacanlanmaq, əsəbiləşmək, əzab çəkmək olmaz. Ana bu mühüm məsələlərə əhəmiyyət verməsə, onun gələcək övladı əsəbi, narahat, qəmgin olacaq, bəzən isə ölü doğulacaqdır. Elə ki, bu zəif məxluq dünyaya gəldi, valideyn birinci növbədə onun qayğısına qalmalıdır. Uşağını ana özü əmizdirməlidir. Ən dəhşətlisi odur ki, bəzi analar öz uşaqlarını başqa qadınlara əmizdirmək üçün verir. Bunun bir sıra ziyanı vardır. Ana xəstə deyilsə, heç vaxt belə etməməlidir. Uşağı başqası əmizdirərsə, ana övlad arasında münasibətlər itir, uşaq böyüyərkən öz anasına hörmət etmir, ona yad bir qadın kimi baxır. Komenskiyə görə anaların uşaqlarını özləri əmizdirməsi onların əxlaqi saflığı üçün də faydalıdır. Komenski görkəmli filosof Favorinin apardığı maraqlı bir eksperimenti şərh edir. Favorin ana südünün körpə varlığın həyatında nə kimi əhəmiyyət kəsb etdiyini quzular və çəpişlər üzərində sınaqdan keçirir. Çəpişlər qoyunları, quzular isə keçiləri əmirlər. Nəticədə keçiləri əmmiş quzuların yunu cod, qoyunları əmmiş çəpişlərin tükü nisbətən yumşaq olur. Komenski həmin təcrübədən belə nəticə çıxarır ki, ana südünün uşağın mənəvi təşəkkülündə böyük əhəmiyyəti vardır.

Y.A.Komenski deyirdi ki, uşaq həyatı oda bənzəyir, odun yanması və alovlanması üçün hava lazım olduğu kimi, uşağın da inkişafı üçün hərəkət lazımdır. Uşaq çox qaçıb oynayanda yaxşı yatır, mədəsi yaxşı işləyir, tez böyüyür, fiziki və

mənəvi cəhətdən möhkəm olur. O, belə bir atalar sözünü də misal gətirir ki, şən əhval- ruhiyyə sağlamlığın yarısıdır.

Valideynlər təkcə uşaqlarının sağlamlığının qayğısına qalmaqla kifayətlənməməli, həm də uşaqların ağıllı böyümələrinə xüsusi diqqət verməlidirlər. Çünki müdriklik hər cür cəvahiratdan qiymətlidir. Ağıl, zəka sağ əldir, dövlət və şöhrət isə müvəffəqiyyətdir. Əqlin yolu işıqlı və gözəldir. Uşaqlar əvvəlcə anasını, atasını, suyu, yeməyi tanıyır. Odun, küləyin, soyuğun nə demək olduğunu bilir. Iti, pişiyi tanıyır. Dörd, altı yaşda uşaqlar qum, palçıq və s. nə olduğunu başa düşür, meyvələri tanıyırlar. Y.A.Komenski qeyd edir ki, uşaqlar yeddi yaşda hər hansı işlə məşğul olmağı çox sevirlər. Onların qan dövranı daim hərəkət tələb edir. o, deyirdi ki, qoy onlar qarışqa kimi səhərdən axşama kimi işləsinlər, oynasınlar, hərəkət etsinlər. Bu çox xeyirli və faydalıdır. Onların oyunlarının məzmunlu olması üçün onlara kömək göstərilməlidir. O, Afina sərkərdəsi Femstoklun balaca oğlu ilə meydançada qumun üzərində oynadığını misal gətirir. Bir gənc çox təəccüblə sərkərdəyə baxır. Sərkərdə gəncə deyir ki, özünün övladın olana kimi burada gördüyünü heç kimə danışma. Bununla Komenski demək istəyirdi ki, valideynlik hissini, övlad məhəbbətini, övladın tərbiyəsini, nazını çəkmək qayğısını yalnız valideyn olanlar bilərlər.

Uşaq nə görürsə onunla maraqlanır, onu əllərinə götürür, dartır, sökür, qopardır. Onlar bıçağı, dəhrəni yerə döyür, bununla da özünə zədə yetirirlər. Ona görə də uşaqlara müxtəlif oyuncaqlar almaq lazımdır. Çünki uşaqlar bu oyuncaqlarla oynadıqdaonların bədəni möhkəmlənir, əqli inkişaf edir, bədən üzvləri hərəkət edir. onlar çox həvəslə tikinti materialları ilə oynayır, ev düzəldirlər. Uşaqların bu işlərinə kömək etmək lazımdır. Işsizlik həm ağıl, həm mənəviyyat, həm də bədən üçün zərərlidir. O, həmin işləri tədricən yerinə yetirməyi tövsiyə edirdi.

Y.A.Komenski uşaqların nitq inkişafı məsələlərinə də böyük əhəmiyyət vermişdir. O, deyirdi ki, insanı heyvandan iki şey fərqləndirir. Bunlardan biri şüur, digəri isə nitqdir. Şüur insanın özü üçün, nitq isə bağqaları üçün lazımdır. Buna görə də bunların hər ikisinə eyni cür qayğı göstərmək lazımdır. Insan nitq mədəniyyətinə yüksəlmək üçün qrammatikanı, ritorikanı və poetikanı öyrənməlidir.

Uşaq qramatikanı ən uzağı altı aylıq olanda örənməyə başlayır. Bir yaşda

uşaqlar a, ba-ba, ma və s. səsləri deyirlər. Sonra uşaqlarda ən yaxın olan nə-nə, baba və s. sözlər yaranır. Bu yaşda çox zaman valideyn uşaqlarla guya danışır, əşyanın əsl adını qoyub uşağın verdiyi adı çox həvəslə deyirlər. Məsələn, pəpə, qaqqa, çay-ça və s. Bu uşaq nitqinin inkişafına mənfi təsir edir. Bu yaşda ata, ana, dayə, bacı – hamı uşağa sözü düzgün tələffüz etməyi öyrətməlidir. Bu yaşda qrammatika ancaq bundan ibarətdir. Bunu təqribi üç yaşa qədər davam etdirmək olar. Dörd, beş, altı yaşda uşaq nitqi ətraf mühitin təsiri ilə zənginləşir. Bu yaşda uşağın nə etdiyini, nə iş gördüyünü düzgün ifadə etmək üçün şərait yaratmaq lazımdır. Ona görə də tez-tez onlara "nə edirsən?" , "nə iş görürsən?" kimi suallar vermək lazımdır. Uşaqlara çətin sözləri tələffüz etdirmək, yanıltmaclar öyrətmək lazımdır.

Ritorika da uşaqlarda bir yaşda başlayır. Biz çox zaman öz fikrimizi uşaqlara danışıqdan çox jestlərlə çatdırırıq. Uşağa əlimizin hərəkəti ilə, təbəssümlə müraciət edirik. Uşaq iki-üç yaşdan sifətdən qəmginliyi, sevinci duyur, başı tərpətməklə, barmaq hədələməklə uşaq yaxşı və pis hərəkət etdiyini başa düşür. Təxminən üç yaşdan uşaq təəccüblənməyi, bəzən əl hərəkəti ilə danışmağı bacarır. 5-6 yaşdan uşaq öz yaşıdlarından və dayəsindən eşitdiyi sözləri mənimsəyir. Elmlərin əsası bu yaşda qoyulur. Uşaqla ağıllı davranmaq lazımdır. Təxminən elə bu yaşda poeziyadan da danışmaq olar. Ona görə ki, uşaq ahəngdarlıqla danışmağa başlayır, ifadəli şer söyləyir.

Y.A.Komenski əxlaq tərbiyəsinə də böyük əhəmiyyət verirdi. Onun fikrincə nəcib, xeyirxah adamları kiçik yaşlardan tərbiyə etmək lazımdır. Kiçik ağacı tez böyütmək olur, eləcə də uşağı kiçik yaşdan xeyrixah tərbiyə etmək asandır. Bunun üçün daim xeyirxahlıq nümunəsi vaxtında ağıllı nəsihətlər və təmrinlər, mülayim intizam kimi şərtlər lazımdır. Uşaqlara həmişə yaxşı nümunə göstərmək zəruridir. O, dünyaya gələndə meymuna oxşayır, lakin qayğının, səyin nəticəsində dəyişib başqa cür olur. Uşaq gözündən heç bir şey yayınmır. Ona görə də uşağın yaşadığı mühitə həmişə diqqət yetirmək lazımdır. Burada mülayimlik, xeyirxahlıq, bir-birinə hörmət əsas yer tutmalıdır. Əxlaq tərbiyəsində Komenski cəzaya da müraciət edir. O, döyməyi deyil, yeri gələndə bərkdən acıqlanmağı məsləhət görür. Komenski deyirdi ki, ailədə intizamın böyük əhəmiyyəti vardır. Intizamsız böyüyən uşaq xeyirxah ola bilməz.

Y.A.Komenski 6 yaşa qədər uşağı ana məktəbində saxlamağı məsləhət görürdü. 6 yaşdan sonra uşağı məktəbə verməyi tələb edir. O yazırdı: "Toxum cücərəndən sonra onun böyüməsi, yaxşı məhsul verməsi üçün bostana şitil edirlər. Eləcə də uşağın fiziki və əqli cəhətdən yaxşı inkişaf etməsi üçün onu məktəbə verməк lazımdır".

Y.A.Komenski erkən təhsilin əleyhinə çıxırdı. O göstərirdi ki, 6 yaşdan əvvəl verilən təhsil bir neçə cəhətdən ziyandır. Əvvəla uşaq bu işə tam hazır deyil, ikincisi uşağın beyni öz inkişafını tam qurtarmamış olur. 6 yaşdan sonra o tam inkişaf etmiş olur. O, bunu ağacla müqayisə edir. Elə ağac var ki, lap tez çiçək açır, amma o, çiçəyi tez tökür, gec açılan çiçək isə daha yaxşı meyvə verir. Ona görə də vaxtından tez verilən təhsil zərərlidir.

Y.A.Komenski uşağın məktəbə qoyulması məsələsi üzərində də xeyli dayanır. O göstərir ki, bəzi valideynlər uşağı hazırlamadan məktəbə aparırlar. Belə valideynlərin işi malı naxıra ötürmək kimidir.

**2. Con Lokkun** (1632-1704) tərbiyə haqqında fikirləri dövrü üçün çox əhəmiyyətli idi. O, "ağ lövhə" nəzəriyyəsini irəli sürmüşdür. Onun fikrincə uşaq doğularkən onun beyni ağ lövhə kimi təmiz olur. Sonra ətraf aləm tədricən ona təsir edir və xarakteri formalaşır. O, həmin nəzəriyyəsini "Təcrübələr" adlı əsərində belə ifadə edir: insan qəlbi ağ lövhə kimidir. Bu nəzəriyyənin öz dövrü üçün böyük əhəmiyyəti vardır. Bu nəzəriyyə ilə Con Lokk feodalizm cəmiyyətinə, onun qayda və qanunlarına böyük zərbə vurmuşdu. O, bununla fitri qabiliyyətlər nəzəriyyəsini rədd edirdi. Əlbəttə, onun burada səhvləri də var idi. V.Q.Belinski Lokk nəzəriyyəsinin çatışmayan cəhətlərini tənqid etmişdi. O yazırdı ki, uşaq beyni ağ lövhə deyil, imkanı olan toxumdur. Uşaq dünyaya müəyyən təbii imkanlarla gəlir, həmin təbii imkanlar həyatda inkişaf edir. Con Lokk isə həmin nəzəriyyə ilə hər cür fitri istedadı inkar edirdi.

Lokk "Əqlin tərbiyəsi" əsərində göstərir ki, heç bir xalqın övladı milliyyətindən, irqindən asılı olmayaraq ağılsız, qabiliyyətsiz doğulmur. Avropa və zənci qəbilələri bir-birindən fərqləndirən tərbiyədir, ictimai mühitdir. O yazır: "Əgər biz sizinlə birlikdə Soldan körfəzində doğulmuş olsaydıq, bizim dünyagörüşümüz və düşüncəmiz orada yaşayan vəhşi qottentotların dünyagörüşündən artıq ola bilməzdi.

Virciniya kralı Apocan İngiltərədə təhsil alsaydı, bəlkə də o, ən yaxşı riyaziyyatçı və mömin ola bilərdi. Bunların arasındakı fərq müəyyən qədər təhsilli ingilis ilə onların işini məhdudlaşdıran adətləri və baxışlarıdır. Buradan belə bir nəticə çıxır ki, insan hər hansı şəraitdə yaşayırsa, şərait onun inkişafına təsir edir. Deməli, hər şey təhsil və tərbiyədən asılıdır”.

Con Lokkun fikrincə uşaqlarda olan bəzi zərərli keyfiyyətlər cəmiyyətdən gəlir. Ona görə də hər bir valideynin uşağını evdə tərbiyə etməsi yaxşı olardı.

Onun pedaqoji görüşlərində ailə tərbiyəsi mühüm yer tutur. C.Lokk tərbiyəçidən tərbiyə etdiyi uşağın bütün fərdi xüsusiyyətini öyrənməyi tələb edirdi. O, insan xarakterində bir sıra mənfi və müsbət keyfiyyətləri sadalayır, tərbiyəçidən tələb edirdi ki, uşaqda müsbət keyfiyyətlərin inkişafına imkan yaratsın. Pis adətləri lap kiçik vaxtdan yerindəcə boğmaq lazımdır.

Lokk tərbiyəyə yaradıcı bir proses kimi baxırdı. Ona görə uşağın fərdi xüsusiyyəti həyatı boyu dəyişməz qalmır, səmərəli pedaqoji təsirin gücü ilə uşaq psixikasını dəyişdirmək olmaz. Con Lokkun fikrincə, uşaq xarakteri axan çaya bənzəyir. Çayın qarşısında bənd vurub onun istiqamətini, məcrasını dəyişdirmək mümkün olduğu kimi, insan xarakterini də tərbiyənin gücü ilə dəyişdirmək olar.

Beləliklə, Lokk XVII əsrdə geniş vüsət tapmış tərbiyəni hər şey hesab edən nəzəriyyənin başında durur, onun yaradıcısı hesab olunurdu. Jan Jak Russo, Pestalotsi də onun nəzəriyyəsindən qidalanmışdır. Con Lokkun zəmanəsi üçün xarakterik olan insan xarakteri və psixikası anadan gəlməlidir, Allahın iradəsindən asılıdır - deyən nəzəriyyəyə qarşı çıxaraq göstərirdi ki, insan heç bir əqli qabiliyyətlərlə doğulmur. Insanları tərbiyənin gücü ilə xoşbəxt və ya xeyirxah etmək olar.

Con Lokk əxlaq tərbiyəsini dinlə sıx bağlayır və deyirdi ki, ilk günlərdən uşaqlarda Allaha məhəbbət tərbiyə edilməlidir.

Con Lokkun pedaqoji sistemində fiziki tərbiyə mühüm yer tutur. O, uşaqları lap körpəlikdən möhkəm bədənli, sağlam tərbiyə etməyi lazım bilirdi. “Tərbiyə haqqında fikirlər” əsərini o, belə bir yunan kəlamı ilə başlayır: “Sağlam bədəndə sağlam ruh olar”. Sağlam olmayan adam heç bir zaman irəli gedə bilməz və cəmiyyətə fayda verə bilməz. Əlbəttə, həmin fikir qismən doğru olsa da onunla razılaşmamaq olmaz.

C.Lokkun fikrincə centlmenin bədəni körpə yaşdan möhkəmləndirilməlidir. O, hər gün soyuq suda çimməli, yüngül ayaqqabı geyinməlidir. O, yazır ki, anaların əksəriyyəti mənə etiraz edib deyirlər ki, mən diri ikən uşaqları öldürürəm, halbuki Seneka ilin bütün fəsillərində bulaq suyu ilə yuyunurmuş. Uşaqların sağlam böyüməsində havanın böyük əhəmiyyəti var. Bir həkim kimi bunu yaxşı bilən Lokk uşaqların günün çox hissəsini havada keçirmələrini zəruri sayırdı.

Uşaqların sağlamlığında paltarın, ayaqqabının da dar və gen olması müəyyən əhəmiyyət kəsb edir. Uşaqlara dar paltar geyindirmək onların sağlamlığına ziyan vurur. Döş qəfəsini sıxır. Belə uşaqların ağzından pis iy gəlir. Hamıya məlumdur ki, çinlilər qız uşağının ayağını qəlibə salırlar. Həmin qəlib uşağın ayağının normal inkişafına mane olur. Onların ayaqları çox balaca olur. Buna görə də kişilərə nisbətən qadınlar az ömür sürürlər. Ona görə ki, qan dövranı bədəndə düzgün getmir. C.Lokk məsləhət görürdü ki, 2-3 yaşa qədər uşağa ət vermək olmaz. Valideynlər isə düşünür və belə hesab edirlər ki, həm özləri, həm də uşaqlar ət yeməsələr acından ölə bilərlər. O deyirdi ki, uşaqların dişlərinin xəstə olması onlara körpə vaxtı çoxlu ət verməklə bağlıdır. Mənim centlmenim ət yeməli olsa, heç olmasa gündə bir dəfə yesin. Centlmen üçün çörək, yağ, pendir ən yaxşı səhər yeməyidir.

Sağlamlıq üçün yuxu da əsas şərtdir. Əgər uşaq evdə bərk yatmağa öyrənməyibsə, yolda yuxusuzluqdan əziyyət çəkəcəkdir.

Uşaqları elə tərbiyə etmək lazımdır ki, böyüyəndə hər dəqiqə döyüşə bilsin. C.Lokkun centlmeni nəzakətli və döyüşkən kimi tərbiyə etməsi onun yaşadığı dövrün iqtisadi-siyasi hadisələri ilə bağlı idi. O zaman İngiltərə başqa ölkələrə hücum edir, müstəmləkəçilik siyasəti yeridirdi. Gənc nəslin tərbiyəsi haqqında fikirlər söyləyən Lokk da hakim sinfin mənafeyini müdafiə edir, centlmeni həm nəzakətli, həm də döyüşməyi bacaran kimi tərbiyə etməyi tələb edirdi.

C.Lokk əxlaq tərbiyəsinə xüsusi əhəmiyyət verir. Uşağı qayğıkeş tərbiyə etmək lazımdır. Tərbiyə uşaqların yaddaşını möhkəmləndirməli, biliklərlə silahlandırmalı, təkcə dünyagörüşü inkişaf etdirməklə kifayətlənməməli, həm də xeyirxah insan tərbiyə etməlidir.

Uşaqlarda höcətçilik, yalançılıq, qəddarlıq kimi mənfi keyfiyyətlərin inkişafına yol vermək olmaz. Uşaqları elə öyrətmək lazımdır ki, onlar bir-birinə

güzəştə getməyi bacarsınlar. Uşağı öyrətmək lazımdır ki, ona başqası tərəfindən verilən hədiyyəni almasın. Bəzən uşaq öz arzusuna çatmaq üçün göz yaşından da istifadə edir. Bunun qarşısını almaq lazımdır. Göz yaşı iki səbəbdən olur: biri – o bir şeyi istədikdə vermirlər, bu zaman o göz yaşı tökür, ikincisi, çəkdiyi əzabdan da göz yaşı tökür. Uşağın üzünə baxdıqda onun nə üçün ağladığını bilmək olur. Birinci ağlamağın qarşısını almaq lazımdır. Cəsurluq və qorxaqlıq da insan xarakterinin əlamətlərindəndir. Cəsurluq bütün xeyirxahlığın keşikçisidir. Qorxaq adam heç vaxt öz insanlıq ləyaqətini yerinə yetirə bilməz. Qorxaqlığın qarşısını lap kiçik yaşlardan almaq lazımdır. Elə əşyalar olur ki, uşaq göründə qorxur. Odur ki, elə etmək lazımdır ki, uşaq qorxmasın.

Uşaqlarda olan mənfi keyfiyyətlərdən biri də qəddarlıqdır. Çox zaman uşaq əlinə düşən zəif canlını – quşu, kəpənəyi incidir. Körpə vaxtı belə heyvanlarla qəddarcasına rəftar edən uşaq böyüyəndə adamlara da qarşı amansız olacaqdır. Buna görə də uşaqlarda mərhəmət hissi tərbiyə etmək lazımdır. Belə qayğı uşaqlarda erkən yaşdan xeyirxahlıq və qayğıkeşlik tərbiyə edir. Uşaqlarda olan mənfi keyfiyyətlərdən biri də laqeydlikdir. Bu elə bir mənfi keyfiyyətdir ki, irqindən, cinsindən asılı olmayaraq bütün insanlar arasında yayılmışdır. Uşaqları bu təhlükədən qorumaq lazımdır.

C.Lokk tərbiyədə nüfuza da böyük əhəmiyyət verirdi. Bu nüfuz nəinki uşaqlara, hətta onlara baxan dayələrə də təsir etməlidir. O yazır ki, uşaq kiçik yaşda olarkən ata nüfuzunun böyük əhəmiyyəti vardır. Lakin, bu nüfuz despotçuluğa çevrilməməlidir. Yeri gəldikcə uşağın arzusunu, tələbini də nəzərə almaq lazımdır.

**Jan Jak Russo** (1712-1778) on ildən az bir dövrdə (1753-1762) "İctimai müqavilə", "Dalamberə məktub", "Yeni Eloiza" əsərlərini yazır. "Emil və ya tərbiyə haqqında" əsəri 1761-ci ildə nəşr olunur. Əsər böyük hay-küyə, hakim və dini qüvvələrin etirazına səbəb olur. Fransa parlamenti müəllifin həbs edilməsi haqqında qərar qəbul edir. Russo Fransadan qaçmalı olur. Onun adamlarla ünsiyyətdə olması qadağan edilmişdi. 1765-ci ildə o məşhur "Tövbə" əsərini yazır. Əsərdə özünün subyektiv həyəcanlarını, tərcümeyi-hal məlumatları çox incə bir üslubla təsvir edir. Narahat həyat, həyəcanlar onu taqətdən salmışdı. O, 1778-ci ildə iyulun 2-də Markiz-de Jerardenin qəsrində vaxtsız vəfat edir. De Jerarden onun qəbri üstündə

heykəl qoydurmuş, "burada təbiət və həqiqət nəğməkarı olan bir insan yatır" sözlərini heykələ həkk etdirmişdi.

Komenskinin ideyasına görə, təlim ciddi ardıcıllıqla aparıldığı kimi Russoya görə də tərbiyə belə bir ardıcıllıqla həyata keçirilir. Həmin ardıcıllığı Russo "Emil və ya tərbiyə haqqında" əsərində xüsusi qeyd edir. Birinci mərhələ uşağın anadan olandan dil açana qədər dövrü əhatə edir. Bu mərhələdə uşaq tamamilə köməksiz və gücsüzdür. Ikinci mərhələ iki yaşından on iki yaşadək dövrü əhatə edir. Bu mərhələdə fiziki qüvvələr inkişaf edir, lakin hələ əqli düşüncə, əxlaqi anlayış yoxdur. Üçüncü mərhələ on iki yaşdan on beş yaşadək dövrü əhatə edir. Bu dövr əqli qüvvələrin və mənəvi inkişafın başlanğıcıdır. Bu dövr insan həyatının ən qiymətli vaxtıdır, lakin çox az olan dövrüdür. Bu dövr işləmək, oxumaq, elm öyrənmək üçün ən qiymətli dövrdür. Nəhayət, dördüncü mərhələ gəncliyin böhran dövrüdür, ehtiraslar, mənəvi özünü inkişaf dövrüdür. Bu dövrdə sanki insan yenidən doğulur, heç bir insani xassə ona yad deyildir. Bu dörd mərhələnin xüsusiyyətlərinə uyğun olaraq tərbiyə özü də dəyişir. Birinci mərhələdə tərbiyə özünü sadəcə olaraq uşağa qulluq etmək, qayğı göstərməklə ifadə edir. İkinci mərhələdə fiziki tərbiyədə və xarici hisslərin inkişafında öz ifadəsini tapır. Üçüncü mərhələdə əqli tərbiyədən, dördüncü mərhələdə isə mənəvi tərbiyədən söhbət gedir. "Emil" əsərində hər mərhələyə bir kitab həsr edilmişdir.

Uşağı kim tərbiyə etməlidir? Öz uşaqlarının tərbiyəsindən imtina edən və uşaqlarını priyuta verən valideynləri kəskin tənqid edərək Russo hər bir valideyndən öz uşaqlarını tərbiyə etməyi tələb edir. Uşağa həyat verən ona yaşamağı da öyrətməlidir. Kim atalıq borcunu yerinə yetirmirsə, ata adlanmağa layiq deyildir. Heç bir yoxsulluq, heç bir məşğuliyyət, insani böyüklük onu uşaqları yedirtmək, tərbiyə etmək vəzifəsindən məhrum edə bilməz. Xəstə analar müstəsna olmaqla uşaqları analar özləri əmizdirməlidir. Russo uşağa ana qayğısının ictimai-əxlaqi əhəmiyyətini çox gözəl təhlil və təsvir edir. "Ana yoxdursa, uşaq da yoxdur". Tərəflərdən biri öz borcunu pis yerinə yetirirsə, o biri tərəf onun əzabını çəkəcəkdir. Uşaq hələ həyatını dərk etməzdən əvvəl anasını sevməlidir. Ana qayğısı yoxdursa, ailə də yoxdur. Ana olmayanda bütün mənəvi sistem pozulur, ana və övlad arasında məhəbbət tellərini bir-birinə bağlaya bilmir. Belə olduqda nə ata, nə ana, nə uşaqlar, nə qardaş, nə də

bacı olur, hamı bir-birinə tanış kimi baxır. Onlar bir-birlərini sevə bilərlərmi? Əlbəttə yox. Çünki hər kəs özü haqqında düşünür. Priyutlara, monastrlara verilmiş uşaqlar ailə üzvlərinə, ata ocağına bağlılığı itirir. Heç kimlə bağlı olmur. Lakin, Russo qeyd edir ki, tərbiyəçisiz keçinmək olmaz. Tərbiyəçi lazımdır. Russonun tərbiyəçisi özünəməxsus ideal adamdır. O, nökər deyildir, uşağın və ailənin ən yaxşı dostudur. Yer üzündə çox xeyirxah peşə var. Bu peşə pulla deyil, insanın fədakarlığı ilə müəyyən olunur. Bu hərbçi və tərbiyəçi peşəsidir. Russoya görə tərbiyəçi bütün məlum olan keyfiyyətlərə sahib olmaqla yanaşı cavan olmalıdır. Onun gənc olması şagirdin müəllimə inamı və etibarı yaradır. Russo təsdiq edir ki, uşağın bir tərbiyəçisi olmalıdır. O, həm tərbiyəçi, həm də müəllim olmalıdır.

Uşağa ilk qayğı qida, uşağın bədəninin möhkəmləndirilməsi və nitq inkişafıdır.

Uşağa ilk qayğı fiziki baxımla səciyyələnir. Uşağa qida verilir, bədəni təmiz saxlanılır. Bu baxım haqqında Russo xüsusi tövsiyələr verir. Uşağın ilk və əsas qidası ana südüdür. Uşağı başqa qadın əmizdirəcəksə, onda yalnız bədəncə deyil, mənəviyyatca, ruhca sağlam və gənc qadın tapmaq lazımdır. Çünki beləsinin südü uşağın mədəsində tez həzm olur. Qida kimi uşağa ilk gündən azadlıq verilməli, o, bədən üzvlərinin keyləşməsi olmasın deyə hərəkət etdirilməlidir. Buna görə də Russo bələməyin qəti əleyhinə çıxırdı. Bələk qan dövranının normal işləməsinə, uşağın möhkəmlənməsinə mane olur. Uşağın, temperamentinə təsir edir və nəhayət uşaq əsəbiləşir və qışqırır. Russo bələk bağını uşağın azadlığını əlindən alan ilk zəncir hesab edir. Bu ağılsız adət elə-belə yaranmamışdır. Adamlar öz rahatlığı üçün ilk gündən uşağın qol-qıçlarını bağlayıb, onu azadlıqdan məhrum edirlər. Russo uşağın tez-tez yuyulmasını məsləhət görürdü. Bu vaxt uşaq müxtəlif temperatura öyrənir. Bütün qayğılarla yanaşı Russo uşağın çox əzizlənməsinin əleyhinə olmuşdur. Ana uşağı əziz-xələf böyüdür, o, övladına böyük ziyan vurur və belə ana ən qəddar anadır. Buna görə də Russo uşağı kiçik yaşlarından müxtəlif iqlim şəraitinə öyrətməyi, çətinliyə alışdırmağı tövsiyə edirdi.

Russo uşaqların ağlamasına xüsusi diqqət yetirir və qeyd edirdi ki, uşaqların göz yaşları onların ilk xahişidir. Göz yaşları ilə onlar nə isə istəyirlər. Uşaqların ağlamasının iki səbəbini qeyd edir. Uşaq müəyyən tələbatının ödənilməsini – yerinin

dəyişdirilməsini, qida və s. istəyir. Belə ağlamaq fasiləli olur. Uşağın fasiləsiz ağlamağı onun hər hansı bir yerinin ağrıması ilə olur. Russo da ona görə deyirdi ki, uşaqların göz yaşlarına rəhm edin.

Russo uşağın nitq inkişafına xüsusi əhəmiyyət verirdi. O tələb edirdi ki, söz aydın deyilməli və əşya uşağa göstərilməlidir. Uşaq nitqinin inkişafında Russo hər cür tələskənliyin əleyhinədir. Sözlərin təhrif edilərək tələffüz olunması Russoya görə uşaqda pəltəklik yaradır.

Ikinci mərhələdə Russoya görə iki yaşa qədər uşaqlar həqiqi əqli qabiliyyətlərə malik olmurlar və buna görə də əqli öyrətməyə yaramırlar. Onlarda təfəkkür, hətta yaddaş belə yoxdur. Onlar səsləri, obrazları, duyğuları, rabitələri yadda saxlaya bilirlər. Onların bilikləri yalnız duyğularda əks olunur, təfəkkürə keçmir. Bu dövr əqlin yuxu dövrüdür. Madam ki, belədir, onda uşaqlara əqli məsələlərlə məşğul olmağı təklif etməyin faydası yoxdur.

Russoya görə fiziki inkişaf, əqli inkişafla sıx bağlıdır. Fiziki inkişaf əqli inkişaf mərhələsinə zəruri hazırlığı yerinə yetirir.

Uşağın ağıllı və düşüncıli olması üçün onun möhkəm, sağlam olmasına çalışın. Qoyun o işləsin, hərəkət etsin, qaçsın, qışqırsın, həmişə fasiləsiz hərəkətdə olsun. Qoyun o, güclü və qüvvətli adam olsun. Onda onun əqli də inkişaf edəcəkdir. Bədəni fiziki möhkəmləndirməyə gəldikdə Russo burada uşağın həddən artıq əzizlənməsi və qəyyum edilməsinin əleyhinə çıxır. Uşağın ilk addımlarından müstəqilliyə öyrədilməsi vacibdir. Uşaq öz gücünə, qüvvəsinə inanmalıdır. Russo qeyd edirdi ki, Emil ayaq açıb yeriyəndə onun qoruyucu papağı, təkərlərə bərkidilmiş səbəti olmayacaqdır. O, özü yeriməyi öyrənəcək, yıxılacaq, duracaq, lakin, öyrənəcəkdir. Qoy uşaq müstəqil addım atarkən yıxılsın, dizi əzilsin, əti göyərsin – bütün bunlar bu yaşda təhlükəli deyil. Çünki, əzab çəkmək ilk şeydir ki, uşaq ona alışmalı, öyrənməlidir.

Russo <u>əmək tərbiyəsinə</u> xüsusi əhəmiyyət verirdi. Əmək insanın zəruri tələbatıdır. Russonun əmək növləri içərisində sənətkarlıq əməyi yüksək yer tutur, o, bu əməyə xüsusi qiymət verir. Çünki sənətkar heç kimdən asılı deyildir.

Uşağa hansı peşəni öyrətməli? Hər şeydən əvvəl daim faydalı olan peşəni öyrətmək lazımdır. Bu peşələr dəbdən, dövlətli adamlardan asılı olmayaraq

mövcuddur. Buna görə də Emil özünə şərəfli, faydalı bir peşəni seçməlidir. Russoya görə peşələr içərisində ən şərəflisi əkinçilikdir. Daha sonra dülgərlikdir.

**3. Iohan Henrix Pestalotsinin** (1746-1847) əsərlərində, xüsusilə "Herbartın doqquz sualına cavab", "Oğlunun tərbiyəsi haqqında Pestalotsinin gündəliyi", "Analar üçün kitab", "Qu quşunun nəğməsi" əsərində ailədə tərbiyə məsələlərinə geniş yer vermişdir. Ailədə uşaqların ilk tərbiyəçisi anadır. Ana əvvəlcə uşaqların hisslərinə təsir etməli, sonra isə hisslərin bu cür tamamlanmış tərbiyəsində ağıla təsir etmək üçün bazis axtarmalı, uşağın rahatlığını təmin edən vasitələrdən istifadə etməyi bacarmalıdır. Məktəb yaşına çatmamış uşaqlar üçün Pestalotsi ailəni ilk tərbiyə məktəbi hesab edərək orada uşaqların hisslərinin, nitq və təfəkkür qabiliyyətlərinin inkişaf etdirilməsini, sağlamlıqlarının qorunmasını zəruri sayırdı. Pestalotsi deyirdi ki, ana kimi sevirsə uşaq da onu sevir. Ana kimə etibar edirsə, uşaq da ona etibar edir. Ana kimə inanırsa, uşaq da ona inanır.

Uşaq hiss orqanlarından istifadə etməyə başlayan andan ana onun hiss üzvlərinə təsir edərək əşyaları göstərməklə uşağın təsəvvürünü, görüş dairəsini genişləndirə bilər. Uşaq dil açarkən ana onu bədən üzvləri ilə tanış edir. Uşaq başı, iki gözü, iki qulağı, iki əli, iki ayağı olduğunu öyrənir. Bundan sonra uşaq əyninə geyindiyi paltarları, onu əhatə edən əşyaları adları ilə deyə bilir. Uşağın üç yaşı tamam olmamış ana ona ilkin hesab ünsürləri öyrədə bilər. Uşaq rəqəmləri tanıyır, şəkillərdə onları göstərə bilir. Uşaq 4 yaşa keçid dövründə düz xətt, üfüqi xətt, qapalı xətt çəkə bilir. Ana uşağa əşyaları yerdən yığışdırmağı, bir yerə toplamağı, aparıb yerinə qoymağı öyrətməlidir. Bu işləri yerinə yetirən uşaq bundan sevinc hissi keçirir.

Oğlunun tərbiyəsi haqqında "Pestalotsinin gündəliyi"ndə uşaqları erkən yaşdan ətrafda baş verən hadisələri müşahidə etməyi öyrətməyi zəruri sayırdı. O, qeyd edirdi ki, ən böyük sevinc yavaş, uzun axtarışlardan doğur. Uşağa başladığı işi sona çatdırmağa kömək etmək, şərait yaratmaq lazımdır. Tərbiyə işində heç vaxt tələsmək olmaz. Təbiət uşaq üçün ən yaxşı müəllim olur. Təbiətin azad auditoriyasında uşaq özünü daha sərbəst, azad hiss edir.

Uşağı bacara bildiyi işi görməsinə imkan verilməlidir. Uşaqları erkən yaşlarından işə, zəhmətə alışdırmadan ondan dəyərli insan tərbiyə etmək qeyri-mümkündür. Uşaq sevincli əməyə doğru getməlidir. Bağda, həyətdə işləmək, bitkilər

toplamaq və s. ictimai həyata hazırlıqdır. Unutmaq olmaz ki, günahsızı cəzalandıran hər bir kəs məhəbbəti itirir.

Ana dilinin öyrədilməsindən danışarkən Pestalotsi deyir ki, Ana dilinin və hər hansı bir dilin təbiətə müvafiq öyrənilməsi hissi qavrayış vasitəsilə əldə edilən biliklərlə əlaqədardır.

Nitq orqanları inkişaf etməyincə uşaq danışa bilmir. Təbiət körpəni danışmağa öyrədə biləcək ayrı bir yol tanımır. Uşağa danışmağı öyrətmək üçün ana təbiət özünə icazə verməlidir ki, uşağın eşitməsi, görməsi, duyması və s. üçün malik olduğu bütün gözəl imkanlarla ona təsir etsin. Uşaq özünün gördüyünü, eşitdiyini, duyduğunu, iy və dad bildiyini dərk etdikcə onda həmin təəssüratı ifadə edə bilən sözlərə bələd olmağa və öz fikrini həmin sözlər vasitəsilə ifadə etməyə başlayacaq.

Pestalotsi oğlu haqqında yazdığı gündəlikdə məktəbəqədər yaşlı uşaqlarla aparılan təlim məşğələlərinə xüsusi əhəmiyyət verir. O, tərbiyəçilərə məsləhət görürdü ki, uşaqlar başladığı işi sona çatdırmayınca irəli getməyə tələsmə, sən bununla boşboğazlığın və fikri azdırmağa səbəb olan huşsuzluğun qarşısını ala bilərsən. Təlimdə yersiz tələskənlik ziyan gətirər. Irəli getməli, daim işləməlisən. Lakin həmişə arxaya da, keçdiyin yola da nəzər salmalısan. Şöhrətpərəstliyə uymaq lazım deyil, yalnız həqiqəti axtarmaq lazımdır.

Pestalotsi nəsihətçilikdən uzaq olmağı məsləhət görür. Nəsihət uşağı bezdirir, həmin sözlər hər gün təkrar olunduqca onlar hiddətlənir. Azadlığa üstünlük verir. Azadlığın boğulması uşağın qəlbində müqavimət doğurur. Azadlıq uşağın qəlbini sakitliklə, təmkinliklə doldurur. Lakin bu uşağı özbaşınalığa gətirib çıxarmamalıdır.

Pestalotsi yazır, “vətəndaşı erkən yaşlarından işə alışdırmadan ondan dəyərli insan tərbiyə etmək olmaz”. Lakin əmək cəlbedici, sevinc gətirən olmalıdır.

Kiçik uşaqların təlimində və tərbiyəsində nümunə xüsusi əhəmiyyət kəsb edir. Uşaqlar hələ saymaq vərdişinə yiyələnmədən say haqqında sözləri öyrənirlər - bir, üç, beş, on və s. Burada uşaq heç bir aydınlıq görmür, o, yalnız sadəcə olaraq sözləri eşitdiyi kimi yadında saxlayır. Biz ikini bilməyən uşağa üçü öyrətsək, nə qədər səfeh iş olardı. Qoy uşaq əvvəlcə ikini yaxşı öyrənsin, sonra üçü öyrət. O zaman uşaq saymağı nə qədər təbii öyrənir.

Bədən tərbiyəsindən danışarkən tələb edir ki, bu oyun və məşğələ açıq havada

keçirilməlidir. Çünki uşaq üçün bədənin möhkəmlətməyin böyük əhəmiyyəti var. Eyni zamanda, tərbiyəçinin özü də bədəncə sağlam olmalıdır.

**Robert Ouen** (1771-1858) bütün ideyalarını "İnsan xarakterinin yaranması haqqında" və "Yeni mənəviyyat aləmi kitabı" əsərində vermişdir. O, "İnsan xarakterinin yaranması haqqında" adlı əsərində insanı təbiətə müvafiq tərbiyə etməyi məsləhət görür. Ouen öz ideyalarını qanun halında verir və onun motivlərini göstərirdi.

<u>Birinci qanun:</u> hamı anadan olandan kamillik dövrünə qədər tərbiyə və təhsil almalıdır. Bu xarakteri formalaşdırmaq üçün isə dünyada bədbəxtliklərin səbəblərini araşdırmaq, xalqlar, millət, irq fərqini aradan götürmək, ümumi işi düzgün idarə etmək, yaxşı qaydalar qoymaq lazımdır. Bütün əyriliyi, yaltaqlığı, tənbəlliyi aradan qaldırmaq lazımdır. Insan xarakterinin formalaşmasında fiziki, əqli, əxlaqi və praktik fəaliyyət mühüm rol oynayır. Bunun üçün cəza və mükafatdan uzaqlaşmaq lazımdır.

<u>Ikinci qanun:</u> hamı tərbiyə işində, ev təlimində ümumi qaydaya tabe olmalıdır. Bu qanunun mahiyyəti odur ki, insanı anadan olduğu gündən düzgün tərbiyə etmək lazımdır. Bunun üçün tərbiyədə yalnız bərabərlik, intizam əsas şərtdir. Insanların ya hamısı xoşbəxt olmalıdır, ya da heç biri. Bu ən düzgün və ağıllı yoldur. Bu demokratiyanın başlanğıcıdır.

<u>Üçüncü qanun:</u> bütün uşaqlar doğulandan sonra onlar xüsusi bir qəsəbədə olmalı, valideynlərin onlarla müəyyən bir müddət asudə vaxt keçirməsi üçün şərait yaradılmalıdır.

<u>Dördüncü qanun:</u> bütün uşaqlar qəsəbədə bir yerdə tərbiyə və təhsil almalıdır. Bütün uşaqlar erkən yaşdan təbiət qanunları ilə tanış olmalı, ən zəruri biliklərə yiyələnməlidirlər.

Uşaq erkən yaşdan ictimai həyata atılmalıdır. Yalnız uzun zaman cəmiyyətin fəaliyyəti nəticəsində insan hər tərəfli inkişaf edə bilər. Bunun üçün uşaq ağıllı mühitlə əhatə olunmalıdır. Uşaqları ağıllı tərbiyə etmək üçün kişiləri və qadınları qabaqcadan nümunəvi müəssisələrdə təlimatlandırmaq lazımdır. Uşağı tərbiyə edən müəllim özü tərbiyəli olmalıdır.

Kapitalizmin eybəcərliklərini tənqid edən **Fransua Şarl Furye** (1772-1837) "Harmoniya" adlı əsərində özünün təsəvvür etdiyi ideal cəmiyyətin xüsusiyyətlərini

təsvir edir. O deyirdi ki, heç bir insan nöqsanlı doğulmur, insanlarda nöqsanları yaşadığı cəmiyyət yaradır. Ona görə də insanların ehtiyaclarını ödəyə bilən cəmiyyət yaratmaq lazımdır.

Furye həmin fikirlərini "Dörd hərəkət və ümumi qismət nəzəriyyəsi", "Ümumi birlik nəzəriyyəsi", "Yeni sənaye dünyası və ictimai sülh" adlı əsərlərində şərh etmişdir.

Furyenin planı çox geniş olub, uşağın anadan olduğu gündən gənclik yaşına qədər olan dövrdə təlim və tərbiyə məsələlərini əhatə edir. Uşaqlar 3-4 yaşlarında emalatxanalara gəlir, böyük yaşlı uşaqların nə kimi işlər görmələri ilə maraqlanırdılar.

Məktəbəqədər uşaqların əsas fəaliyyət növü oyun hesab edilsə də bu səciyyəli oyun olmalı idi.

Uşaqlar beş yaşından emalatxanada gücləri çatan işləri oynaya-oynaya icra edirdilər. Oyun prosesində uşaqlarda sensor və əqli inkişaf təşəkkül etməyə başlayırdı.

Estetik və fiziki tərbiyənin inkişaf etdiyi yer opera sayılırdı. Burada uşaqların eşitmə qabiliyyəti, səsi, hərəkətli ritmə uyğunlaşdırılması öyrədilir.

Furye məktəbi deyil, istehsalatı əsas tutur, böyük yaşlı uşaqların istehsalatda işləyib oxumalarını əsas sayırdı. Furye deyirdi ki, insanları bəlalardan xilas edəcək bir qüvvə varsa, o da "harmoniya" cəmiyyətidir. Bu cəmiyyətdə insanlar azad yaşayacaqlar.

Furye uşaqlarda həm daxili, yəni mənəvi, həm də xarici zənginliyin bir ahəngdarlıq yaradılmasını zəruri sayırdı. Təcrübə göstərir ki, bu uşaqların tərbiyəsini düzgün qurmaq 9-15 yaşlı gənclərin tərbiyəsindən asandır. Bu falanqada bütün uşaqlar 3 yaşına qədər pulsuz tərbiyə olunurlar. Furyeyə görə 4 yaşdan artıq uşaqlar özlərini maddi cəhətdən təmin edə bilərlər. Cavanlıq dövründə uşaqları iki kateqoriyaya bölür: süd əmənlər; süddən ayrılanlar. Bunların hər ikisi üç qrupa bölünür: sakit uşaqlar, dəcəl uşaqlar, qaraqabaq uşaqlar.

Tərbiyəçilər şən, gümrah olmalıdır ki, onlar uşaqları gümrah saxlasınlar. Kübar qadınlar öz uşaqlarına baxmaqdan o qədər də zövq almırlar. Onların uşaqları bu falanqada kasıb uşağı ilə birlikdə yaxşı yaşayırlar. Onlar arasında heç bir fərq

qoyulmur.

Uşaqların fiziki tərbiyəsinə diqqət yetirilməlidir. Bu, ona görə lazımdır ki, çox zaman körpəlik dövründə onlara yaxşı baxılmadığından onların çoxunun eşitmə, görmə və başqa qabiliyyətləri inkişaf etmir və bunu sonradan düzəltmək çətin olur. O, deyidi ki, əməyə söykənməyən, əməyə əsaslanmayan tərbiyə yalandır. Insanı fiziki və mənəvi cəhətdən zəngin edən əməkdir, ona görə də birinci növbədə insan əməyə borcludur.

Erkən körpəlik dövründə uşaqlar hər şeyə əl ilə toxunmaq istəyir, əlinə götürürlər, səs-küy salırlar. Onlar səs-küylü işi sevirlər. Meymun hərəkətləri edirlər. Miniatür şeylərlə maraqlanırlar. Tərbiyəçi onlarla ciddi olmalıdır. 3 yaşlı uşaqlar xırda alətləri götürüb onlardan istifadə edirlər. Onlar ehtirasla çalışırlar ki, ona hər hansı bir alət versinlər, o da iş görsün.

Uşaqlar bir falanqadan başqa bir yaş dövrünə keçdikcə onların istədikləri alətlər də dəyişdirilir. Alətlər, oyuncaqlar uşağın yaşına uyğun seçilir. Tərbiyəçi onların işinə nəzarət edir. uşaqların kollektiv oyunu kollektivin şənlənməsinə mane olmamalıdır. Bəzən böyüklər üçün mənasız görünən bir şeyi uşaq elə həvəslə edir və bundan zövq alır. Onu özü düzəltdiyi üçün fəxr edir. Onda böyük iftixar hissi yaranır. Bir də tərbiyəçi bu yaşda uşağı doğruçuluğa, səliqəliliyə alışdırmalıdır. 4 yaş yarımda tərbiyəçi artıq uşaqların temperamentliyini yüksək qiymətləndirir və uşaqları temperamentlərinə görə qruplaşdırmağı məsləhət görür.

3 yaşda olan uşaqları cinslərinə görə ayırmaq çətin olur. Onları yalnız geyindiyi paltara görə ayırmaq olar. Çünki onların hərəkəti, davranışı, bir-birinə münasibəti eyni olur. 3 yaşlı uşaqlar böyük dəcəllər adlanır.

**Fridrix Frebel** (1782-1852) XIX əsrdə yaşamış görkəmli alman pedaqoqudur. F.Frebelin məktəbəqədər tərbiyə sahəsindəki fəaliyyəti Almaniyanın hüdudlarından kənara çıxmış, ona böyük şöhrət qazandırmışdır.

1836-1837-ci illərdə elementar məktəbin planını hazırladı. O, öz dostu Borna yazırdı ki, “3-7 yaşlı uşaqların tərbiyəsi məsələsi məni düşündürür. Bu müəssisədə uşağı oxutmaq lazım deyil, burada uşaqları tərbiyə və inkişaf etdirmək lazımdır”. 1837-ci ildə öz yerində qardaşı oğlu Ferdinand Frebeli qoyub Almaniyaya gəlir. Ilk uşaq müəssisəsi olan “Uşaqlarda və yeniyetmələrdə yaradıçı fəaliyyəti inkişaf

etdirən" müəssisə açır. "Uşaqlarımız üçün yaşayaq" devizi ilə "Bazar günü" vərəqəsini buraxır. 1840-cı ildə öz müəssisəsini "Uşaq bağçası" adlandırır. 1843-çü ildə yeni "Ana laylası" adlı əsərini yazır. 1850-çi ildə "Fridrix Frebelin həftəliyi" adlı əsərini buraxır. Bağçanı saxlamaq üçün cəmiyyət ona kömək edir.

Frebel ömrünün sonuna yaxın Mariental şəhərində uşaq bağçası açır. Lakin bu bağça tezliklə bağlanır. Çünki Prussiya maarif naziri uşaq bağçası açmasını qadağan etmişdi. Onun bağçası ateizmdə, dövlət siyasətinə zidd olmaqda təqsirləndirilir.

Frebel 1852-ci ildə Mariental şəhərində vəfat etmişdir. Onun ölümündən bir neçə il sonra nəinki Almaniyada, İngiltərədə, Fransada, Rusiyada da uşaq bağçaları açılmağa başladı, hətta Frebel cəmiyyəti yarandı. Onun açdığı kurslar Frebel kursları adlandırıldı. Freberin məzarı üstündə onun hədiyyələrinin rəsmi çəkildi və bu sözlər yazıldı: "Uşaqlarımız üçün yaşayaq".

F.Frebel məktəbəqədər tərbiyə sahəsində klassik pedaqoqdur. Onun pedaqoji nəzəriyyəsi öz dövründə mühüm əhəmiyyət kəsb etməsə də, ölümündən sonra geniş miqyasda yayılmışdır.

F.Frebel böyük bir həvəslə qızları, qadınları tərbiyəçi kimi oxumağa təkid edirdi. O, qadınlar üçün xüsusi kurs açmışdı. Burada tərbiyə alanları bağbanlar adlandırırdılar. Bağban bağa qulluq etdiyi kimi burada tərbiyə alan uşaqları da tərbiyəçilər sevməlidirlər. Doğrudur, Frebelin sağlığında bu kurslara, uşaq bağçalarına əhəmiyyət verilmirdi, lakin Frebel uşaq bağçaları üçün çox iş görmüşdür. O, tərbiyə məsələsində uşaqlar arasında heç bir sinfi fərq qoymamışdır. O, Almaniyanı gəzmiş, xalq mahnılarını, xalq oyunlarını toplamışdı.

F.Frebel uşaqların yaradıcı fəaliyyətini, onların xarici hiss orqanlarını, təhsil məsələlərini öz məktəbində Pestalotsinin prinsipləri əsasında işləmişdir. Onun fikrincə, əmək, incəsənət, dil, tarix, riyaziyyat, vətənşünaslıq, oyun tərbiyədə mühüm rol oynayır. O, uşaq oyunlarına xüsusi əhəmiyyət verir. Ona görə də "oyun böyüklərin əlində pedaqoji vasitə olmalıdır". Oyun üçün xüsusi meydançalar olmalıdır, oyun uşaq orqanizmini möhkəmlətmək üçün zəruridir. Xalq balalarının gələcək təhsil işinə bu müəssisələr xidmət etməlidir.

F.Frebelin uşaq bağçası açmaq ideyasına Pestalotsi ilə yanaşı Y.A.Komenskinin və filantropistlərin də böyük təsiri olmuşdur. O, uşaq

fəaliyyətində, oyunda, məşğələdə, sensor tərbiyədə onların metodlarından istifadə etmişdir. Xüsusən Jan Pol Rixterin "Levana"[1], Y.A.Komenskinin "Ana qucağı məktəbi" əsərini çox sevmişdir. O, uşaq bağçasını açmazdan əvvəl onun məqsədini müəyyənləşdirir. Onun fikrincə, uşağı hələ körpəlikdən vətəninin həqiqi vətəndaşı tərbiyə etmək üçün uşaq bağçası lazımdır. O, 1837-ci ildə uşaq bağçası açır.

Frebelə görə bağçada bitki bəslənən kimi uşaq da uşaq bağçasında bəslənməlidir. Onlarda yüksək emosionallıq, gümrahlıq yaradılmalı, onlar məktəb təliminə hazırlanmalıdır. Məktəbəqədər uşaqları özfəaliyyətə hazırlamaq üçün onların bədənlərini möhkəmlətmək, xarici hiss üzvlərini təmin etdirmək zəruridir. Uşaqlarda belə keyfiyyətləri tərbiyə etmək üçün tərbiyəçilər olmalıdır. Belə tərbiyəçiləri isə azırlamaq lazımdır. "Bağçada güllərə bağbanlar qulluq etdiyi kimi uşaq bağçasında da tərbiyəçilər-bağbanlar qulluq etməlidir". Frebel uşaq bağçasında uşaqların hərtərəfli inkişafını təmin etmək üçün müxtəlif məşğələlərin keçirilməsini zəruri hesab edirdi. O, uşaq bağçasında aşağıdakı məşğələləri nəzərdə tutur: fiziki tərbiyə (hərəkət, gəzinti) oyun, məşğələ (müxtəlif materiallarla), yapma, rəsm, ana dili (ana dilində müsahibə, nəql etmə, şer və s.) musiqi, nəğmə, elementar riyaziyyat, təbiətdə əmək, ibadət və s. Bu məşğələlər vasitəsilə uşaqlarda fiziki, əqli, əxlaqi, dini, estetik qabiliyyətlər inkişaf etdirilir. Frebel uşaq bağçasında məşğələlərin keçirilməsinə böyük əhəmiyyət verir. Bu məşğələlərin keçirilməsi üçün o, uşaqlara hədiyyə adlı vəsaitlər hazırlamışdır. Həmin vəsaitlər indi də uşaq bağçaları üçün əhəmiyyətini itirməmişdir. Həmin hədiyyələr aşağıdakılardan ibarətdir:

Birinci hədiyyə rəngli topdur: O, topu uşaqlara körpəlik çağından gənclik çağına kimi məsləhət görür. Çünki uşaq həmişə topla oynayır. Top hissələrə bölünmür. Bölünsə mənasını itirər. Top hər tərəfdən qapalıdır, bütövdür. Uşaq kiçik yaşlarından əşyanı bütöv halda görmək, onu əlinə götürmək istəyir. Biz küçədə, həyətdə iri topu ikiəlli əlinə götürüb, qucağına sıxan uşağın necə sevindiyini görürük. Bu zaman uşağın sevincinin həddi-hüdudu olmur. Frebel deyir ki, siz hələ beşikdə baş barmağını ovcunun içərisində sıxaraq uzanan körpə uşağı görürsünüz, biz onu çağırdıqda, o anasına tərəf əlini-ayağını oynada-oynada baxdıqda, yaxud ağladıqda

[1]Levana – Roma əsatirinə görə uşaqları qoruyan mələyin adıdır.

yumruğunu necə sıxdığını görürsünüz. Bu uşağın fiziki inkişafına kömək edir, çünki bu zaman onun əl, barmaq, qol əzələləri dartınır. 2-3 aylıqdan həmin topu uşağın beşiyi üzərindən asmaq lazımdır. Çünki top yelləndikcə uşaq ona sarı atılır, onu tutmaq istəyir. Belə olduqda uşağın əl-qol, ətraf, kürək əzələləri inkişaf edir, uşaqda gümrahlıq əmələ gəlir. Uşaq iməklədiyi dövrdə ana topu irəli atır, uşaq topun dalınca iməkləməyə başlayır, onu götürmək üçün hərəkət edir. Nəhayət, yeriməyə başlayan zaman topu atırlar, uşaq topun dalınca gedir, onu əlinə götürəndə sevinir. Xüsusən, rezin top yerə dəydikcə o atılıb-düşür, bu uşağın diqqətini cəlb edir. Uşaq topun hərəkətini, yuvarlaqlığını görür. Uşaq topla oynayarkən onun qavrayışının üç forması inkişaf edir: uşaq əşyanın özünü görür, məkan və zaman qavrayışları inkişaf edir. Nəhayət, oyun sözlə, mahnı ilə müşaiyət olunur: uşaq sözlə hərəkətin ahəngini dərk etməyə başlayır. Top hər dəfə yerə dəydikcə səs çıxarır.

Frebelin topa aid mahnıları belə adlanır: "Topla havada oyun", "Rəngli top", "Qaytanlı top" və s. Onun tədqiqatına görə top uşağa sevinc və şadlıq gətirir. Top başqa əşyaları əvəz edir. O, açıq yerdə şeh damlasına, suya, çiçəyə, böcəyə, kəpənəyə, düz meydançada açara oxşayır. Qaytanla bağlı olanda zınqrova, balaca itə, ata, quzuya, pişiyə, göyərçinə, at balasına oxşayır. Top vasitəsilə uşaqlar əşyalarla yanaşı, həm də müxtəlif rənglərlə tanış olur.

Ikinci hədiyyə - ağac altlığa bərkidilmiş kürə, kub, silindr forma etibarı ilə bir-birinə ziddir. O, bu hədiyyəni uşaqlara altı aydan sonra verməyi tələb edir. Yəni uşaq öz bədən quruluşu ilə maraqlanmağa başlayır, bu zaman həmin oyuncaq uşağa böyük ləzzət verir. Bu oyuncaqlar Frebelin ziddiyyətlər nəzəriyyəsi ilə bağlıdır. Uşaq əşyalar arasındakı ziddiyyəti əyani gördükdə onların mahiyyəti haqqında daha dürüst məlumat almağa başlayır.

Kürə ovucun içərisində, boşqabda hərəkət edir, ana kürəni müxtəlif cür hərəkət etdirərək deyir: "Bax, kürə oynayır, uçur, fırlanır və s." Kub isə heç fırlanmır. "Onu bir tilin üzərində fırladır, yenə də düz durur. Kürə və kubikdən müxtəlif fiqurlar düzəltmək olar. Odur ki, Frebel hələ kiçik yaşlardan uşaqları quraşdırma işinə alışdırmağı məsləhət görür. Kürəni kubikin üzərinə qoyarkən adam fiquru alınır. (Bu oyuncaqlarla həm qızlar, həm də oğlanlar oynayır.)

Üçüncü hədiyyə - səkkiz hissəyə bölünmüş kubikdir. Bu hədiyyənin

əhəmiyyətindən danışarkən Frebel qeyd edir ki, 3 yaşa qədər uşaqlar artıq əşya haqqında, onun xarici forması, quruluşu, bərkliyi, yumşaqlığı, rəngi, həcmi haqqında müəyyən biliklərə yiyələnmiş olurlar. Bu hədiyyənin vasitəsilə uşaqlar əşyanın daxili quruluşunu, onun hissələrə ayrılması, hissələrdən tamın əmələ gəlməsi kimi yeni məlumatlara yiyələnirlər. Adətən, uşağa ona verilən oyuncağın xaricini öyrəndikdən sonra onun daxili ilə maraqlanır, onu sökür, içərisinə baxmaq istəyir, belə olduqda oyuncağı uşaq sındırır, yenidən düzəldə bilmir. Bu baxımdan uşaqlara bu hədiyyənin verilməsi zəruridir. Çünki uşaq əvvəl top və kürə ilə qapalı əşyanı öyrənir, üçüncü hədiyyədə isə uşaqlar əşyanın davamlılığını, qoyanda dura bilən olduğunu, söküb-yığmağın asan olduğunu öyrənirlər. Üçüncü hədiyyənin mahiyyəti ondan ibarətdir ki, uşaq burada yeni bilik alır.

Dördüncü hədiyyə - səkkiz hissəyə bölünmüş kərpicdir. Bu hədiyyənin köməkliyi ilə uşaqlar uzun, enli, hündür sözlərinin mahiyyətini dərk edir, sahə, məkan, həcm təsəvvürünə yiyələnirlər. Düzbucaqlı, dördbucaqlı, bərabərlik sözlərinin mahiyyətini anlayırlar.

Beşinci hədiyyə - iyirmi yeddi hissəyə bölünmüş kubikdir. Iyirmi biri bütövdür, üçü-dördü kiçikdir, üçü kəsikdir. Bu kubiklərin köməkliyi ilə uşaqlar üç yüzə qədər fiqur düzəldə bilərlər.

Altıncı hədiyyə - iyirmi yeddi hissəyə bölünmüş kərpicdir. Bunlardan uşaq bağçasında tikinti materialı kimi istifadə olunur.

F.Frebel uşaqları yaş dövrlərinə bölmüş və bütün oyun və məşğələləri bu yaş bölgüsü əsasında işləmişdir. O, yaş dövrlərini aşağıdakı kimi bölmüşdür:

1. Körpəlik dövrü – 2-3; 2. Məktəbəqədər dövr – 3-7; 3. Erkən yaş – 7-10; 4.Yeniyetməlik dövrü – 11-15.

O, deyirdi ki, hər bir dövrdə uşağın inkişafı üçün zəruri olan materiallar olmalıdır. Uşaq aləmi iki yolla – emprik şəkildə, xarici hiss orqanları və hərəkətin köməyi ilə təcrübədə dərk edir. Təcrübə insanın daxili aləmini oyadır.

Fridrix Frebelin məktəbəqədər tərbiyə nəzəriyyəsi hələ öz dövründə o qədər də başa düşülməmişdi. Hətta, Almaniyada uşaq bağçalarının açılması qadağan edilmişdi. Frebelin yaradıcılığı ölümündən sonra geniş yayılmışdır və öyrənilmişdir. Frebelin yaradıcılığı və fəaliyyəti haqqında dostu Middendorf demişdi: "Frebel

yorulmadan, öz mənafeyini güdmədən işləmişdir. O, uşaqlıqda insanlığın təbiətini oxumuşdu. O, insanın kamilləşməsi üçün çalışmışdı”. F.Frebelin ideyaları İngiltərədə, Fransada, Amerikada, Rusiyada, Zaqafqaziyada Frebel cəmiyyətləri tərəfindən geniş yayılmışdır. Bu cəmiyyətlər uşaq bağçaları açılmasında, məktəbəqədər tərbiyə mütəxəssisləri hazırlamaqda xeyli iş görmüşdür. XIX əsrdə Frebel sistemi ilə işləyən bağçalar çox idi.

Fridrix Frebel bütün ömrünü məktəbəqədər uşaqların tərbiyəsi işinə sərf etmiş, uşaq bağçaları yaratmışdır. O, uşaq bağçasında aparılan işin məzmununu və metodikasını işləmişdir.

Məktəbəqədər yaşlı uşaqların inkişafı və tərbiyəsi haqqında klassik rus pedaqoqlarından Konstantin Dmitriyeviç Uşinski, Y.N.Vodovozova, K.L.Şleger, Y.İ.Tixeyeva, A.S.Makarenko, N.K.Krupskaya, A.V.Suxomlinski və b., eyni zamanda italyan pedaqoqları Mariya Montasori, fransız Palina Kerqomar, polyak pedaqoqu Y.A.Korçaqın ideyaları bu baxımdan maraq doğurur.

**4. K.D.Uşinskinin** (1824-1870) pedaqoji sisteminin əsasını xəlqilik təşkil edir. O, xalq yaradıcılığına, xalqın yaratdığı nağıllara, atalar sözlərinə, tapmacalarına yüksək qiymət verir.

Uşinski məktəb təlimi və tərbiyə haqqında görkəmli nəzəriyyəçidir. O, məktəbəqədər yaşlı uşaqların həyatında mühüm yer tutan əqli, əxlaqi, fiziki, əmək tərbiyəsi, uşaq oyunları, oyuncaqlar haqqında danışmış, onların əhəmiyyətini yüksək qiymətləndirmişdir. Buna görə də o deyirdi ki, uşaqlara müstəqillik vermək lazımdır ki, onlar müstəqil olaraq öz güclərinə müvafiq olaraq işlər görsünlər. Odur ki, o, həm tərbiyəçilərə, həm də valideynlərə müraciət edərək deyirdi: “Nə onlara heç bir mənası olmayan, nə də onların gücünə müvafiq olmayan iş verin. Bunların hər ikisi uşaqlara pis təsir edir”.

Uşinski də Komenskinin, Russonun, Pestalotsinin ardıcılı kimi təbiəti əsas tərbiyə mənbəyi kimi götürür. “Təbiət insan tərbiyəsində ən güclü amildir” - deyir. O, uşaqların əqlini inkişaf etdirir, onların duyğularına qüvvətli təsir edir. Onun fikrincə təbiət hadisələrini müşahidə etmək, onları araşdırmaq, təbiətin sirlərini öyrənməyə çalışmaq uşaqlarda bir sıra gözəl keyfiyyətlərin yaranmasına səbəb olur. Uşaq vətənini, təbiətini, onun gözəl mənzərəsini, heyvanlar aləmini öyrənir, sevir.

Uşaqlarda ilk insani duyğular heyvanlara, bitkilərə münasibətdə formalaşır. Uşaq psixologiyasını gözəl bilən Uşinski məhz buna görə kiçik yaşda uşaqlara təbiəti sevdirməyi lazım bilirdi. O, uşaqlar üçün yazdığı hekayələrində də təbiət hadisələrini təsvir edir, həmin hekayələrin uşaq qəlbinə etdiyi təsiri uzun illərdən bəri dərsliklərdə həmin hekayələrin yaşamasında görür. Onun “Başını dik tutan kimdir”, “Qaraquş və pişik”, “Dörd arzu”, “Yayda meşədə” və s. hekayələri uşaq qəlbinə güclü təsir edir. Hər bir uşaq həmin hekayədən nəticə çıxarır. Uşinski bu hekayələrində mahir bir rəssam kimi gözəl təbiət lövhələri yaradır.

O, uşaq oyununun elmi-psixoloji əsasını yaratmışdır. Oyun uşağın daxili aləminə mürəkkəb həyat hadisələrindən daha təsirli iz buraxır. Oyunda uşaqlar böyükləri görür, öz gücünü sınayır, müstəqil olur. Bir yerdə oynayan uşaqlarda ilk ictimai münasibətlərin qarşılıqlı əlaqəsi yaranır. Oyunda uşaq həyat hadisələrini olduğu kimi təqlid edir.

Uşinski böyük bir uzaqgörənliklə deyirdi ki, məktəbəqədər yaşlı uşaqların həyatında xalq oyunları mühüm yer tutur. Bu oyunları toplayıb uşaqların istifadəsinə vermək zəruridir. O yazır: “”Xalq oyunlarına diqqət yetirmək, onu zəngin mənbə kimi axtarmaq, təşkil etmək, ondan güclü tərbiyə vasitəsi kimi istifadə etmək gələcək pedaqoqların mühüm vəzifələrindən biri olmalıdır.

Uşaqların dünyagörüşünün, əxlaqi keyfiyyətlərinin yaranmasında, həyat vərdişi qazanmaqda, uşaq fantaziyasına zəngin material verən bir vasitə kimi oyuncaqların əhəmiyyətini göstərir.

Uşaqlar öz oyuncaqlarına ürəkdən bağlı olurlar. Uşaq köhnə kuklasının gözəlliyini təsəvvüründə canlandırır, burnu, gözü, üzü çoxdan çevrilmiş kuklasını çox sevir, nəinki təzə kuklasını. Təzə kukla birdən-birə uşağın sevimlisinə çevrilə bilmir.

Uşinski oyuncağın uşaq hissinə etdiyi güclü təsiri belə təsvir edir. “Əməliyyat olunmalı olan bir uşağı xəstəxanaya gətirirlər. Uşaq özü ilə bərabər kuklasını da gətirir. O, ağlayır, əməliyyat olunmağa qoymur, həkim onu dilə tutur. Başa salır ki, əməliyyat olunmasan, kuklan öləcək. Bundan qorxan uşaq dərhal razılıq verir və bütün ağrılara dözür”.

Uşinski uşaq oyunu ilə uşaq əməyinin vəhdətini göstərir. Həyatın başlanğıcı olan əməyə uşaqları kiçik yaşdan alışdırmağı lazım bilir. Əmək həm də uşaqların

əxlaq saflığı üçün lazımdır.

Uşinski uşaqlarım əqli tərbiyəsində mühüm yer tutan nağılların, atalar sözlərinin əhəmiyyətini göstərmişdir. O yazır: "3 yaşında nağıla qulaq asan uşaq ondan böyük həzz alır. Iş bununla bitmir. Iş ondadır ki, bu nağıl vasitəsilə uşaq xalqına bağlanır. Nağıllar öz məzmunu, parlaqlığı ilə uşaq yaddaşında dərin iz salır. Ona görə də uşaq üçün yazan yazıçılar öz mövzularını xalq nağıllarından alsınlar. Buradan aydın olur ki, Uşinskinin məktəbəqədər tərbiyə nəzəriyyəsinin əsasını xəlqilik təşkil edir. O, ana dili məsələsinə xüsusi əhəmiyyət verir. 7 yaşa qədər olan uşaqların həyatında ana dili qüdrətli vasitədir. Odur ki, bu yaşda uşaq yalnız ana dilini öyrənməlidir. Ana dilində dərin fəlsəfi, ağıl, təbii poetik hisslər, həqiqi zövq, zəngin fikir gizlənmişdir".

Uşinski Avropanı səyahət edərkən Almaniyada və İsveçrədə yeni fəaliyyətə başlayan uşaq bağçalarının işi ilə də tanış olur. O yazır: "Uşaq bağçaları xalq üçün çox lazımi bir müəssisədir. Bu pedaqoji xəzinəyə ən qiymətli hədiyyədir. Frebelin oyunlarında, məşğələlərində lazımi şeylər çoxdur. Lakin burada çatışmazlıqlar var". Buradakı uşaq bağçaları onun xoşuna gəlməmiş, bunu heyvan təliminə bənzətmiş, lakin bu ideyada səmərəli toxum olduğunu görmüşdü. O yazır: "Uşaq bağçası ideyasında saf toxum var. Lakin bu toxum samanla birlikdədir. Onu samandan ayırmaq lazımdır".

Xəlqiliyə söykənən ana dilinə xüsusi əhəmiyyət verir. O, ana dilini bəyənməyənlərə qarşı çıxaraq deyirdi ki, belə bir tərbiyə uşağı öz xalqının təsirindən məhrum edir və onun bütün ruhi inkişafına zərbə vurur. Dildə bütün xalq və onun bütün vətəni canlanmış olur. Dil nəinki xalqın həyatını özündə ifadə edir, o, eyni zamanda həyatın özüdür. Ana dili məhv olarkən xalq artıq yox olur. Dil ən böyük xalq tərbiyəçisidir.

Ana dilinin ən qüdrətli vasitə olduğunu deyən Uşinski yazır ki, 5-6 yaşda uşaq öz ana dilində düzgün danışa bilir.

**Y.N.Vodovozova** (1844-1923) XIX əsrin 2-ci yarısında yaşayıb yaratmışdır. Uşinskinin tələbəsi və ardıcılı olmuşdur. O, pedaqoji elmdə həm uşaq yazıçısı, həm də məktəbəqədər yaşlı uşaqların tərbiyəsi haqqında gözəl əsərlər yazan bir pedaqoq olmuşdur.

Vodovozovanın pedaqoji baxışları “Bir yaşdan səkkiz yaşa qədər uşaqların əqli və əxlaqi tərbiyəsi” adlı əsərində verilmişdir. Vodovozova əsərinin bir fəslini irsiyyət məsələsinə həsr etmişdi.

Insan xarakterinin formalaşmasında xarici mühit, irsiyyət və tərbiyə mühüm rol oynayır. Irsiyyət belədir ki, insan orqanizmi özündə olan bəzi şeyləri özündən sonra gələn nəslə verir. Məsələn, Baxın nəsilində 200 ildə 29 məşhur musiqiçi yetişmişdi. Bunlar hamısı orqanist idilər. Burada mütləq genin təsiri özünü göstərir. Bir sıra alimlər irsiyyətin tərbiyədəki rolunu inkar edirlər. Lakin bunların hər ikisini vəhdətdə götürmək lazımdır. Irsiyyət tipin xarakterini yeni nəslə verir. Çox zaman vermir. Kar-lal ailədə doğulan uşaq ola bilsin ki, lal olmasın. Çox az hallarda əqli cəhətdən istedadlı adamın uşağı istedadlı olsun. Övlad fiziki keyfiyyətləri valideynlərdən irsən alır. Psixi cəhətdən anormal olan uşaqlar üçün tərbiyənin böyük rolu vardır.

Vodovozovanın əsərinin VIII fəsli vərdişlər adlanır. Tərbiyədə vərdişlərin əvəzi yoxdur. Bunun üçün uşağın əqlini də, beynini də, əllərini də təmrin etdirmək lazımdır. Vərdişlər tədricən insanın 2-ci təbiətinə çevrilir. Vərdişlərin tərbiyəsinə erkən yaşdan başlamaq lazımdır.

Vərdişləri uşaqlarda təmrinlər yolu ilə inkişaf etdirmək olar. Təmrinlərdə əqli inkişaf üçün dilləri öyrənmək zəruridir.

Vodovozova uşaqların hiss orqanlarını inkişaf etdirməkdə Frebel sisteminin misilsiz qiyməti olduğunu qeyd etmişdir.

Adətlərin uşağın nitqinin inkişafında böyük əhəmiyyəti var. Əvvəlcə uşaq müxtəlif səslər çıxarır. Sonra heca, sonra söz əmələ gəlir. Bunun miqdarı hər gün artır. Uşaq anadan olan kimi çıxardığı səs sait səs olur. A,u,ə.

Uşaqda əvvəlcə daxili inkişaf gedir. Uşaq fikirləşir. Sonra fikirləşdiyini sözdə ifadə edir, söz canlı əşya ilə bağlı meydana gəlir. Buna görə də dayələr, analar uşaqları canlı əşya ilə tanış etməlidir.

Vodovozova uşaqların əqli, əxlaqi və fiziki tərbiyəsinin düzgün getməsi üçün hər şeydən əvvəl uşağın əsəbini qorumağı məsləhət görür. Oğurluq, sərxoşluq, özünü öldürmə hadisələri əsəblə bağlı məsələlərdir. Əsəbləri yerində olan adamlar iradələrini toplaya bilirlər və özlərini idarə edə bilirlər. Vodovozova sanki bu gündən

danışır. O göstərir ki, cəmiyyətdə uşaqların əsəbi olması üçün hər cür ağır şərait mövcuddur. Uşaq əsəbinin müxtəlif səbəbi var. Birincisi uşaq qısqancdır. Məsələn, belə faktlar var ki, 3 yaşlı uşaq qısqanclıqdan 20 aylıq qardaşını öldürmüşdü. Bu, ananın 20 aylıq uşağını çox əzizləməsindən irəli gələn qısqanclıqdan olmuşdur. Belə qısqanclığın yeganə çıxış yolu uşaqlara eyni münasibət bəsləmək, ədalətli olmaq, hər şeyi bərabər bölməkdir.

Vodovozovaya görə məktəbəqədər dövrdə əqlin tərbiyəsi üçün onun həyat tərzini ağıllı təşkil etmək lazımdır. Uşaqların əqli tərbiyəsində 3 məsələyə diqqət yetirmək lazımdır: 1-ci oyun, 2-ci məşğələ, 3-cü daxili və xarici hiss üzvlərini tədricən inkişaf etdirmək. Burada yaxından uzağa, sadədən mürəkkəbə, konkretdən mücərrədə getmək lazımdır. Müşahidəçilikdə ardıcıllığı gözləmək lazımdır. Bu dövrdə yalan danışmaq da meydana gəlir. Uşaq kənd əməyini, meşəni, ətrafı müşahidə etməklə bilik əldə edir. İti, pişiyi, toyuğu tanıtdırmaq, təbiəti ilin müxtəlif fəsillərində müşahidə etdirmək lazımdır.

Əsərdə Vodovozova müşahidə üçün nümunələr vermişdir. Yayda uşaqlar nəyi müşahidə edir:

1. Uşağa banka verin, ora bir hörümçək atıb, ağzını bağlayın. Havasız yerdə həşəratın hərəkətini müşahidə etsinlər.
2. Uşağa müxtəlif əşya: mis pul, mismar, şüşə, daş verin. Qoy uşaq bunları başqa bir əşya ilə kəssin və hansının daha bərk olduğunu tapsın.
3. Göldən bir neçə çömçəquyruq tutun, onları bir qabda saxlayın, uşaq onun necə inkişaf etdiyini görsün.
4. Bankaya bir cırcırama atın, bir də ağcaqanad. Cırcıramanın ağcaqanadı necə tutduğunu müşahidə etsin.
5. Kəpənəyi qoy uşaqlar müşahidə etsin. Onun rənginin dəyişdiyini görsünlər.

Aristotel uşaq oyunun böyük əhəmiyyəti olduğunu göstərir.

Y.A.Komenski tələb edirdi ki, uşaq dərk etməyə başladığı vaxtdan ona oyun vermək lazımdır.

Con Lokk təmtəraqlı oyuncağın əleyhinə çıxır. O deyir ki, yalnız faydalı oyuncaq uşaqların fantaziyasını inkişaf etdirir, onları yaradıcılığa yönəldir.

Pestalotsi 6 yaşlı uşaqların sinifdə olmalarını təklif edir. Onlar birlikdə xorla oxuyur, səbət toxuyur və s. işlər görürlər.

Vodovozova daha sonra yazır ki, uşaq oyunlarına münasibət XVIII əsrdə həm Qərbdə, həm də Rusiyada öz yerini tapdı. Frebel cəmiyyətə oyunun əhəmiyyətini, faydasını başa saldı. Buna görə də o, uşaq bağçasının yaradıcısı adlanır.

**Y.İ.Tixeyeva** (1865-1941) düzgün olaraq qeyd edirdi ki, ana dili uşaqların ailə tərbiyəsində, uşaq bağçasında, məktəbdə hələ layiqli yer tutmur, ana dilinin inkişafı mədəniyyətinə hələ də az diqqət verilir. Bununla bərabər "dil tərbiyənin əsas mövzusudur"; uşaqların dilinin inkişafı, ana dilinə məhəbbət, sağlam ədəbi zövqün tərbiyə edilməsi – "ən başlıca və birinci dərəcəli mühüm işdir". Ailənin, uşaq bağçasının və məktəbin bu işdə əlbir olması tamamilə zəruridir. Uşaqlar ailə tərbiyəsində erkən yaşlardan etibarən düzgün nitq vərdişləri almalıdır. Uşaqların düzgün nitq inkişafında yaşlıların, xüsusilə anaların nümunəsi çox böyük rol oynayır. Valideynlər və ailə üzvləri uşaqların eşitmə orqanlarına qulluq etməli, eşitmə qabiliyyətinin inkişaf etdirilməsinə qayğı göstərməli, uşaqla düzgün danışmalıdırlar: "Heç bir dilucu ilə danışmaq, uşağın dili ilə danışmaq lazım deyil. Uşaqla adi, düzgün, lakin sadə dildə danışmaq lazımdır, başlıca olaraq, aramla, aydın və ucadan danışılmalıdır".

Ailədə qazanılmış nitq vərdişlərinə istinad edərək bunu cürbəcür üsul və fəndlərlə genişləndirən və dərinləşdirən uşaq bağçası nitqin inkişaf etdirilməsində ailənin etibarlı köməkçisi olmalıdır.

Tərbiyəçilər uşaqların nitqini inkişaf etdirmək üçün ana dilində şeriyyətin, incəsənətin müvafiq olaraq ən yaxşı nümunələrindən istifadə etməlidir. "Canlı söz, ifadəli nağıl, hekayə, hər an gözəl ifadə ilə, oxunan şer, xalq mahnılarımızın ahəngi uşaq bağçasında və həmçinin ailədə hökm sürməli, uşaq qəlbini gələcək daha dərin bədii qavrayışa hazırlamalıdır".

Tixeyeva uşaq bağçası tərbiyəçiləri üçün uşaqların nitqini inkişaf etdirmək məqsədilə oyunlardan, yapmadan, rəsm və başqa məşğələlərdən, xüsusən uşaqlarla müsahibə keçirilməsindən necə istifadə edilməsi haqqında qiymətli metodik göstərişlər vermişdir.

Uşaq bağçası şəraiti sevinclə bağlı olmalıdır. "Sevinc elə bir şəraitdir ki, bu

zaman uşağın fiziki və əxlaqi qüvvələri təravətli surətdə çiçəklənir, o, elə bir hissdir ki, qüvvəni, ruhən gümrahlığı, müvəffəqiyyətə can atmağı birə on artırır, məhəbbət və iltifata təhrik edir". Oyunlar eyni zamanda ruhi və mənəvi qüvvələrin inkişaf etdirilməsi vasitəsidir.

Uşaqlar təbii olaraq hərəkətlidir, fəaldır, onlar maraqları ilə qırılmaz surətdə bağlı olan cürbəcür fəaliyyətdə, işlərdə özlərini göstərməyi sevirlər. İşlərin və məşğələlərin keçirilməsi zamanı uşaqlar qiymətli adət və vərdişlər qazanır, əldə etdikləri biliklər onların praktik həyatı ilə bağlanır.

"Azad tərbiyə nəzəriyyəsi" tərəfdarlarının əksinə olaraq Tixeyeva məktəbəqədər yaşlı uşaqların inkişafında aparıcı rolu mütəşəkkil məşğələlərə verməklə uşaq bağçasında məşğələlərin proqram və planlarının yaradılması zərurəti və imkanı haqqındakı məsələləri müsbət cəhətdən həll etmişdir.

Tixeyeva məktəbəqədər yaşlı uşaqlarda nitq və təfəkkürün düzgün inkişaf etdirilməsi üçün təlimin rolunun xüsusilə yüksək qiymətləndirirdi. Tixeyeva məktəbəqədər yaşlı uşaqların tərbiyə işində təbiətin mühüm əhəmiyyətə malik olduğunu qeyd edirdi: "Uşaqları təbiətin qoynunda və təbiət vasitəsilə tərbiyə etmək, öyrətmək, böyütmək lazımdır".

Y.İ.Tixeyeva uşaq bağçalarında yaxşı intizamın həyata keçirilməsini necə təşkil etmək haqqında qiymətli göstərişlər vermişdir. Uşaq bağçada kollektivin bir üzvüdür və o, kollektivin mənafeyinə və iradəsinə hörmət etməyi bilməli, öz impulslarını və arzularını boğmağı bacarmalıdır. Uşaqlarla bu istiqamətdə gərgin, uzunmüddətli və sistematik tərbiyə işləri aparılmalıdır. Uşaqların intizam tərbiyəsində əsas vasitələrindən biri gücləri çatan əməkdir. Məcburi məşğələlər üzrə işlərin müddəti uşağın yaşından asılı olaraq 5 dəqiqədən 20 dəqiqəyə qədər ola bilər. Uşaqlar uşaq bağçasında rəsm, aplikasiya (yapma) işləri görməli, nəğmə oxumalı, musiqini və uşaq bədii kitabçalarının qiraətini dinləməlidirlər və s. Hər şeydə qaydanı, təmizliyi gözləmək, uşaqları həmin qaydalara əməl etməyə alışdırmaq elə priyomlar sırasına daxildir ki, bunlarsız uşaqların sistematik tərbiyəsini düşünmək olmaz.

Y.İ.Tixeyevanın ən böyük xidməti ondan ibarətdir ki, o, məktəbəqədər tərbiyənin didaktik əsaslarını, uşaq bağçası ilə məktəbin tərbiyə işlərinin əlaqəliliyi

məsələlərini elmi cəhətdən işləyərək davam etdirmişdir.

**Palina Kerqomar** (1838-1925) Fransada xalq təhsilinin mütərəqqi xadimi, məktəbəqədər tərbiyə nəzəriyyəçisidir. O, 1879-1917-ci illər arasında ana qucağı məktəbləri üzrə müfəttiş işləmişdir. O, yalnız inspektor işləməklə kifayətlənməmiş, məktəbəqədər tərbiyə müəssisələrində işləmək üçün tərbiyəçilər hazırlanmasına xüsusi əhəmiyyət vermiş, bu məqsədlə kurslar təşkil etmişdir. Həmin kurslar indi də onun adını daşıyır. Onun ən böyük əsəri "Fransada məktəbəqədər tərbiyə və uşaq bağçaları" adlı ikicildlik əsərdir. Palina Kerqomar pedaqoji fəaliyyətə inspektor işlədiyi dövrdən başlamışdır. Həmin dövr Fransada xalq maarifinin inkişafı məktəb islahatları dövrünə təsadüf edir. Həmin islahatlarda yalnız məktəblərin deyil, məktəbəqədər tərbiyə müəssisələrinin də təşkilinə xüsusi fikir verilirdi. 1881-ci il islahatına əsasən dünyada ilk dəfə uşaq evləri maarif sisteminə daxil edildi. Uşaq bağçaları və uşaq evləri dahi çex pedaqoqu Yan Amos Komenskinin şərəfinə "Ana qucağı məktəbi" adlandırıldı. 80-ci illərin islahatına əsasən gündüz işləyən uşaq müəssisələri açıldı, hər bir ailə istəsə uşağı oraya qoya bilərdi.

P.Kerqomar uşaqların əqli tərbiyəsinə yüksək qiymət verir və həmin məsələni materialist baxımından izah edirdi. Kerqomara görə uşaqların dünyagörüşünü inkişaf etdirmək üçün uşaqlar onları əhatə edən əşyaların adını, rəngini, faydasını bilməlidirlər.

Kerqomar fikrin, ideyanın mənbəyini bizi əhatə edən həyatda görür, ətraf aləmi dərk etməkdə hisslərə böyük əhəmiyyət verirdi. Çünki hiss üzvlərinin inkişafı varlığın bütün inkişafına kömək edir. Beləliklə, xarici aləmlə duyğular vasitəsilə ünsiyyətdə, təmasda olmaq nəticəsində nitq təşəkkül edir. P.Kerqomar deyirdi ki, "Ana qucağı məktəbi"ndə uşaqları ən çox nə maralandırır, onlar nə ilə, necə yaşayırlar? Onun fikrincə, uşaqlar bu dövrdə heyvanlar, bitkilər dünyası ilə maraqlanır, yaşayırlar. Məsələn, uşaqlar ən çox balalarına süd verən pişiklə, cücələrinə qayğı göstərən toyuqla maraqlanır. Onlar heyvanların neçə ayağı, dırnağı olduğunu heç yada salmır. Kerqomara görə uşağın inkişafı təbii prosesdir. Uşağın şəxsiyyəti yaşlı adamların rəhbərliyi altında formalaşır. Kerqomar yaradıcılığında XVIII əsrdə fransız materialistlərinin, XIV əsr utopist sosialistlərinin ideyalarının təsiri duyulur. O, uşaq bağçalarına ailə kimi baxır. O bildirirdi ki, eyni zamanda

burada daxili intizam möhkəm olmalıdır, lakin uşağı mənəvi cəhətdən sıxmamalıdır. Əqli inkişaf üçün o, uşaq evlərində oxu, yazı və sayı əsas götürürdü. Onun fikrincə uşağa oxumağı və yazmağı öyrətməzdən əvvəl ətraf mühiti müşahidə etməyə öyrətmək lazımdır.

Kerqomar uşaqların əxlaq tərbiyəsinə kiçik yaşdan başlamağı məsləhət görürdü. O, əxlaq tərbiyəsində uşaqlara sərbəstlik verilməsini tələb edirdi. Əxlaq tərbiyəsində nüfuzun böyük əhəmiyyəti vardır. Lakin nüfuzun quruluq, təkəbbürlülük, uşaq həyatından uzaq olmaq kimi başa düşmək olmaz. Tərbiyəçi hələ çox şeyi başa düşməyən uşağın üstünə qışqıraraq "olmaz" deməməlidir. Tərbiyəçi mülayimliklə "belə etmək yaxşı deyil, belə etmək lazımdır" - deməlidir. Kerqomar deyirdi ki, uşaqların əxlaq tərbiyəsində inam, yoldaşa mehriban, qayğıkeş olmaq əsas şərtdir. Əgər bir uşaq öz pirojnasını yoldaşına bütöv verirsə, bu eqoizmin inkişafı deməkdir. Əgər onu tən yarısını yoldaşına verirsə, bu mehribanlıq, cəmiyyət əlamətidir. Başqalarına qayğı göstərmək gözəl keyfiyyətdir. Bu məqsədlə Kerqomar mənalı bir misalı təhlil edir. Ata uşaqlarını sirkə aparmağı söz verir. Onlar hazırlaşıb evdən çıxanda qonşu deyir ki, o biri qonşuda böyük bədbəxtlik üz verib. Bu xəbər onlara pis təsir edir və sirkə getməyi təxirə salırlar. Ertəsi gün ata uşaqları ilə balıq tutmağa gedir. Onlar bir neçə balıq tutub evə gətirirlər. Ana uşaqlara deyir: "Gəlin balıqları bişirməyək, onları satıb pulunu həmin ailəyə verək". Uşaqlar heç bir söz demirlər. Valideynlərin hərəkətindən sevinirlər. Axı elə onlar da bunu istəyirdilər. Onun fikrincə uşaqların ləyaqətli bir vətəndaş kimi tərbiyə olunmasında <u>əməyin</u> böyük rolu vardır. Uşaqlara kiçik yaşdan əməyə məhəbbət tərbiyə etmək lazımdır. Əməyə məhəbbət tərbiyəsinə ehtiyac həyatın tələbidir. Əmək ilk növbədə uşağın hərəkətində özünü göstərir. Uşağın fiziki inkişafında, sağlamlığının təmin edilməsində <u>oyun</u> mühüm əhəmiyyət kəsb edir. Oyun uşaqları kollektivdə birləşdirir. Oyun zamanı uşaqda təşəbbüskarlıq, çeviklik, diqqətli olmaq tələb olunur. Oyunda hər bir tərbiyəçi uşaqların əqli, mənəvi tərbiyəsinə kömək eədn ünsürləri tapa bilər.

Ailədə və "Ana qucağı məktəbi"ndə ən zəruri dərs əşya dərsləridir. Uşaqlar hələ beşikdə ikən əşya dərsləri keçirlər. Məhz bunun nəticəsində uşaq bu və ya digər əşyaya toxunmağa, baxmağa, iyləməyə cəhd edir.

Kerqomara görə uşaqlara həqiqi məhəbbət sözün tam mənasında yalnız "hiss"

olmayıb, elmdir. Uşağı “sevmək” üçün onu sevməyi “bacarmaq” lazımdır. Uşağa məhəbbət tələblərini, ehtiyaclarını, qabiliyyətlərini inkişaf etdirə bilən şərait yaratmağı tələb edir. Uşağı sevmək – onu qorumaq, ona hörmət etmək deməkdir. Çünki o, zəifdir, günahsızdır. Uşağı sevmək, xeyirxah olmaq, ona layiq olmaq deməkdir.

**5. A.S.Makarenko** (1888-1939) tərbiyə işi haqqında belə deyir: “Tərbiyə çox asan işdir, tərbiyə xoşbəxt işdir. Öz üstünlüyü etibarilə müstəsna dərəcədə qiymətli, dərin duyulan, real mənəvi təminatı cəhətindən heç bir iş tərbiyə işi ilə müqayisə edilə bilməz. Tərbiyənin məqsədi olmalıdır.”

O, tərbiyənin prinsiplərinə aşağıdakıları daxil edir:

1. Hörmət və tələbkarlıq; 2. Səmimiyyət və açıqürəklilik; 3. Prinsipiallıq; 4. Qayğı və diqqət, uşağı bilmək; 5. Təmrin; 6. İnsanı möhkəmlətmək; 7. Əmək; 8. Kollektiv; 9. Ailə, ilk uşaqlıq, sevginin miqdarı və sərtliyin həddi; 10. Uşaq sevinci və oyun; 11. Cəza və mükafat.

Makarenko kollektiv tərbiyəyə üstünlük verir. Onun fikrincə, fərdi tərbiyənin məqsədi şəxsi qabiliyyətləri təkcə bilik sahəsində üzə çıxarmaq deyil, həm də onu inkişaf etdirməkdir.

Makarenkonun yaradıcılığında məktəbəqədər yaşlı uşaqların tərbiyəsinə mühüm yer verilir. Uşağın ailədə tərbiyəsinin düzgünlüyü ailə münasibətlərindən başlayır.

Makarenko çox haqlı olaraq deyirdi ki, düzgün tərbiyə bizim xoşbəxt qocalığımızdır, pis tərbiyə bizim gələcək dərdimizdir, bizim gələcək göz yaşlarımızdır. Valideynlər bunun məsuliyyətini, əhəmiyyətini dərk etməlidirlər. Valideynlər unutmamalıdırlar ki, korlanmış uşağı yenidən tərbiyə etmək çətindir.

Ailənin ən ümdə vəzifələrindən biri odur ki, ailə maddi çətinlik çəksə belə onun bir neçə uşağı olmalıdır. Çünki tək uşağı tərbiyə etmək bir neçə uşağı tərbiyə etməkdən çox çətindir. Natamam ailə həyatı da uşağın tərbiyəsinə mənfi təsir edir. Əgər ərlə arvad arasında narazılıq olsa belə valideyn onu uşaqdan gizlində etməlidir.

Uşaqların tərbiyəsində ailə mühüm şərtdir. Valideynlər bilməlidir ki, tərbiyənin məqsədi əsas şərtdir. Bəzi valideynlər uşaqların tərbiyəsinə fikir vermir. Belə hesab edirlər ki, hər şey vaxtında olacaqdır. Tərbiyə işində qətiyyətlə və fəal

qüvvə ilə məqsədə doğru getmək tələb olunur.

Nəyə nail olmaq istədiyini bilmədən heç bir işi yaxşı görə bilməzsən. O, haqlı olaraq deyirdi ki, uşaqlarınıza tərbiyə verməyə başlamazdan əvvəl öz davranışınızı yoxlayın.

Makarenko yazır ki, bəzi valideynlər uşağı qorxutmaqla, bəzisi sözünü ana vasitəsilə çatdırmaqla, bəzisi öz vəzifəsi ilə lovğalanmaqla və s. yollarla uşaqlar üzərində nüfuzlarını göstərmək istəyirlər. Bunların heç biri düz deyil. Valideyn nüfuzunun əsası onların həyatı, işi, vətəndaşlıq siması, davranışdır.

Makarenko intizam tərbiyəsinə də yüksək qiymət vermişdir. O, intizamı tərbiyə işinin nəticəsi hesab edir. Rejim isə tərbiyənin vasitəsidir.

Makarenko qeyd edir ki, oyun uşağın həyatında böyük əhəmiyyətə malikdir, yaşlı adamın həyatında iş, qulluq nə kimi əhəmiyyətə malikdirsə, uşağın həyatında da oyun bir o qədər vacibdir. Uşaq oyunda necədirsə, böyüyəndə işdə də elə olur. Kiçik uşaqlar hər şeyə oyun kimi baxır. Uşağı zorla oyundan ayırmaq olmaz, onda uşaqda əməyə nifrət yaranar. Oyunu elə təşkil etmək lazımdır ki, o oyun olaraq qalsın, lakin həmin oyunda gələcək işinin və vətəndaşın keyfiyyətləri tərbiyə olunsun. Əslində oyunla iş arasında o qədər də böyük fərq yoxdur. Uşaq oyunda necədirsə, işdə də elə olacaq. Yaxşı oyun yaxşı işə, pis oyun isə pis işə bənzəyir. Oyun uşağı sevindirir. Bu yaradıcılıq sevincidir.

Uşaq oyununun bir neçə mərhələdən keçdiyini belə izah edir: Birinci mərhələni otaq oyunu dövrü adlandırır, oyuncaq dövrü. Bu mərhələ 5-6 yaşa kimi davam edir. Uşaq birinci mərhələdə tək oynamağı sevir.

Ikinci mərhələdə 11-12 yaşı əhatə edir. Məktəb, oyunun üçüncü mərhələsinə keçid mərhələsidir. Üçüncü mərhələdə oyun kollektiv xarakter alır. Birinci mərhələdə oyunun maddi mərkəzi oyuncaqdır.

Makarenko əmək tərbiyəsinə də xüsusi əhəmiyyət verir və məsləhət görür ki, erkən yaşdan uşaqları yaradıcı əməyə alışdırmaq lazımdır. Yaradıcı əməkdən insan o zaman zövq alır ki, onu sevir, əməyin faydalı və zəruri olduğunu başa düşür. Bəziləri belə hesab edir ki, əmək fiziki sağlamlıq üçün faydalıdır. Əslində əmək insanın mənəvi inkişafı üçün də əhəmiyyətlidir. Uşaqlar lap erkən yaşdan ailə əməyində iştirak etməlidir. Bu oyunla başlamalıdır.

Makarenko mədəni vərdişlərin tərbiyə edilməsindən danışarkən qeyd edir ki, mədəni vərdişə də lap erkən yaşdan başlamaq lazımdır. O, yaxşı görməyi, eşitməyi, birtəhər danışmağı bacaran andan başlamaq lazımdır. Yaxşı söylənilən nağılın özü artıq mədəni vərdişlər tərbiyəsinin başlanğıcıdır. Heyvanlar haqqında olan nağıllar uşaqlar üçün ən maraqlı nağıldır. Sonra, şəkilli kitablar çox faydalıdır. Makarenko tərbiyədə nümunəyə böyük yer verir. Birinci növbədə uşağı tərbiyə edən valideyn, tərbiyəçi öz hərəkəti, davranışı ilə uşaqlara nümunə olmalıdır.

33 il kənd məktəbində fasiləsiz işləyən **A.Suxomlinski** (1918-1970) yazır: "Mən öz həyatımı uşaqlara həsr etmişəm və xeyli fikirləşəndən sonra əsərimi "Ürəyimi uşaqlar verirəm" adlandırmışam". Bu əsərdə Suxomlinski məktəblə yanaşı məktəbəqədər tərbiyə ilə də bağlı çoxlu fikirlər söyləmişdir. Xüsusən məktəbə hazırlıq qrupunda işləyən tərbiyəçilər üçün gözəl bir proqram vermişdir. Onun əsərlərində uşaqların tərbiyə aldığı ailələrin, ailə üzvlərinin həyata, insanlara, cəmiyyətə münasibətlərinin körpə uşaq qəlbi ilə etdiyi təsirdən bəhs edir. Əgər tərbiyəçi, müəllim uşağın ailə şəraitini düzgün qiymətləndirməsə, o, öz işini düzgün qura bilməz. Tərbiyəçi öz işini düzgün istiqamətləndirmək üçün onların valideynlərini tanımalıdır. Uşaqların qəlbinə yol tapmaq üçün nöqsanlı ailələrin hərəkətini uşağın başına qaxınc edib, onlarda nifrət hissi oyatmayın, onlarla mehriban dolanın – deyirdi. Suxomlinski məktəbə hazırlıq dövründə uşaqları təbiətin qoynuna aparmağı, təbiəti, onun gözəlliklərini müşahidə etməyi, görməyi məsləhət görür. Məktəbəqədər və kiçik məktəb yaşı dövründə insanın xarakteri, təfəkkürü ilə nitqi formalaşır. Uşaqlıq illərində uzunmüddətli dərketmə həm ağılla, həm də ürəklə dərketmə prosesi başlanır. Ona görə də bu yaşda uşaqlarda gözəl, mənəvi keyfiyyətlər tərbiyə olunmalıdır. Suxomlinski erkən yaşdan uşaqları təbiətin qoynuna aparmağı, onun tükənməz gözəlliyi ilə uşaqları tanış etməyi tövsiyə edir. Təbiət uşaqlar üçün hər şeydir. Birinci növbədə təbiət uşaqların sağlamlıq mənbəyidir. O, uşaqların açıq havada olmasını, tez-tez ekskursiyalar təşkil etməyi məsləhət görür. Təbiət həm də bilik mənbəyidir. Uşaqlar təbiətin qoynunda olarkən tərbiyəçi uşaqların diqqətini təbiətdə baş verən hadisələrə yönəltməlidir. Onların fantaziyalarını inkişaf etdirməlidir. Uşaqların əqli inkişafına təbiət gözəl vasitədir. O yazır: "Təbiətə edilən hər bir səyahət təfəkkür dərsidir, əqli inkişaf etdirmək dərsidir". Suxomlinski

qətiyyətlə qeyd edir ki, bilik verməzdən əvvəl hər bir uşağa fikirləşməyi, qavramağı, müşahidə etməyi öyrtəmək lazımdır.

Təbiət hadisələri ilə uşaqların nağıl düzəltməsi onların dünyagörüşünü artırır. Belə nağıllarda uşaqlar sanki inşa yazır, nitqi inkişaf edir, lüğət ehtiyatı zənginləşir. Təbiət həm də uşaqların estetik tərbiəysində mühüm rol oynayır. Tərbiyəçi yaxşı olar ki, uşaqların hisslərinə, təxəyyüllərinə təsir etmək üçün sonsuz aləmə tədricən pəncərə açsın. Uşaqların təfəkkürünün inkişafı üçün nağıllar, xəyallar, oyun uşaq qəlbinə yol açan bir açardır. Nağıl, obrazlı desək, uşaq fikrinin və nitqinin odunu alovlandıran təmiz bir küləkdir. Uşaqlar nəinki nağılı dinləməyi sevirlər, hətta özləri də nağıl yaradır. Uşaqlar nə üçün nağılı sevirlər? Ona görə ki, nağıldakı obrazlarda parlaq emosional boyalar vardır. Nağılın sözü uşağın şüurunda yaşayır. Uşaq fantastik lövhə yaradan sözlər eşidəndə sanki onun ürəyi dayanır. Nağıllar uşaq qəlbinə xeyirxahlıq toxumunu səpən ən böyük vasitədir. Onlar nağıllarda da köməksizə əl tutan insanlara, gücsüzlərə kömək edən heyvanlara, quşlara qarşı dərin məhəbbət duyur. Vətənin gözəlliyi torpağını, suyunu sevdirir. Xeyirxah hisslər, emosional mədəniyyət insaniyyətin əsasıdır. Əgər uşaqlıqda xeyirxahlıq hissi tərbiyə olunmayıbsa, onu sonradan heç vaxt tərbiyə etmək olmaz. “Adam uşaqlıqda emosional məktəb – xeyirxah hisslər tərbiyəsi məktəbi keçir”.

Əmək tərbiyəsindən danışarkən qeyd edir ki, tərbiyənin ən mühüm vəzifələrindən biri odur ki, uşağı əmək, yaradıcılıq, quruculuq aləmi ilə də əhatə etsin.

Insanın insana münasibəti, onun ictimai həyatı hər şeydən əvvəl adamların səadəti naminə olan əməkdə üzə çıxır.

Müsiqi qüdrətli fikir mənbəyidir. Musiqi tərbiyəsi olmadan uşağın tam əqli inkişafı mümkün deyil – deyirdi.

Musiqi – təxəyyül – fantaziya – nağıl yaradıcılığı – bu elə cığırdır ki, həmin cığırla gedən uşaq öz mənəvi qüvvələrini inkişaf etdirir. Musiqi uşaq ürəyini tərbiyə edir, hisslərini insaniləşdirir. Sözlə olduğu kimi musiqidə də insaniyyət ifadə olunur.

**Ədəbiyyat**

1. Komenski Y.A. Seçilmiş pedaqoji əsərləri, Bakı-1961.
2. Makarenko A.S. Seçilmiş pedaqoji əsərləri, Bakı-1950.

3. Məktəbəqədər pedaqogika tarixi (M.Şabayevanın redaktəsi ilə), Bakı-1967.
4. Pestalotsi İ.H. Seçilmiş pedaqoji əsərləri, Bakı-1970.
5. Rüstəmova N.M. Məktəbəqədər pedaqogika tarixi, Bakı-2004.
6. Rüstəmov F.A. Pedaqogika tarixi, Bakı-2006.
7. Seyidov Ə.Y. Pedaqogika tarixi, Bakı-1968.
8. Suxomlinski V.A. Vətəndaşın doğulması, Bakı-1975.
9. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri, Bakı-1953.

# N ə t i c ə

“Məktəbəqədər yaşlı uşaqların inkişafı və tərbiyəsi haqqında müxtəlif pedaqoji nəzəriyyələr” mövzusunda yazdığımız işinin məzmunundan irəli gələn nəticəni aşağıdakı kimi müəyyənləşdirdik:

1. Məktəbəqədər yaşlı uşaqların inkişafı və tərbiyəsi haqqında müxtəlif pedaqoji nəzəriyyələrin tədqiqi problemlə bağlı müasir fikirlərin inkişafına stimul yaradır.

2. Mövzu ilə bağlı elmi-metodik səpkidə vəsaitlərin və məqalələrin kütləvi surətdə yazılması faydalıdır.

3. Şərq və Qərb mütəffəkkirlərinin uşaqların inkişafı və tərbiyəsi haqqında nəzəriyyələri bu sahədə elmin, yeni biliklərin imkişafına kömək edir.

4. Uşaqların elmi-nəzəri inkişafında Məhəmməd Peyğəmbərin (ə.s.) irsindən istifadə vacib şərtdir.

5. Mövzu ilə bağlı nəzəriyyələrin dərindən öyrənilməsi və tədqiqi müasir dövrdə məktəbəqədər müəssisələrdə və ailədə uşaqların tərbiyəsi-təlimi işinin inkişafına kömək edir.

6. Məktəbəqədər yaş dövründə tərbiyənin bütün komponentlərinin tətbiqi prosesində şəxsiyyətin formalaşmasına təsir edən amillərin (irsiyyət, tərbiyə, mühit) nəzərə alınması işin effektliyini artırır.

7. Məktəbəqədər yaşlı uşaqların həyatında oyunun əhəmiyyəti tarix boyu müsbət qiymətləndirilmişdir.

8. Bağçada və ailədə uşaqların əxlaqi keyfiyyətlərinin daha da inkişaf etməsi üçün məktəb, ailə və məktəbəqədər tərbiyə müəssisələrin sıx əlaqəsi faydalıdır.

# Istifadə olunmuş və tövsiyə edilən ədəbiyyat


1. Əliyev H.Ə. Təhsil millətin gələcəyidir, Bakı-2002.
2. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir, Bakı-2001.
3. Əliyev H.Ə. "Azərbaycan müəllimi" qəzeti, 7 may 1998.
4. Axundov M.F. Əsərləri, II cild, Bakı-1967.
5. Ağayev Ə.A. Fərhad Ağazadənin pedaqoji görüşləri, Bakı-1987.
6. Ağayev Ə.A., Talıbov Y.R., Eminov A, İsayev İ. Pedaqogika, Bakı-2006.
7. Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika, Bakı-2000.
8. Ağayev M.H. Humanitar fənlərin tədrisiprosesində məktəblilərin vətənpərvərlik tərbiyəsi, Bakı-2004.
9. Ağayev M.H. Kiçik yaşlı məktəblilərin tərbiyəsi, Bakı-2006.
10. Cami Ə. Yusif və Züleyxa, Bakı-1965.
11. Cəfərova L.T. Məktəbə hazırlıq qrupunda uşaqların ictimai həyat hadisələri ilə tanışlığı üzrə işin sistemi, Bakı-1998.
12. Əhmədov H.M. Üzeyir Hacıbəyov müəllim və onun hazırlığı haqqında, "Azərb.məktəbi" jurnalı, 1985, №10, səh.35-60.
13. Əhmədov H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi, Bakı-2001.
14. Əsgərova R.A. Məktəbəqədər yaşlı uşaqlarda rabitəli nitqin inkişaf etdirilməsi, Bakı-2006.
15. Ələddin B. Məhəmməd Peyğəmbər (s)in hekayəti, Bakı-1991.
16. Füzuli M. Seçilmiş əsərləri, Bakı-1958.
17. Füzuli M. Kəlamlar, Bakı-1990.
18. Hacıbəyov Ü.M. Seçilmiş əsərləri, Bakı-1985.
19. Həşimov Ə.Ş. Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri, Bakı-1970.
20. Həşimov Ə.Ş., Sadıqov F.B. Azərbaycan xalq pedaqogikası, Bakı-1993.
21. Həsənov A.M., Ağayev Ə.A. Pedaqogika, Bakı-2007.
22. Həsənov A.M. Məktəbəqədər pedaqogika, Bakı-2000.
23. Hüseynzadə R.L. Erkən orta əsrlər dövründə Azərbaycanda məktəb və pedaqoji fikir, Bakı-2005.
24. Hüseynzadə R.L. Qədim və erkən orta əsrlərdə Azərbaycanda tərbiyə, təhsil və pedaqoji fikir, Bakı-2007.

25. İsmayılova M., İsmayılova C. Uşaq bağçalarının böyük qrupunda keçirilən didaktik oyunlar, Bakı-1995.
26. Kitabi-Dədə Qorqud (H.Araslının tərtibatı ilə), Bakı-1962.
27. Komenski Y.A. Seçilmiş pedaqoji əsərləri, Bakı-1961.
28. Kərimov Y.Ş. "Qönçə", Bakı-2008.
29. Kərimov Y.Ş. Uşaq məktəbə gedir, Bakı-2002.
30. Kazımov N.M., Həşimov Ə.Ş., Pedaqogika, Bakı-1996.
31. Kazımov N.M. Məktəb pedaqogikası, Bakı-2002.
32. Qurani-Kərim. Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov, V.M.Məmmədəliyev, Bakı-2009.
33. Qədimbəyova Ə.B. Azərbaycanda məktəbəqədər tərbiyənin inkişafı tarixindən (1920-1941), namizədlik dissertasiyasının avtoreferatı, Bakı-1965.
34. Qədimbəyova Ə.B. Uşaq bağçasında əxlaq tərbiyəsi, Bakı-1969.
35. Qədimbəyova Ə.B. Uşaq bağçalarının böyük qrupunda uşaqların nitqinin inkişaf etdirilməsində folklor nümunələrindən istifadə üzrə işin təşkili (namizədlik dissertasiyası), Bakı-1995.
36. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika, Bakı-2003.
37. Mollayev İ.A. M.T.(Sidqi)Cəfərovun pedaqoji görüşləri (namizədlik dissertasiyası), Bakı-1970.
38. Məhəmməd Peyğəmbər. Kəlamlar, Bakı-1990.
39. Mir Cəlal, F.C.Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı, Bakı-1974.
40. Makarenko A.S. Seçilmiş pedaqoji əsərləri, Bakı-1950.
41. Mehribanzadə Z.M. Uşağın məktəbə psixoloji hazırlığı, Bakı-1988.
42. Məktəbəqədər pedaqogika tarixi (M.Şabayevanın redaktəsi ilə), Bakı-1967.
43. Mursaqulova R., Əliyeva Ş. Bağça yaşlı uşaqların təbiətlə tanış edilməsi metodikası, Bakı-1993.
44. Mustafayeva R.Ş. Təlim prosesində milli xüsusiyyətlərin nəzərə alınması, Bakı-1994.
45. Mustafayeva R.Ş. Pedaqogika, Bakı-2002.

46. Nizaminin hikmət və nəsihətləri, Bakı-1981.
47. Naxçıvanlı A.H. Heydər Əliyevin siyasi və mənəvi dəyərlərinin sinergetik konsepsiyası, Bakı-2005.
48. Orucova S.A. Üzeyir Hacıbəyovun pedaqoji görüşləri (namizədlik dissertasiyası), Bakı-1987.
49. Pestalotsi İ.H. Seçilmiş pedaqoji əsərləri, Bakı-1970.
50. Pedaqogika (M.Muradxanovun redaktəsi ilə). Bakı-1974.
51. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika, Bakı-2002.
52. Rüstəmova N.M. Məktəbəqədər pedaqogika tarixi, Bakı-2004.
53. Rüstəmov F.A. Pedaqogika tarixi, Bakı-2006.
54. Seyidov Ə.Y. Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən, Bakı-1987.
55. Seyidov Ə.Y. Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən, Bakı-1987.
56. Seyidov Ə.Y. Pedaqogika tarixi, Bakı-1968.
57. Sidqi M.T. Seçilmiş pedaqoji əsərləri, Bakı-1967.
58. Səlimxanova X.İ. Məktəbəqədər yaşlı uşaqlarda əxlaqi keyfiyyətlərin formalaşmasına şifahi xalq yaradıcılığı nümunələrinin təsiri (namizədlik dissertasiyası), Bakı-1989.
59. Sadıqova T.B. Xarici ölkələrin pedaqoq və psixoloqları uşaq oyunları problemi haqqında, APU-nin xəbərləri, Bakı-2002, №2
60. Sadıqov F.B. Pedaqogika, Bakı-2006.
61. Sadıqova T.B. Uşaqların məktəb təliminə hazırlanmaları prosesi, Bakı-2006.
62. Suxomlinski V.A. Vətəndaşın doğulması, Bakı-1975.
63. Suxomlinski V.A. Ürəyimi uşaqlara verirəm, Bakı-1979.
64. Smirnov S.A. Pedaqogika, pedaqoji nəzəriyyələr, sistemlər, texnologiyalar, M.2001, səh.172.
65. Şirzadova M.H. Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin inkişaf tarixindən, Bakı-2007.
66. Tusi X.N. Əxlaqi-Nasiri, Bakı-1980.
67. Talıbov Y.R. Şagirdlərin humanist tərbiyəsi, Bakı-1965.
68. Talıbov Y.R., Sadıqov F.B., Quliyev S.M. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi, Bakı-2000.

69. Təhsil haqqında qanun, Bakı-2009.
70. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri, Bakı-1953.
71. Uşaq bağçasında tərbiyə və təlim proqramına dair müntəxabat, Bakı-2000.
72. Vəkilov S.V. V cild, Bakı-1972.
73. Veysəlova Ç.V. Məktəbəqədər yaşlı uşaqlarda humanizm tərbiyəsinin yolları və vasitələri (nam. Dissertasiyası), Bakı-1996.
74. Vəliyeva Z.İ. Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsi, Bakı-1993.
75. Vəliyev O.P. Güc birlikdədir, Bakı-1983.
76. Verdiyeva S.A. "Azərbaycanın ilk maarif naziri", "Azərb. müəllimi" qəzeti, 18 oktyabr 2007-ci il.